**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜXTƏLİF İDEOLOJİ SİSTEMLƏRDƏKİ İNZİBATİ İDARƏÇİLİK MODELLƏRİ VƏ İNSAN MÜNASİBƏTLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş
**D İ S S E R T A S İ Y A**


İddiaçı: _______________ **Nərgiz Camal qızı Qəhrəmanova**

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
_______________ **Rafael Baba oğlu Hüseynov**


**Bakı - 2024**

## M Ü N D Ə R İ C A T

**GİRİŞ** ................................................................................................ **3**

**I FƏSİL. XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA AVTORİTAR REJİM VƏ İNZİBATİ AMİRLİK PROBLEMİNİN ƏKSİ** .................. **16**

1.1. İdeoloji sistemlərdəki inzibati idarəçilik modelləri və insan münasibətləri ........................................................................................ 16

1.2. Stalin avtoritar rejimi və repressiv idarəçiliyin Azərbaycan ədəbiyyatında təsviri ........................................................................ 31

1.3. Amiranə – inzibatçı düşüncə tərzi ilə yeni düşüncə tərzinin çarpışması........................................................................................ 64

**II FƏSİL. SOVET İSTEHSALAT VƏ TƏSƏRRÜFAT ƏDƏBİYYATINDA İDARƏETMƏ MƏSƏLƏLƏRİ** ............................. **79**

2.1. İstehsalat və təsərrüfat ədəbiyyatının meydana gəlməsinə aparan yolda inzibati və sosial sifariş problemi ................................................................ 79

2.2. İstehsalat və təsərrüfat ədəbiyyatında "mütərəqqilər" və "mühafizəkarlar" qütbləşməsi .................................................................. 89

2.3. Mənəvi aşınma problemi və yeni həyat quruculuğu yollarının bədii axtarışı ........................................................................................ 99

**III FƏSİL. İNZİBATİ İDARƏÇİLİK VƏ İNSAN MÜNASİBƏTLƏRİ PROBLEMİNİN İŞLƏNMƏ TENDENSİYASINDA YENİ MEYİLLƏR**.................................................................................................... **109**

3.1. Qüsurlu idarəçiliyin insan münasibətlərinə təsiri .................................. 109

3.2. XX əsrin doxsanıncı illərinin faciəvi hadisələri və keçid dövrünün sosial-iqtisadi çətinlikləri ədəbi müstəvidə .................................................. 121

3.3. Yeni, müstəqil Azərbaycanın inkişaf yolları və sivil idarəçilik modelləri ədəbiyyatda ........................................................................... 131

**NƏTİCƏ** ................................................................................................ **140**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** .................................... **143**

## GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Ədəbiyyat yalnız bədii-estetik səciyyəsi ilə deyil, həm də mənəvi-əxlaqi, fikri-idraki mahiyyət kəsb etmək, insanları yaşadığı ictimai quruluşla bağlı problemlər ətrafında düşündürmək, arzu edilən cəmiyyətin yaradılması istiqamətində ideya gücünə malik olmaq keyfiyyətləri ilə təsirli, əhəmiyyətlidir. Bu baxımdan, qələmin müqəddəs vəzifəsini birinci növbədə *"millətin xoşbəxtliyi yolunda xidmət etməsində"* [152, c.4, s.246], *"insanlarda yüksək bir qayə və ideal doğurmasında"* [4, s.162] görən neçə-neçə görkəmli sənətkarımızın ədəbi məfkurə və mübarizəsi təqdirəlayiqdir.

Ədəbiyyatın cəmiyyətlə bağlılığı, ona təsir keyfiyyəti qazanması, ilk növbədə, sosial-ictimai mühitin və o mühitin yaranmasında başlıca rol oynayan ideoloji sistem və dövlət idarəçiliyinin doğurduğu insan münasibətləri kompleksinin ədəbiyyata təsirinə qarşılıq olaraq həmin ideoloji sistemə və dövlət idarəçiliyinə münasibətində yaranıb formalaşır. Cəmiyyət insanın mövcud olma, insani münasibətlər kompleksinin formalaşma sferası olduğu kimi, ədəbiyyat da cəmiyyətdə baş verən hadisələrin qəhrəmanın şüurunda necə əks-səda verməsini, insan münasibətlərində necə təzahür etməsini özünəxas bir şəkildə – cəmiyyətdəki sosial-ictimai əhval-ruhiyyəni özündə əks etdirən obrazlar yaratmaq, həmin əhval-ruhiyyəni doğuran hadisə və prosessləri təsvir etmək, habelə xalqın gələcək haqqında arzularını və öz müəllif mövqeyini əks etdirməklə canlandırır. Ədəbiyyatda müəllif mövqeyi (sənətkarın bədii məqsədi) onun yaratdığı əsərdə cərəyan edən hadisələrin gedişindən doğan ideyasında üzə çıxır və bu ideya ictimai şüurun və vətəndaşlıq düşüncəsinin inkişaf etməsinə kömək edir.

Biz bu əlamət və qanunauyğunluğu, yəni ədəbiyyatın sosial-ictimai təfəkkür tərzinin formalaşmasında iştirakını tarixin ən müxtəlif dövrlərində yazıb-yaratmış milli sənətkarlarımızın yaradıcılıq fəaliyyətində, ədəbi-fəlsəfi görüşlərində də aydın şəkildə izləyə bilirik. Ədəbiyyatın mövcud siyasi rejimə, cəmiyyəti idarəetmə forma və modellərinə münasibəti, onları təkmilləşdirmə, yaxud yeniləşdirmə arzu-istəyi köklü və davamlı bir ədəbi meyilin, ənənənin formalaşmasına səbəb olmuşdur və bu

meyil, ənənə 70 illik sovet dövrü ədəbi yaradıcılığında da, ədəbiyyatdan Sovet dövləti siyasətini dəstəkləyən təkqütblü məfkurə tələb olunmasına baxmayaraq, davam etdirilmişdir. Təsadüfi deyildir ki, hələ müstəqilliyin bərpa edilməsinin ilk illərindən bir sıra ədəbiyyatşünas-alimlərimiz sovet dövrü ədəbi irsini yenidən tədqiq etməyin, "sovet dövrü ədəbiyyatı" ilə "sovet ədəbiyyatı" anlayışlarını bir-birindən fərqləndirməyin zəruriliyini bildirirdilər. Akademik Əziz Mirəhmədov "Ədəbiyyat qəzeti"nə (21 fevral 1992-ci il) verdiyi müsahibədə etiraf edirdi: *"İndi biz bütün bu zəngin mənəvi irsi zərrəbəzərrə yığmağa məcburuq. Rəhmin nə olduğunu bilməyən proletar ideologiyasının söz ustalarının müxtəlif nəsilləri arasında ucaltdığı sədləri vurub dağıtmaq üçün çox illər lazım gələcəkdir... Milli mədəniyyət sahəsində xidmətləri haqqında ağzımızı da açmadığımız şəxsiyyətlərin əsərləri tam surətdə nəşr edilməlidir..."*. [159] Bəxtiyar Vahabzadə "Şəhriyar" (25 sentyabr 1997-ci il) və "Xalq qəzeti"nə (10-16 aprel 1998-ci il) verdiyi müsahibələrində "sosializm realizmi" deyilən cərəyanın əsasında yaranıb sovet ideologiyasını təbliğ edən ədəbiyyatla, həmin dövrdə yaranıb, lakin həmin ideologiyanı təbliğ etməyən, əksinə, müxtəlif bədii üsullardan istifadə edtməklə, ezop dili ilə sovet ideologiyasına qarşı çıxan ədəbiyyatı eyniləşdirməməyin, o dövrdə yaranmış protest səciyyəli əsərləri yenidən tədqiq etməyin, bu əsərlərdəki rejimə, quruluşa qarşı etiraz detallarını aşkarlamağın vacibliyini vurğulayırdı: *"Rus sovet ədəbiyyatında sovet ideolojisini təbliğ edən Mayakovski, D.Bednı, Serafimoviç, A.Fadajevlərlə yanaşı, Mondelştam, L.Qumilyov, Svetayeva, A.Axmatova kimi sovet idologiyasına biganə olan və Zoşşenko, Pasternak, Soljenitsin kimi bu ideologiyaya qarşı çıxan yazıçılar da var idi. Böyük qırğız yazıçısı Ç.Aytmatov "Əsrə bərabər gün", "Cəllad kötüyü" kimi əsərlərində sovet təbliğatı nəticəsində tarixi yaddaşını itirmiş manqurtların obrazını yaratmaqla sovet rejiminə və ideolojisinə qarşı çıxmamışdımı? Və bu əsərlər "sovet ədəbiyyatı" adlanmırmı?"* [223, s.205-206] Ədib sözünün mabədi olaraq, bu sırada Azərbaycan "sovet ədəbiyyatı"nı da xarakterizə edir və haqlı olaraq sovet ideologiyasından yan keçən şair və yazıçılarımızı (H.Cavid, Ə.Cavad, Y.V.Çəmənzəminli və b.), həm sovet ideologiyasını təbliğ edən, həm də ondan yan keçən, hətta bəzi hallarda ona qarşı çıxan sənətkarlarımızı (S.Vurğun, R.Rza, S.Rüstəm, M.S.Ordubadi, M.Cəlal,

O.Sarıvəlli, M.Hüseyn, M.İbrahimov, İ.Əfəndiyev, İ.Şıxlı, İ.Hüseynov, M.Araz, Anar, Elçin, M.Süleymanlı, İ.Məlikzadə, S.Əhmədli, İ.İsmayılzadə, A.Məsud və b.) və onların bu gün də ədəbi-ictimai aktuallığını qoruyub saxlayan yaradıcılıq nümunələrini xatırladırdı. Eyni mövqedən çıxış edən tənqidçi-filosof Y.Qarayev isə yazırdı: *"Bizdə də sosialist ideologiyasından başqa bir "sosializm dövrünün sənəti və onun intibahı" anlayışı və təcrübəsi olmuşdur. "Koroğlu" və "Yeddi gözəl", "Kürd ovşarı" və "Şur", "Od gəlini" və "Vaqif", "Toy", "Açıq kitab" və "Saçlı", "Dəli Kür" və "Yanan ürək", "Karvan yolu", "Ağ liman" və "Kür qırağının meşələri", "Yamacda nişanə", "Köç" və "Quyu", "Büllur sarayda" və "Fəryad", "Labüdlük", "Şəhidlər və şahidlər", "Qətl günü", "Ölüm hökmü" və "Qarlı aşırım" və s. hamısı onun nümunələridir."* [127, c.3, s. 39-40]

Əlbəttə, mövcud rejimin ədəbi yaradıcılığa münasibətdə qadağa və məhdudiyyətlər qoymasını yalnız sovet sistemi ilə əlaqələndirmək düzgün olmaz. Ədəbi proses müxtəlif epoxalarda, istər Şərqdə, istərsə də Qərbdə müxtəlif sistemlər tərəfindən qoyulmuş kanon və qadağaların təsiri altında davam etmişdir. Biz bu sırada antik yunan teatrı və dramaturgiyasında tragik qəhrəmanların qəzavü-qədər poetikası çərçivəsində hərəkət etdirilməsi, yüzillər boyunca Şərq mənzum roman və dastanlarında əsas qəhrəmanların ancaq şahzadələr və əsilzadələr arasından seçilə bilməsi, Avropa romanlarının əsas obrazlarının hökmən zadəganlara, ali təbəqəyə mənsub ola bilməsi və s. xatırlatmaqla, əsas ideya istiqamətinin də həmin qəhrəmanların məsub olduğu təbəqələrin mənafeyini güdməsi faktlarını qeyd etməliyik. Müxtəlif ideoloji sistemlərdəki mövcud siyasi reyim və dövlət idarəçiliyinin doğurduğu insan münasibətləri kompleksinin ədəbiyyatda əksi, eləcə də bu istiqamətdə bədii fikrin fəallaşması sənətkarın dünyagörüşü, əqidəsi, istedadı, cəsarəti məsələləri ilə yanaşı, mövcud siyasi sistemin verdiyi imkanlarla əlaqəli olmuşdur. Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində istila yürüşlərinə məruz qalıb müxtəlif müstəmləkə rejimlərinin sərt qadağa və cəza üsulları ilə idarə edildiyindən neçə-neçə sənətkarımız (Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Hadi, Almas İldırım, Hüseyn Cavid, Mikayıl Müşviq, Əhməd Cavad, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Yusif Vəzir Çəmənzəminli, Seyid

Hüseyn, Cəfər Cabbarlı, Sabir Əhmədli  və onlarla başqaları) mövcud rejimin danışıqsız tabeçilik tələbi ilə üzləşmiş, yaxud həqiqəti yazmağın, mövcud rejim haqqında obyektiv fikir bildirməyin  qurbanına çevrilmişdir.

Lakin sovet dönəmində, xüsusən də İosif Stalinin despotik idarəçilik rejimi müddətində insan-cəmiyyət münasibətlərinin ədəbiyyata gətirilməsi məsələsində daha ciddi məhdudiyyətlər qoyulduğundan problem nəinki ədəbiyyatda kifayət qədər işlənməmiş, hətta  dövrün sosial-ictimai ruhunu canlı və inandırıcı boyalarla əks etdirən az-çox bədii nümunələr, epizodlar, sənətkarın "ezop dili" kimi xüsusiyyətlər ədəbiyyatşünaslıq elmi tərəfindən lazımınca araşdırılmamış, əsərin başlıca ideyası, yazıçının mövqeyi, bədii məqsədi kimi vacib məsələlər üstüörtülü qalmışdır. Bu boşluq, qüsur ədəbi tənqidin metodoloji acizliyindən deyil,  sənət əsərinin sırf siyasi-ideoloji mövqedən tədqiq olunması stereotipliyindən irəli gəlirdi.

Şübhəsiz ki, müstəqillik şəraitində ideoloji ehkamçılığın və siyasi rejim qadağalarının aradan qalxması sovet dövrü yaradıcılığı haqqında ədəbiyyatşünaslığımızda "daşlaşmış" baxış sisteminin əsaslı şəkildə  dəyişməsinə və problemin obyektiv surətdə araşdırılmasına imkan vermişir və  artıq bir sıra tədqiqatçılar (Y.Qarayev, B.Nəbiyev, İ.Həbibbəyli, H.Qasımov, T.Salamoğlu, S.Xəlilov, A.Rüstəmli, B.Əhmədəv, S.Şərifova, Y.Qasımbəyli və b.) bu istiqamətdə xeyli təşəbbüs göstərmiş, klassik və müasir ədəbiyyat nümunələrini yeni meyarlarla dəyərləndirmişlər. Lakin problemin spesifikası, ədəbiyyat tariximizin yenidən yazılmasındakı mühüm əhəmiyyəti, habelə çağdaş ədəbi düşüncənin müstəqil dövlət quruculuğu ilə əlaqədar sivil idarəetmə modellərinin hazırlanması prosesində fəal mövqe tutması onun daha köklü, sistemli, əhatəli surətdə öyrənilməsini tələb edir. Dissertasiya işinin mövzu aktuallığı, hər şeydən öncə, bu vacib zərurət və amillərlə izah edilməlidir.

Mövzunun bir çox aspektləri (insan və cəmiyyət, siyasi-ictimai quruluş və ideologiya, dövlət siyasəti və ədalət, insan azadlığı və ideal cəmiyyət  və s.) hələ qədim yunan (Fales, Demokrit, Heraklit, Pifaqor, Sokrat, Platon, Aristotel, Prokl, Emisti, Epikur və b.),  Çin (Lao-tszi, Konfutzsi, Mo-tszi, Qusun Yan və b. ) və Şərq (Zərdüşt, Əl-Fərabi, Nəzzam, İbn Rüşd, Əbu Reyhan Birunu, Əbülhəsən Bəhmənyar,

İbn Sina, Nəsrəddin Tusi, Nizami Gəncəvi, Əhvədi Marağayi, Qasımi Ənvar, Məhəmməd Füzuli və b.) mütəfəkkirlərinin siyasi-hüquqi və ədəbi-fəlsəfi görüşlərində müxtəlif səpgilərdə şərhini tapmışdır. İnsan-cəmiyyət problemlərinin təhlili orta əsrlər (Avqustin, Pyer Abeylar, Akvinalı Foma, Tomas Mor, Tommazo Kompanella və b.) və ondan sonrakı dövrlər (Francis Bekon, Maks Veber, Nikolay Danilevski, Osvald Şpenqler, Benedikt Spinoza, Qotfrid Leybnits, Con Lokk, İmmanuel Kant, Fridrix Hegel, Lyudviq Feyerbax, Karl Marks, Fridrix Engels, Volter, Jan Jak Russo, Deni Didro, Mixail Lomonosov, Aleksandr Radişşev, Aleksandr Gertsen, Nikolay Çernışevski, Vladimir Solovyov, Aleksandr Boqdanov, Nikolay Buxarin və b.) mütəfəkkirlərinin ədəbi, fəlsəfi, etik, estetik yaradıcılığında daha da canlanmış, bəşəriyyəti düşündürəcək yeni ideya, təlim və konsepsiyalar bəxş edilmişdir.

Müasir dövrümüzdə Azərbaycanda Xalq Cümhuriyyəti quruculuğu ideyası ətrafında yaranıb-formalaşmış elmi-nəzəri və ədəbi-ictimai baxışlar sisteminə və mövcud reallıqlara istinad edən Ulu Öndər Heydər Əliyev milli ədəbiyyatımızın azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsindəki və milli dövlət quruculuğu prosesindəki rolu, vəzifələri ilə bağlı tarixi çıxış və məruzələrində [63; 77; 87; 88] problemə münasibətini açıqlamış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni dünyəvi proseslər və milli mədəniyyət məsələlərinə dair çıxış və məruzələrindəki müvafiq fikir və tezislərlə həmin siyasi-nəzəri fikirləri inkişaf etdirmişdir. "*Bütövlükdə isə Heydər Əliyev ədəbiyyata xalqın milli tarixi varlığının, mənəviyyatının üzvi tərkib hissəsi kimi baxmış, ədəbiyyatı cəmiyyəti və insanı dəyişdirib inkişaf etdirən bilik və hikmət xəzinəsi kimi dəyərləndirmişdir*". [91, s.11]

Azərbaycan ədəbiyyatşünaslığının problemi araşdırma səviyyəsindən bəhs etdikdə, M.Ə.Rəsulzadənin hələ sovet hakimiyyətinin ilk illərində yazdığı "Çağdaş Azərbaycan ədəbiyyatı" [180] əsərini, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı İnstitutu əməkdaşlarının son illər araşdırmalarının bəhrəsi olan "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyini [163] xüsusi olaraq qeyd etmək lazım gəlir. Birincidə sovet siyasi rejimi və ədəbi proses problemi ilk dəfə olaraq obyektiv və əhatəli surətdə təhlil olunmuş, ikincidə

yeri gəldikcə sovet ideologiyası və milli ədəbiyyat probleminə toxunulmuş, yeni ədəbi-nəzəri fikirlər sərgilənmişdir. Habelə, bir sıra ədəbiyyatşünas-alimlərimizin (Bəkir Nəbiyev, Yaşar Qarayev, İsa Həbibbəyli, Nizami Cəfərov, Rafael Hüseynov, Şamil Salmanov, Akif Hüseynli**,** Asif Əfəndiyev, Yavuz Axundov, Asif Hacıyev, Vilayət Quliyev, Səlahəddin Xəlilov, Vaqif Yusifli, Tehran Əlişanoğlu, Tofiq Hüseynoğlu, Asif Rüstəmli, Təyyar Salamoğlu, Bədirxan Əhmədov, Salidə Şərifova, Yaşar Rzayev, Yaşar Qasımbəyli və b.), şair və yazıçılarımızın (Bəxtiyar Vahabzadə, Anar, Elçin və b.) müvafiq tədqiqat işləri, ədəbi-tənqidi məqalələri və kitablarında problemlə əlaqəli yeni araşdırmalar aparılmış, dəyərli fikir və mülahizələr bildirilmişdir. [17; 61; 70; 99; 114; 129; 133; 131; 168; 185; 189; 193; 211; 232] Bununla belə, dissertasiyanın mövzusundan da göründüyü kimi, tədqiqatda araşdırılan problem − ədəbiyyat və sosial-ictimai mühit və həmin mühitin formalaşmasında mühüm rol oynayan mövcud reyim və idarəetmə formalarının insan münasibətlərinə təsirinin ədəbiyyatda inikası − özünəməxsusluğuna və bu mövzunun müstəqil dövlət quruculuğu prosesində yeni və daha mühüm məna çaları əxz etməsinə görə ayrıca bir qol kimi sistemli, əhatəli surətdə işlənməsini tələb edir.

Tədqiqat işində yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz çoxsaylı mənbələrdən faydalanmış, yeri gəldikcə, elmi vəzifənin həllinə uyğun şəkildə, onlara istinad edilmişdir. Tədqiqat işi müvafiq əsərlərin təhlili zamanı ayrı-ayrı fikir və qənaətlərə münasibət, polemika meyillərindən də xali deyil.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini son yüz ildə yaradılmış və mövzunun xarakterinə daha çox uyğun gələn bədii əsərlər, predmetini isə bu əsərlərin timsalında müxtəlif ideoloji sistemlərdəki inzibati idarəçilik forma və modellərinin doğurduğu insan münasibətləri kompleksinin Azərbaycan ədəbiyyatına təsiri probleminin qoyuluşu, işlənmə dərəcəsi, sənətkarlarımızın həmin problemə müraciət etmələrinin səbəblərini və özünəxas yanaşmalarını müəyyən etmək, araşdırmaq təşkil edir. Məlumdur ki, Azərbaycan ədəbiyyatı mövcud ictimai quruluş, azad, demokratik cəmiyyət, milli müqəddarat və dövlətçilik problemləri ilə iyirminci yüzillikdə daha sıx bağlı olmuş və sosial məzmununa, bədii funksionallığına görə yeni və olduqca mühüm keyfiyyətlər qazanmışdır. Eyni zamanda: *"Ədəbi mühitin*

*inkişafını şərtləndirən amillərlə yanaşı, ədəbi proses üçün qeyri-məqbul hesab olunan basqılar, siyasi repressiyalar, senzura və müxtəlif "izm"lərin təşəkkülü də bu yüzilin payına düşür."* [70, s. 3] Odur ki, dissertasiyada əsasən həmin dövrün daha xarakterik yaradıcılıq nümunələri araşdırılmışdır. Bununla belə, dissertasiyada, yeri gəldikcə, milli ədəbiyyatımızın klassik və müstəqillik dövrü nümunələrinə də müraciət edilmiş, habelə dünyanın bir sıra mütəfəkkirlərinin və müasir tənqidçi-ədəbiyyatşünasların problemlə əlaqəli nəzəri-fəlsəfi fikir və düşüncələrindən də bəhs olunmuş, həmçinin onlara polemik münasibət bildirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müxtəlif ideoloji sistemlərdəki inzibati idarəçilik forma və modelləri və onların doğurduğu insan münasibətləri kompleksinin Azərbaycan ədəbiyyatına təsiri probleminin araşdırılması müxtəlif ədəbi növlərdə və janrlarda yaradılmış əsərlərin ideya və sənəntkarlıq xüsusiyyətlərini öyrənmək, bu mövzu vasitəsilə ədəbiyyatın başlıca missiyası, amalı, ictimai əhəmiyyəti problemini araşdırmaq, mövzunun işlənməsi ilə bağlı milli ədəbiyyatımızda yaranmış ənənələrin davam etdirilməsi dinamikası və həmin ənənələrdən novatorcasına istifadə etmək səyləri haqqında təsəvvür yaratmaq dissertasiya işinin əsas tədqiqat məqsədini təşkil edir. Bu məqsəd, eyni zamanda, tədqiqatın aşağıdakı vəzifələrini müəyyən etmişdir:

- müxtəlif ideoloji sistemlərdəki inzibati idarəçiliyin insan münasibətlərinə təsiri probleminin milli ədəbiyyatımızda işlənmə tendensiyası barədə təsəvvür yaratmaq;
- Azərbaycan ədəbiyyatında inzibati-amirlik sisteminin insan münasibətlərinə təsirinin əks olunmasını gerçək həyatı daha doğru-düzgün canlandırmaq cəhdi olduğunu əsaslandırmaq;
- Stalin despotizminin cəmiyyətdə yaratdığı danışıqsız tabeçilik, qorxu, şübhə, inamsızlıq mühitindən, insan taleyinə gətirdiyi ölüm-itim faciələrindən bəhs edən əsərləri təhlil etməklə milli ədəbiyyatımızın hər hansı bir şəraitdə belə xalq həyatı ilə sıx bağlılığına, onun taleyinə biganə qalmadığına dair qənaətləri bölüşmək;

– avtoritar rejimlərdəki sərt idarəçilik və onun insan münasibətlərinə mənfi təsiri məsələlərinin inikası nəticəsində ədəbiyyatın janr, üslub və sənətkarlıq meyillərini müəyyənləşdirmək;
– dünyada başlamış demokratik proseslərin və Stalin hakimiyyətinin sona çatması ilə cəmiyyətdə baş verən siyasi mülayimləşmənin ictimai şüura təsiri və bununla əlaqədar bədii düşüncədə insan azadlığı ideyasının güclənməsi xəttini izləmək;
– ötən əsrin 60-80-ci illərində köhnə amiranə düşüncə tərzi ilə yeni düşüncə tərzi çarpışmasının Azərbaycan ədəbiyyatında bədii təhlili meylinin güclənməsini araşdırmaq və bu meyli azad düşüncə hüdudlarının genişlənməsi göstəricisi kimi əsaslandırmaq;
– V.İ.Leninin sosializm quruculuğu planına uyğun olaraq 1920-ci illərdən əsası qoyulan istehsalat və təsərrüfat ədəbiyyatı yaradıcılığı tendensiyasının 1950-1980-ci illərdə cəmiyyətdə hökm sürməkdə davam edən kommunist ideoloji sisteminin özünəxas idarəçilik “islahatları” ilə daha da güclənməsinin inzibati və sosial sifariş səbəblərinə aydınlıq gətirmək;
– istehsalat və təsərrüfat ədəbiyyatında əməkçi insan obrazları yaradıcılığında “mütərəqqilər” və “mühafizəkarlar” qütbləşməsi ənənəviliyinin səbəbləri və problemlə bağlı yazıçı mövqeyi məsələsini araşdırmaq;
– istehsalat və təsərrüfat ədəbiyyatında mənəvi aşınma probleminin qabardılması və inzibati idarəçilik sistemi ilə əlaqəli şəkildə çözümü məsələsini öyrənmək, bu təmayülü yeni həyat quruculuğu yollarının bədii axtarışı kimi qiymətləndirmək;
– qüsurlu idarəçiliyin cəmiyyətin mənəvi mühitinə, insan əxlaq və davranışına dağıdıcı təsiri məsələlərinin müasir Azərbaycan ədəbiyyatında işlənmə tendensiyasını şərh və təfsir etmək;
– “Altmışıncılar”ın qüsurlu idarəçiliyin sosial-mənəvi mühitdə və insan talelərində yaratdığı fəsadlardan bəhs edən əsərlərini təhlilə cəlb etmək vasitəsilə qəhrəmanın daxili-mənəvi təhlili (lirik-psixoloji üslubun formalaşması), milli və fərdi taleyin birlikdə təqdimi və s. kimi

keyfiyyətlərin özünü daha qabarıq şəkildə göstərməsi haqqında əldə edilən qənaətləri bölüşmək, “altmışıncılar”ın ədəbiyyatımızın sosial-ictimai həyatla bağlılığının güclənməsi baxımından yeni ədəbi mərhələnin təşəkkülündəki rolunu təyin etmək;

– milli ədəbiyyatımızın 1990-cı illərdə Azərbaycanda baş verən faciəvi hadisələri və keçid dövrü sosial-iqtisadi çətinliklərini cəmiyyəti qüsurlu idarəetmə üsulları ilə əlaqələndirmək cəhdinin məqsəd və mahiyyətini şərh etmək;

– yeni, müstəqil dövlət quruculuğu prosesində Azərbaycanın inkişaf yolları və sivil idarəçilik modelləri haqqında ədəbi düşüncələr məsələsini araşdırmaq.

**Tədqiqat metodları.** Araşdırılan problemin yeni mərhələdə və yeni cəmiyyət quruculuğu şəraitində müasir dərki barədəki ictimai-siyasi və bədii-fəlsəfi fikirlərin şərhi tədqiqatın nəzəri təməlini təşkil edir. Problemin tədqiqi zamanı tarixi aspekt, ədəbiyyatın dövri vəzifələri nəzərə alınmış, bu aspektdə elmi-müqayisəli təhlil metodologiyasına üstünlük verilmişdir. Dissertasiyada əsərin gerçəkləşdiyi konkret mühit və həmin mühitdə baş verən siyasi-ictimai və sosial-iqtisadi hadisələrə bədii münasibət, gerçək həyatdan alınmış obrazlar və yazıçı idealı, ədəbiyyatımızın milli azadlıq, milli dövlətçilik, demokratiya uğrunda mübarizə problemləri ilə bağlılığı və bu istiqamətdə qazanılan ənənələr, müvafiq mətnlərin funksional cəhətləri, sosial-ictimai, mənəvi-əxlaqi, tərbiyəvi-psixoloji əhəmiyyəti haqqında yürütdüyümüz fikir və mülahizələr elmi-nəzəri və ədəbi-faktoloji cəhətdən əsaslandırılmışdır. Mövzu işlənərkən janr və forma axtarışları, dil, üslub xüsusiyyətləri, psixolagizm və s. kimi məsələlər də diqqətdə saxlanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müxtəlif ideoloji sistemlərdəki inzibati idarəçilik modelləri və onların doğurduğu insan münasibətləri kompleksinin Azərbaycan ədəbiyyatına təsiri mövzunusunu tədqiq etmək və tam şəkildə əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– Ədəbiyyatımız xalq həyatının ümumi mənzərəsini canlandırmaq, vətənin varlığını, bütövlüyünü qorumağa çalışan şəxsiyyətlərin obrazlarını yaratmaq, milli birlik, milli özünütəsdiq, milli dirçəliş ideyalarını təcəssüm etdirmək

və s. bu kimi vasitələrlə azad cəmiyyət, milli demokratik dövlət quruculuğu ilə bağlı ideyalarını gücləndirməkdə israrlı olmuşdur;

- Sovet ədəbiyyatında "istehsalat və təsərrüfat ədəbiyyatı" anlayışının meydana gəlməsi və formalaşması bolşevik hakimiyyətinin ilk onilliklərinə (1920-1930) təsadüf edir və proletariatın (fəhlə-kəndli sinfinin) yeni cəmiyyət quruculuğu uğrundakı mübarizəsi, kolxoz-sovxoz, fabrik-zavod, müəssisə həyatının ön plana çıxması bu dövrdə yazılan əsərlərin əsas mövzusunu təşkil edirdi;
- Proletar diktatura idarəçiliyindən (1920-1924) Stalin avtoritar idarəetmə rejiminə (1924-1953) keçid, insan hüquq və azadlıqlarının əlindən alınması və buna qarşılıq olaraq vətəndaşların etirazı 1930-cu illərdən başlayaraq bu rejimin əhalini təqib etməyə və repressiyalara başlamağa vadar etdi;
- Stalin-Bağırov repressiyaları milli ədəbiyyatımıza "qara" anlayışı altında qorxu, vahimə, ayrılıq, ölüm, eləcə də pis niyyətli hakimiyyətin simvollarını gətirmişdir. Bu simvollarda "qara gecə"nin, "qara maşın"ın, "qara geyimli adamları"nın xofu şər, böhtan, tiran, qəddarlıq qorxusu ilə eyniləşir, diktator rejiminin xislətini əks etdirirdi;
- Stalin idarəçiliyində baş vermiş cinayətlərin üstünün açılması, siyasi dustaqların azad edilməsi, repressiya qurbanlarına bəraət verilməsi, demokratik yönlü islahatlar və s. bu kimi ciddi dəyişikliklər ədəbiyyatda yeni ideya-axtarışlarının güclənməsinə, o cümlədən insan-cəmiyyət münasibətlərinin inikasında əsl canlanmaya səbəb oldu;
- Sovet totalitar sisteminin, despot idarəçiliyinin törətdiyi ağır cinayətlər, bu cinayətlərin qurbanı olan insanların faciəvi taleləri zaman-zaman ədəbiyyata gətirilərək müxtəlif forma və janrlarda yaradılan əsərlər vasitəsilə ədəbi yaddaşa köçürülmüşdür;
- 60-80-ci illər ədəbiyyatı insan və cəmiyyət problemlərinə və onun həllinə bədii baxış müxtəlifliyi ilə diqqəti cəlb edirdi və bu da yaranmış mürəkkəb vəziyyətin və ondan çıxış yollarının bədii təhlilinin dərinləşməsindən xəbər verirdi;

– XX əsrin sonlarına doğru baş verən dünyəvi proseslər, doxsanıncı illərin sosial-mənəvi durumu, baş vermiş faciəvi hadisələr və keçid dövrü sosial-iqtisadi münasibətlərin çətinlikləri, milli birlik və milli dövlətçilik problemi ədəbiyyatda canlanmaya gətirib çıxartmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliyi Azərbaycan xalqının və dövlətinin bugünü və gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən bir mövzunun sistemli və əhatəli surətdə tədqiqi ilə izah edilməlidir. Elmi qənaətlər müxtəlif ideoloji sistemlərdəki inzibati idarəçilik modelləri və onların doğurduğu insan münasibətləri kompleksinin Azərbaycan ədəbiyyatına təsiri haqqında bədii təsəvvür yaratmağa imkan verən ən xarakterik ("Qızılgül olmayaydı" (R.Rza), "Yeraltı çaylar dənizə axır" (M.Hüseyn), "Həyat", "Böyük dayaq" (M.İbrahimov), "Mehman" (S.Rəhimov), "Arakəsmələr", "Fəhlə qardaş" (B.Bayramov), "Yanar ürək", "Doğma və yad adamlar" (İ.Hüseynov), "Büllur sarayda" (İ.Əfəndiyev), "Quyu", "Kür qırağının meşələri" (İ.Məlikzadə), "Yamacda nişanə" (S.Əhmədov), "Sənsiz" (Ş.Qurbanov), "Qarlı aşırım" (F.Kərimzadə), "Dəli Kür" (İ.Şıxlı), "Qətl günü" (Y.Səmədoğlu), "Gülüstan", "Fəryad", "Etiraf" (B.Vahabzadə), "O gecənin səhəri", "Səhra yuxuları", "Şəhərin yay günləri", "Yaxşı padşahın nağılı" (Anar), "Ağ dəvə", "Ölüm hökmü" (Elçin), "Vicdan susanda" (V.Babanlı), "Təyyarə kölgəsi", "Vəfalım mənim" (Ə.Hacızadə), "Dəyirman", "Ceviz qurdu" (M.Süleymanlı) və s. kimi əsərlərin yeni meyarlarla təhlilinə əsaslanmışdır. Bu, mövzunun ədəbiyyatımızda işlənmə dərəcəsi, ənənəviliyi haqqında elmi təsəvvürün genişlənməsinə, konkret halda tədqiq edilən problemin, ümumilikdə isə ədəbi-tarixi prosesin düzgün qiymətləndirilib şərh edilməsinə, ədəbiyyatdan həyata ötürülən azad cəmiyyət, sosial ədalət, demokratiya və vətənpərvərlik ideyalarının milli azadlıq, milli dövlət quruculuğu barədəki müasir bədii-fəlsəfi düşüncədəki yerini, çəkisini müəyyənləşdirməyə və ədəbiyyatın cari vəzifələrini təfsir etməyə imkan vermişdir. Dissertasiyanın mühüm elmi yeniliklərindən biri də mövzunun müstəqillik illəri ədəbiyyatımızda işlənməsi zamanı ədəbi-təcrübi ənənələrdən novatorcasına istifadə etmək özəlliklərini öyrənməklə bağlıdır. Bu vəzifə həyata keçirilərkən müstəqillik dövrü ədəbiyyatımızın bir sıra maraqlı nümunələrinə (məsələn, Sabir Əhmədlinin

“Kef”, Afaq Məsudun “Azadlıq”, Anarın “Ağ qoç və qara qoç”, Mövlud Sülüymanlının “Erməni adındakı həriflər...”, Əlibala Hacızadənin “Möcüzə”, Aqil Abbasın “Dolu”, Əlabbasın “Qiyamçı” və s.) müraciət edilmişdir. Ümumilikdə, tədqiq edilən mövzuda yaradıcılığın dinamikası, tarixi inkişafı izlənilmiş, paralel müqayisələrlə ədəbiyyatın yeni meyilləri aşkarlanmışdır.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Müxtəlif ideoloji sistemlərdəki inzibati idarəçilik modelləri və onların doğurduğu insan münasibətləri kompleksinin ədəbiyyata təsiri problemi xalqın ictimai-siyasi, sosial-mənəvi həyatı və bədii-fəlsəfi düşüncəsi ilə sıx bağlı olduğundan, təbii ki, bundan sonra da ədəbiyyatşünaslıq elminin diqqət mərkəzində olacaqdır. Bu baxımdan, dissertasiyanın tədqiqat üsulları, mövzunu araşdırma modelləri və s. gələcək tədqiqatlar üçün nəzəri və praktik əhəmiyyət daşıyır. Ümumiyyətlə, bu problemin sistemli şəkildə tədqiqi ədəbiyyatımızın sovet dövrü təsərrüfatının yenidən sərf-nəzərdən keçirilib dəyərləndirilməsi ilə yanaşı, müstəqillik dövrü mərhələsinin də tarixinin yazılması üçün faydalıdır, həmin məqsədlə dissertasiyanın elmi materialından, mündəricəsindən, tədqiqat prosesində əldə edilmiş nəticələrdən istifadə oluna bilər. Habelə, mövzu ilə əlaqədar hazırlanmış monoqrafiyanı müasir ədəbiyyatımızın tədrisi işində köməkçi vəsait kimi əhəmiyyətli hesab edirik.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Təqdim olunan dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin perspektiv elmi tədqiqat planlarına uyğun olaraq onun “Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi” şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri müəllifin Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, eyni zamanda xarici ölkələrin müvafiq elmi nəşrlərində dərc etdirdiyi müxtəlif elmi məqalələrində, o cümlədən bir sıra Beynəlxalq və Respublika səviyyəli elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya işi Giriş (23 964 şərti işarə), hər biri üç paraqrafdan ibarət üç fəsil (birinci fəsil – 121 148 (1.1 – 31 871, 1.2 – 60 889, 1.3 – 28 307) şərti işarə; ikinci fəsil – 59 615 şərti işarə (2.1 – 21 376, 2.2. – 19 919, 2.3 – 18 254); üçüncü fəsil – 60 629 şərti işarə (3.1 – 23 742, 3.2 – 20 883, 3.3 – 15 916), Nəticə (4448 şərti işarə) və İstifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 269 804 şərti işarədir.

# I FƏSİL
# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA AVTORİTAR REJİM VƏ İNZİBATİ-AMİRLİK PROBLEMİNİN ƏKSİ

## 1.1. İdeoloji sistemlərdəki inzibati idarəçilik modelləri və münasibətləri.

Mövcud ideologiya (siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi və s. baxışlar sistemi), həmin sistemin doğurduğu dövlət idarəetmə forması, siyasi rejim (hakim sinfin öz diktaturasını həyata keçirmək üçün tətbiq etdiyi metod və üsulların məcmusu) kimi problemlər xalq həyatı ilə sıx bağlı olan, vətənpərvər duyğulu, fəlsəfi təfəkkürlü sənətkarları zaman-zaman düşündürmüşdür. Onlar cəmiyyətin idarə edilməsindəki qüsurları, mövcud sosial-ictimai mühitin insan münasibətlərinə mənfi təsir göstərən ziddiyyət və eybəcərliklərini tənqid atəşinə tutmuş, haqsızlığa qarşı mübarizə aparıb bu yolda fədakarlıq göstərənlərin müsbət obrazını yaratmış, hakim qüvvələri ədalətli idarəçiliyə səsləmiş, ideal cəmiyyət haqqındakı fikir və ideyalarını bölüşmüşlər. Bu baxımdan, həyat səviyyəsinin inkişaf etdirilməsi, ictimai quruluşun humanistləşdirilməsi barədəki mütərəqqi görüşlərin formalaşmasında, tarixin gedişində bir-birini əvəz edən ictimai-iqtisadi formasiyalar haqqında təlim və konsepsiyaların hazırlanmasında bədii-fəlsəfi düşüncənin rolu böyükdür və bu, fikir cərəyanlarının cəmiyyət həyatına təsirindən bəhs edərkən həmişə xüsusi olaraq vurğulanmışdır.

Biz ədəbiyyatın ictimai həyatla bağlılığını və cəmiyyətin inkişaf etdirilməsi istiqamətində ideya qaynağına çevrildiyini milli ədəbiyyatımızın da ən müxtəlif mərhələlərində, milli varlığımızın və dövlətçiliyimizin tarixi mənzərəsinin canlandırılması fonunda əksini tapdığını görürük. Məsələn, “Kitabi-Dədə Qorqud” dastanında (VI-VII əsrlər) Oğuz cəmiyyətindəki yaşayış normalarının demokratikliyi elementləri təqdir edilir, məmləkətin təhlükəsizliyinin təmin olunması yolu sosial-siyasi ittifaqın möhkəmləndirilməsində görülürr. *“Oğuzlarda varlı-yoxsul, ağa-nökər və ya xeyriyyəçi-dilənçi kimi insan mərtəbələri qabarıq şəkildə nəzərə çarpmır. Hamının bərabərliyinin hökm sürdüyü Oğuz elində insanın insan tərəfindən*

*əzilməsinə yol verilmir, cəmiyyət "hər kəsin öz yeri" prinsipi əsasında yaşayır".* [140, s.61] Əsərdə cərəyan edən hadisələrdən belə məlum olur ki, Oğuz dövləti kollegial şəkildə idarə olunur, Bayandur xan ildə iki dəfə məclis çağırıb Oğuz elinin mühüm ictimai-siyasi məsələlərini kollegial şəkildə həll edir. Oğuz igidləri, aralarındakı sinfi və silki fərqlərə baxmayaraq, ümumi mənafe uğrunda birgə mübarizə aparır, dövlət xalqın, xalq da oğuz dövlətçiliyinin təəssübünü çəkir.

Habelə, tənqidçi-filosof Yaşar Qarayevin qeyd etdiyi kimi, *"XI əsrdən Şərqdə ədəbiyyat "xoşbəxtlik və siyasət" biliyini xalqa öyrətməyə başlayır. Həmin əsrin məhsulu olan "Qudatqu - bilik" elə "xoşbəxtlik və siyasət" biliyi mənasını verir."* [128, c.4, s.281] XIII əsrdə Məhəmməd Nəsirəddin Tusi (1201-1274) dövlətin idarə edilməsinə dair fikirlərini məşhur "Əxlaqi-Nasiri" əsərində əks etdirir. O, daxili siyasət məsələsindən bəhs edərkən onun fəzilətli (humanist) və naqis (zorakı – antihumanist) növlərini müəyyən edir. Dövləti idarəetmədə xalqın rifah halını yaxşılaşdırıb kamala çatdırmağı başlıca vəzifə kimi qiymətləndirir və bu nöqteyi-nəzərdən Aristotelin irəli sürmüş olduğu "siyasətin məqsədi rifah və xoşbəxtlik olmalıdır" ideyasını müdafiə edir.

Nizami Gəncəvini bütün yaradıcılığı boyu feodal qayda-qanunlarının naqisliyi və humanist cəmiyyət problemləri düşündürür. Şairin bədii qənaətinə görə: *"Xalqı xoşbəxt etmək, ölkəni çiçəkləndirmək və möhkəmləndirmək üçün ədalətli olmaq başlıca şərtdir, ədalətsevərlik yurddaşlığın birinci vəzifəsidir. Xalqa, onun dövlət quruluşunda iştirakına arxalanmadan ədalətli olmaq çətindir."* [23, s.9] Nizami bu ideyasını "İsgəndərnamə" (1201) poemasında ən yüksək həddə çatdırır. Əsərdə rəvayət olunur ki, Makedoniyalı İsgəndər Çindən Şimala qayıdarkən elə bir şəhər-dövlətə rast gəlir ki, müdafiə məqsədilə qala divarı çəkilməmişdir, əhalinin ilxısı, sürüsü çobansız otlayır, hər yan bağ-bağat, gül-çiçəkdir, əkinlər, axar sular xeyir-bərəkətdən xəbər verir, dükanların nə qapısı, nə də qıfılı var, hamı şad-xürrəm yaşayır və s. Bütün bunlar Makedoniyalı fatehi heyrətə salır, onun bu qeyri-adi cəmiyyətlə bağlı yerli sakinlərə verdiyi suallara aldığı cavabları sosial-demokratizmin başlıca əlamətləri kimi müəyyənləşdirmək olar. [83, s. 792-797] Nizami bu rəvayəti ilə, əlbəttə ki, digər poemalarında olduğu kimi, hökmdarlara ibrətamiz nəsihət vermək,

onları qırmaq, talamaq, yağmalamaq əməllərindən əl çəkib Allah yoluna, insansevərliyə, ədalətli cəmiyyət qurmağa dəvət etmək niyyəti güdmüşdür və həqiqətən də İsgəndər görüb-eşitdiklərindən bərk təsirlənir, etiraf edir ki, bu şəhəri əvvəldən görmüş olsaydı, hərbi yürüşlər etməz, qırğınlar törətməz, haqq yolunu tutardı. Bununla belə, biz dahi şairi "İsgəndərnamə"də "cənnət səltənəti"ni həyatda arzulayan humanist bir utopist kimi də görürük. O, əslində mövcud olmayan xoşbəxt bir ölkəni təsvir və tərənnüm edir. Nizaminin "cənnət səltənəti" haqqındakı düşüncələrinin elmi sosializmlə heç bir əlaqəsi olmasa da, bir sosial-siyasi ideya kimi onun ilkin mənbələrindən biri sayıla bilər. Əlbəttə, ictimai fikir tarixində ideal ictimai quruluş haqqında təsəvvürlər Nizamidən əvvəl də (qədim yunan ədəbi-fəlsəfi düşüncəsindən − şair Hesiodun (e.ə. VIII-VII əsr) "qızıl əsr" haqqındakı təsəvvüründən başlandığı, Platonun (e.ə. IV-V əsrlər) "Dövlət", Avqustinin (354 – 430) "Allah şəhəri haqqında", italyan mütəfəkkiri İoahim Florlunun (XII əsr) "Əhdi-cədidə "şərh" əsərlərində davam etdirildiyi bildirilir) mövcud olmuşdur. Lakin heç kim həmin "xoşbəxt ölkə"ni Nizami qədər "konkretləşdirib" obrazlı şəkildə mükəmməl təsvir etməmişdir. Nizami "xoşbəxt ölkə" təsvirləri ilə insan xəyalını qanadlandıraraq feodal quruluşunun yeni, demokratik bir quruluşla əvəz edilə biləcəyi yolunu təsəvvürə gətirmişdir. Yeri gəlmişkən, Məmməd Səid Ordubadi də Nizami Gəncəviyə həsr etdiyi "Qılınc və qələm" (1946-1948) adlı əsərində utopik xüsusiyyətləri özündə əks etdirən təsvirə yer verir. Bu təsvirə görə, hökmdar Atabəy Məhəmməd (Cahan Pəhləvan) Gəncə yürüşü zamanı Qarabağ tərəfdə bərk yağışa düşdüyündən Canpolad deyilən bir kəndin qonağı olur və yazıçı təsvirində bu kənd də abad, sakinlərinin eyni hüquqlara və imkanlara malik olduğu bir məkan kimi təqdim olunur. Burada da hər şey xalqa məxsusdur, məhsul elliyindir, hamı bir anbardan yeyir, bir kisədən xərcləyir. Oğurluq-əyrilik halları baş vermədiyindən divan-cəza aparatına da ehtiyac duyulmur. Göründüyü kimi, "İsgəndərnamə"də olduğu kimi "Qılınc və qələm"də də ideal mənəvi-əxlaqi vətəndaş cəmiyyəti təsvir olunur. Lakin M.S.Ordubadi öz təsviri ilə Nizaminin "İsgəndərnamə"sindəki "cənnət səltənəti" barədəki xəyal və tərənnümünün heç də tamamilə fantaziya məhsulu

olmadığına, Azərbaycan reallıqlarından, tarixi şəxsiyyət olmuş Babək ideyalarından da bəhrələnməsinə işarə edir.

Habelə, XIII-XIV əsrlərdə yaşayan mütəfəkkir şair Əhvədi Marağayi (1274-1338) özünün "Cami-Cəm" və "Dəhnamə" əsərlərində dövrün ədalətsizliklərinə qarşı etiraz səsini ucaldır, zülmkar hakimləri tənqid atəşinə tutur. Feodal üsul-idarəsindəki eybəcərliklərin ifşası, məzlumların hüquq və mənafelərinin müdafiəsi, insanpərvərliyə və mədəni islahatlara çağırış onun humanist ideyalarının əsasını təşkil edir. O, nadanlıq üzərində qurulmuş müstəbid idarəetmə rejimlərinin məhvə məhkumluğuna əmindir, ona görə də "hökmdara məsləhətləri" ittihamedici xəbərdarlıq xarakteri daşıyır, hər şeyin hesabı sorulacaq vaxtın gəlib yetişəcəyini söyləyir; Əhvədiyə görə dövləti idarəetmənin təkmilləşdirilməsi yalnız elmin köməyi ilə mümkündür, bu məqsədlə idarəetmə işlərində zorakı üsul və vasitələrdən istifadə edən nadan dövlət məmurlarını cəmiyyətdən təcrid edib onların yerinə elmli, vicdanlı, xeyirxah, tədbirli insanları dəvət etmək lazımdır. Qaldırılan "bayrağın ədalət donlu" olmasını arzulayan mütəfəkkir şair idarəetmənin qayda-qanun çərçivəsində həyata keçirilməsini dövlətin varlığının başlıca amillərindən biri kimi dəyərləndirir.

XIV əsrin sonu və XV əsrin əvvəllərində yaşayıb-yaratmış görkəmli mütəfəkkir Qasımi Ənvar (1356-1434) insan və zaman haqqında düşüncələrini əsasən sufilik fəlsəfəsi baxımından şərh edir. Onun zəngin irsi və "Ənisül-arifin" poeması sufi-panteist poeziyasının parlaq nümunələrindəndir. Feodal-patriarxal cəmiyyətində hökm sürən özbaşınalıqlar, dövlət qanunlarının sərtliyi, amansız zülm və istibdad, qəddarcasına idarəetmə rejimi Ənvarı mövcud sistemə qarşı müxalifətçi mövqedə durmağa vadar etmişdi. O, vətəndaş narahatlığını büruzə verərək yazırdı: *"Nə vaxtadək dövrün zülm axarı mənim qəlbimi yaralayacaqdır?"* [239, s.213-214]

Məhəmməd Füzuli (1494-1556) beş yüz il bundan əvvəl qələmə aldığı "Şikayətnamə"sində insan taleyinə biganə dövlət idarəçiliyinə nifrət hisslərini gizlətmir, məşhur "Salam verdim, rüşvət deyildir deyə almadılar" ifadəsi ilə ədalətsiz, talançı bir rejimin cəmiyyəti mənəvi şikəstlik vəziyyətinə gətirib çıxartdığını vurğulayır. Füzulinin ictimai-siyasi məzmunlu lirikası mövcud quruluşa və onun idarəetmə sisteminə qarşı ittiham kimi səslənir. "Tökdükcə qanım oxun, ol

asitan içər, Bir yerdəyəm əsir ki, torpağı qan içər”, – deyən şairin başlıca tələbi qeyri-demokratik idarəçiliyə son qoymaq, qanun qarşısında hamının bərabərliyini təmin etməkdir. O, özünün “Bəngü–Badə” əsərində xalqın ağır həyatını yüngülləşdirən, onun hüquq və mənafelərini qoruyan qanunlar verilməsini tələb edir, “Rindü Zahid” əsərində “xarab dünyanın zülm və vəfasızlığı”ndan gileylənir, insanların bərabər doğulması nöqteyi-nəzərindən hüquqları da bərabər olmalıdır − ideyasını irəli sürür. Füzuliyə görə bu təqdirdə dövləti idarəetmə hüquq bərabərliyi prinsipinə əsaslanır, təbəqələşmə aradan qalxır, dövləti idarəetmə işlərinə cəmiyyətin əsil-nəcabətinə və imtiyazlarına görə deyil, istedad və bacarığına görə fərqlənən istənilən üzvləri cəlb olunurlar. [140, s.220] Şairin görüşləri “... birini sahibi-tac, o birini isə ona möhtac edən” cəmiyyətin qayda-qanunları ilə tam ziddiyyət təşkil edir. Onun öz ideallarına uyğun yaratdığı obrazlar (Qeys, Rind və b.) da cəmiyyətin haqsızlıqları ilə üzləşən, qeyri-demokratik qayda-qanunlara qarşı çıxan romantik qəhrəmanlardır.

Sadalamaları uzatmadan deyə bilərik ki, cəmiyyəti idarəetmə sisteminin və bu sistemin doğurduğu insan münasibətləri kompleksinin əsil mahiyyətinin bədii dərki və inikası XIX əsrdən etibarən daha intensiv xarakter almağa başlamışdır. Belə ki, çar Rusiyasının Qafqazı və Zaqafqaziyanı işğal etməsi, İranla bağladığı “Gülüstan” və “Türkmənçay” müqavilələri ilə Azərbaycan məmləkətinin parçalanması, müstəmləkə idarəçiliyi milli ədəbiyyatımızın ictimai həyatla əlaqəsinin möhkəmlənməsinə, bu zəmində milli kimlik, milli dil-mədəniyyət, milli dövlət və s. kimi ictimai-siyasi faktorların bədii düşüncədə canlanmasına səbəb olmuşdur. M.F.Axundovun “Aldanmış kəvakib” (1857), “Kəmalüddövlə məktubları” (1865) və digər əsərləri ilə cəmiyyət və idarəetmə problemi ətrafında siyasi polemikaya meydan açması və mövcud siyasi quruluşun yararsızlığı, milli tərəqqi üçün insan hüquq və azadlıqlarının təmin edilməsinin başlıca şərt olması barədəki baxışları, A. Bakıxanovun əsasən islamın meydana gəlməsindən tutmuş 1813-cü ildə Rusiya ilə İran arasında bağlanan sülh sazişinə qədərki dövrdə xalqımızın tarixindən əhatəli surətdə bəhs etməklə milli yaddaşı oyadan “Gülüstani–İrəm”i, Mirzə Kazım bəyin “Əssəb əs-Səyyar” (Yeddi planet), “Uyğurlar”, “Bab və Babilər: 1848-52-ci illər İranda dini və siyasi təlatümlər”, “İslam tarixi” və s kimi tarixi tədqiqat əsərləri, ilk

milli qəzetimiz olan “Əkinçi”nin (1875-1877) yaradıcısı Həsən bəy Zərdabinin milli mövcudluq uğrunda mübarizədən qalib çıxmaq üçün xalqı elmə, maarifə yiyələnməyə çağırış konsepsiyası, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Rəşid bəy Əfəndiyev və digər mütərəqqi düşüncəli qələm adamlarının cəmiyyətdəki ictimai-siyasi eybəcərlikləri kəskin şəkildə tənqid atəşinə tutması, Nəriman Nərimanovun “Nadir şah” (1899) dramında xalq hakimiyyəti ideyasını irəli sürməklə cəmiyyətin inkişafının milli özünüidarəetmə yolu ilə mümkün ola biləcəyini vurğulaması və s. millətin öz müqəddaratı uğrunda mübarizəyə səfərbərolma səviyyəsinə yüksəlişinin ilk pillələri idi. 1905-1907-ci illərdə Rusiyada burjua, 1906-1911-ci illərdə İranda Məşrutə və 1908-ci ildə Türkiyədə Gənctürklər inqilablarının baş verməsi Azərbaycanda da milli oyanışa təkan verdi. Mətbu nəşrlər (“Kəşkül” (1880-1891), “Kaspi” (1881-1919), “Şərqi-Rus” (1903-1905), “Həyat” (1905-1906), “İrşad” (1905-1908), “Tərəqqi” (1908-1909), “Molla Nəsrəddin” (1906 -1918-ci illər dövrü), “Füyüzat” (1906-1907), “Zənbur” (1909-1910) və s.) vasitəsilə aparılan müzakirələrin əsas mövzusunu ictimai-siyasi məzmunlu məsələlər, o cümlədən mövcud rejim və idarəçilik sistemi ilə bağlı problemlər təşkil edirdi. Firudin bəy Köçərli, Əli bəy Hüseynzadə, Siltan Məcid Qənizadə, Əhməd bəy Ağaoğlu, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Ömər Faiq Nemanzadə, Məhəmməd Hadi, Abdulla Şaiq, Məhəmmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli və başqaları artıq “millətin diriliyinə” səbəbi sadəcə olaraq maarifçilikdə, elmi biliklərə yiyələnməkdə yox, “üsuli-idarədəki cəmaətçilik”də, milli özünüidarəetmədə, millətin öz taleyiinə sahib çıxmaqda gördüklərini bəyan edir, əsarət və köləlikdən xilas olmağa, hürriyyət və bərabərlik uğrunda mübarizəyə səsləyirdilər. 1905-ci ildə Çar hökumətinin müəyyən siyasi hüquqlar verən 17 oktyabr manifestindən sonra, axır ki, müsəlmanlar da qəzet-jurnal buraxmaq və bu vasitə ilə xalqa çağırışlar etmək imkanı qazanmışdı. C.Məmmədquluzadə sonralar “Xatiratım” memuarında yazırdı: *“Zəmanə gəldikcə qarışırdı. Bir tərəfdən erməni-müsəlman davası bizi camaat işinə qarışmağa və iki millətin ədavətini söndürmək yolunda əlləşməyə məşğul edirdi, bir tərəfdən də Rusiya hökumətinin yapon müharibəsindən zəif düşdüyünü fürsət sayıb əzilmiş*

*millətlər baş qaldırmağa başlamışdılar və hərə öz təlabatını ortalığa qoyub hökumətə ariz olmuşdu... Millətlər ... hökumətdən növ-növ azadlıq tələb edirdi"*. [156, s.61-62]

Xüsusi olaraq qeyd etmək vacibdir ki, Birinci Dünya müharibəsi illərində yaranmış mürəkkəb vəziyyət, xüsusən də Daşnaksütyun partiyasının ermənilərin mülki və mədəni maraqlarını müdafiə etmək devizi altında öz fəaliyyətini Cənubi Qafqazda daha da gücləndirməsi və müharibənin iştirakçısına çevrilmiş Rusiya, Osmanlı, Avstriya-Macarıstan, Almaniya kimi böyük imperiyaların zəifləməsi nəticəsində yeni milli dövlətlərin yaranması məsələsinin reallaşması Azərbaycan xalqının da istiqlal hərakatına yeni vüsət verdi. Dövrün vətənpərvər yazarları bu fürsətdən məharətlə istifadə edirdilər. Lakin, Mirzə Cəlilin qeyd etdiyi kimi, bir tərəfdən uzun illər Çar Rusiyasının əsarətində qalmış xalqımızın azadlıq istəyini dünyaya çatdırmaq və ümumiyyətlə Azərbaycan haqqında beynəlxalq aləmdə təsəvvür yaratmaq, digər tərəfdən siyasi cəhətdən savadsız əhalini "şahsız, sultansız məmləkətin" şura üsulu ilə idarə oluna biləcəyinə inandırmaq zəka sahiblərinin qarşısında duran ən böyük çətinliklərdən idi. [156, s.67] 1917-1918-ci illərdə qələmə alınmış "Cümhuriyyət" (C.Məmmədquluzadə), "Azərbaycan muxtariyyəti", "Biz kimik və istədiyimiz nədir?", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" (Y.V.Çəmənzəminli) və s. kimi məqalə və kitablar həmin çətinlikləri aradan qaldırmaq məqsədilə yazılmışdı. Belə əsərlərdə Azərbaycan xalqı və məmləkəti haqqında müfəssəl məlumatlar verilir, cümhuriyyət, muxtariyyət, milli hakimiyyət, demokratik seçki və sair kimi anlayışlara aydınlıq gətirilirdi. Y.V.Çəmənzəminli yazırdı: *"Dünyada hər bir millətin xoşbəxt yaşamasına səbəb ancaq o millətin öz milli idarəsi ola bilər. Milli idarə də milli torpaqda, yəni müəyyən bir ölkədə bərqərar ola bilər. Deməli, əvvəlinci məsələ milli ölkədir."* [54, s. 219] Ö.F.Nemanzadənin azadlıq tələbi bilavasitə xalqın özünə ünvanlanırdı: *"Bəsdir bu qədər səbir! Bəsdir çəkdiyimiz bu qədər həqarət! Vaxtdır ki, cümləmiz ittifaq edib tələb edək: Cənablar! Biz öz dilimizlə oxuyub, dilimizi, milliyyətimizi bilmək istəyirik. İstəyirik ki, bir para milli işlərimizi özümüz idarə edib, bizim adətimizdən bixəbər olan cahil və zalım qulluqçular başımıza bəla olmasınlar"*. [167, s.146-149]

Beləliklə, ədəbi-tarixi araşdırmalar belə bir qənaət doğurur ki, Azərbaycan ədəbiyyatının mütəfəkkir düşüncəli sənətkarları "milli azadlıq", "dövlət", "siyasət", "idarəetmə", "ədalət" məsələlərini bir-biri ilə qırılmaz əlaqədə qavramış, əsarətə, ictimai haqsızlığa, totalitar təfəkkürə, despotik idarəçilik üsuluna qarşı çıxaraq insanların hürr yaşamaq haqqını müdafiə etmiş, yeni, azad insan cəmiyyətinin qurulması ilə bağlı bədii-fəlsəfi düşüncələrində sosial-demokratizm prinsipini əsas götürmüşlər; nəhayət, Azərbaycan xalqının 1918-ci ildə köhnə feodal-patriarxal həyat tərzindən və müstəmləkəçi çar-quberniya üsul-idarəçiliyindən xilas olaraq bütün müsəlman aləmində ilk azad, demokratik respublika (Azərbaycan Xalq Cümhuriyyəti) qurmaq və parlamentli idarəçilik sistemini tətbiq etmək kimi tarixi bir nailiyyət qazanmasında milli ədəbiyyatımızın müstəsna rolu olmuşdur. Bu rolun miqyasını, əhəmiyyətini B.Əhmədov belə ümumiləşdirir: *"Milli dövlətçilik ideyasının tarixi o qədər uzağa getməsə də, milli dövlətçiliyi, müstəqillik ideyalarını şərtləndirən milli mənlik şüurunun yaranmasının aspektləri məhz bədii düşüncəyə söykənir. Yəni milli, etnik mənlik şüuru, əvvəlcə bədii, sonra isə ictimai-siyasi təfəkkürdə təşəkkül tapır."* [70, s.117]

AXC dövründə isə vətən sevgisi, milli dövlətçiliyin qorunması ədəbiyyatımızın başlıca mövzusuna və leytmotivinə çevrilmiş, istiqlal düşüncəsi onun əsas ideya-estetik ruhunu müəyyən etmişdir. Bu baxımdan Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyli, Seyid Hüsen, Tağı Şahbazi, Məhəmməd Hadi, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Mirzə Bala Məmmədzadə, Umgülsüm Sadıqzadə, Əliyusif və başqalarının azadlıq fərəhli, istiqlal duyğulu yaradıcılıq örnəkləri bu gün də yüksək əhəmiyyət daşıyır. Məsələn, C.Məmmədquluzadənin satirik qələmini tərənnüm qələminə çevirərək yazdığı "Vətəndaşlar" müraciəti ("Molla Nəsrəddin", 23 mart 1917, № 7), sanki müasir dövrümüzdə müstəqilliyimizin bərpa edilməsi hadisəsinin qələbə əhval-ruhiyyəsini əks etdirirmiş kimi, bu gün də təzə-tər səslənir: *"Şükür Allaha, qurtardıq! Qurtardıq Peterburq vəzirlərinin zülmlərindən, qurtardıq qubernatorların zülmündən, qurtardıq naçalnik və pristavların və bunlardan aşağıkı pillə qurdlarının zülmündən. Qurtardıq kənd yüzbaşılarının tatarından, qurtardıq strajniklərin*

*şallağından, xilas olduq min-min zalımların zorbazorluğundan. Şükür Allaha ki, qurtardıq.*

*Məlumdur ki, bu xoşbəxtlik, bu azadlıq göbələk kimi yerdən göyərməyib: bunu qazanan var. Məlumdur ki, müftəcə heç bir şey ələ gəlməz. Məlumdur ki, dağ kimi Rusiya istibdadını yıxmaqdan ötrü minlərcə başlar işləyib, minlərcə canlar tələf olub. Və min şükürlər olsun ki, axirül-əmrdə xoşbəxt olduq və ölmədik ki, bu günləri gördük".* [153, c.5, s.193-194]

Milli ədəbiyyatımızın xalq həyatı ilə bağlılığı, cəmiyyətin sosial-ictimai problemlərinə həssaslığı sovet dönəmində, kommunist ideoloji "maşınının" ədəbiyyatı öz "təkərciyi və vintciyinə" (yəni hakim diktatura rejiminin icra "mexanizminin" bir hissəciyinə) çevirməsinə, yazıçılar ittifaqlarını, ədəbi orqan və nəşriyyat şəbəkələrini partiya idarəçiliyinə tabe etdirməsinə baxmayaraq davam və inkişaf etmişdir. Biz ədəbiyyatımızdan qırmızı xətt kimi keçən bu ənənəviliyi C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, S.Vurğun, R.Rza, S.Rüstəm, M.Hüseyn, M.İbrahimov, S.Rəhimov, M.Cəlal, B.Vahabzadə, M.Araz, Ə.Kərim, İ.Hüseynov, X.R.Ulutürk, İ.Şıxlı, S.Əhmədov, F.Kərimzadə, Y.Səmədoğlu, F.Qoca, M.İbrahimbəyov, R.İbrahimbəyov, İ.Məlikzadə, Anar, Elçin, Ə.Hacızadə, M.Süleymanlı və digər istedadlı sənətkarlarımızın yaradıcılığında izləyə bilirik. Onların "beynəlmiləlçilik", "azad qardaşlıq cəmiyyəti", "kommunizm yolu" barədə hay-küylü şüarların səngimədiyi vaxtlarda yazdıqları əsərlərdə ideloji uydurmalarla gerçək həyat arasındakı ziddiyyətləri hiss edir, ictimai ədalətsizliyin artmasına etiraz səslərini eşidir, xalqımızın azad, xoşbəxt yaşamaq istəyinin əlvan ifadələrini görürük. Bu baxımdan, sovet ideolojisini təbliğ edən, "Stalin adı ilə nəfəs alan", "Stalin epoxası ilə qidalanan" (Azərbaycan Yazıçılar İttifaqının 1937-ci il 28 yanvar tarixli iclasının materialları) sovet ədəbiyyatı ilə sovet dövründə yaranan, lakin sovet ideologiyasından yan keçən, hətta mövcud rejimə qarşı çıxan, ona protest edən böyük ədəbiyyatı bir-birindən fərqləndirmək çətin deyildir. Birincilər kommunist ideologiyasının illüziyalarına inanaraq mövcud rejimi möhkəmləndirmək məqsədinə xidmət edirdilərsə, ikincilər ruhən, qəlbən bağlı olduqları yurdun, millətin dərdlərini, problemlərini düşünərək onun azad, xoşbəxt gələcəyi üçün töhfə verməyə çalışırdılar.

Belə bir amalın, məramın sovet dövrü ədəbiyyatında inkişafı, təcəssümü, müasir ədəbi tənqidimizdə qeyd edildiyi kimi, özünü aşağıdakı şəkillərdə büruzə verirdi:

“ – *Ana dilinin və milli şüurun qorunması və inkişaf etdirilməsi;*

– *milli-tarixi yaddaşın bərpası;*

– *Azərbaycan idealının, milli vətənpərvərlik ruhunun yaşadılması;*

– *Azərbaycan insanının obrazının bədii təcəssümü;*

– *Nəhayət, birbaşa milli ideya vasitəsilə qurtuluşa çağırışın bədii ifadəsi.”* [163, s.6]

Hesab edirik ki, bu sıraya yuxarıda qeyd etdiyimiz “ictimai ziddiyyət və sosial ədalətsizliyin artmasına etiraz motivlərinin güclənməsi” bəndini də əlavə etmək lazımdır. Elə həmin mənbədə göstərildiyi kimi: “*...ədəbiyyat son sovet dönəmində milli varlıqla sosializm cəmiyyəti arasında tam bir ziddiyyətin, gərgin mənəvi atmosferin olduğunu fiksə edir, aşkarlayırdı. 1980-ci illərin bədnam yenidənqurma və aşkarlıq siyasəti bu eybəcərliyi bütünlüklə ortaya qoydu, üzə çıxardı. Sovet cəmiyyətinin sabahının olmaması milli həqiqətlərin fonunda daha da bariz görünürdü. Yusif Səmədoğlunun “Qətl günü” (1984), Elçinin “Ağ dəvə” (1984) və “Ölüm hökmü” (1989) romanları bu əhval-ruhiyyədən xəbər verir, bütün sovet dönəmində milli insanın yaşadığı ağrı və acılardan söz açırdı. Anar “Molla Nəsrəddin – 66” və “Yaxşı padşahın nağılı” əsərlərində ictimai-siyasi quruluşu ifşa edir, “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanında müasir cəmiyyətin uğradığı mənəvi deqradasiya və fərdin ekzistensial azadlıq ehtiraslarını əks etdirir, “Əlaqə” povestində boğucu mühitdən xilas yolları axtarırdı. Rəsul Rza ömrünün sonunda yazdığı “Xəstəxana şeirləri”ndə cəmiyyəti bürümüş sosial kataklizmlər, mənəvi sarsıntılar üzərində dərin düşüncələrə dalır, İsa Hüseynov “İdeal” romanında sovet cəmiyyətinin çıxılmaz ziddiyyətlər və sosial böhranına qarşı milli İdeal irəli sürürdü.”* [163, s.55-56]

Məsələnin ikinci mühüm tərəfi haqqında. Ədəbi nümunələrdən belə aydın olur ki, insanların cəmiyyəti idarəetmə vəziyyətinə, ictimai mühitin doğurduğu sosial problem və konfliktlərə münasibətinin inikası, bir tərəfdən sənətkarın mövcud rejim və idarəetmə sisteminə vətəndaş münasibətinin nəticəsi kimi təzahür edirsə, digər

tərəfdən ədəbiyyatın həyati gerçəklikləri doğru-düzgün əks etdirmək istəyindən irəli gəlir. Eyni zamanda, sənətkar yaşadığı mühitdən – rejimin qadağa və təhdidlərindən asılı olaraq, mövcud rejimə, cəmiyyəti idarəetmə sisteminə münasibətini ya birbaşa, ya da dolayı vasitələrlə (ezop dili ilə) gerçəkləşdirə bilir. Bu ədəbi mənzərə zaman-zaman, hökmdar və sənətkar münasibətlərinin sonsuz sayda nümunəsi kimi təzahür edir. Məsələn, Nizami Gəncəvi feodal quruluşuna etirazını öz "İsgəndərnamə"sində dolayısı ilə − ideal vətəndaş cəmiyyəti haqqındakı romantik düşüncələri ilə bildirirsə, Şirvan şahı Axsitanın ondan "Leyli və Məcnun" dastanı yazması, həm də bu zaman əsəri "ərəb-fars sözləri ilə bəzəməsi" barədəki tələbindən qəzəbləndiyini, bu bədnam amirliyə qarşı kəskin etiraz hisslərini "Qulluq halqasına düşdü qulağım, Qan vurdu beynimə, əsdi dodağım" və s. kimi kəskin misralarla, birbaşa ifadə yolu ilə açıqlayır.

M.F.Axundov yaşadığı dövrün hökmran qüvvələrinin xalq kütlələrinə zülmünü, ölkəni xarabazara çevirməsini tənqid etmək üçün "Aldanmış kəvakib" əsəri ilə despotizmə münasibət göstərir və bu zaman özünəməxsus priyomlardan istifadə edir: 1) Ədib bədii fikir və düşüncələrini İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" kitabından götürdüyü süjet ətrafında qurur; 2) Təsvir etdiyi şərti hadisələrin cərəyanını tarixi müstəviyə keçirib İran despotizmini tənqid edir; 3) Ənənəvi hökmdarlıq sülaləsini və təsadüfən şahlıq taxtına çıxmış xalq kütlələrini təmsil edən iki şahı (Şah Abbas və Yusif Sərrac) və onların ölkəni idarə üsulunu qarşılaşdırır; 4) Şah Abbas despotizmi ilə Yusif Sərrac ədaləti arasında paralel müqayisə aparmaq imkanı verdikdən sonra öz qənaətini ifadə edir: "Ölkənin idarə edilməsi xalq içərisindən çıxmış adamlara tapşırılarsa, zülm aradan qaldırılar, xalq azad və xoşbəxt yaşayar."

Əli bəy Hüseynzadə "Siyasəti-fürusət" fəlsəfi-publisistik traktatında çar dövlət xadimi Pruşkeviçin Qafqazda inqilabı yatırandan sonra İran azərbaycanlılarının azadlıq mübarizəsini boğmaq yollarını şah irticasına öyrətmək üçün İrana səfərinin mahiyyətini həm açıq publisistik təhlil, satirik pamflet, polemik səciyyə, həm də ezop dili, mətnaltı məna xüsusiyyətləri vasitəsilə açıb ifşa edir. Y.Qarayevin yazdığı kimi, Pruşkeviç İrana parçalanan Azərbaycanı çarmıxda

saxlamaq naminə şah istibdadı ilə əməkdaşlıq eləmək üçün gəlir... Niyyəti toxuduğu hörümçək toru ilə Rusiyada bərpa etdiyi əski dərəbəylik məişətini İranda da yaratmaqdır. *"İrticanın avazı və ritmi hər iki ölkədə eyni orkestrdə çalınır, eyni matəm hədəfinə – parçalanan Azərbaycana tətbiq olunur. Qafqaza qoşa başlı qartalın səfiri kimi gələn Pruşkeviç burada bayquşun rolunu və missiyasını öhdəsinə götürür. Bu simvolik obraz və emblem – qartal (bayquş) başı ilə at quyruğundan yaranan simbioz - əsərdə irticanın bətninə, bədəninə vurulan əsas damğa və möhürdür, rus imperiyaçılıq tarixindən davamlı şəkildə həmişə keçən şovinist təmayülün bədii ifadəsi və dəsti-xəttidir".* [128, c.4, s.286] Yaxud C.Məmmədquluzadə mövcud rejimin qaniçən mahiyyətini 1906-cı ildə yazdığı "Poçt qutusu" hekayəsində Novruzəli kimi mənəvi-əxlaqi keyfiyyətləri ilə rəğbət doğuran, bununla belə, istismarçı üsul-idarə ucbatından avam və çarəsiz məzluma çevrilən əmək adamının obrazını yaratmaqla ifşa edirsə, 1917-ci ildə qələmə aldığı "Azərbaycan" məqaləsində tarixi vətən torpaqlarının imperiyalar arasında bölünməsi və milli dövlətçiliyin itirilməsi gerçəkliyinə açıq münasibət bildirib tarixi haqsızlığa qarşı mübarizəyə çağırır. [161]

Buna bənzər ədəbi fakt və materiallar sovet dövrü ədəbiyyatında da özünə yer almışdır. Lakin burada birbaşa vasitə adətən ayrı-ayrı mənfi tiplərin və neqativ halların tənqidi, dolayı vasitə isə mühitin eybəcərliklərini göstərmək və yaxud "Azərbaycan xalqının tarixinə ikrahçı, təhrifçi mövqedən yanaşanları yerində oturtmaq" [194] məqsədilə keçmişə, ya da ki, kapitalist dövlətlərinin müstəmləkəsi şəraitində yaşamağa məhkum olan əcnəbi xalqların taleyinə müraciət yolu ilə davam etdirilmişdir. Məsələn, İ.Həbibbəyli C.Məmmədquluzadənin sənətkarlıq xüsusiyyətlərindən bəhs edərkən onun diktatura rejiminin asıb-kəsdiyi vaxtlarda yazdığı "Dəli yığıncağı" (1923), "Ər" (1929) kimi əsərlərində gerçəkliyə münasibətini zaman və məkan qeyri-müəyyənliyi vasitəsilə bildirməsi məsələsinə də toxunur: *"Molla Abbasın "vallah, billah, biz dəli yığıncağına düşmüşük" qənaəti dəlilər xəstəxanasına deyil, çirkin, xəstə ictimai mühitə işarə və ittihamdır. Və hadisələr zaman və məkan etibarilə dəyişdirilsə də, Mirzə Cəlilin əslində bu əsərdə iyirminci illərdəki Şura Azərbaycanının həyatından bəhs etdiyi açıq-aşkar başa*

*düşülməkdədir"*. [90, s.401] Akademik "Ər" pyesinə də eyni prizmadan yanaşır və əsərin qayəsini belə izah edir: *"Ər" pyesi iyirminci illərin sonunda cəmiyyətdə meydana çıxmış vahimə və çaşqınlığı, mənavi boşluq və ümidsizliyi nümayiş etdirir. C.Məmmədquluzadə digər dram əsərlərilə səsləşən bu əsərilə cəmiyyətin onu dəyişdirə, yaxud qurub möhkəmləndirə biləcək layiqli bir ərə − Qəhrəman Cahangirə möhtac olduğunu qabarıq şəkildə nəzərə çarpdırır."* [90, s. 404] Ümumiyyətlə, simvolizm 20-40-cı illər ədəbiyyatımız üçün xüsusilə səciyyəvi olmuşdur ki, bu da siyasi rejimin azad sözü boğmaq, ədəbiyyatı proletar hakimiyyətinin yedəyinə almaq niyyətinə münasibətin qarşılığı idi. M.Ə.Rəsulzadə C.Cabbarlının "Od gəlini" (1928) faciəsinin hakim ideoloji prinsiplər nöqteyi-nəzərindən yazılmadığını qeyd edirdi: *"Mənzərənin rəmzliyi göz qabağındadır. Tamaşaçılar üçün "ərəb" və "islam" sözləri yerinə ""rus" və "kommunizm" sözlərini qoymaq mənanı aktuallaşdırmaq üçün kifayətdir"*. [180, s.71] Həqiqətən də, dramın əsas qəhrəmanları Elxanla Aqşin arasında gedən mübarizə din faktoru ilə məhdudlaşmır. Elxan əsarətə, köləliyə, "qanun adına hökmranlıq edən qanunsuzluğa" qarşı çıxır, azadlıq uğrunda, öz yurduna və yurdunun sərvətlərinə sahib çıxmaq uğrunda çarpışır. Yaxud, H.Cavid "Səyavuş" (1933) dramında əslində cəmi "evlər yıxan kinli şahların", cəmi "sarayların iç üzü"nü qılınclayır, "İblisin intiqamı" (1937) dramında "iki əsrin neronları" ifadəsi ilə dünya müharibəsinə rəvac verən faşist və kommunist rejimləri rəhbərlərini nəzərdə tutur, S.Vurğun bolqar kommunist Dmitrova ölüm cəzasının verilməsi hadisəsindən təsirlənərək yazdığı "Ölüm kürsüsü" (1934) poemasında ümumən "insan sümüyündən nərdivan yapanlar"a üz tutaraq azadlıq arzularını, "yer üzündən məhkumluğun kökünü kəsmək" istəyini dilə gətirirdi. Şairin "Vaqif" (1937) pyesində isə Molla Vəli Vidadinin Allaha müraciətlə dediyi sözlərdəki mətnaltı mənanı, tədqiqatçı A.Bayramovun yazdığı kimi, 1937-1938-ci repressiya illərində baş verən insan müsibətlərini görməmək mümkün deyil. *"İnsanın halı yamandır", "Nə olur bir yeni işıq ver bizə", "Yazıqdır, dünyanın əşrəfi insan", "Söylə bir insanın nədir günahı?" kimi misralarda bu müsibətlərə aşkar işarələr vardır."* [40, s. 52] Və yaxud Mir Cəlal "Bir gəncin manifesti" (1939) povestində əsərin əsas obrazlarından olan Sonanı Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təmsilçisi kimi danışdırır,

onun "İtə ataram, yada satmaram" qərar-qənaəti ilə bir millətin öz milli mənliyini qoruyub yaşatmaq gücünü, iradəsini əks etdirirdi. Başqa sözlə desək, Mir Cəlalın "Bir gəncin manifesti"ndəki Sona öz milli xarakter və məfkurəsi ilə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesindəki Zəhra bəyim ananın dönməz varisi kimi çıxış edirdi. Başqa bir misal: S.Rəhmanın "Toy" (1938) komediyasında 30-cu illərdə cəmiyyətdə gedən kolxoz quruculuğu, köhnəliklə yeniliyin mübarizəsi kimi proseslərdə özünü göstərən cahillik və miskinliyi komik planda, özündən müştəbeh kolxoz sədri Kərəmova gülməklə tənqid edir. Əsərdə avtoritar idarə-üsulundan irəli gələn təkbaşına idarəetmə idddiası, camaatla hesablaşmamaq, şəxsiyyətəpərəstlik, mühafizəkarlıq, tənqidə dözməzlik və s. kimi xüsusiyyətlər, mənfi tip kimi, Kərəmov obrazının timsalında açılıb ifşa olunur. Yazıçı mənfi tipin öz dili ilə ifadə etdiyi "Kərəmova məsləhət vermək lazım deyil. Kərəmov nə etmək lazım gəldiyini yaxşı bilir", "Adə, mən sizin başınızın tükü sanı məsul işdə olmuşam", "Yox, gərək bu kolxozuma bir əl gəzdirim. Gərək bu kolxozda bir nizam-intizam yaradam ki, ixtiyarımda olan bütün adamlar kəmər-dəstə dayansınlar. Gərək elə eliyəm ki, mənim ağzımdan çıxan söz qanun kitabına yazılsın" − kimi sözlərlə yalnız fərdin baxış və xarakterindən deyil, həyati reallıqdan, mövcud idarəetmə sistemindəki avtoritarlıqdan, cəmiyyətdə baş verən proseslərin ziddiyyətli xarakterindən irəli gəldiyini qabardır. Y.Qarayevin qeyd etdiyi kimi: *"Əslində bu "Toy" ölən mənəvi-əxlaqi sərvətlər üçün Sabitin və səhnənin qoşa ittihamı, mövcud əxlaqa və zamanəyə onların birlikdə tutduğu mənalı, eyhamlı divan və toy idi"*. [126, c.1, s.397] Eləcə də Y.V.Çəmənzəminlinin "Qan içində" (1937), M.Ordubadinin "Dumanlı Təbriz" (1933-1948), M.İbrahimovun "Böyük dayaq" (1957), Ə.Abbasovun "Zəngəzur" (1956-1957), M.Hüseynin "Yeraltı çaylar dənizə axır" (1965-1967), C.Bərgüşadın "Bozatın belində" (1970), S.Əhmədovun "Yasaq edilmiş oyun" (1985) və s. kimi əsərlərdə də mövcud üsul-idarə və milli tale probleminin müxtəlif vasitələrlə əksini tapdığını görüük. B.Əhmədov yazır: *"S.Əhmədovun "Yasaq edilmiş oyun" əsəri stalinizmdən sonrakı sistemin verdiyi yumşalma siyasəti ilə bu siyasətin mahiyyətini göstərməyə çalışır. Əsərdə Stalin dövrünün cəza aparatının günahsızlara qarşı törətdiyi faciənin anatomiyası açılır. Burada bədii simvolikadah da istifadə edilir;*

*sistemin adamlardan etdiyi susmaq tələbi – "Laldinməz", siyasi mövqeyini tez-tez dəyişənləri – "Burcutma", camaatın qeyd-şərtsiz itaətini "Yançıxdı-qolçıxdı" sözləri ilə ifadə edir. Beləliklə, yazıçının qurduğu şərti oyun modeli, əslində 30-40-cı illərdə siyasi sistemin idarəetmə modeli kimi səciyyələnir və əsərdən çıxan qənaət budur ki, "yasaq edilmiş oyun" elə demokratiyanın qadağan edilməsidir."* [70, s. 459]

Qeyd etməliyik ki, ədəbiyyatın mövcud reyim və idarəetmə sistemlərinə tənqidi münasibət göstərməsi heç vaxt sakitliklə qaşılanmamışdır. Xüsusən də, sovet dönəmində belə hallar kəskin şəkildə tənqid edilir, sənətkarlar "ideoloji düşmən" qismində amansızcasına cəzalandırılırdı. B.Vahabzadə jurnalistin dövrün yaradıcılıq çətinlikləri ilə bağlı verdiyi suala cavabında belə bir əhvalatı xatırladır: *"50-ci illərin sonunda Mərakeşə getmişdim. Gördüm ki, ana dilində deyil, fransızca danışırlar. Bu, mənə çox pis təsir etdi və yaralarımın közünü qopartdı...Geri qayıtdıqdan sonra "Latın dili" adlı bir şeir yazdım. Orada göstərdim ki, latın xalqı yoxdur, amma dili yaşayır. Yer üzündə elə xalqlar var ki, özləri yaşayırlar, dillərini öldürüblər. Bununla əlaqədar məni bir neçə dəfə MK-ya təbliğat şöbəsinə çağırdılar, sorğu-suala tutdular. Cavabında dedim ki, şeir Mərakeşə həsr edilib. Dedilər ki, bizim vəziyyətə bənzəyir. Mən də: "Bunu siz dediniz, mən yox..." – söylədim. Bu metodla 40 il universitetdə tələbələrə dərs dedim, mühazirələr oxudum, onlara anlatdım ki, biz hansı millətin övladlarıyıq və rejim bizi uçuruma sürükləyir".* [223, s.166] Yaxud 60-cı illərdə, çapı on il gecikdirilmiş "Dünyanın arşını" (1967) adlı romanında "sovet kəndində" baş verən eybəcərlikləri qələmə aldığına, milli özünüdərk problemi qaldırdığına görə yazıçı Sabir Əhmədov ədəbi tənqid tərəfindən "kommunist həyat tərzininin işıqlı cəhətlərini göstərməməkdə" ittiham edilmiş, adı Mərkəzi Komitənin qərarlarına salınmış, müxtəlif təzyiqlərlə üzləşmişdir.

Biz dəyişən ictimai-siyasi şəraitlə əlaqədar olaraq artıq 1980-ci illərdən etibarən yaranan bir sıra əsərlərdə (Fərman Kərimzadənin "Xudafərin körpüsü" (1982), Elçinin "Ağ dəvə" (1987) və "Ölüm hökmü" (1989), M.Çəmənlinin "Xallı gürzə" (1991), Ə.Cəfərzadənin "Gülüstan"dan öncə" (1996), Nüşabə Məmmədlinin "Cavad xan" (1996) və s.) problemə münasibətin dolayı vasitə müstəvisindən birbaşa

vasitə müstəvisinə keçid etdiyini görürük. Obrazlı desək, sovet diktatura rejiminin "caynaqları" kütləşəndən sonra yeniləşdirilməsinə cəhd edilən idarəetmə mexanizmi artıq azad sözü cilovlaya bilmir, taleyini azadlıq yanğılı, demokrariya çağırışlı bədii-fəlsəfi düşüncənin ixtiyarına buraxmalı olur ki, bu da uğursuz yenidənqurma cəhdindən sonra imperiyanın süqutu ilə nəticələnir.

Mövcud rejimə və idarəetmə sisteminə bədii münasibətdəki ardıcıllıq və dinamika onu göstərir ki, ədəbiyyatımız xalq həyatının ümumi mənzərəsini canlandırmaq, vətənin varlığını, bütövlüyünü qorumağa çalışan şəxsiyyətlərin obrazlarını yaratmaq, milli birlik, milli özünütəsdiq, milli dirçəliş ideyalarını təcəssüm etdirmək və s. kimi vasitələrlə azad cəmiyyət, milli demokratik dövlət quruculuğu ilə bağlı ideya-məğzi keyfiyyətlərini güclındirməkdə israrlı olmuşdur. Təsadüfi deyildir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan Yazıçılarının X qurultayında çıxışı zamanı ədəbiyyatımızın azadlıq missiyasına yüksək qiymət verərək demişdir: *"... Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatıdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıblar: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizdə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıblar... "* [29]

### 1.2. Stalin avtoritar rejimi və repressiv idarəçiliyin Azərbaycan ədəbiyyatında təsviri.

1920-ci ildə XI Qızıl Ordunun təcavüzü nəticəsində AXC süquta uğradı və ölkə yenidən, bu dəfə sovet Rusiyasının əsarəti altına alındı. Bu hadisə ədəbiyyatımıza qəm, kədər notları, pessimizm və susqunluq əhval-ruhiyyəsi gətirdi:

*Bir zamanlar adına eşq oxudum ellərə,*

*Şimdi artıq qəlbimin içində inlə, Bakı...*

*Uğrunda çarpışanlar qolları bağlı getdi,*

*Mən yanaraq kül oldum sənin dərdinlə, Bakı...* [116, s.26]

Az sonra M.Ə.Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərində təəssüf və hiddət hisslərilə yazırdı: *"Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşların bərabər bir hüquqda yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ qorunurdu. Erkək-qadın, müsəlman-xristian, türk-türk olmayan, cins və milliyyət fərqi gözləmədən, zəngin-fəqir, müdir-işçi, torpaq sahibi-günəmuzdçu, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkət idarəsində iştirak edir, qanun yapan quruluşlara girmək haqqına dəxi sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünmürdü... Burada misli Avropada tətbiq olunmayan həqiqi xalq cümhuriyyəti qurulmuşdu."* [181, s.44-45]

Əslində sovet hakimiyyəti də irqindən, milliyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara hüquq və azadlıqlar, sosial bərabərlik, firavan həyat, hətta ictimai sərvətlərin güclü sel kimi axacağı xoşbəxt kommunizm gələcəyi vəd edirdi [32, s. 462] və bu "gözqamaşdırıcı" vədlərin nəinki sadə insanlar, hətta elmi-nəzəri cəhətdən hazırlıqlı siyasətçilər, ziyalılar arasında maraq oyatması, xalqlar birliyində "həqiqi azadlıq səltənətinə" [144, s.844] qovuşacaqlarına inam yaratması da təbii idi. Lakin marksizm-leninizm nəzəriyyəsi ilə əsaslandırılmış bu ideya, təlim kapitalizmdən sosializmə keçidi iqtisadi təkamüllə yanaşı sosialist inqilabının və qurulacaq proletar (fəhlə-kəndli birliyi) diktaturasının sinfi düşmənləri məhv etməsinin labüd nəticəsi kimi nəzərdə tuturdu. Xalq kütlələri üçün qaranlıq qalan məsələnin bu tərəfi – proletar diktaturasının mahiyyəti idi.

Zaman bolşevik hakimiyyətinin "humanizm", "sosial ədalət" vədləri ilə antihumanist – yıxmaq, dağıtmaq, məhv etmək fəaliyyəti arasındakı tərs mütənasibliyin acı gerçəkliklərini, "sevgisiz bir başda ilanlar gəzdiyini" (H.Cavid), "yıldızlı qızıl zəncirlərin millətin boynuna asıldığını" (A.İldırım) elə ilk illərdən meydana çıxartdı. Azad mətbuat sıxışdırılıb sıradan çıxarıldı, onun yerini senzuralı

bolşevik mətbuatı tutdu. Yeni İqtisadi Siyasət (NEP) xətti üzrə xüsusi mülkiyyət ləğv edildi, özəl ticarətə yasaq qoyuldu, sənaye müəssisələri dövlətin nəzarəti altına alındı, taxıl müsadirə edildi. Dövlət işlərinin, rəsmi iclasların, yazışmaların rus dilində aparılması qayda-qanun səviyyəsinə gətirildi. Türk respublikalarında əlifba dəyişdirildi. Bütün bunlar ideologiyadan daha çox insanları yeni sistemdən asılı vəziyyətə salmaq niyyətinə xidmət edirdi.

Rejimin milli özünüidarəetmə haqqındakı bəlağətli vədləri elə başlanğıcdan qüvvəsini itirmişdi. Mərkəzin milli kadrlara etinasızlığı, rusları və erməniləri xüsusi mandatla Azərbaycana göndərib rəsmi idarələrdə rəhbər vəzifələrə təyin etməsi keçmiş çar üsul-idarəsindən qalma milli ayrı-seçkilik siyasətinin yeni formada davam etdirilməsindən başqa bir şey deyildi. Bu və ya bu kimi faktlar N.Nərimanovu İ.Stalinə sərt tonda məktub yazmağa, Mərkəzin Azərbaycanı simasızlaşdırmaq siyasətinə qəti etiraz etməyə vadar etmişdi: *“…Mərkəz… ucqar respublikaların daxili işlərinə qarışmaq məqsədilə qəsdən bu “beynəlmiləlçiləri” irəli çəkir, müdafiə edir...”* (N.Nərimanov “bu beynəlmiləlçilər” dedikdə Mərkəzdən xüsusi mandatla göndərilən, milli dövlət quruculuğuna kobudluqla müdaxilə edən, Azərbaycanda açıq-aşkar ruslaşdırma və erməniləşdirmə siyasəti yeridən mikoyanları, mirzoyanları, kirovları, serebrovskiləri… nəzərdə tuturdu.) *“…Bu kampaniyanın fəaliyyəti Azərbaycanın simasızlaşdırılmasına yönəlmişdir... Kommunizm bayrağı altında daşnaklar öz işlərini görür… Azərbaycanın taleyi erməni daşnaklarına tapşırılır...”* [173, s. 436-444] N.Nərimanov Azərbaycanın tarixi torpaqlarının Ermənistana verilməsi məsələsinə də kəskin surətdə münasibətini bildirir, bu barədə V.İ.Leninə məktubunda daha qətiyyətlə yazırdı: *“İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir. Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir…”*. [173, s. 466-467]

Mövcud inzibati-amirlik sisteminin mahiyyəti tarixə, ədəbiyyata və incəsənətə münasibətdə daha eybəcər əlamətlərlə açılırdı. Köhnəliklə mübarizə adı altında qədim mədəniyyət abidələri - məscid, minarə, əlyazma, kitab, arxiv və s. dağıdılıb yandırılır, milli-tarixi hadisələrin mahiyyəti təhrif olunur, müstəqil dövlətçilik ənənələrinin, bu ənənələrin formalaşdırılmasında mühüm rol oynamış tarixi şəxsiyyətlərin unutdurulması xətti yeridilir, əvəzinə saxta tarix yazılırdı. O cümlədən erməni-daşnak və rus-bolşevik silahlı qüvvələrinin azərbaycanlılara qarşı törətdiyi 1918-ci il mart soyqırımı bolşeviklərin əksinqilab üzərində qələbəsi kimi təqdim olunurdu. Ədəbiyyatdan, sosial-ictimai proseslərin bədii-fəlsəfi dərki, həyati gerçəkliklərə sədaqət, sənətdə bədii-estetik prinsiplər və s. kimi yaradıcılıq qanunauyğunluqları nəzərə alınmadan, mövzu-problem, ideya-məzmun istiqamətini dərhal dəyişmək, yalnız sovet platformasından çıxış etmək, tarixi keçmişi tənqid, yeni quruluşu tərənnüm mövqeyi tutmaq, bir tərəfdən “sinfi düşüncə”yə, “marksist-leninçi baxışlar”a malik, partiyanın siyasətini tam şəkildə dəstəkləyən və sosializmin düşmənləri ilə amansızcasına mübarizə aparan” [248, s.127] sovet adamının obrazını yaratmaq, digər tərəfdən “yeni həyatın düşmənlərini” ifşa etmək tələb olunurdu. Rejim *“hakim dairələrin istədikləri ideoloji sistemi yaratmaq və bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq, xalqı bu işə səfərbər etmək məqsədilə “xalq düşmənləri” ilə mübarizə ideyasından bəhrələnirdi”.* [80, s.131] Eyni zamanda, bu ad altında təbliğat kampaniyaları aparmaq xalqın nəzərini ölkədəki real vəziyyətdən yayındırmaq və mövcud çətinliklərin günahını həmin “düşmənlərin” üzərinə qoymaq məqsədi daşıyırdı və təbliğat vasitəsi kimi mətbuat, radio, kino, teatr, o cümlədən də bədii ədəbiyyatdan istifadə edilirdi. [239]

Ədəbiyyatdan bir təbliğat vasitəsi kimi istifadə etmə metodunun əsası V.İ.Leninin “Ədəbiyyat partiyalı olmalıdır! Ədəbiyyat işi ümumproletar işinin bir hissəsi, bütün fəhlə sinfinin bütün şüurlu avanqardı tərəfindən hərəkətə gətirilən vahid sosial-demokrat mexanizminin vintciyi və təkərciyi olmalıdır!” – formulu ilə qoyulmuşdu və bu, 30-cu illərdə Stalin afvtoritar idarəçilik sisteminin adını “sosializm realizmi” qoyduğu ədəbi metodun qəti tələbinə çevrildi. *“Sosrealizm filoloji-estetik hadisədən xeyli artıq dərəcədə ictimai-sosioloji hadisə idi”* [61, s.24]

və həyatı Kommunist partiyasının rəhbərliyi altında inqilabi inkişafda əks etdirmək, bu yolu təqdir etmək, alqışlamaq prinsipini rəhbər tuturdu. Sosrealizmin çərçivə normativləri ədəbiyyatdan mövcud idarəetmə prinsiplərini şəksiz qəbul etməyi, onun sifariş və tapşırıqlarını qeyd-şərtsiz yerinə yetirməyi tələb edirdi. Ədəbi proses sosrealizmin tələbləri mövqeyindən araşdırılıb dəyərləndirilməklə ciddi nəzarətə götürülmüşdü. Bolşevik senzura şəbəkəsi, mətbuat və nəşriyyat işlərinə məsul təftişçi-redaktorlar, "partiya məfkurəli" ədəbi-tənqid və s. həmin funksiyanın icraçıları idilər. Bu "icraçılar" milli azadlığın itirilməsinə görə qəmli-nisgilli notların ədəbiyyata gətirilməsinə nəinki yasaq qoyur, hətta buna cəhd edənlərin "başlarını sovet çəkici ilə əzməyi" [6, s. 5-6] tələb edirdilər. *"Bədii yaradıcılığın taleyi (senzuradan keçməsi, çap olunması, "tərif", yaxud "ifşa" edilməsi və s.) tam şəkildə ideoloji Sistemdən asılı idi; mükafatları, o cümlədən Stalin mükafatı laureatlarını ədəbi-bədii meyarlar deyil, Sistemin qəliblərinə uyğunluq müəyyən edirdi; bütün SSRİ və müttəfiq respublika deputatları kimi, yazıçıları da Sistem deputat təyin edirdi, onları MK tərkibinə salıb-çıxarırdı; onların yazıları Sistemin göstərişi ilə dərsliklərə salınırdı; onların yubileylərini Sistem keçirirdi, məişət qayğılarını Sistem həll edirdi, öldükdən sonra kitablarını Sistem çap etdirirdi (ya da etdirmirdi), heykəllərini Sistem qoydururdu (ya da qoydurmurdu) və i.a."* [61, s.6-7] Eyni zamanda, müstəqilliyin itirilməsi və proletar diktaturasının sərt idarəetmə qaydaları ilə razılaşmaq istəməyənlər, arasında kütləvi həbslər, sürgünlər, qətllər həyata keçirilirdi. Həqiqəti yazmağa cəhd edən, hətta saxta "donos"lara görə yaradıcılıq məqsədi şübhəli hesab edilən şairlər, yazıçılar, alimlər, incəsənət və mədəniyyət işçiləri "əksinqilabi fəaiiyyət", "təxribatçı", "millətçi", "trotskisist", "pantürkist", "panislamist", "xarici cəsus" və s. damğalarla təqib edilb cəzalandırılırdılar. Bir sözlə, tənqidçi A.Hüseynlinin qeyd etdiyi kimi, Sovet sistemi ictimai şüurun bütün sahələrini öz ehkamları ilə buxovlayır və böyük "məharətlə" öz ruhuna, tələbinə uyğun gələn elm və mədəniyyət, ədəbiyyat və incəsənət formalaşdırır, bədii fikir ideologiyanın bilavasitə daşıyıcısına çevrilir, adi təbliğat vasitəsi səviyyəsinə endirilirdi. [99, s. 137] Bütün bunların nəticəsində qələm adamları, "Lenin", "partiya", "Stalin", "sosializm quruculuğu" mövzusunu qələmə alır, kommunizm

ideyalarını tərənnüm və təbliğ edir, müxtəlif zümrəli “xalq düşməni” obrazı yaradır, ədəbiyyat siyasiləşir, kommunist ideologiyasının ruporuna çevrilirdi. Bu təmayül, eyni zamanda, ədəbiyyatşünaslıq elmində özünü göstərməkdə idi. *“...Bizim məşhur alimlərimiz Məmməd Arif, Həmid Araslı, Mir Cəlal keçmişi öz iradələri ilə deyil, təzyiq və məcburiyyət nəticəsində dəyişdirib düzəldirdilər, onu “yuxarı”nın görmək istədiyi halda təsvir edirdilər. Biz, tələbələr də onların yolu ilə gedirdik... Onillər boyu bizim bütün hərəkətlərimizi qorxu müəyyənləşdirirdi”.* [159] *“Sovet tarixinin yanlışlığını tələbəykən sezmişdim. Ancaq onu yazan alimlərin, tarixçilərin, dilçilərin hamısı piyada, savadsız deyildilər, sadəcə, mövcud quruluşun alətinə çevrilmişdilər. Zindanlar, sürgünlər, deportasiyalar, güllələnmələr, KQB təzyiqləri “xalqlar həbsxanası” (Soljenitsın) adlanan SSRİ-nin kələyini kəsmiş, adamların inamını sarsıtmışdı”.* [207] Bir sözlə, ədəbi-elmi mühitdə baş verən hadisələr cəmiyyətdə gedən mürəkkəb və ziddiyyətli proseslərin təzahürü və tərkib hissəsi idi. Lakin ədəbiyyatın proletarlaşması, dövlət ideologiyasının ruporuna çevrilməsi prosesində özünü göstərən bir neçə məqamı nəzərə almamaq mümkün deyil.

Birinci məqam. Yazarların heç də hamısı, xüsusən də sovet hakimiyyətinin ilk illərində, kommunistərin “azadlıq səltənəti” haqqındakı vədlərinə inanmır, diktatura tələblərinə boyun əymək istəmir, Xalq Cümhuriyyətinin süqutuna görə dərin təəssüf hissləri keçirirdilər. Məsələn, Əhməd Cavad azad sözə “yüyən vurub” yedəkləmək istəyən bir rejimi, hökm-fərma idarəçiliyini qətiyyətlə rədd edirdi:

*Çoxdan dəyişdirib şəkki yəqinə,*
*Mən üsyan etmişəm məzhəbə, dinə,*
*Bilməm sənin böylə “Haqq” dediyin nə,*
*Hökm etmə fikrimə, vicdanıma, sus!* [48, s.9]

Yaxud Almas İldırım bolşevik hakimiyyətinin “xəyal-plov vədlərinə” belə cavab verirdi:

*Qafqasın eşqi bütün zər dolu dünyaya dəgər,*
*Desələr yurdu unut, al “Yeni dünyayı” əgər,*
*Söylərəm eşqimi ver, haqqımı ver, yurdumu ver,*
*Dinləsin qoy bütün aləm bu boğulmaz səsimi!* [116, s.31]

B.Əhmədov yazır: *"Cümhuriyyət dövründə milli istiqlalçılıq, vətənpərvərlik, milli müəyyənlik duyğularının təsviri böyük coşqunluqla həyata keçirildiyindən, sonrakı dönəmlərdə də bu yolu davam etdirənlər oldu. Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı, Hacı Kərim Sanılı, Umgülsüm Sadıqzadə, Əmin Abid, Əliyusif Rai, Əbdül Rəhman Dai, Əlabbas Müznib, Davud və b. yaradıcılığında türkün yüz illərlə keçib gəldiyi yol təqdir olunur və türkçülük, turançılıq ideyalarının təsvirinə üstünkük verilirdi".* [69, s. 30] Həqiqətən də, real azadlığın əldən alınması ilə barışa bilməyən ziyalıların mühüm bir dəstəsi həyatlarını riskə atıb amalları uğrunda mübarizə aparır, gizli şəkildə "İstiqlal" qəzeti buraxırdılar. Həmin qəzetin 15-ci sayında çap olunan "28 Aprel faciəsi münasibətilə" sərlövhəli intibahnamədə yazılırdı: *"Vətəndaşlar! Millətdaşlar! Bu gün 27 apreldən üç sənədir keçiyor. Üç sənə bundan əvvəl Rusiya ordusu "inqilab" və "kommunizm" şüarilə vətənimizə soxulmuşdur. Qasiblər yerli Azərbaycan türklərindən əldə etdikləri acentələrin müavinəti ilə məmləkətə girmişlərdir. Bu gün hər kəsə aydın-açıqdır ki, 27 aprel faciəsi kommunistlərin hər yerdə çağırdıqları və bağırdıqları kimi Azərbaycan köylü və işçilərinin inqilabı deyil, sadəcə Rusiya ordusunun vəhşicəsinə istilasıdır".* [184, s. 140] İntibahnamə aşağıdakı çağırışla tamamlanırdı: *"Ey türk xəlqi! Səni azad edəcək və xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvənlə hazırlan! Səni bu mübarizə xilas edəcəkdir! Azərbaycan istiqlalını bir dəfə qurdun, ikinci dəfə qurmaq bacarığına maliksən! Düşmənini tanı, mali intibahını yüksəlt, həqq səninlədir! Yaşasın Azərbaycan istiqlalı! Yaşasın üçrəngli bayrağımız! Məhv olsun rus cahangirliyi!..."* [184, s. 140-141]

İstiqlal amalını hər şeydən uca tutan qələm adamlarımızın (Ə.Cavad, A.İldırım, M.Ə.Rəsulzadə, Y.V.Çəmənzəminli, M.Altunbay, H.Dönməz, M.S.Aran, N.Şeyxzamanlı, A.M.Dağlı və b.) bir qismi ağır işgəncələrə məruz qaldı, başqa bir qismi sürgünə göndərildi, qalan qismi isə 1937-1938-ci repressiya illərində məhv edildi və bu ağrılı yaşantılar qəmli xatirələrə, üsyankar şeirlərə, həzin bayatılara çevrildi:

*Uşaqlıqda kim salardı beşiyim?*
*Kimə qaldı mənim evim, eşiyim?*

*Dörd yanımda sarı soldat keşiyim,*

*Bağladılar əlimi, həm qolumu*

*Döndərdilər Sibirə düz yolumu...* [116, s.67]

Yaxud:

*Dolaşıb dağı, daşı*

*Qatırım ol, yük daşı.*

*Əyil, Kürüm, əyil, keç!*

*Meydan sənin deyil, keç!* [48, s.241]

Sovet ədəbi tənqidi azadlıq yanğılı sənətkarların siyasi səciyyə daşıyan və hətta daşımayan əsərlərinə antisovet donu geyindirir, "sinfi düşmən"in cəzaya labüdlüyünü əsaslandırmağa çalışırdı. M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı əsərində rejimin sifarişini yerinə yetirən belə tənqidçiləri haqlı olaraq "çekist ruhlu tənqidçilər" adlandırırdı. Məsələn, Azərbaycanın əsrarəngiz təbiət guşələrindən olan Göygölü vəsf edən şeirinə görə Ə.Cavada qarşı tənqidi hücumlar təşkil edilmişdi.

*Bir sözün varmıdır əsən yellərə?*

*Sifariş etməyə uzaq ellərə...*

*Yayılsın şöhrətin bütün dillərə*

*Olursa-olsun qoy haralı, Göygöl!* [ 48, s.101]

M.Ə.Rəsulzadə sifarişli tənqidin bu şeirə amansız münasibəti haqqında belə yazırdı: *"Çekist ruhlu sovet tənqidçiləri" "Bir sözün varmıdır əsən yellərə?, Sifariş etməyə uzaq ellərə..." beytində əksinqilabçı bir rəmz görürlər. Cavad onların mühakiməsincə "inqilab tərəfindən uzaq ellərə atılmış müsavatçı millətçilərə" işarə etmək istəyirmiş".* [141, s. 47-48]

İkinci məqam. Dəyişən zamanın mürəkkəb hadisələrindən baş aça bilməyən və siyasi rejimin ədəbiyyatın maneəsiz irəliləməsinə törətdiyi əngəllər qarşısında tərəddüd içində qalan sənətkarlar da vardı. Onlar, Yeseninin lirik qəhrəmanı kimi, özünü darısqal bir dalandakı kimi hiss edir, gah "yeni hökuməti qınayır, gah da axına çatmaq üçün yerisə də, bu gedişdə ayağı sürüşür" [227, s. 59], "əşarını gərəksiz görüb" "rübabını susdurmağa" və "görünməz bir sahilə üz tutmağa" məcbur olurdular.

*...Artıq mənim əşarım*
*Burda gərək deyildir,*
*Burda gərək deyiləm,*
*Deməli, mən özüm də.*
*Nə eybi!*
*...Şeirimi oxumurlar*
*İndi – oxumasınlar.* [227, s. 51]

“Yeni hökuməti qınayan, gah da axına çatmaq üçün yerisə də, bu gedişdə ayağı sürüşən” azərbaycanlı şair və yazıçılar da az olmadı və onların da taleyinə “Rədd olsun bitərəf ədəbiyyatçılar!” – şüarı ilə ölüm-itim fərmanları yazıldı.

Qətlə yetirilənlərdən biri Hacı Kərim Sanılı idi. Əsasən təbiətdən, kənd həyatından yazan bu istedadlı sənətkar, tənqid və təhdidlərdən “nəticə çıxarıb” yeni dövrü tərənnüm etməyə cəhd göstərsə də, proletar ədəbiyyatı yaradıcılarının sırasına qatıla bilmir, çünki o, öz əsərlərində yeni quruluşu təsdiq edən motivlərə yer verməklə bərabər, öz sənətkar ruhunu qorumağa çalışır, insan-cəmiyyət münasibətləri müstəvisində düşüncə məhsullarını araya-ərsəyə çıxarmaqdan çəkinmir, hətta müxtəlif bədii vasitələrdən istifadə etməklə mövcud idarəçilik sisteminin doğurduğu naqislikləri, sosial haqsızlıqları tənqid hədəfinə çevirirdi. H.K.Sanılı bir sıra qələm yoldaşları ilə birlikdə siyasi rejim tərəfindən “simvolizm”də günahlandırılaraq məhv edildi. Ümumiyyətlə, 1920-40-cı illər ədəbiyyatımız üçün simvolizm səciyyəvi əlamət olduğu kimi, simvolizmə görə cəzalanma da “normaya” çevrilmişdi. Ə.Cavad, A.İldırım, H.K.Sanılı, M.Müşfiq və b. simvolizmdə günahlandırılıb cəzalandırılmışlar.

Üçüncü məqam. Totalitar rejim sənəti, ədəbiyyatı siyasətdən kənar tutlmaq tərəfdarlarını – “formalistlər”i də qəbul edə bilmir, onları “siyasi məfkurəsizlikdə” hədəfə alıb birmənalı surətdə rədd edirdi. 1920-ci illərin sonu 1930-cu illərdə M.Baxtin, K.Merqelidze, V.İ.Vernadski kimi görkəmli ədəbiyyatşünaslar ədəbi yaradıcılıq haqqındakı müstəqil baxışlarına görə cəzaya məhkum edilmişdilər. M.Baxtin 1929-cu ildə yazdığı “Dostoyevski yaradıcılığının problemləri” əsərində sənətin ideologiyadan və ictimai fikirdən asılı olmaması ideyasını irəli sürürdü. O,

*“bədii ədəbiyyatı məhz obrazlı yaradıcılıq kimi, yəni dünyagörüşün təkrarsız və əvəzsiz bir forması kimi, canlı həyata və insana daha adekvat olan inikas forması kimi dərk etmiş və təhlil etmişdi. Belə bir vəzifəni marksist-leninçi metodologiya baxımından yerinə yetirmək mümkün deyildi. Odur ki, M.Baxtin öz məqsədinə nail olmaq üçün tədqiqat obyekti kimi bədii ədəbiyyatın ideya-məzmununu deyil, məhz onun janr, dil və üslub formalarının təhlilini seçmişdi. Bununla belə o, yenə də ağır təqiblərə məruz qaldı.”* [139, s. 5] M.Baxtin “gizli əkinqilabi təşkilatın üzvü”, “dini və millətçi əhval-ruhiyyə”ni təbliğ etmək kimi qondarma səbəblərlə həbs edildi və az sonra beş il müddətinə konslagerə salındı.

Daha ağır taleyi ədəbiyyatşünaslıq fəaliyyəti ilə Azərbaycanda yeni tədqiqatçılıq məktəbini yaratmış Firudin bəy Köçərli yaşamışdı. O, istər klassik irsin toplanması və təhlilində, istərsə də öz dövründə yaranan əsərlərə münasibətində ədəbiyyatın başlıca missiyası və ümummilli problemlər prinsipini əsas götürür, sənət və həyat məsələlərini bu kontekstdən araşdırmaqla çağdaş ədəbi prosesi ideya-məfkurə cəhətdən düzgün istiqamətləndirməyə çalışırdı. F.Köçərli yazırdı: *“Bir millətin ədəbiyyatı, demək olar ki, onun məişətinin ayinəsidir. Hər bir millətin dolanacağını, övzai-məişətini, dərəceyi-tərəqqisini, mərtəbeyi-kəmalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar”*. [250] Müstəqil düşüncəli zəka sahibi proletar diktaturasının əli ilə elə sovet hakimiyyətinin ilk ilində güllələnmə cəzasına məhkum edildi.

Sənətdə bədii-estetik prinsipləri əsas götürən, milli ideya-məfkurə yolundan dönmək istəməyənlər arasında milli yazıçılarımız da (C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, H.Cavid, C.Cabbarlı, S.Mənsur və b.) var idi. Onların həmin illərdə yaratdığı bir sıra əsərlər (Məsələn: H.Cavidin “Afət” (1922), “Peyğəmbər” (1922), “Topal Teymur” (1925), “Knyaz” (1931), “Səyavuş” (1933), “Xəyyam” (1935) və “İblisin intiqamı” (1936), C.Cabbarlının “Oqtay Eloğlu” (1921), “Od gəlini” (1925-1928), “Sevil” (1928) və “Almaz” (1931), C.Məmmədquluzadənin “Dəli yığıncağı” (1923), “Hamballar” (1925), “Taxıl həkimi” (1926), “Zırrama” (1928) və “Ər” (1929)) sənətin estetik prinsiplərini özündə ehtiva etməklə və hadisələri realistcəsinə əks etdirmək nöqteyi-nəzərindən dəyərli nümunələr idi.

Sərbəst bədii düşüncənin məhsulu olan bu əsərlərin bir çoxu sərt nəzarət şəraitində mətnaltı mənaları, “ezop dili” xüsusiyyətləri ilə də səciyyəvi idi və əslində daha çox bu səbəbdən müəllifləri sovet tənqidinin hücumlarına məruz qalır, mühakimə olunurdular.

Hüseyn Cavid, yaradıcılığının əvvəlki mərhələlərində olduğu kimi, sovet dönəmində də zaman və məkan hüdudlarını aşaraq bəşəri və əbədi mövzuları qələmə alır, insan faciələrinin səbəbini sinfi mahiyyətdə deyil, insan-mühit paralelində axtarır, əxlaqi-mənəvi dəyərləri təhdid edən “kabus”dan xilas yolunu romantik-fəlsəfi düşüncələri ilə tapmağa çalışırdı. Onun bolşevizm ideallarına ötəri də olsa münasibət bildirməməsi, sosializmin “nailiyyətlərindən” yazmağı özünə rəva görməməsi, Stalini mədh etməkdən boyun qaçırması rejim tərəfindən sakitliklə qarşılana bilməzdi. H.Cavid “müasirlikdən qaçan”, “yeni həyatın işıqlı mənasını anlaya bilməyən”, “ideya-məfkurə cəhətdən geridə qalan” sənətkar kimi damğalanıb tənqid atəşinə tutulurdu. Azərbaycan romantizminin böyük təmsilçisi "əks-inqilabi əlaqələr saxlamaq", "müsavatçılarla yaxınlıq”, “casusluq” kimi saxta ittihamlarla həbs edilərək Sibirə sürgün edildi və 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində həlak oldu.

Xalq artisti Mehdi Məmmədov Hüseyn Cavid haqqındakı xatirələrində belə bir əhvalatı xatırladır: 1932-ci ilin sonunda “Şeyx Sənan” pyesini yeni quruluşda tamaşaya qoymaq üçün hazırlıq gedir. Lakin bir sıra başabəla nəzəriyyəçilərin “kəramət”indən belə bir “nəzəriyyə” yaranmışdı ki, müasir teatrda komediya ola bilməz, guya, ona görə ki, sovet cəmiyyətində kimə və nəyə güləcəksən?! Faciə də ola bilməz. Ona görə ki, sovet tamaşaçılarını bədbinliyə düşürmək və ağlatmaq yaramaz. Görünür, bu “nəzəriyyəyə” istinad və riayət edərək teatrın rəhbərliyi Caviddən tələb edirdi ki, “Şeyx Sənan” bu dəfə yeni quruluşda tamaşaçılara göstəriləndə onun qəhrəmanları əsərin sonunda ölməsinlər, qaçıb qurtarsınlar. Müəllif isə buna razılıq vermirdi. Neçə gün davam edən mübahisələr Cavidi cana doydurmuşdu. Bir gün texnikuma dərsə gələndə biz onu haldan-təbdən çıxmış, rəngi ağarmış, son dərəcə əsəbi vəziyyətdə gördük... Bir neçə yerdən cırılmış “Şeyx Sənan” pyesini mizin üstünə tullayıb əyləşdi, bir əlini çəliyinə, o birini geniş alnına söykəyib

uzun sükuta daldı. Sonra, sanki özü-özü ilə danışır kimi dodaqaltı qırıq cümlələrlə dilə gəldi:

*"– Başa sala bilmirəm. Qandıra bilmirəm ki, komediya komediyadır. Faciə də faciə... Başa düşmürlər ki, faciə faciə kimi də bitməlidir... Getdim, axtardım, tapdım... axırda Marksdan da misal göstərdim, amma yenə başa sala bilmədim ki, bilmədim... "Cahilləşmiş beyinlər!" – deyib çıxdım..."* [50, s.353-369] Bu xatirədən də aydın görünür ki, H.Cavid rejimin sənətə istismarçı münasibətini qəbul edə bilmədiyi kimi, rejim də onun azad yaradıcılıq qayəsini qəbul və həzm edə bilmirdi və bu halda böyük sənətkarın cəmiyyətdən təcrid edilməsi "qaçılmaz" idi.

H.Caviddən fərqli olaraq C.Cabbarlı cəmiyyətdə gedən prosesləri və həmin proseslərin doğurduğu sosial-ictimai münasibətləri ədəbiyyata gətirsə də, o da problemin dramaturji həllini proletarlaşma təmayülündən yan keçərək, sırf sənət mövqeyindən axtarırdı. Əqidəcə istiqlalçı olan C.Cabbarlı *"... Nizami, Şekspir, Axundov, Dostoyevski, Cavid kimi var-dövlət və mənəviyyat qarşıdurmasına, sosial determinizm və ictimai azadlıq əksliyinə müraciət edir və problemi öz dövrünün və öz mühitinin rəngində, konkret təzahürlərində qələmə alırdı".* [114, s.97] O, "Sifarişlə sənət olmaz!" – fikrini dilinə gətirməkdən çəkinmir, *"hadisələr dünyasının mülayim keçidlərindən, kiçik çətinliklər və məqsədyönlü əməli fəaliyyətin uzlaşdırılmasından deyil, böyük maneələr və onları dəf edən böyük ehtirasların mübarizəsindən bəhs edirdi"*. [114, s.104] Onun "Od gəlini"ndə keçmiş, "Sevil", "Almaz" kimi əsərlərində isə bugünkü cəmiyyətin kataklizmləri, ziddiyyətləri açılıb göstərilir və bu zaman dramaturq həyat mübarizələrni əks etdirən obrazlardan hər hansı birinin tərəfini saxlamır, son hökmü, qərarı oxucunun, tamaşaçının ixtiyarına buraxırdı. Təbii ki, sənətkarın belə mövqeyi rejimi razı salmır və o, tənqid və təhdidlərlə izləşirdi. C.Cabbarlının ilk həbsi 1923-cü ilin iyununda, Bakı Dövlət Universiteti Tibb fakültəsinin ikinci kursunda oxuduğu vaxtlara, ikinci həbsi isə həmin ilin oktyabrında baş verdi. C.Cabbarlının həyat və yaradıcılığını tədqiq etmiş professor Asif Rüstəmli yazır: *"Cəfərin ədəbi şəxsiyyəti"ndən yazan kamera yoldaşı Əbdül Vahab qeyd edirdi ki, Cəfərin üzərində iki cür təzyiq vardı; birincisi onu siyasi fəaliyyətdən kənarlaşdırmaq, ikincisi isə milli istiqlal məfkurəsindən uzaqlaşdıraraq sovet ədibi*

*etmək qayəsi. Bu ikinci təzyiq Cəfərin son gününə qədər davam etmiş və nəhayət ölümü ilə nəticələnmişdir...”.* [184, s.133-134] C.Cabbarlının həbs edilməsi və işgəncələrə məruz qalması barədə qızı Gülarə Cabbarlı isə belə yazır: *“Atamı həmişə pantürkizmdə günahlandıraraq onu həbs etmək üçün məqam axtarmışlar. 1923-cü ildə onu bir neçə dəfə təhlükəsizlik orqanlarına çağırmışlar. Orada 2-3 ay əzab-əziyyətlər vermişlər. Atamın “Ədirnə fəthi” və “Ulduz” (“Trablis müharibəsi”) əsərlərində Türkiyə gənclərinin azadlıq uğrunda mübarizəsi əsas yer tutur. Elə buna görə də ona amansız işgəncələr vermişlər. Bütün bu və digər məsələlərlə bağlı təqiblərdən, əzab-əziyyətlərdən qorxmayan, usanmayan atam heç bir dostunun adını çəkməmişdir. Tutarlı faktlar tapmasalar da, atamı daim incitmişlər. Bəlkə də onun az yaşamasına səbəb elə bu təqiblər olmuşdur.”* [249] C.Cabbarlı 35 yaşında, qəflətən, müəmmalı şəkildə vəfat etmişdir.

Sənət və həyat məsələlərinə müstəqil baxışı ilə fərqlənənlərdən biri də Sabir satira məktəbinin sadiq davamçısı Səməd Mənsur idi. O, yaradıcılığının əvvəlki dövrlərində olduğu kimi sovet dönəmində də neqativ halları çəkinmədən tənqid atəşinə tutur, sovet quruluşu ilə köhnə quruluş arasında mahiyyətcə bir fərq görmədiyini cəsarətlə dilə gətirirdi:

*Gərçi bizlər elədik qibleyi-aləm tərkin,*
*Təzədən xan, bəy, ağa sizdə də var, bizdə də var.*
*Müstəbidlik bəşərin mayeyi-zatində imiş,*
*Qan içən Sümri-dağa sizdə də var, bizdə də var.*
*Derlər: “Ərzi-bəşər axır olacaqdır cənnət”,*
*Böylə bir zənni-xəta sizdə də var, bizdə də var.* [202, s.24]

S.Mənsur rus-bolşevik hakimiyyətinin siyasi kələklərini yaxşı başa düşür və cəsarətlə yazırdı:

*Dedim azad olaraq şad olallım,*
*.... Bilmədik bir daha bərbad olarız.* [ 202, s.27]

Şairin milli azadlıq, haqq-ədalət ideya-məfkurəsi onun 1925-ci ildə yazdığı “Bacıoğlunun dayıya ərizəsi” və “Dayının bacıoğluya cavabı” şeirlərində bütün qabarıqlığı ilə əksini tapır. Bu şeirlərdə Azərbaycanın var-dövlətini hərraca çıxarıb

Mərkəzlə sövdələşmə aparan yerli bolşeviklərin xalqa xəyanəti və Mərkəzin həmin satqınlar qarşısında daha sərt tələblər qoyan müstəmləkəçi siyasəti ifşa olunur. Bacıoğlu (Azərbaycan ) Dayıya (Rusiyaya) "ərizəsində" belə deyir:

*Ay dayı, gəl bölşək, hər nə ki, var vəlvələsiz,*
*Mən cəsarətsiz uşaq, sən kələmərd, hövsələsiz.*
*Yer mənim, lehmə mənim, vışka mənim, neft sənin,*
*Beləliklə, düzələr, müşkül işi hər kəsənin.*

*Mənim olsun suları, çayları bu dəryanın,*
*Balığı, ikrası olsun, a dayı, qurbanın.*
*Muğanın çölləri, səhrası mənim, arxı mənim,*
*Pambığı al, sənin olsun, kim olar söz deyənin?*
*O dəmir yollarının altı mənim, üstü sənin,*
*Yük vaqonları, klaslar, paravoz, tüstü sənin.* [202, s.35]

Bu sövdələşmədə "bacıoğlunun" "mən salim olum, cümlə-cahan batsa da, batsın" (M.Ə.Sabir) niyyəti də aşikardır:

*Can dayı, səndən ufaq bir diləyim var mənim,*
*Mən ölüm sanma ki, başqa kələyim var mənim.*
*Mənə bir avtomobil, bir gözəl ev, bir kabinet,*
*Ver ki, daim eləyim, əmrinə qul tək xidmət,*
*Bizim el qorxma, yatıbdır, yeri rahatdır, ona*
*Ona gəl dəyməyinən, bir yekə minnətdir ona.* [202, s.36]

Dayı bacıoğlunun arzusunu "əbləhanə bir xəyalat" adlandırır, Azərbaycanda hər nə varsa ona məxsus olması barədə hökm verir və əgər bu tələbə əməl etməzsə, cavab verməli olacağı ilə hədələyir: *"... Sözümə baxmasan onda çəkərəm Moskvaya, Səni də bənd edərəm adı görünməz yuvaya"*. [69, s. 54-55]

Heç şübhəsiz ki, ədəbi tənqiddə qeyd edildiyi kimi, *"...rəsmi-inzibati idarəçilik sistemi Səməd Mənsuru, öz əcəli ilə bu dünyanı tərk eləməsəydi, ya güllələməli, ya da Sibirdə çürütməli idi... "* [53, s. 37] Lakin xalq yazıçısı Anarın qeyd etdiyi kimi, rejim, quruluş *"Səməd Mənsurdan məhbəslə, sürgünlə, gülləylə hayıf çıxa bilməsə də,*

*onu başqa bir cəzaya məhkum etdi – unuduluşa. Guya heç bu adda adam olmayıb. Guya heç bu adda şair yazıb yaratmayıb"*. [202, s. 20]

Dördüncü məqam. Stalin epoxasında ədəbiyyata gələn və yaradıcılıqlarını ideya-məfkurə cəhətdən zamanın tələblərinə uyğunlaşdıran sənətkarlar (Süleyman Rüstəm, Mehdi Hüseyn, Səməd Vurğun, Məmməd Rahim, Mikayıl Müşfiq, Əbülhəsən Ələkbərzadə, Rəsul Rza, Əli Vəliyev və b.) "məfkurəvi əyintilərə" və "yanlış hərəkətlərə" yol verməməyə çalışaraq sosializm quruculuğu uğrunda mübarizəni təsvir və tərənnüm edir, sanki bir-birilə yarışaraq Lenin, Stalin, Oktyabr inqilabı, partiya, komsomol, Qızıl Moskva, 26-lar haqqında daha yaxşı əsərlər yazmağa çalışırdılar. Bu meylin get-gedə, xüsusən də 30-40-cı illərdə güclənməsinin bir-neçə mühüm səbəbi vardı:

Birinci səbəb: "Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında" qərarının qəbul edilməsindən sonra (1925) rejimin ədəbiyyata nəzarətini gücləndirməsi, yaxud, akademik N.Cəfərovun təbirincə desək, total qorxu hissinin cəmiyyətdə "idarəçilik silahı"na çevrilməsi. Bu dövrdən etibarən sənətdə ziyanlı meyillərə qarşı mübarizə adı altında "sənətkarın yenidən qurulması" daha ciddi surətdə izlənilir və buna müvafiq olaraq dövrün ədəbiyyatında, Məmməd Arifin qeyd etdiyi kimi, o zamankı sinfi mübarizənin, həyatın hər tərəfində özünü göstərən inqilabi dəyişikliyin, coşqun inqilabi hərəkatın inikası tamamilə təbii idi. [23, s.217] Yeri gəlmişkən, M.Müşfiqin "Ah, mən gündən-günə bu gözəlləşən İşıqlı dünyadan necə əl çəkim?" misraları ilə başlanan "Həyat sevgisi" şeirinin meydana gəlmə səbəbinin "ictimai mühitin başı üzərindəki qara buludların getdikcə sıxlaşması" ilə əlaqələndirilməsi tamamilə məntiqə uyğundur. Akademik B.Nəbiyev şeirin mətnindən və mətnaltı mənasından çıxış edərək yazır: *"Şair özünün həbsindən... əvvəl ölkənin, ictimai mühitin başı üzərində ədalətsizliyin qara buludlarının getdikcə sıxlaşdığını görür, sağında-solunda baş verən faciələr onu bir sənətkar kimi daxilən sarsıdırdı. O, ...hiss etmiş və başa düşmüşdü ki, səadət çapqınçıları onun özünün də ömür karvanını tezliklə talan edəcəklər. Bax, bu əhval-ruhiyyənin məhsulu olan həmin şeir vətənin, xalqın sadiq övladları olub Stalin-Bağırov repressiyasının güdazına gedən on minlərlə cəfakeşin dilindən yazılmış vida mahnısı idi"*. [170, s.16-

17] Həqiqətən də, həmin illərdə H.Cavid, T.Şahbazi, M.Müşviq, Ə.Cavad, Ə.Nazim, A.Şaiq və b. “millətçi əksinqilabi təşkilatın üzvləri” kimi zindanlara salındılar. Deməli, hədəfə çevrilməmək üçün partiyalı əsərlər yazmaq, siyasi rejimin razı salmaq lazım idi.

İkinci səbəb: Onlar sovet ideologiyasına inanır, hakimiyyətin ədəbiyyatda yeniləşmə tələblərini cəmiyyətə daha yaxşı fayda vermək tələbləri kimi qiymətləndirir, *“dəstədən geri qalmamaq üçün Leninin kitablarına baxır”, “fəhlə və kəndli hökumətinin məfkurəvi bədii təfəkkür sistemini, ideoloji sənətini,... yeni proletar mədəniyyətini yaratmaq işinə ürəkdən xidmət edirdilər”* [132, s.29-30]

Üçüncü səbəb: *“...İctimai-estetik təfəkkürün ənənəvi məcrasına sığmayan dağıdıcı-yaradıcı prosesləri əks etdirmək üçün yeni ədəbi sistemlər, bədii ifadə yolları, doğulmaqda və formalaşmaqda olan gerçəkliyi ehtiva edə bilən yeni estetik biçimlər tələb olunurdu. İyirminci illərdən başlanan ədəbi axtarışlar tezliklə öz bəhrəsini verdi, zamanın estetikasında epos üstünlük təşkil etməyə başladı. Epik janrlar – poeziyada mənzum roman, poema, lirik və dramatik poemalar, balladalar, nəsrdə isə – roman, povest, dilogiya, trilogiya, epopeyalar dəbi geniş yayıldı... İyirminci illərin ortalarından qırxıncı illərə qədər hər milli ədəbiyyatda az qala bir neçə əsrə yetən epik əsərlər yaranmışdı... Başqa qardaş ədəbiyyatlarda, xüsusən, o dövrdə estetik təcrübə və yeniliklərin mənbəyi olan rus ədəbiyyatında da, təxminən bu cür mənzərə yaranmışdı.* [132, s.58-59]

Beləliklə, bu səbəblər, partiyalı əsərlər yaradıcılığı tendensiyasına, “Sistemin müstəqil bədii düşüncə sahibləri kimi tanınmış Anna Axmatovaya şeir yazdırıb “Stalin hardadır, orda azadlıq var!” dedirtməsi, Mixail Bulqakova Koba haqqında pyes yazdırması məqamı” [61, s.29] kimi baxmağı da rədd etmir. Çünki həmin sənətkarlar, Mixail Zoşşenko, Boris Posternak və digər şair və yazıçılar kimi “sosrealizm” metodunun tələbləri əsasında yazıb yaratmır, cəmiyyətdə gedən proseslərə həssaslıqla yanaşır, yeri gəldikcə sətiraltı ifadələrlə, rəmzlərlə, simvolik obrazlarla, müxtəlif xarakterik detal və ştrixlərlə, bir sözlə, “ezop dili” ilə mövcud siyasi rejimə münasibət bildirməyə cəhd edirdilər. S.Vurğunun “Vaqif” pyesində sənətkarı doğma ana dilində yazmağa, hökmdar, “qanun qorxusu” qarşısında ədəbi

vicdanını əyməməyə səsləməsi, S.Rüstəmin parçalanmış xalqımızın kədər və həsrətini ifadə edən “Cənub şeirləri” və s. həmin cəhdlərin nəticəsi, təzahürü idi. Bu təzadlı vəziyyət sənətkar mövqeyinə sovet ideologiyasına sadəlövhcəsinə inam, çap oluna bilmək, ad-san qayğıları barədə düşünmək və s. kimi nöqteyi-nəzərlərdən daha öncə rejimin qada-bəlasından özünü sığortalamaq, “ölüm ya olum” nöqteyi-nəzərindən baxmağı zəruri edir. Elə adlarını çəkdiyimiz sənətkarların da başı üzərindən az “qara yellər” əsməmiş, “Partiyanın tarixi qərar və göstərişlərindən lazımi nəticə çıxarmadıqlarına, öz yaradıcılıq işlərini bu göstərişlərə uyğun surətdə yenidən qurmadıqlarına və müasir mövzularda əhəmiyyətli əsərlər yaratmadıqlarına” görə ciddi tənqidə məruz qalmışdılar. Bir sözlə, proletar diktatura idarəçiliyindən (1920-1924) Stalin avtoritar idarəetmə rejiminə (1924-1953) keçid, insan hüquq və azadlıqlarının daha sürəkli şəkildə boğulması və buna qarşılıq olaraq kommunist siyasi riyakarlığına etiraz əhval-ruhiyyəsinin artması 1930-cu illərdən başlayaraq rejimi vətəndaş təqibini gücləndirməyə və hər cür “solçu”, müstəqil düşüncəyə qarşı daha masştablı repressiyalara başlamağa vadar etdi. 1937-ci ildə, Moskvada keçirilən ÜKP MK-nin qurultayında Stalinin öz “Sosializm quruculuğu yolunda sinfi mübarizəni kəskinləşdirmək” doktrinasını təkrar edərək “Partiya işindəki çatışmamazlıqlar və trotskiçilərlə, ikiüzlülərin aradan qaldırılması barədə” məruzə ilə çıxış etdikdən sonra isə “təmizləmə” prosesi pik həddinə çatdı. O cümlədən minlərlə elm, incəsənət, ədəbiyyat xadimi məhv edildi. Hacı Kərim Sanılı (1878-1937), Hüseyn Cavid (1882-1941), Əhməd Cavad (1892-1937), Mikayıl Müşfiq (1908-1937), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Böyükağa Talıblı (1897-1938) kimi onlarla istedadlı Azərbaycan sənətkarı, Salman Mümtaz (1884-1941), Seyid Hüseyn (1887-1938), Bəkir Çobanzadə (1893-1937), Vəli Xuluflu (1894-1937), Hacıbaba Nəzərli (1895-1934), Mikayıl Rəfili (1905-1958), Əli Nazim (1906-1941), Mehdi Hüseyn (1909-1965) kimi neçə-neçə dəyərli ədəbiyyatşünas-alimlərimiz, Abbas Mirzə Şərifzadəyə, Ülvi Rəcəb kimi əvəzsiz teatr xadimlərimiz müxtəlif bəhanələrlə amansızcasına cəzalandırıldılar. Ümumiyyətlə, sonradan aparılan hesablamalara görə 1937-1938-ci repressiya illərində 3,2 milyonluq Azərbaycan xalqı 80-120 min nəfər arası itki vermişdir ki, onlardan böyük əksəriyyəti elmimizin, incəsənətimizin,

ədəbiyyatımızın nümayəndələri və digər sahələrdə çalışan ziyalılar idi. Şair, yazıçı və publisistlər əsasən həqiqəti yazmağa cəhd etdiklərinə, saxta "donos"larla yaradıcılıq axtarışları, prinsipləri, baxışları şübhə doğurduqlarına görə "əksinqilabi fəaiiyyət", "millətçi", "trotskisist", "pantürkist", "panislamist" və s. damğalarla təqib edilb cəzalandırılırdılar. Eyni zamanda, repressiya qurbanlarının əsərlərinin yayılmasının qarşısı alınır, ailə üzvləri zindanlara atılır, sürgün edilirdi. M.Ə.Rəsulzadənin 18 yaşlı oğlu Rəsulun ölüm hökmünə, Bəkir Çobanzadənin həyat yoldaşı, Bakı Opera Teatrının aktrisası Ruqiyyə Abdulinanın 8 il müddətinə əmək düşərgəsinə məhkum olunması, Ə.Cavadın arvadı Şükriyyə xanımın Qazaxstana, S.Hüseynin həyat yoldaşı Ümgülsüm xanıma Sibirə sürgün edilməsi, M.Müşfiqin bütün ailə üzvlərinin (arvadı Dilbər Axundzadənin, bacıları Böyükxanımla Balacaxanımın) repressiya qurbanlarına çevrilməsi və s. kimi çoxsaylı faktlar siyasi rejimin qəddarlıq xislətini təsdiq edən faktlardandır. O qanlı-qadalı illəri xatırlayan Ə.Mirəhmədov yazır: *"Mədəniyyətin qaymağı"nı məhv edəndən sonra bütün filologiya elmini başsız qoydular və ədəbi gənclik öz istiqamətini 180 dərəcə dəyişdirməli oldu... Və odur ki, bütün ədəbiyyat tarixini başqa cür yazdıq, hətta klassiklərə münasibəti də dəyişdik. Böyük mütəfəkkir ədib Əlibəy Hüseynzadə xalqın "böyük düşmənlərindən" birinə çevrildi..."*. [159] Stalinin ölümündən sonra aparılan istintaq əməliyyatlarında "təmizləmə" sırasına düşən repressiya qurbanlarının əksəriyyətinin günahının təsdiq edilməməsi aşkarlandı. "Azərbaycan SSR-nin prokuroru Adil Babayev 1955-ci ildə Azərbaycan Kommunist Partiyasın MK-nin birinci katibi İmam Mustafayevə təqdim etdiyi arayışda həmin dövrü belə təsvir edirdi: *"XDİK-nın məlumatlarına əsasən Azərbaycan əhalisinin bütün təbəqələri əksinqilabi fəaliyyətə cəlb edilib, fərqli əksinqilabi təşkilatlara üzv olublar. Köhnə yeraltı fəaliyyət göstərən partiya işçiləri Sovet İttifaqının düşməni elan edilirdilər, partiya rəhbərləri və sovet işçiləri çox asanlıqla elə yolüstü bir-birlərini fərqli əksinqilabi təşkilatlara cəlb edirdilər, ermənilər müsavatçı olurdular, rus fəhlələri Azərbaycanda burjua-millətçi hakimiyyətin qurulması uğrunda mübarizə aparırdılar, yaşlı, əldən düşmüş professorlar isə terrorçu qruplaşmaların döyüşçüləri kimi qeyd olunurdular. Bəzi XDİK işçilərinin siyasi və mədəni biliklərinin çox az olması həbs olunanların gülünc*

*ittihamlarla təqsirləndirilmələrinə gətirib çıxarırdı. Misal üçün, kefiyyətsiz muxamor kağızının istehsalına görə ziyanvericilik etmək, arabanın təkərinin ziyanvericiliklə qırılması, Azərbaycanın ZSFSR-dan ayrılıb müttəfiq respublikaya çevrilməsi və nəhayət Azərbaycan Dövlət Universitetinin dövlətdən ayrılması ittihamları... və s."* [237, s. 113]

Stalin öz repressiv forma-idarəçiliyini ölümünə qədər davam etdirdi. Səməd Vurğunun "İnsan" (1945) fəlsəfi dramının dar kommunist təfəkkürü ilə dərk edilib kəskin tənqid obyektinə çevrilməsi, 200 mindən artıq azərbaycanlının qədim ata-baba yurdundan – indiki Ermənistan ərazisindən deportasiya edilməsi (1948-50-ci illər), Şeyx Şamil fəaliyyətini araşdırdığına görə görkəmli filosov Heydər Hüseynovun qətlə yetirilməsi, V.V.Bartoldun tərcüməsində "Dədə Qorqud"u rusca nəşrə hazırlayan ziyalıların (H.Araslı, M.Təhmasib və b.) tənqid və təqiblərə məruz qalması, Azərbaycan KP MK-nin I katibi İmam Mustafayevlə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri Mirzə İbrahimovun Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi barədə qərar qəbul edildiyinə görə vəzifələrindən çıxarılmaları və s. kimi bədnam olaylar bilavasitə totalitar sistemin mahiyyətini açıb ifşa edən faktların cüzi bir qismidir.

Təbii ki, milli ədəbiyyatımız cəmiyyətdə baş verən kataklizm və ziddiyyətlərə, zehni-mənəvi soyqırıma biganə qala bilməzdi. Sovet totalitar sisteminin, despot idarəçiliyinin törətdiyi ağır cinayətlər, bu cinayətlərin qurbanı olan insanların faciəvi taleləri zaman-zaman ədəbiyyata gətirilmiş, müxtəlif forma və janrlarda yaradılan əsərlər vasitəsilə ədəbi yaddaşa köçürülmüşdür. "Qırmızı imperiya"nın, Stalin diktaturasının açıq şəkildə bədii ifşasının ilk dalğası elə 20-ci illərdən mühacirət ədəbiyyatından (M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, A.İldırım, N.Şeyxzamanlı, C.Hacıbəyli, M.Altunbay, A.M.Dağlı və başqalarının xatirələrində, bədii və publisist əsərlərində) görünməyə başlasa da, Stalin şəxsiyyətinə pərəstişliyin ifşasından sonra Azərbaycanda yaşayıb yaradan sənətkarların yaradıcılığında, ən müxtəlif forma və janrlarda (R.Rzanın "Qızıl gül olmayaydı" poeması, M.İbrahimovun "Böyük dayaq", M.Hüseynin "Yeraltı çaylar dənizə axır", F.Kərimzadənin "Vedinin yanı dağlar", Ə.Cəfərzadənin "Xəzərin göz yaşları", M.Orucun "Köçürülmə", Ç.Ələkbərzadənin

"Dünyünın qopduğu yer", H.Abbaszadənin "Qayıdanlardan biri", İ.Şıxlının "Ölən dünyam", Elçinin "Ağ dəvə" və "Ölüm hökmü" romanları, Ş.Qurbanovun "Sənsiz" dramı, Anarın "O gecənin səhəri" hekayəsi və s.) geniş ifadəsini tapa bilmişdir.

Azərbaycan ədəbiyyatında repressiya qurbanları mövzusunda yazılmış dəyərli əsərlərdən biri Rəsul Rzanın Azərbaycanın istedadlı şairi Mikayıl Müşfiqə həsr etdiyi "Qızılgül olmayaydı" poemasıdır. Məlumdur ki, "Qızılgül olmayaydı..." və "Bağçamızda sarı gül..." misraları ilə başlayan məşhur xalq bayatılarımızda qızılgülün tez açılıb, tez solması həyatdan nakam köçən novcavanların taleyi kimi rəmzləşdirililmişdir. Şair də öz qəhrəmanının taleyini qızılgül taleyinə bənzədərək əsərinə ad vermişdir: M.Müşfiq ömrünün baharında, gənclik eşqi ilə sevib-sevilən, yaradıcılığının "hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham" çağlarında, 29 yaşında qəddar rejimin qurbanı olmuşdur.

"Qızılgül olmayaydı" poeması M.Müşfiqin könül dünyasına işıq salmaqla yanaşı, onu vaxtsız solduran repressiya mühitinin, qəddar siyasi rejimin naqisliyini ifşa edir, azad-asudə yaşayıb-yaratmaq istəyən insanla onun arzu və diləkləri qarşısında sipər çəkən, səsini boğan cəmiyyət arasındakı barışmaz ziddiyyətlərin mahiyyətinə aydınlıq gətirir.

"Dərd nələr, nələr etmir adamla!..." (Poemanın təhlili zamanı dırnaqda işlədilən ifadələr həmin əsərin mətnindən götürülmüşdür.) Dərd dözülməz olanda "nəhayətsiz, amansız, köz kimi yandıran sükut" gətirər, iztirab və ağrıları o "daş kimi sükutun arxasında gizlədər", "gözlər göz yaşına həsrət qalar", "arzular, ümidlər, sözlər o gileyli gözlərin fəryad alovlarında yanıb külə dönər"... R.Rza öz poemasını qanlı-qadalı zamanın ağrılı yaşantıları haqqında təsəvvür yaradan belə fikirlərlə başlayır. Onu bu kimi qəmli-kədərli düşüncələrə dalmağa vadar edən repressiya illərinin faciələrini taleyində yaşayan və cəmiyyətin verdiyi əzablar üzündən vaxtsız qocalıb tanınmaz hala düşmüş Dilbərlə − bir zamanlar dostluq etdiyi Müşfiqin sevgilisi, həyat yoldaşı ilə görüşü, onun quyuya düşmüş gözlərindən boylanan "Niyə belə oldu?", "Müşfiq nə üstündə güllələndi?" sualları və bu həyəcanlı anlarda yaddaşında canlanan həzin, kövrək xatirələrdir. Dilin susduğu məqamda hisslər, duyğular, xatirələr danışar, − bu qanunauyğunluq əsərin bədii formasını təyin edir:

“Qızılgül olmayaydı” əvvəldən axıradək kədərli xatirə-poema, olub keçənlər haqqında şahid hekayəti, ağır faciəyə rekviyem təsiri bağışlayır.

Şairin xatirələrindən belə məlum olur ki, o, Müşfiqlə nəinki eyni dövrdə yaşayıb-yaratmış, cəmiyyətin naqisliyini duymuş, iztirab və qayğılar çəkmiş, hətta “Gənc işçi”də çiyin-çiyinə çalışdıqları vaxtdan ayrılmaz dost olmuşdur. R.Rza o illəri “fırtınalı illər” adlandırır:

*O gün,*
*tanış olanda biz,*
*orda*
*bir taleyi kür*
*şair də vardı.*
*Tez qızar, tez soyuyardı.*
*İndi yoxdur o da.*
*Fırtınalı illər onu*
*yaralı ov kimi*
*qabağına qatdı.*
*Ömrünü parça-parça,*
*tikə-tikə qopartdı.*
*Vətən xaini dedilər adına.*
*Min bir ləkə yaxdılar*
*özünə, əcdadına.* [187, c.4, s.223-224]

Şairin hekayətindən o da aydın olur ki, “fırtınalı illər”də “ömrü parça-parça, tikə-tikə qoparılıb” “Vətən xaini” ittihamı ilə qətlə yetirilənlər, əslində, Vətənə ürəklə xidmət edənlər, onun istiqlalına sadiq olanlar idi. Rejim, hər şeydən öncə, belələrinin azad sözündən, kəsərli qələmindən çəkinir, qətlinə fərman verirdi:

*Dostlarımızdan biri də*
*Sözü duzlu, şirin.*
*Ancaq tez atdı,*
*daşın şeirin.*
*Gözə tez-tez dəymədi adı.*

*Bəlkə elə bu da onu*

*o bəlalı illərin*

*tufanından saxladı.* [187, c.4, s.224-225]

Şair istibdad rejiminin "sənəti yumruqla, ilhamı zirzəmilə qorxutduğunu" xatırladır:

*Bir də gördün ,*

*əldə möhürlü mandat,*

*gəldi ədəbiyyat darğaları.*

*Bağırdılar:*

*−Hey, fa-ra-ğat!*

*Kim sıraya düzülmədi,*

*kim yarınmağın*

*kirli dilini bilmədi,*

*min bir bəla çəkdi başı.* [187, c.4, s.229]

Bu misralarda o dövrün keşməkeşlərini bir qələm adamı kimi yaşamaış R.Rzanın özünün də ürək çırpıntıları, hiss-həyəcanı duyulur. Şair fironluq idarə-üsulunun bir bayraq altına gətirilmiş millətlər, xalqlar tərəfindən deyil, "həyata, insana, sənətə qara gözlüklə baxan", "məsləksiz, amalsız darğalar" tərəfindən düşünülüb-yaradıldığını, bu "üsulun" cəmiyyətdə riyakarlıq, rüşvətxorluq, mənsəbpərəstlik, mərdiməzarlıq hallarını yaydığını, insani münasibətlərə pozucu təsir etdiyini açıqlayır. "Ədəbiyyat darğaları" ifadəsi ilə şair və yazıçıların yaradıcılığında müxtəlif "izmlər", "mürtəce əlamətlər" axtaran, o cümlədən sənətinə şər-böhtan atmaqla gənc Müşfiqin qətlinə hökm verilməsində rol oynayan təhrikçi tənqidçi-ədəbiyyatşünasları, şair və yazıçıları nişan verir. *"M.Müşfiqə ən böyük böhtan, iftira və qarayaxmalar o vaxtkı Azərbaycan Sovet Yazıçıları Cəmiyyətinin bir sıra üzvlərindən gəlmişdir".* [119, s.86] "Olsun ki, indi də bu sözlərə rəng vermək istəyənlər tapılar" − sözləri ilə cəmiyyətin hələ də diktatura idarə-üsulundan, "rütbə yolunda yorğalar"dan tamamilə xilas olmadığına işarə edir və hiss olunur ki, R.Rza bu həqiqətləri qələmə alarkən sözünün başına bəla ola biləcəyi gümanı ilə yenə də ehtiyatlanır.

Əsərdə Stalin siyasi rejiminin antihumanist mahiyyətinin açılması xətti Müşfiqin işıqlı obrazının yaradılması xətti ilə paralel şəkildə inkişaf etdirilir. Şair: “O, hamıdan sadəydi, hamıdan açıqürək”, “Dilindəydi çox zaman acığı, qəzəbi”, “Hərdən qızıb, bircə tikana görə bütün bağı söyərdi. Hərdən saxta bir gülüşə inanar, bədxahını öyərdi” və s. kimi misraları ilə qəhrəmanın mənəvi dünyasının ən incə məqamlarını əks etdirir. Lakin, diqqət yetirsək, bu kimi poetik lövhələrdə Müşfiqin sadəcə olaraq portret cizgilərinin əksini tapdığını deyil, həm də, düşünülmüş şəkildə, onun bitkin xarakterinin, sağlam şəxsi mənəvi keyfiyyətlərinin riyakarlıq, “donosçuluq” mühitində başına bəla olmasına bir işarə verildiyini anlayarıq. Məlumdur ki, “donosçuluq” əvvəldən axıradək sovet idarəçilik sisteminin əsas alətlərindən olmuş və bu eybəcərlik R.Rzadan xeyli əvvəl M.Ə.Rəsulzadə, Ə.Cavad, S.Mənsur və digər sənətkarlar tərəfindən lənətlənib ifşa edilmişdir. Əhməd Cavad yazırdı:

*Arpasın bölənməz iki ulağın,*
*Qapı dalındadır uzun qulağı.*
*Daldada gizlənib, danos yazmağı,*
*Üzdə sinəsinə vuranlara bax!* [46, s.263]

Yaxud Səməd Mənsur yaradıcı ziyalıların bir-biri ilə yola getməmələrini, çəkişmələrini, bir-birilərindən “donosçuluq” etmələrini və bu xislətin eybəcər mahiyyətini “Söyüşün, ey “nəcib”lər, söyüşün, “Fəxri-millət” ədiblər, söyüşün!” rədifli misraları ilə ümumiləşdirib satira atəşinə tuturdu. [202, s.53] Qeyd etməliyik ki, M.Müşfiq də S.Vurğun, S.Rüstəm, R.Rza və bir sıra başqaları kimi Leninə, Stalinə, partiyaya, 26-lara şeirlər həsr etmişdi. Hətta onun Stalin haqqındakı şeiri poetik ruhuna, sənətkarlıq xüsusiyyətlərinə və məzmununa görə o dövrdə Stalinə həsr olunmuş bütün əsərlərdən üstün hesab olunurdu:

*Cahan dairəsi bir üzük kimi*
*Üstünün ən böyük gövhəri sənsən*
*Tarixin darısqal keçidlərində*
*Bəşərin xilaskar rəhbəri sənsən!..* [2]

Lakin "rütbə üçün yorğalar", "donosçular" "ürəyi bahar kimi sadə, zəngin", "azad sözün, şeirin əsiri olan" coşqun təbiətli şairin "ələ verdiyi fürsəti" fövtə vermədilər.

*Bir axşamüstü*
*vədələşdik, ayrıldıq*
*− Sabah görüşərik, − deyə.*
*"Sabah" gəldi.*
*O gəlmədi.* [187, c.4, s.238-239]

İntizar içində dostunun yolunu gözləyən lirik qəhrəman repressiya illərində ev-ev, məhlə-məhlə dolaşan "O gəlmədi" kəlməsinin, gecə ikən evindən götürülüb qara maşınlarla aparılma hadisəsinin doğurduğu hiss-həyəcanın, qorxulu-dəhşətli fikrin təsir gücünü daha da artıran bədii ifadə vasitəsinə − təkrirə çevirir, ondan epifora kimi istifadə edir:

*Pəncərədən düşən işıq*
*divardan endi döşəməyə.*
*O gəlmədi.*
*Sinəmdə ürək*
*başladı üşüməyə.*
*O gəlmədi.*
*Fikirlərim pırtlaşdı,*
*oldu düyün-düyün.*
*O gəlmədi....* [187, c.4, s.239]

Poemada Dilbərin "quyuya düşmüş gözlərindən" boylanan "niyə belə oldu?", "Müşfiq nə üstündə güllələndi?" sualları kimi, "nəyə görə həbs olundu?" sualının da cavabı açıq qalır. Mətndən belə məlum olur ki, "gəlməyənlərin" divan-məhkəməsi qurulmamış, günahı, təqsiri bildirilməmişdir. Haqsızlığa, ədalətsizliyə görə "çığırmaq, bağırmaq" da olmurdu: rejim hamının səsini batırmışdı, hamı şübhə, qorxu içində saxlanılırdı, heç kimin gecə ikən qapısının döyülməyəcəyinə, sabaha salamat çıxacağına ümidi yox idi. Bu dövr, Səməd Mənsurun təbirincə desək, "Mircəlladın qanunları yumruğunda sıxıb dövran sürdüyü", "Xorenlərin iş başında

olduğu", "Səlim Petroviçlərin, Topuridzelərin, Markaryanların qalın pərdəli otaqlarda limonlu çay içə-içə "ölüm qərarı imzaladığı", "Borşovların dustaqxananı tez-tez doldurub boşaltdığı" bir dövr idi. Bu dövrün qurbanı tək Müşfiq deyildi, Seyid Hüseynlər, Anaşkinlər, Əhməd Cavadlar da dustaq yatır, hökmlərini gözləyirdilər, tanrısı "gözəllik və sevgi olan" Hüseyn Cavid "xalq düşməni" elan edilmişdi. "Mürəkkəb, vahiməli, təzadlı həyatı anlamaq çətin idi", "aşkarın da, sirrin də rəngi qarışmışdı". Adamlar "gedər-gəlməzə gömülməmək", "diri-diri sürgünlərdə itməmək barədə düşünürdü". "Qorxu adamların başı üstündən sivrilmiş qılınc kimi asılmışdı".

Beləliklə, poemanı oxuduqca gözlərimiz qarşısında dörd obraz (əsərin qəhrəmanı Müşfiqin, onun həyat yoldaşı Dilbərin, şairin özünün (lirik qəhrəmanın) və qəddar totalitar rejimin obrazları) canlanır. Müəllif hər dörd obrazın daxili aləminə və mahiyyətinə işıq salmaqla kifayətlənmir, həm də onların arasındakı əlaqə və münasibətləri qələmə alır. Dövrün sosial-siyasi və mənəvi-psixoloji səciyyəsi bu tamlıq müstəvisində üzə çıxır. Şairin vətəndaş mövqeyini müəyyənləşdirən poetik fikir qatları totalitar sistemin mozaika arxasındakı eybəcərliyini, diktator idarə-üsulunun naqislik xislətini açıb göstərməyə xidmət edir. Poemada yeri gəldikcə Müşfiqin şeirlərinə müraciət əsərin dil-üslub xüsusiyyətinə də təsirsiz qalmır, RRza üslubu ilə M.Müşfiq üslubu arasında sanki bir yaxınlıq, ahəng oxşarlığı yaranır.

"Qızılgül olmayaydı" poemasının yazılma tarixindən bir neçə il sonra repressiv idarəçiliyin və onun faciəli nəticələrinin geniş epik təsvirinə bədii nəsrimizdə rast gəlinir. Mehdi Hüseynin "Qara daşlar" (1957-1958) və "Yeraltı çaylar dənizə axır" (1965-1967) əsərlərində kütləvi şəkildə insan qətllərinə rəvac verən yüksək çinli dövlət xadimlərinin (Stalin, Mir Cəfər Bağırov və b.) amansız cəllad obrazının cizgiləri cızılır.

"Yeraltı çaylar dənizə axır" [97] romanının baş qəhrəmanı sovet ideologiyasına, siyasi rejimin başında duran Stalinə və onun Azərbaycandakı təmsilçisi Bağırova sidq ürəkdən inanan, qəlbi cəmiyyətin inkişafı naminə qurub-yaratmaq eşqilə çırpınan, lakin diktatura idarəçiliyinin ağır sınaqlara çəkərək məşəqqətlərə məhkum etdiyi insanların ümumiləşdirilmiş obrazı kimi təqdim edilən Səmirə Aydındır və əsər onun acı həyat hekayəti əsasında yazılmışdır, yəni təhkiyəçi

yazıçı qismində qəhrəmanın özüdür. Bu forma – üslub  repressiya illərinin ağrılı yaşantılarını, siyasi rejimin əlindən çəkilən əzab və iztirabları daha canlı, daha inandırıcı bir şəkildə əks etdirməyə imkan verməklə yanaşı, obrazın daxili aləminin, milli xarakter özəlliklərinin  incəliklə çözülməsini təmin etmişdir.

Hekayətdən belə məlum olur ki, İnşaat Materialları İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışan Səmirə böyük arzularla yaşayır. O, Bakıdakı yeraltı suların binalara təsirinin qarşısını almaq üçün bir yol tapmaq, "gizli" çayları dənizə axıda bilmək problemi barədə düşünür. (Romanın adı da elə bu arzu, məqsəddən götürülərək mənalandırılmışdır: yeraltı sular yaşayış binalarının özülünə dağıdıcı təsir göstərdiyi kimi əsil niyyəti, məqsədi aşkar olmayan qüsurlu idarəçilik də cəmiyyətin dayaqlarına dağıdıcı təsir göstərir, hər ikisinin aradan qaldırılması, kənarlaşdırılması vacibdir!) Səmirə, eyni zamanda, gənc anadır, iki qızının qayğıları ilə yaşayır. Lakin həm elmi-tədqiqat işləri ilə məşğul olmaq, həm də ailə qayğılarını çəkmək Səmirəyə asan başa gəlmir. Bu azmış kimi, əri Müdhət cəbhəyə yollanandan və ona "vətən xaini" damğası vurulub Uzaq Şimala sürgün olunandan sonra qadının vəziyyəti daha da ağırlaşır. İllah da, Müdhətdən aldığı vida məktubunda ərinin ona "ömrünü puç etməyib bir başqasına ərə getməyi" məsləhət görməsi bir etimadsızlıq kimi qəlbini incidir. Səmirənin, rejimin qoyduğu qaydalara görə, ərinin məktubu barədə partkoma və direktora məlumatı vəziyyəti daha da gərginləşdirir: "vətən xaini"nin arvadı partiya sıralarından çıxarılır, işdən qovulur, yaşadığı mənzil əlindən alınır. İnsanlar "vətən xaini"nin ailə üzvlərinə salam verməkdən belə çəkinirlər. Səmirə iki qızı və qaynanası ilə rütubətli bir zirzəmidə yaşamaq məcburiyyətində qalır, sarsıntılar keçirir, xəstəxanaya düşür. Ancaq dünya yaxşı adamlardan xali deyilmiş, çətin günlərdə cəbhədən qayıtmış məktəb yoldaşı, Müdhətin dostu Zəfərin və onun arvadı Tövsiyənin, qaynı Faiqin yalqız, köməksiz ailəyə əl tutması, onun sağalması üçün əlindən gələni əsirgəməyən Səidə həkimin, xəstəxanada tanış olduğu Kamranın, sürgünlükdə dərdləşdiyi Ceyranın mənəvi dəstəyi sayəsində Səmirə yenidən həyata bağlanır, nə sosial sıxıntılar, nə təzyiq və təqiblər onun iradəsini sındıra bilmir. Səmirə obrazı oxucunun nəzərində mühitdən gələn çətinlik və naqisliklərə baxmayaraq mənəvi ucalığını qorumağı bacaran bir obraz kimi  yüksəlir.

Əsərdə diqqət mərkəzində saxlanan obrazlardan biri Mir Cəfər Bağırovun prototipi Mollayev obrazıdır. O, əsərdə təsvir olunan qorxu, şübhə, inamsızlıq, mühitinin, bu mühitin insan münasibətlərinə, milli hissiyyat, əxlaq və düşüncəyə pozucu təsirinin səbəbkarı, baş diktatorun Azərbaycandakı təmsilçisi kimi təqdim olunur. Bu da maraqlıdır ki, Mollayev bir obraz kimi öz görkəmi, hərəkəti, danışığı ilə bir dəfə də olsa canlı şəkildə görünməsə də, süjet bounca baş verən sosial-ictimai hadisə və faciələr sanki onun nəzarəti altında, onun göstəriş və tapşırıqları əsasında baş verir. Başqa sözlə desək, yalnız başqalarının danışıq və xatirələrində adı çəkilən Mollayev obrazı əsərdə sovet repressiya maşınının kabusu qismində iştirak edir, hamı bu kabusun vahiməsini hiss edir, faciələrini yaşayır. Səmirənin partiya liderinə inamı, kor-koranə pərəstişi də bu prosesdə, tədricən sarsılır. Bu siyasi şüurun oyanışında müharibədə sağlamlığını itirmiş Zəfərin "vətən xaini"nin ailəsinə əl tutmasına görə cəzalandırılması, sürgünlükdə sənətçi Ceyranın Mollayevin vəhşi ehtirasları üzündən məşəqqətlərə düçar edilməsi və s. kimi ağlagəlməz olaylar mühüm rol oynayır. Əsərdəki epizodlardan birində Səmirə Mollayev barəsində tərəddüdlü münasibəti barədə fikir bildirəndə Ceyran nifrətlə belə deyir: "*... Bir zamanlar mən də onu müqəddəs adam hesab eləyirdim, Səmirə xanım. Ancaq gördüyüm, bildiyim şeylər məni qəflət yuxusundan oyatdı. Mən həmişəlik başa düşmüşəm ki, Mollayev öz kefi üçün tək-tək adamları yox, bütün xalqı da güdaza verə bilər!.. Bilirsiniz mən Bakıdan niyə uzaqlaşdırılmışam? Ona görə ki, gördüyüm, bildiyim acı həqiqət həmişəlik üstüörtülü qalsın, hamı da bu fikirdə olsun ki, Mollayev namuslu adamdır, onun sərtliyi də, qabalığı da cüzi qüsurlardır. Yox, yox, yox!..*" [97, s.255-256] Əsərin sonunda isə Ceyran Mollayevə olan qəzəbinin miqyasını Bağırovun məhkəməsi zamanı, "heç ibtidai savadı olmayan beş-üç nəfərin xalqın sonsuz bir məhəbbətlə sevdiyi söz ustalarını, şairləri, romançıları, yəni cəmiyyətimizin boya-başa çatdırdığı müstəsna istedadları güllələməsi", "zülmət və nadanlığın mədəniyyətə və işığa divan tutması", "xalqın ən müqəddəs duyğularına, ən saf arzu və istəklərinə xəyanəti" ilə əlaqələndirir.

Roman faciəvi tale yaşantılarının təsviri üzərində qurulsa da, nikbin sonluqla başa çatır: xeyir şər üzərində qələbə çalır; repressiya nəticəsində yurdundan pərən-

pərən düşmüş insanlar doğma el-obasına qayıdıb yeni həyata başlayırlar. Bununla belə, uzun illər davam edən Stalin-Bağırov diktatura idarəçiliyinin acı ibrət dərsləri heç vaxt tarixin yaddaşından silinməyəcək, xalqın qəzəbindən xilas olmayacaqdır – müəllifin əsərdəki başlıca ideya-məqsədi də bundan – humanist cəmiyyətə çağırışdan ibarətdir.

Anarın "O gecənin səhəri" (1964) adlı hekayəsi repressiya illərində yaşanan qorxu və nigarançılıq hisslərini canlı şəkildə təsvir və bədii ümumiləşdirmə gücü ilə diqqəti cəlb edir. Yazıçı həmin dövrdə Bakıda hökm sürən ictimai-psixoloji əhval-ruhiyyəni xarakterizə etmək üçün "qaranlığa qərq olmuş şəhərin" səksəkəli gecələrindən birində, cəmi səkkiz mənzildən ibarət dördmərtəbəli bir binada yaşanan bir anı, məqamı təsvir edir: gecənin bir aləmi, hamı yuxuda ikən bir maşının binanın qarşısında dayanması, ayaq səslərinin qapıların ağzından keçərək mərtəbə-mərtəbə yuxarı qalxması sakinləri vahiməyə salır – hamı qəfil gələnlərin kimisə götürüb-aparacağını düşünür və bu şübhə-gümandan heç kim söğortalanmayıb, öz qapısının döyülməyəcəyinə əmin deyil. Elə bu binada yaşamış, sakitliyi, mehribanlığı ilə seçilən bəstəkar Fərəc iki həftə əvvəl gecəykən aparılıb və "xalq düşməni" kimi qapısı möhürlənib; köhnə firqəçi Qurban kişi "filankəslə" ciddi toqquşmadan sonra mütləq cəzalandırılacağını düşünür; hətta makinaçı Səkinə bir hərif səhfinə yol verdiyinə görə, hətta donosçuluqla başını dolandıran Cavanşir balaca qızı Rənanın bəstəkar Fərəcin öyrətdiyi uşaq mahnısını oxuduğuna görə amansızcasına cəzalandırılacaqlarını fikirləşirlər. Bu anda hamının "Allah, sən özün xətadan saxla!" düşüncəsi ilə nəfəs çəkmədən nigarançılıq içində gözləməkdən savayı çarəsi yoxdur. Qorxudan heç kəsin bayıra çıxmağa, nə baş verməsi ilə maraqlanmağa da cəsarəti çatmır. Yazıçı bu ağır, üzücü dəqiqələrdə yaşanan hiss və həyəcanları təsvir edir, məhz bu yolla total qorxu hissinin cəmiyyəti idarəçilik üsuluna çevrilməsinin mahiyyətini açır.

Hekayə novellasayağı sonluqla tamamlanır. Gecə keçib səhər açılınca Domkom Bəşir qara vedrəsini və fırçasını götürüb növbəti qurbanın adını bina sakinlərinin sırasından qaralayıb-pozmaq istəyir. Bu anda gecə ikən qapısı döyülmüş Murad Zeynallının özü görünür. O, gecə yarısı qapısını döyənlərin təcili yardım

işçilərinin olduğunu, Fəridəni doğum evinə aparıldığını və bir oğlu olduğunu bildirir. Hekayənin belə gözlənilməz nikbin sonluqla bitməsi repressiya xofu barədəki oxucu təsəvvürünü nəinki yüngülləşdirmiş olur, əksinə, daha da dərinləşdirir: Stalin repressiyaları insanları elə stresə salıb, elə çaşdırıb ki, heç kəs gecə ikən kiminsə qapısının xeyirliyə döyülə biləcəyini ağlına belə gətirə bilmir.

Biz repressiya vahiməsini əks etdirən "qaranlıq gecə", "qəfil peyda olan qara maşın", "hansısa qapının "qara şinellilər" (yaxud "qara meşin gödəkçəlilər") tərəfindən bərk-bərk döyülməsi", insanların bu məqamda yalnız "gedər-gəlməz" haqqındakı həyəcanlı düşüncələri kimi təsvir, epizod və səhnələrə repressiya faciələrindən bəhs edən digər bədii əsərlərdə də rast gəlirik. Başqa sözlə desək, Stalin-Bağırov repressiyaları milli ədəbiyyatımıza "qara" anlayışı altında qorxunun, xofun, vahimənin, ayrılıq acısının, gedər-gəlməzliyin, diri-diri sürgünlərdə itib-çürüməyin, ölüm havasının, eləcə də özlərinin – qara niyyətli hakimiyyətin simvollarını gətirmişdir. Bu simvollarda "qara gecə"nin, "qara maşın"ın, "qara geyimli, qara niyyətli hakimiyyət adamları"nın xofu şər, böhtan, tiran, qəddarlıq qorxusu ilə eyniləşir, diktator rejiminin xislətini əks etdirir. Məsələn:

*Gedənlərdən neçəsi axşam evində*
*Yatıb, gecə getdi.*
*Gedənlər bilir gedən*
*gedəndə necə getdi.*
*Cavanlar vardı ki,*
*Qaynar suya düşmüş çiçək kimi*
*Soldular.*
*Qocalardan nə deyim*
*Əydilər, əyim-əyim.*
*Kimisi, getdi*
*bir də geri dönmədi qara maşına minib*
*Kimisi xoşbəxt oldu*
*əqlini itirib.* [187, c.4, s.240]

Yaxud, Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır" romanınında belə bir epizod var: sənətçi Ceyran xanım Mollayevin (Mollayev − əsərdə M.C.Bağırovun prototipidir – N.Q.) dəniz qırağındakı bağına dəvət edilir. Aktrisa südəmər uşağı olduğunu, səsinin yerində olmadığını bəhanə gətirib qonaqlıqdan imtina edir. Telefondakı qorxunc səs onun sözünü kəsir: "Sabah axşam saat yeddidə maşınla gəlib səni özüm aparacağam". Bu parçalardakı "qara maşınlar" professor Rüstəm Kamalın qeyd etdiyi kimi, repressiya tariximizin bir faktı, Stalin terrorunun əyani sübutu deyil, milli faciə-travma yaddaşımızın şəhadət simvoludur". Rüstəm Kamal "Ədəbiyyat qəzeti"ndə dərc etdirdiyi "Mir Cəfərin qara maşını" adlı publisist qeydlərində yazır: *"1930-cu illərdə Sovet cəza orqanlarının əsas nəqliyyat vasitəsi "emka"lar (QAZ M-1) idi, ona rusca "qara quzğunlar", "Marusya" da deyirdilər.*

*"Emka"lar haqqında mətnlərin Stalin dönəminin informasiya məkanında geniş dolaşması qətiyyən mümkün deyildi. Təsadüfi deyil ki, M.C.Bağırov, L.Beriya ilə bağlı əhvalatları yalnız onların ölümündən sonra danışmaq imkanı yarandı...*

*Böyük Terrorun qara maşınları əhalidə güclü xof-qorxu hissi yaratmışdı. Bu qorxu uşaqlara da keçmişdi. Deyilənlərə görə uşaqlar dustaqları aparan qara "Marusya"nı görən kimi, tində-bucaqda gizlənirdilər, qaçıb arxa həyətlərdə gözdən itirdilər. Analar ipə-sapa yatmayan, dəcəllik edən uşaqları da bu maşınla qorxudurdular. Şəhərdə şayiələr dolaşırdı ki, həmin qara maşınlarla uşaqları oğurlayırlar..."* [120] Gecənin qaranlığında, "qara quzğunlarda" gəlib adamları aparanlar Stalin idarəçilik aparatının tərkib hissəsi olan, sonradan DTK-nə çevrilən NKVD-nin əməkdaşları idilər. Azərbaycanda bu idarənin adını çəkməyə belə qorxur, onu ehtiyatla "dəniz qırağından gələnlər" ifadəsi ilə anladıb nişan verirdilər.

Şıxəli Qurbanovun 1960-cı illərin ortalarında qələmə aldığı "Sənsiz" dramının məhəbbət qəhrəmanları, bir-birlərini dəlicəsinə sevən Sevinclə Tərlan da siyasi rejim tərəfindən, özü də toy günü, ilk vüsal gecəsi ayrı salınır: "qəfil tormoz verən qara "quzğundan" düşüb gecənin qaranlığında "qapını bərk-bərk döyənlər" istedadlı bir geoloq olan Tərlanı sorğu-sualsız, yırtıcı bir ley sayağı çalıb aparırlar. Tərlan onun həbsinin bir səhv olduğunu və tezliklə qayıdacağını bildirib sevgilisini sakitləşdirməyə çalışsa da, bu ayrılıq uzun illərin həsrətinə çevrilir. Nakam sevgililər

yalnız 18 ildən – Tərlan "bəraət" qazandıqdan sonra yenidən qovuşa bilirlər. Müəllifin əsərə verdiyi orijinal dramatik quruluş və insanın daxili-mənəvi aləminə nüfuz bacarığı qəhrəmanların bu uzun müddətdəki hissi-psixoloji yaşantıların miqyasını əhatə etməyə imkan verir. Bu yaradıcılıq uğuru eyni zamanda, Tərlan, Sevinc, Fərhad, Maral kimi təmiz, namuslu, alicənab adamların insanı məhv edən, mənən sındıran, deformasiya edən repressiya mühitində şərəf və ləyaqətlərini qoruya bilməsinin sirrini açmış olur. İstər "bir gecəlik ərinin" gedər-gəlməzə aparıldığını anlayan, bununla belə əhdinə axıradək sadiq qalan Sevinc, istər ana torpağa qayıtmaq, sevgisinə qovuşmaq arzuları ilə sürgün işgəncələrini dəf edib vətənə qayıda bilən Tərlan, istər məktəb illərindən ürəyində gəzdirdiyi sevgisinə rədd cavabı alan Fərhad ən gərgin, dramatik situasiyalarda belə ictimai idealları düşünərək tərəddüdlərdən xilas olmağa özlərində güc tapır, xeyirxahlıq yolunu tuturlar. Bu baxımdan, "Sənsiz" pyesini despotizmin, şərin meydan suladığı dövran və insan münasibətləri mövzusunda yazılmış ən uğurlu əsərlərdən biri kimi dəyərləndirmək mümkündür. "Sənsiz" yalnız diktaturanın yaratdığı mühitin, bu mühitdə yaşanan qara günlərin deyil, həm də həmin mühitdə özünü hifz edən ləyaqətin, insanlığın bədii təcəssümüdür. Təsadüfi deyildir ki, görkəmli ədəbiyyatşünas alim Abbas Zamanov "Sənsiz"i mövzusu cəsarətlə işlənən, müasirlik ruhu, bədii təfəkkür pafosu, tamaşaçıya dediyi sözün qüdsiyyəti və dramatik quruluşu etibarilə ədəbiyyatımızda yeni hadisə" kimi dəyərləndirmişdir. [233, s.8]

Xalq yazıçısı Elçinin səksəninci illərdə qələmə aldığı "Ağ dəvə" (1984) və "Ölüm hökmü" (1989) romanları repressiya mühitini və repressiv idarəçiliyi daha səciyyəvi əlamətləri ilə əks etdirmək məziyyəti ilə maraq doğurur. Bu əsərləri bir-birinə yaxınlaşdıran başlıca cəhət sovet dövrü həqiqətlərini olduğu kimi təsvir xüsusiyyətidirsə, əsas fərqli cəhəti birincidə repressiyanın doğurduğu ağır fəsadların, ikincidə isə repressiyanın Azərbaycandakı ən qatı icraçısı olan Mir Cəfər Bağırovun xarakterik cizgilərinin işlənməsidir.

"Ağ dəvə"də əsərin qəhrəmanı Ələkbərin qırx ildən sonra, boz və çiskinli bir sentyabr günündə qəbirstanlıqda təsadüfən keçmiş məhlə uşaqlarını görməsi onun "yatmış" xatirələrini oyadıb canlandırır: Ələkbər indi yaşı əllini keçmiş, qara mərmər

daşlı qəbirin dövrəsində dayanmış Cəfər, Adil, Abdüləli, Qoca, Cəbrayıl, Ağarəhimlə bir vaxtlar bir məhlədə yaşamışdı. Onlar bütün əxlaqi-mənəvi keyfiyyətləri ilə Azərbaycan qadınını layiqincə təmsil edən Xanım xalanın oğullarıdır. Yazıçı Ələkbərin canlanmış xatirələri vasitəsilə 1930-40-cı illər Bakı həyatını bir məhlənin timsalında ümumiləşdirib təsvir edir. Sadə insanların yaşadığı bu məhlə milli xarakter özəlliklərini təcəssüm etdirir, milli adət-ənənləri, inanc və dünyagörüşü, namus, qeyrət, abır, həya, böyük-kiçik yeri bilmək, insansevərlik və xeyirxahlıq kimi əxlaqi-mənəvi keyfiyyətləri qoruyub yaşadır. Lakin siyasi rejimin hökm-zorba idarəçiliyi bu mənəvi mühitə pozucu təsirini göstərməyə bilmir. Məhlədə qara "emadin"də gəzən Muxtar kimi DTK qoçusu – yeni Nəmrud,  şair Səttar Məsumu satıb güdaza verən Fətullah Hatəm kimi şər-böhtan donosçusu, Məmmədbağır kimi doğma evindən xəbərçilik edən "əl agenti", İbadulla kimi ana üzünə ağ olan nankor övlad, Şövkət kimi göbəyindən Muxtara konyak içirdə-içirdə pul qopardan əxlaqsız qadın "peyda" olur. Repressiya mühiti sanki məhlə sakinlərini bir-bir dişinə vurub saf-çürük edir, bu sınaqdan yalnız salamat çıxanlar müqəddəs səfərə çıxmış Ağ Dəvə karvanı kimi gələcəyə yolunu davam etdirmək hüququ qazanır. O Ağ Dəvənin ki, Balakərim qoca tut ağacının altında səkinin üstündə oturub onun iri qara gözlərinin baxışından, nəzərlərindən danışırdı..." və həmin söhbətləri Ələkbər kimi, Xanım xalanın cəbhəyə aparılmış və hamısı sağ-salamat qayıtmış oğlulları da  dəfələrlə dinləmişdi...

Yazıçı tiranlığın, repressiv idarəçiliyin cəmiyyətdə yaratmış olduğu qorxu, vahimə, xof mühiti haqqında təsəvvürü "Ölüm hökmü" əsərinin əvvəlindən, Tülkü Gəldi Qəbirstanlığı, Gicbəsər, Qəbirstanlıq İdarəsi, bu idarəyə rəhbərlik edən döşü ordenli-medallı Əbdül Qafarzadə, "qaranlığa qərq olmuş Bakı" təsvirləri ilə yarada bilir. Başqa sözlə, öz oxucusunu hissi-psixoloji cəhətdən əsərdə cərəyan edən hadisələri izləməyə hazırlayır və tədricən oxucu da anlayıb dərk edir ki, Stalin–Bağırov epoxası ötüb keçmişsə də, varisləri yaşayırlar, aramızdadırlar. Əbdül Qafarzadə belə tiplərin ümumiləşdirilmiş obrazıdır, qəddarlıq rəmzidir. Ədəbi-tənqiddə qeyd edildiyi kimi: *"Ölüm hökmü"  romanında repressiya illəri o qədər dəqiq təsvir olunur ki, sanki yazıçı o illəri, o hadisələri, o duyğuları özü yaşayıb. O dəhşətli hadisələr, ölüm-qalım məsələsi, qorxu, xof... uzun müddət adamı tərk etmir."*

[43] Yazıçı xəyalən də olsa, oxucunu hadisələrin cərəyan etdiyi zaman və məkan hüdudlarına sala bilir, dövrün xarakterini, ziddiyyətlərini onun iştirakı, mühakimələri ilə açır və oxucu müəllifin əsərin əsas obrazı Surxayın dili ilə repressiya mühitini tauna bənzətməsi fikri, mövqeyi ilə razılaşmaya bilmir. Əsərdə repressiya mühitinin daşıyıcısı Əbdül Qafarzadədirsə, ağır fəsadlarını, dəhşətlərini ömründə yaşayan Surxaydır. Surxay repressiyanı tauna bənzətməklə, sadəcə olaraq Əbdül Qafarzadələri lənətləmir, insanlığa qənim kəsilən belə tipləri doğuran, yetişdirən ideologiyaya, sistemə, idarəetmə formasına qarşı şıxır.

Repressiya qurbanlarına həsr edilmiş əsərlər sırasında Rafael Hüseynovun "Cavidlər" sənədli romanı məxsusi məziyyətləri ilə diqqəti cəlb edir. Bu barədə artıq ədəbi tənqiddə dəyərli fikirlər bildirilmişdir. Xalq yazıçısı Anar məftunluq hissləri ilə qeyd etmişdir ki, *"Cavidlər" sənədli romanının oduna-atəşinə, yəqin ki, heç bir cihaz davam gətirməzdi. Həm bəhs olunan hadisələrin faciə şiddəti, həm də müəllif qəlbinin odu, alovu o qədər gurdur ki, öz-özünə alışan əşyalar kimi, bu səhifələrin də sanki birdən-birə yanıb külə dönmək ehtimalı var."* [109, s. 605] Əsərdə ədibin həyat və yaradıcılığı sənədli-bədii tərzdə təsvir edilir, onun yaradıcılıq mövqeyinə, ideya-estetik baxışlarına görə siyasi rejim tərəfindən təqib və təhdid edilməsi, hətta heç bir əsaslı səbəb göstərilmədən insafsızcasına həbs edilərək sürgünə göndərilməsi xətti xüsusi həssaslıqla izlənir, müxtəlif sənədlər, məktublar, xatirələr vasitəsilə bu görkəmli şəxsiyyətin faciəli tale yaşantısı timsalında sovet totalitar idarəçilik sisteminin insan hüquq və azadlıqlarına, sənətə, sənətkara münasibətinin sadist və despotik mahiyyəti aşkarlanır. Biz bu xəttin inkişafında ədibin təxminən iki illik işgəncəli həbsxana həyatından sonra Bakıdan Ama-Ataya, Daşkənddən Vladivostoka, Vladivostokdan Maqadana və nəhayət İrkutsk vilayətinin ucqar bir kəndinə məşəqqətli sürgün "marşrutunu" izləyə bilirik. Həmin "marşrut" əsasında müəllif şərhləri də sonadək davam edərək Hüseyn Cavidin cənazəsinin Azərbaycana gətirilməsinin – haqq-ədalətin öz yerini tapmasının təsviri ilə başa çatır.

Qeyd etməliyik ki, 1980-ci illərdən etibarən repressiya mövzusuna müraciət daha da aktivləşmişdir. F.Kərimzadənin "Vedinin yanı dağlar" (1988), N.Xəzrinin "O uzaq gecə" (1988), F.Qocanın "Kələfin ucu" (1989), B.Bayramovun "Üzlü-astarlı

dünya" (1989), M.Orucun "Köçürüllmə" (1990), Ç.Ələkbərzadənin "Dünyanın qopduğu yer" (1990), M.Niyarlının "Yola dikilən gözlər" (1991), M.Bəkirlinin "Yiyəsizlər" (1993), Ə.Babayevanın "Əlvida" (1994), H.Abbaszadənin "Qayıdanlardan biri" (2000) və s. kimi nəsr əsərlərində Stalin – Bağırov repressiyalarının Azərbaycan xalqının başına gətirdiyi fəlakətlərdən, repressiya qurbanlarının keşməkeşli taleyindən bəhs olunur. Ədəbiyyatın Sovet repressiyaları mövzusuna bu şəkildə davamlı və müxtəlif rakurslardan müraciət və baxışı, sözsüz ki, idarəçilikdə belə ağır cinayətlərə bir də yol verilməməsi baxımından mühüm ictimai-siyasi əhəmiyyət daşıyır.

### 1.3. Amiranə – inzibatçı düşüncə tərzi ilə yeni düşüncə tərzinin çarpışması.

Otuz ilə qədər bir müddətdə (1924-1953) ölkəni repressiv üsullarla idarə edən İ.V.Stalinin vəfatından sonra Sov.İKP MK-nın "Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılması haqqında" 1956-cı il 30 iyun tarixli qərarı, Stalin idarəçiliyində baş vermiş cinayətlərin üstünün açılması, siyasi dustaqların azad edilməsi, repressiya qurbanlarına bəraət verilməsi, habelə, dünyəvi prosesləri nəzərə alan demokratik yönlü islahatlar, qadağa və qovhaqov üsul-idarəçiliyinin cəmiyyətə bir qədər sərbəst nəfəs almaq imkanları vermə üsul-idarəçiliyi ilə əvəzlənməsi və s. kimi ciddi dəyişikliklər ədəbiyyatda yeni ideya-məzmun axtarışlarının güclənməsinə, o cümlədən insan-cəmiyyət münasibətlərinin inikasında əsl canlanmaya səbəb oldu. Y.Qarayevin qeyd etdiyi kimi, müharibə dövünün fəlsəfi tragizmi və sərt realizminin təsiri altında əvvəlki süni-saxta pafosdan, eyforiyadan, vulqar ritorikadan təmizlənən ədəbiyyat repressiya, ehkam, kult və qrafomanlıq ideologiyasının tam hakim olduğu mərhələdən yeni ictimai əxlaqın və düşüncə tərzinin təşəkkül tapmağa başladığı müasir mərhələyə keçid əldə etdi. [128, c.4, s.35] "Çeynənmiş" rəsmi mövzulardan, "sovet həyat tərzi"nin sxematik və ritorik təsvirindən, zahiri kampaniya hay-küyçülüyündən uzaqlaşıb yeni mövzulara, xalq həyatı və məişətinin canlı və koloritli təsvirinə meyil etmək, həyat həqiqətlərinin təsvirində faktın sosial-ictimai və mənəvi-əxlaqi mahiyyətinə varmaq, yalnız

kommunist idealları ilə silahlanmış inqilabçı, bolşevik, kommunist və s. kimi obrazların deyil, eyni zamanda, cəmiyyətdə baş verən kataklizm və ziddiyyətləri öz tale yaşantısında, baxış və görüşlərində ehtiva edən, həyat hadisələrinə müstəqil baxışı və xarakter zənginliyi ilə seçilən sadə insan obrazlarını canlandırmaq, cəmiyyətin nifrət doğuran eybəcərliklərinin daha kəskinliklə bədii ifşası, insan hiss, duyğu və düşüncələrinin təbii və canlı şəkildə təsvirinə, lirik-psixoloji təhlilə meyil, ədəbi qəhrəmanın sosial ədalət arzu-istəklərini milli soy-kök, milli tarix, milli tale faktorlarını nəzərə alan yeni həyat quruculuğu ideyalarına yönəli şəkildə ifadə, yeni ideya-məzmundan törəyən yeni forma-struktur, dil-üslub yeniliklərinə can atmaq və s. həmin mərhələnin əsas səciyyəvi xüsusiyyətləri idi. Əlbəttə, bu xüsussiyyətlər həmin dövrə qədərki ədəbiyyatımıza tamamilə yad olmamış, Ş.Salmanovun qeyd etdiyi kimi, ədəbi proses öz tarixi təcrübəsi ilə əlaqəsini üzməmişdir ki, bunun da 50-ci illərin ortalarından − cəmiyyətin həyatında kəskin dönüş mərhələsində (poeziyada: R.Rza, N.Xəzri, B.Vahabzadə və başqaları; nəsrdə: S.Rəhimov, M.İbrahimov, M.Hüseyn, Ə.Məmmədxanlı, M.Cəlal və başqaları tərəfindən) yeni meyillərin yaranmasında, təşəkkül tapmasında böyük rolu olmuşdur. [195, s.258] Bu baxımdan, M.Hüseynin "Yeraltı çaylar dənizə axır", R.Rzanın "Qızılgül olmayaydı", "Sarı dana və balaca qız", M.İbrahimovun "Böyük dayaq", B.Vahabzadənin "Gülüstan", İ.Hüseynovun "Yanar ürək", "Tütək səsi", İ.Şıxlının "Dəli Kür", X.Rzanın "Tikanlı məftillərlə sarınmış yaralar", Ə.Əylislinin "Kür qırağının meşələri", Anarın "Ağ liman", S.Əhmədlinin "Yamacda nişanə", "Qanköçürmə stansiyasında", "Dünyanın arşını" və s. kimi yararadıcılıq nümunələri məhz ənənə və novatorluq kontekstində dəyər qazanmışdır. Bu və ya bu kimi əsərlərdə yeni əlamətdarlıq özünü həm də sosial-ictimai mühitin dəyişməsinin və bunun insan münasibətlərinə təsirinin geniş panoramı və epik vüsəti ilə əks etdirilməsində, illərlə yığılıb qalmış emosiyaların, reallığın doğurduğu mənəvi-psixoloji yaşantıların özünəxas bir şəkildə ifadəsində göstərirdi. Yeni ədəbiyyat insan amilinə, onun mənəvi aləminə, hüquq və azadlıqlarının müdafiəsinə, sosial-ictimai və milli tale problemlərinə daha cəsarətli və fundamental yanaşma tərzi ilə əvvəlki – 1920-1940-cı illər ədəbiyyatından əhəmiyyətli dərəcədə seçilib fərqlənirdi. Bu, heç şübhəsiz ki, mövzu-problem

seçimində yaradıcılıq sərbəstliyinin, insanın bədii dərki, insan-cəmiyyət münasibətlərinin inikası imkanlarının genişlənməsinin təzahürü idi. İnzibati asılılığın azalması siyasi rejimin tələb və yasaqlarından yan keçib vicdanın səsi, ürəyin hökmü ilə yazıb-yaratmağa ruhlandırırdı. Bu imkan, istək, məram Məmməd Arazın dəyişən zamanda ədəbiyyata köhnə − inzibati-amiranə düşüncə tərzi ilə yeni – yaradıcılıq sərbəstliyi baxışının qarşılaşması mənzərəsinin poetik təsvirini verən "Ürəyimsiz kəlmə kəsən deyiləm" misralı şeirində aydın şəkildə ifadəsini tapmaqdadır. Akademik İ.Həbibbəyli həmin dövrdə tərənnüm poeziyasından düşüncə lirikasına keçid prosesinin çətinliklərindən bəhs edərkən Məmməd Araz yaradıcılığına istinadla belə bir ümumiləşdirmə aparır: "Müşahidələr göstərir ki, sərt zamanın diqtə etdiyi ümumi təsvir və tərənnümdən insan mənəviyyatının kəşfinə keçid senzorlaşmış, müəllif-redaktor, oxucu-yazıçı münasibətlərini əhatə edən çətin mübarizələrdən sonra baş tutmuşdur. Məmməd Arazın şeirlərindən birində həmin dilemma öz əksini aşağıdakı şəkildə tapmışdır:

*Qaytardı redaktor lirik şeirimi,*
*Qaytardı: − Zavod yox, fəhlə yox, − deyə.*
*Zavoddan yazdığım kiçik şeirimi,*
*Oxudum bu axşam qonşum fəhləyə.*

*Fəhlə də qınağa tutdu ki, məni,*
*Bəs hanı lirika, məhəbbət hanı?*
*Gəl indi inandır çap eləyəni,*
*Gəl indi inandır sən oxuyanı.* [93, s.143 ]

Düşüncə lirikası, mənəviyyat ədəbiyyatı, lirik-psixoloji şeir və nəsr, o cümlədən xalq şairi Məmməd Arazın yaradıcılığı belə çətin labirintlərdən keçib gəlmiş, nəhayət, ədəbi mühitdə özünü təsdiq etmişdir. Bunun nəticəsində XX əsrin 60-90-cı illərində Azərbaycan şeirində düşüncə lirikasının bir sıra tanınmış nümayəndələri yetişib formalaşmışdır. Əli Kərim, Nəriman Həsənzadə, Cabir Novruz, Fikrət Qoca, Musa Yaqub, Hüseyn Razi, Sabir Rüstəmxanlı, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Məmməd İsmayıl, Zəlimxan Yaqub, Hidayət,

Ramiz Rövşən, Elman Həbib, Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu, Rüstəm Behrudi, Vaqif İbrahim, Vaqif Bəhmənli, Vaqif Məmmədov, Vaqif Bayatlı mövzu və mətləbi ümumi tərənnüm yolu ilə deyil, orijinal poetik düşüncələrlə mənalandırmaq sahəsində maraqlı üsullar, düşünülmüş bədii vasitələr tapmışlar. [93, s. 143-144]

Digər tərəfdən, tənqidçi-ədəbiyyatşünas V.Yusiflinin qeyd etdiyi kimi, *"Ədəbiyyatdakı bu yeni meyilləri və tendensiyaları təkcə bir ədəbi nəslin yaradıcılığına müncər etmək doğru olmazdı. Bütünlüklə ədəbiyyatın özü yeniləşməyə başlayırdı və bu mərhələni bütün ədəbi nəsillər yaradırdı. Diqqət yetirsək, görəcəyik ki, M.İbrahimov, M.Hüseyn, İ.Əfəndiyev kimi "baniyikar"ların yaradıcılığı da əvvəlki yaradıcılıqlarından fərqlənirdi, ilk povestləri 50-ci illərdə çap edilən və ədəbi aləmdə elə bir reaksiya doğurmayan İsa Hüseynov tamam başqa bir yazıçı olmuşdu, İsmayıl Şıxlı, Sabir Əhmədli yeniliyi vaxtında duymuşdular, Anar, Elçin, Maqsud İbrahimbəyov, İsi Məlikzadə, Əkrəm Əylisli, Fərman Kərimzadə kimi gənc nasirlər isə birbaşa fərqli, özünəməxsus ədəbi düşüncə nümayiş etdirirdilər".* [148, s.6-7] Bununla belə, 1950-ci illərdən özünü göstərməyə başlayan yeni ədəbi mərhələnin 1960-70-cı illərdə bütün özünəxas xüsusiyyətləri, əzmi və əhatəliliyi ilə formalaşmasında "altmışıncılar"ın – yaradıcılıqda özünü təsdiq edən yeni ədəbi nəslin rolu barədəki fikirlər də həqiqətəuyğundur. Xalq yazıçısı, ədəbiyyatşünas-alim Elçin dəyişən mühit və ədəbi proses, "altmışıncılar"ın ədəbiyyata gətirdiyi yeniliklər problemlərindən bəhs edərkən yazır: *"İnsanları "mənfi" və "müsbət deyə iki qütbə bölməmək, yalançı həyat "idilliyasını" heç vəchlə qəbul etməyib, həyatı bütün mürəkkəbliyi, qayğıları, problemləri ilə birlikdə ədəbiyyatın predmetinə çevirmək, müstəqimliyi, birbaşalığı əvəz edən psixoloji detalların, ştrixlərin, çalarların vasitəsilə deyilməyənin deyiləndən artıq olmasını əldə etmək, adidə qeyri-adiliyi görmək, ən sadə, "nəzərə çarpmayan" (!) insanı belə bədii-psixoloji analizin obyektinə çevirmək,... siyasi və (bədii!) konyukturaya uymamaq "altmışıncılar"ın ən yaxşı əsərləri ilə nail olduqları ümumi cəhətlər, əsas xüsusiyyətlər idi. Bu bədii-estetik prinsiplər... sosrealizmin mahiyyətinə yad idi...".* [61, s.6]

Bu da danılmaz bir faktdır ki, hər hansı bir yeni ədəbi mərhələnin başlanmasında mövcud olan stereotipləri dağıdıb yeni meyillərin əsasını qoyan ilk

“qaranquşlar”ın impulsverici rolu şəksizdir. Bu baxımdan, Məmmədhüseyn Şəhriyarın Arazın o tayında, doğma ana dilində yazdığı “Heydərbabaya salam” (1954), Bəxtiyar Vahabzadənin bu tayında ruhən həmin əsərlə səsləşən “Gülüstan” (1958), qırğız yazıçısı Çingiz Aytmatovun “Üz-üzə” (1957), “Cəmilə” (1958), “Qırmızı yaylıqlı qovağım mənim” (1961), “Əlvida Gülsarı!” (1966), İsa Hüseynovun “Yanar ürək” (1956-58, 1963), “Teleqram” (1963),”Tütək səsi” (1965), “Saz” (1966), “Kollu Koxa” (1967) və s. kimi əsərləri, Əli Kərim lirikası, Məmməd Araz poeziyası istər ideya-məzmun, istərsə də bədii sənətkarlıq baxımından yaradıcılıqda yeni hədəfləri nişan verən mayaklara çevrilmişlər. Bunu “altmışıncılar”ın özləri də dəfələrlə qeyd etmişlər.

B.Nəbiyev “Şəhriyar” poemasının Azərbaycan bədii təfəkkürünə təsirini belə qiymətləndirir: *“Bu poema İranda şahlıq rejiminin, Azərbaycanda şəxsiyyətə pərəstiş əhvali-ruhiyyəsinin tilsiminə düşmüş şeir üçün bir növ “İsrafilin suru” rolunu oynamışdır”.* [171, c.5, 451] Yaxud xalq yazıçısı Anar etiraf edir: *“İki müasir nasirin təcrübəsi bizimçün xüsusi əhəmiyyət kəsb elədi – mən İsa Hüseynovu və Çingiz Aytmatovu nəzərdə tuturam”.* [18, s.33] Başqa bir dəyərləndirmə: *“...Keçən əsrin altmışıncı illəri ədəbiyyatımızın inkişafında ikinci dirçəliş dövrü kimi səciyyələnə bilər – birinci dövr Mirzə Cəlillə başlayır, o, “Poçt qutusu” və “Molla Nəsrəddin” vasitəsilə ” əsrdaşlarını bir yerə, bir məkana toplayır, milləti intibaha səsləyir, əsrin ikinci yarısında isə İsa Hüseynovun “Yanar ürəy”i milləti cəsarətli olmağa, milli-mənəvi şüurunu dərk etməyə, haqsızlığa qarşı inadla mübarizə aparmağa, Şəxsiyyət olmağa ruhlandırır”.* [229, s. 49]

Qeyd etməliyik ki, Şəhriyarın “Heydərbabaya salam” poeması şairin uşaqlıq yaddaşında yaşayan ucqar bir kəndin xiffəti ilə yazılsa da, ümumilikdə Azərbaycan xalqının tarixi varlığını, mənəvi zənginliyini, sosial-ictimai dərdlərini ustalıqla canlandıran, milli hiss və duyğuları cuşa gətirən bir əsərdir. Bu poema İranda türkdilli ədəbiyyatın inkişafına böyük təkan verməklə yanaşı, sovet Azərbaycanında da milli ədəbi düşüncəyə ciddi təsir etdi. *“Heydərbabaya salam” poeması köhnə konyuktur, kommunist partiyalı şeirin iflasını sürətləndirib, onun öz təbii axarına düşməsi prosesinə elə qüvvətli bir təkan verdi ki, həmin təkanın nəcib təsirindən şeirimiz öz*

*varlığında xalqın çağdaş həyatına, tarixinə münasibətində bu gün də mənun-məmnun barınmaqdadır”.* [171, c.5, s.452]

Vahid xalqın iki hissəyə parçalanması, əsarət rejimi üzündən davam edən qardaş həsrəti S.Rüstəm − M.Şəhriyar mənzum məktublaşmasında da bədii üsyan səviyyəsində həllini tapırdı. S.Rüstəmin Şəhriyara məktubundan:

*Qoy söyləyim ürəyimin sözünü,*
*Bir kərə də görməmişəm üzünü.*
*Nigaranam yetir mənə özünü*
*Məhəbbətin bağrımdadır, Şəhriyar,*
*Mənim ürək ağrımdadır, Şəhriyar!* [182]

Şəhriyarın Süleymana cavab məktubundan:

*Hərdən belə səsin gəlsin,*
*Gözümüzün yaşın silsin,*
*Mənim də bir üzüm gülsün,*
*Haçan səni görə billəm?*
*Qol boynuva hörə billəm?* [67]

B.Vahabzadə şeirində xalqın sosial-ictimai dərd və problemlərinin, millətin adı, dili, ərazisi ilə bağlı milli-tarixi məsələlərin ön plana çəkilməsi də bu dövrə təsadüf edir.

*Dözüm – başdan-başa əzab, şikayət*
*Özün de, budurmu yaşamaq məgər?*
*Dözməmək − azadlıq,*
*Dözmək − əsarət,*
*Bir günlük azadlıq bir ömrə dəyər!* [217, c.1, s.217]

Azərbaycanın Rusiyaya daxil edilməsinin 150-ci illiyinə təntənəli hazırlıq işlərinin görüldüyü bir vaxtda gənc şairin vahid bir xalqı və məmləkəti ikiyə parçalayan müstəmləkəçilik siyasətini lənətləməsi ictimai-ədəbi mühitdə böyük rezonans yaratdı.

*Tapdamaq olarmı haqqı bu qədər?*
*Yüz əlli ildir ki, soyurlar bizi.*

*Bu heç. Bizə bayram elətdirirlər*

*Tarixdə ən böyük faciəmizi.* [226]

Əslində, B.Vahabzadə bu kimi şeirləri ilə "tarixi birləşməyə" (oxu – tarixi haqsızlığa) tək özünün deyil, bütöv bir xalqın etirazını ifadə edirdi və bu cəsarətinə görə ona qarşı təqiblər başlanmış, hətta "Gülüstan" poemasına görə partiya töhməti verilərək işlədiyi universitetdən qovulmuşdur. Şair bu əsərində qədim və böyük bir xalqın tarixi faciəsinə səbəb olan müstəmləkəçilik siyasətini lənətləyir, xalqını əsarət rejiminə qarşı mübarizəyə çağırırdı:

*Qoy qalxsın ayağa ruhu Tomrisin,*

*Babəkin qılıncı parlasın yenə.*

*Onlar bu şərtlərlə sözünü desin,*

*Zənciri kim vurdu şir biləyinə?* [219, c.6, s.533]

"Gülüstan" şairin sovet quruluşuna, boyun əymək istəmədiyi mövcud siyasi rejimə sərt bir ittihamnaməsi idi.

B.Vahabzadənin sənətə münasibətindəki "Şair – cəmiyyətin üsyan səsidir" kimi əzmkar vətəndaş mövqeyi, "azad fikrə, düşüncəyə vurulan qıfıllara açar axtarışı" inad-ehtirası təsirsiz ötüşə bilməzdi. Onun siyasi motivli üsyankar şeirləri ədəbiyyatımızda milli istiqlal düşüncəsinin yenidən alovlanmasına təkan verdi. Az keçmiş Xəlil Rza "Afrikanın səsi" (1960) şeirində, əslində, formal sovet azadlığını qətiyyətlə rədd edir, gerçək azadlıq tələbi qaldırırdı:

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram!*

*Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!*

*Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,*

*İstəyirəm səma kimi, günəş kimi, cahan kimi!*

*Çəkil, çəkil, ey qəsbkar! Mən bu əsrin gur səsiyəm*

*Gərək deyil sısqa bulaq, mən ümmanlar təşnəsiyəm!* [215, s. 137]

Köhnə amiranə düşüncə tərzi ilə yeni demokratik düşüncə tərzinin qarşı-qarşıya qoyulmasının epik təsviri baxımından Mirzə İbrahimovun "Böyük dayaq" (1957) və İsa Hüseynovun "Teleqram" (1963), "Yanar ürək" (1965), "Saz" (1966) əsərləri xüsusilə səciyyəvidir.

Ömrü keşməkeşlər içində keçən, tarixi istilalar üzündən taleyinə bölünmüş Vətənin hər iki tayında – Güneyində və Quzeyində yaşamaq qisməti yazılan, zamanın gedişatını, mürəkkəb ictimai-siyasi prosesləri diqqətlə izləyə-izləyə xalqının taleyi haqqında düşünən Mirzə İbrahimov topladığı zəngin həyat materialını və cəmiyyətin gələcəyi ilə bağlı ideallarını ədəbiyyata gətirməklə zaman və siyasət, xalq gücü, vahid Vətən, problemləri ilə bağlı bədii məqsəd və düşüncələrini əks etdirə bilmişdir. "Böyük dayaq" romanında əsərin əsas obrazlarından olan briqadir Şirzadın hiss, duyğu və düşüncələri vasitəsilə ifadə olunan aşağıdakı sözlər, əslində, mətndən də göründüyü kimi, bir fərdin deyil, bir əsərin ideya-qayəsini deyil, ümumiyyətlə xalqına bağlı olan, onun gücünə inanan və məhz bu inamla gələcəyə nikbin baxan bütün millətsevərlərin hiss, düşüncə və duyğularını ifadə edir: *"Ey mənim xalqım, ey mənim ümidim və pənahım! Ürəyimin istiliyi səndədir, fikrim işığını səndən alır, həyatımın hər nəşə və sevincinə səbəb sənsən! Həyat yolunun sürüşkən döngələrində qolumdan tutan, məni yıxılmağa qoymayan sən olmusan. Gözəl binalar üçün mənə daş yonduran sənin eşqindir. Yolların kənarında ağac əkdirən, səhralara su gətirdən, yerin altını eşib sərvət tapdıran, çöllərdə məhsul yetirmək həvəsimi alovlandıran, qolumdan tutub "yaz!" deyən sənsən. Alçaq əllər məni uçuruma itələyəndə dadıma sən çatmısan. Amansız qorxu başımın üstünü alaraq məni ağır fikirlərə saldığı zaman, xoş günün dönük dostları, zəif və qorxaq yoldaşlar məndən üz döndərdiyi zaman yeganə dayanacağım sən olmusan..."*. [115, s.422-423]

İdarəetmədə inzibati-amirliyin rəhbərliklə xalq kütlələri arasında uçurum yaratması, elin dayağına arxalanmayan rəhbər kadrın aqibəti, kənd təsərrüfatının yeni dövrün xarakterinə uyğun şəkildə inkişaf etdirilməsi, bu zərurətin dərk edilməsinin idarəetmə işində əhəmiyyəti, milli adət-ənənə məsələlərinə münasibətdə köhnə təsəvvürlərlə yaşamağın zərərli nəticələri ideya xətti Mirzə İbrahimovun "Böyük dayaq" romanında yüksək sənətkarlıqla qoyulub izlənilir. Yazıçı yalnız 50-ci illərin inzibati sifarişinin deyil, ümumiyyətlə içindən gələn, mövqeyini ortaya qoyan diqtənin ifadəsi olaraq xalqın iradəsinə, demokratizmə zidd olan təkbaşına idarəçiliyin, şəxsiyyətəpərəstişliyin, mənəm-mənəmliyin əlamətlərini və acı aqibətini əsərin qəhrəmanı, Muğam düzünün böyük kolxozlarından biri olan "Yeni həyat"

kolxozunun sədri Rüstəm kişinin simasında canlandırılır. Rüstəm kişi zəngin xarakterə malikdir: o, bir təsərrüfat rəhbəri kimi xalq malını göz bəbəyi kimi qoruyur, çalışqan, prinsipial və tələbkardır, işçilərə qarşı qayğıkeşdir; bir ailə başçısı kimi milli dəyərlərə söykənir, ailənin hər bir üzvünə qarşı diqqət göstərməyi bacarır; bir el adamı kimi yurdun, obanın təəssübünü çəkir, xalqın adət-ənənəsinə hörmətlə yanaşır; lakin o, eyni zamanda sərt, tərs və təkəbbürlüdür, köhnə amiranə düşüncə tərzi ilə hər işdə özünə güvənir, heç kəslə hesablaşmır, məsləhətlərə fikir vermir, əmrlə işləyir, hamını öz iradəsinə tabe etməyə çalışır, hökmünü yeritməyincə sakit olmur, elə güman edir ki, sədr olduğu, təsərrüfata çoxdan rəhbərlik etdiyi üçün hamıdan çox bilir, heç kimin məsləhətinə ehtiyacı yoxdur. Bu xüsusiyyətlərinə görə də oğru, ikiüzlü yaltaqların saxta təriflərinə aldanır, təsərrüfat işlərində ciddi səhvlərə yol verir, düzgün adamları əyrilərdən, yaxşıları xainlərdən ayıra bilmir, insanlar ondan soyuyub uzaqlaşır, onların yerini rayon icraiyyə komitəsinin sədri, rüşvətxor Kələntər Kəlbiyevə "yem" daşıyan Lal Hüseyn, Yarməmməd, Yastı Salman kimi üzə gülə-gülə ev yıxanlar, talançılar tutur. Doğrudur, yazıçı Rüstəm kişini Stalin inzibati-amiranə idarəçiliyik sisteminin yetişdirdiyi kadr kimi təqdim edir, hətta müəyyən təsvir və detallarla (məsələn, "üstündə iblis şəkli olan trubka yenə Rüstəm kişinin əlində tüstüləyirdi. "Zolotoye runo" tütünü ilə dolu qutu qabağında açıq qalmışdı. Rüstəm kişi bu tütünün ətrindən, saçaqlı tellərinin rəngindən xüsusi ləzzət alırdı..."; "şax oturaraq trubkanı dalbadal alışdırıb sümürür..."; Rüstəm kişinin mübarizə metodunun köhnə günləri xatırlatması; Öz-özü ilə danışarkən: "Səndən əvvəl olanların gözündə hamı düşmən kimi görünürdü" − deməsi və s.) onun hal-xasiyyət, əda, davranışca həmin idarəetmə sisteminin başında dayanmış rəhbərə oxşarlığına da işarə vurur, lakin ideya etibarilə Rüstəm kişini sıradan çıxartmağa yox, dövrün "siyasi mülayimləşmə" əhval-ruhiyyəsini təcəssüm etdirən, sədrin qüsurlarını tənqid etməkdən çəkinməyən açıq fikirli insanların vasitəsilə islah etmək, hətta cəbhə dostu, MTS-nin direktor müavini Şərəfoğlunun dediyi kimi, "gələcəyi yaradanlar sırasında görmək" istəyir, "yeni həyat" naminə xalqla birlikdə hərəkət etməyə, onun gücünə arxalanmağa çağırır, çünki Rüstəm kişi, idarəetmə məsələlərində yol verdiyi qüsurlar nəzərə alınmazsa, mənəvi-əxlaqi keyfiyyətləri, xarakteri, əqidəsi etibarilə həm

camaat, həm də hakim dairələr tərəfindən bəyənilən, dəyərləndirilən insandır, ümumi planda müsbət obrazdır. Ona görə də əsərdə əsas konflikt təsərrüfat qayğıları ilə əlaqədar Rüstəm kişi mühafizəkarlığı ilə sərbəst düşüncəli obrazların (Şirzad, Nəcəf, Kərəm, Telli, Maya və b.) mütərəqqiliyi arasında yox, cəmiyyəti əyən, uçuruma sürükləyən məsləksiz, talançı qüvvələr (Kələntər Kəlbiyevlər, Yastı Salmanlar, Yarməmmədlər, Lal Hüseynlər) arasında, həm də gizli proses şəklində baş verir və son nəticədə Rüstəm kişi səhvini başa düşür, "xalqdan böyük dayaq yoxdur" etirafını edir.

Köhnəliklə yeniliyin mübarizəsi İ.Hüseynovun "Teleqram" povestində tamam başqa - cəmiyyət-təbiət bağlılığının həyati əhəmiyyəti probleminə münasibətdə əks qütblərdə dayanan insanların mübarizəsi və barışmazlığı müstəvisində əks etdirilir. Təsvir və təfərrüatlardan belə qənaətə gəlinir ki, qocaman kommunist Sabit Mayılovla onun oğlu, povestin qəhrəmanı jurnalist Zəlimxanın baxışları vasitəsilə ümumiləşdirilən qarşıdurma mövcud idarəetmə sisteminin təbiətə istismarçı münasibətinin və bu vəziyyətdən şəxsi mənafeyi üçün istifadə edənlərin meşələri qırıb-çatması nəticəsində baş verir. İlk vaxtlar kommunist əqidəsinə sadiq olub sovet quruculuğu uğrunda mübarizə aparmaqla səlahiyyət və imtiyazlar qazananlar sonradan bu ideala dönük çıxmış, xalqın maddi və mənəvi sərvətlərini talamağa başlamışlar. Lakin Zəlimxan bu vəziyyətlə barışa bilmir, hətta öz atasını ittihamedici sözlərlə ifşa edir: *"Siz teleqram vurub məni gətiribsiniz ki, qardaşıma kömək eləyim. Mən də öz yazımla bütün Azərbaycana teleqram vurub hamını köməyə çağırmaq istəyirəm. Çünki müsibət böyükdür, baba!... Yazacam ki, bir zaman Azərbaycanın gözəl bir guşəsində gözəl bir meşə vardı. Həmin meşədə Sabit adlı qürurlu, əzəmətli bir meşəbəyi yaşayırdı. Çox şey yazacam, açıqca deyəcəm ki, indi həmin meşədə hara baxırsan kötükdür. Əsil müsibət isə burasındadır ki, adamlar da dönüb kötük olur".* [106, s.32] Bu ittihamdakı "kötük" sözü birinci halda meşələrin qırılıb-satılması, ikinci halda isə talançılığın qarşısının alınmasında bir maneəyə, əngələ çevrilməsi anlamında dərk edilir. Əsərdə tənqid hədəfi "kötüklər" – xalq mülkiyyətinə qəsd edən qaraxanlar, sabitlər, kərimlərdir. Günahsız bir qız olan Zümrüdə qarşı qeyri-əxlaqi münasibət hadisələrin axarını daha da dramatikləşdirir və Zəlimxan həyatın bərkinə-

boşuna düşdükcə yetkinləşir. O, öz cinayətlərini ailəliklə, qohumbazlıqla malalamağa çalışan, təbiət gözəlliklərini məhv edən, Zümrüd kimi həssas bir qızın könül dünyasını alt-üst qoyan “kötük”lərə qarşı çıxmaqdan çəkinmir. Tipik obrazların canlandırılması, xarakterlərin qarşılaşdırılması, toqquşması zəminində yazıçı qaldırdığı sosial və əxlaqi problemin dolğun, əhatəli və müfəssəl bədii təhlilini aparır, vətəndaşlıq duyğularını uğurla ifadə edir.

İ.Hüseynovun “Yanar ürək” romanında köhnə amiranə düşüncə tərzi ilə yeni demokratik ruhlu düşüncə tərzi qarşıdurması Sultan Əmirli və onun qardaşı oğlu Səməd Əmirli obrazları arasında baş verən açıq mübarizə formasında reallaşır və süjet xətti boyunca inkişaf etdirilən konflikt öz gərginliyi ilə diqqəti cəlb edir. Belə ki, yazıçı əmi ilə əmioğlu arasında baş verən ixtilafı get-gedə şəxsi münaqişə müstəvisindən  ictimai ziddiyyət müstəvisinə keçirməklə cəmiyyət daxilində gedən sosial-ictimai proseslərin mahiyyətinə işıq salır.

Döşü ulduzlu Sultan Əmirli raykomun birinci katibidir, onun iş üsulu kütlələrdə xof, vahimə yaratmaqla özünə tabe etmək – despotizm üsuludur. Əsərin qəhrəmanı Səməd Əmirli isə partiya məktəbinin məzunudur, idarəetmə məsələsinə münasibəti tamamilə fərqli, demokratik fikirlidir. O, rayonda hökm sürən özbaşınalıq, riyakarlıq, yaltaqlıq mühiti ilə barışa bilmir, təmiz ictimai mühit yaratmağa, xalqın rifahını yüksəltməyə, hər cür əyintilərin qarşısını almağa çalışır. Üstəlik əmisinin onun sevdiyi Gülgəzi alıb özünə arvad eləməsi nifrət hissini daha da artırmışdır. Bütün bunlar əmi ilə qardaşoğlu arasında gərgin dramatik anların yaşanmasına səbəb olur. Yazıçı öz fərdi xüsusiyyətləri ilə seçilən iki xarakteri, sosial-ictimai proseslərə münasibətdə iki zidd mövqeyi qarşılaşdırır, əmi ilə qardaşoğlunun mübarizəsi şəxsi münaqişə səviyyəsindən köhnəliklə yeniliyin mübarizəsi səviyyəsinə yüksəlir. Sultan Əmirli şəraitin dəyişdiyini və rejimin get-gedə çökdüyünü hiss etsə də, tutduğu yolu tərk etmək istəmir, rayonda yaratdığı dəmir intizamın pozulmasının səbəbini “daxili düşməndə!” − qardaşı oğlu Səməd  Əmirlinin “qərəzli fəaliyyəti”ndə görür, öz mühafizəkarlığı ilə zamandan geri qaldığını, xalqdan uzaq düşdüyünü anlaya bilmir. Onu da qeyd etməliyik ki, “Yanar ürək” sərt realizminə görə sovet ədəbiyyatşünaslığında birmənalı qarşılanmamış, bir sıra cəhətlərinə (sovet

kolxozçularının sosial vəziyyətinin ağırlığına işarələr, Sultan Əmirlinin qoca vaxtında öz qardaşı oğlunun sevgilisini almağı, kommunist Səməd Əmirlinin mübarizəsində passivliyi və s.) görə tənqid edilmişdir. [105, s.11-36]

Cəmiyyəti idarəetmə probleminə baxış müxtəlifliyi "Saz" povestində sovet sədri Qılınc Qurban və dəmirçi İsfəndiyar kişi obrazlarının müqayisəli şəkildə təhlilinə imkan verən bədii təsvir və lövhələrdə yüksək sənətkarlıqla əks etdirilir. Qılınc Qurban sovet-bolşevik ideologiyası və idarəetmə sisteminin "hörmətli, şöhrətli" yetirməsi və onun sərt qayda-qanununun icraçısıdır. Bir zamanlar qaçaq-quldurla döyüşüb, indi – müharibə dövründə sovetliyin tərkibindəki üç kəndə "hökumətlik" edir, hər kənddə kabineti, katibi və çiyni beşaçılanlı milisioneri var. Mövcud totalitar rejimin hökm-fərma, asıb-kəsmək təbiəti bu obrazda (onun "Qılınc" ləqəbindən tutmuş xarakter və fəaliyyətinə qədər) ümumiləşdirilir. *"...Müharibə başlanandan bəri, bəzən hətta səhərə qədər at belində olurdu. Kəndlərin ara-bərələrində, dörd dövrələrində "çərx" vururdu. Gecənin bir aləmində, qaranlıq küçələrin hansındansa guruldayıb keçən nal səsləri eşidiləndə oyaq olanlar deyirdilər: "Qılınc yenə qından çıxıb. Görəsən kimi kəsməyə getdi". Bunu şəksiz-şübhəsiz hökm kimi deyirdilər. Çünki Qılınc Qurban hər saatda qından çıxmır, çıxanda isə mütləq kəsirdi".* [105, s.28] İsfəndiyar kişi isə nə siyasət, nə də dövlət adamıdır, təpədən dırnağa milli kökə bağlı, insan-cəmiyyət münasibətlərində milli mental xüsusiyyətləri, mənəvi-əxlaqi dəyərləri yazılmamış qanun səviyyəsində uca tutan, adi bir dəmirçi, el ağsaqqalıdır. Doğrudur, yazıçı bir fərd olaraq fərqli xüsusiyyətlərə malik bu obrazları hərdən üz-üzə gətirsə də, barışmaz qüvvələr kimi qarşı-qarşıya qoymur, əksinə, müharibə şəraiti, çətin günlər onları yaxınlaşdırmış, arxa cəbhədəki vəziyyəti birlikdə nizamlamağa səfərbər etmişdir, hər ikisi qələbə naminə mübarizə aparır, yəni bu iki fərd arasındakı münasibətlər eyni məqsədə xidmət edən ictimai məzmun daşıyır. Lakin qarşıdurma alt qatda, müharibə dövrü də olsa, insan cəmiyyətinin idarə edilməsinə yanaşma tərzinin əksliyində baş verir. Qılınc Qurban hərbə-zorba idarəçiliyi üsulunun, İsfəndiyar kişi isə humanist idarəçiliyin tərəfdarıdır. Müharibənin xalq həyatına gətirdiyi ehtiyac və ağırlıq və bunun insan psixologiyasına və münasibətlərinə pozucu təsiri, xeyirlə şərin qarışması

Qılınc Qurbanı daha da sərtləşdirdiyi halda, İsfəndiyar kişini daha həssas, diqqətcil və hörmətcil edir. Qılınc Qurban müharibənin insanları korlaması gümanı ilə hamıya şübhəli nəzərlərlə baxıb, gecələr at belində gəzib "iblis" axtarırsa, İsfəndiyar kişinin qəlbində insanı hisslər daha artıq dərəcədə baş qaldırır, nə Allaha, nə də onun bəndəsinə  inamını itirmir. Çətinə düşənlərə həyan olmaq, köməksizlərin qayğısını çəkmək, haqq-ədaləti hər şeydən uca tutmaq onun xarakterindəki əsas əlamətlərdəndir. Ona görə də insanlar Qılınc Qurbanın anlaya bilməyəcəklərini İsfəndiyar kişiyə deyir, imanına and verib, ürəklərini ona açırlar. Bir sözlə, yazıçı bu iki konkret obrazın hadisə və insanlara münasibətində  iki ictimai münasibətin, bütöv bir cəmiyyətin obrazını yaradır. Hesab edirik ki, "Saz" povesti müharibə dövrü gerçəkliklərini bədii həqiqətə çevirməklə yanaşı, cəmiyyəti idarəetməyə bədii-fəlsəfi münasibəti ilə seçilən bir əsər kimi dəyərləndirilməlidir. Hələ iki min beş yüz il bundan əvvəl qədim Çin çarlığı olan Luda məşhurlaşmış alim və məmur Konfusi özünün "Lun Yue" ("Mühakimələr və söhbətlər") adlı kitabında dövlət idarəçiliyi məsələlərinə toxunaraq bildirirdi ki, əgər xalq qanunla məhdudlaşdırılarsa, insanlar vicdan əzabı çəkmədən ondan yan  keçmək üçün yollar axtaracaq. Burada heç bir qadağa və məhdudiyyət kömək etmir. Amma xeyirxah idarəçilik əxlaqi hisslərə dəvət edir və sərbəst fəaliyyət üçün geniş meydan açır. Konfusiyə görə yaxşı idarəçiliyin ən vacib elementi fərdi əxlaqi şüurun diktə etdiyi vəzifələri hər iki tərəfin yerinə yetirməsidir. [3, s.20] "Saz"dan belə bir qənaət irəli gəlir ki, Sovet idarəetmə sistemi hətta ağır müharibə illərində belə bu həqiqəti nəzərə almamışdır. Qılınc Qurban ona görə "qılıncını" yerə qoymur ki, insanların həyat və fəaliyyəti sərt qanunlarla məhdudlaşdırılır və insanlar həyati ehtiyaclarını ödəmək üçün ondan yan  keçmək yollarını axtarırlar, insanlara qarşı xeyirxahlığına görə əks mövqedə dayanan İsfəndiyar  kişinin Qılınc Qurbanla fikir ayrılığı da bu üzdən baş verir.

Biz bu kimi maraqlı yaradıcılıq nümunələrinin təhlilini uzatmadan deyə bilərik ki, Sovet siyasi rejiminin bir bayraq altında birləşdirdiyi xalqlardan vahid "Sovet milləti" yaratmaq siyasətinin və bu siyasətə uyğun kazarma idarəçiliyinin bədii ifşası artıq 70-80-ci illərdə Ç.Aytmatovun "Gün var əsrə bərabər" və "Cəllad kötüyü", İ.Hüseynovun "İdeal" və "Əbədiyyət", Y.Səmədoğlunun "Qətl günü",

M.Süleymanovun “Köç” və “Dəyirman” əsərləri ilə ən yüksək zirvəsinə çatır. Bu əsərlərdəki milli cəmiyyətin varlığını, mövcudluğunu ehtiva edən amillər − milli tarixi keçmiş, milli yaddaş, milli-mənəvi dəyərlər və onları zəifləməyə və məhvə gətirib çıxaran səbəblər haqqındakı bədii-fəlsəfi düşüncələr  ədəbiyyatın artıq açıqdan-açığa sovet siyasi sisteminin üstünə yeriməsi, insanın öz milli simasını, keçmişini, milli kökünü itirməsinə kəskin etirazı demək idi. Xüsusən də Ç.Aytmatov “Gün var əsrə bərabər” (1980) romanında mifoloji planda təqdim etdiyi manqurtluq epizodu ilə Sovet imperiya rejiminin neçə-neçə xalqı itaətdə saxlamaq üçün yeritdiyi insanları manqurtlaşdırma siyasətinin və üsul-idarəçiliyinin mahiyyətini faş etdi.

Əsərdə Nayman Ana  manqurta çevrilmiş oğlu ilə rastlaşır, lakin oğul anasını tanımır, atasının kim, adının Jolaman olduğunu da yadına sala bilmir. Çünki juanjuanlar təcavüz etdikləri insanlar üzərindəki əsarət rejimininin möhkəmliyinə əmin olmaq üçün onların başına zif keçirib keçmişlərini, hətta ata-analarını, vətənlərini unutdurmuş, təhlükəsiz manqurta çevirmişlər. Nayman Ana bu dəhşətdən sarsılır, “Torpağı almaq olar, malı-dövləti almaq olar, lap adamın həyatını da almaq olar... ancaq adamın hafizəsinə kim qəsd eləyə bilər, bunu kim fikirləşib, tapıb? Pərvərdigara...” – deyə nalə çəkir.  Nayman Ananın bu fəryadı insan haqlarına, milli varlığa təcavüs siyasətinə, cəmiyyəti idarəetmədə yol verilən barbarlıq əlamətlərinə qarşı qəti bir üsyan idi. Yazıçı milli tarix və heysiyyata həqarət edən hər cür yabançı ideologiyanın, hər cür yad təsirin milli insanı assimilə − özününküləşdirmək zoruna qarşı milli ruh, milli tarixi yaddaş – özgürlüyünü qorumaq gücünü çıxarır.. “*Nayman Ana onu tanımayan oğlunun yaddaşını hərəkətə gətirmək üçün başını dizləri üstə alıb layla oxuyur. Silinən yaddaşı, itən hafizəni qaytarmağın bundan titrək vasitəsi ola bilməz. Ç.Aytmatovun əsərləri də sovet sisteminin ideoloji siyasətində boğulan insanlar üçün bir layla səciyyəsi daşıyırdı. “Səni nə hala gətirdilər, xatırla kim olduğunu” – bu, Nayman Ananın dili ilə özündən, özgürlüyündən zorla qoparılan bütün türklərə ünvanlanmış nida, qan yaddaşını oyatmağa yönəlik türkü idi.”* [11, s.4] Yazıçının təsvir etdiyi bu epizod, eyni zamanda, bir tərəfdən, əsarətin assimiləyə məruz qoyduğu insanların tarixi faciəsinə göz yaşları axıdırsa, digər tərəfdən, Nayman Ananın timsalında  milli soy-kökə qırılmaz tellərlə  bağlılığın, milli yaşam

gücünün qürur, fəxarət hisslərini yaşadır. "... *Hələ VII əsrdə Orxon kitabələrində acı bir şikayət həkk olunub – türk bəyləri yadelli tabqaçların şirin sözlərinə və bahalı bəxşişlərinə aldanaraq öz türk adlarından, dillərindən, türklüklərindən imtina etmiş, tabqaç adları qəbul etmiş, tabqaçlar arasında az qala assimilə olunmuşlar. Və budur, XX əsr yazıçısı Ç.Aytmatov yaddaşını itirmiş, hətta tanıya bilmədiyi anasına əl qaldıran Manqurt əfsanəsini qələmə alaraq xəbərdarlıq edir – xalqın tarixi hafizəsinin korşalması, fərdlərin və xalqların öz mənliklərini qeyb etməsi – faciədir. Böyük humanist yazıçı bunu elə bir zamanda yazmışdı ki, "yeni vahid insan birliyi – sovet xalqı" haqqında müddəa hakim ideologiya idi və Ç.Aytmatov bax, bu ideologiyaya meydan oxuyurdu."* [18, s.31] *"Nayman Ana milli kimliklərin unutdurulması proseslərinin yaşandığı dünyada yenidən oyanıb özünə "Mən kiməm" sualını verib cavab axtaran insanlığın milli-mənavi özünüdərkinin tamam yeni bədii təcəssümüdür. "Əsrə bərabər gün" romanı dünya ədəbiyyatının son bir əsrlik dövrünün möhtəşəm yekunu, yenidən özünüdərkə qayıtmağa can atan müasir epoxanın ədəbiyyatının start nöqtəsidir".* [92, s.37]

Bu fəsildə gəlinən nəticələr müəllifin nəşr etdirdiyi müxtəlif məqalələri və konfrans materiallarında öz əksini tapmışdır ("Крах советского государства: политико-идеологические, социально-экономические и морально-нравственные факторы (на основе сравнительного анализа «социализма» Низами и русско-большевисткого «социализма»)". Абай атындағы ҚазҰПУ-нің Хабаршысы, «Филология» сериясы, 2019. №1(67), s. 138-143; "1930-cu illərdə Azərbaycanda ədəbi mühit və Rəsul Rzanın "Qızılgül olmayaydı" poeması". Azərbaycan ədəbiyyatşünaslığı, 2019. №2, s. 201-208; "Nazim Hikmət fenomeni kontekstində sənətkar və zaman problemi". "Dünyadan keçən Nazim və Nazimdən keçən dünya" mövzusunda Respublika konfransının materialları, 2022, – s. 121-125).

# II FƏSİL
# SOVET İSTEHSALAT VƏ TƏSƏRRÜFAT ƏDƏBİYYATINDA İDARƏETMƏ MƏSƏLƏLƏRİ

## 2.1. İstehsalat və təsərrüfat ədəbiyyatının meydana gəlməsinə aparan yolda inzibati və sosial sifariş problemi.

Azərbaycan milli ədəbiyyatının ən qiymətli ənənələrindən biri bütün dövrlərdə zəhmətə, zəhmətkeşə yüksək dəyər verməsi, bir-birindən maraqlı əməkçi insan obrazları yaratmaq xüsusiyyəti ilə səciyyəvi olmasıdır. Bu ənənənin bünövrəsi şifahi xalq yaradıcılığında əmək nəğmələri, sayaçı sözlər, nağıllar, əfsanələr, tapmacalar və sairlə qoyulmuş, "Kitabi-Dədə Qorqud"da Oğuz dövlətçiliyinin müdafiəsi naminə düşmənlə əliyalın cəngə çıxan Qaraca Çoban, Nizami "Xəmsə"sində peyğəmbər və şahlara belə həyat dərsi öyrədən sadə əmək adamları obrazlarının rəğbətli boyalarla təsvir və tərənnümünə qədərki dövrdə formalaşmış, XX əsrin əvvəllərində C.Məmmədquluzadənin Novruzəlisi ("Poçt qutusu" hekayəsi, 1903), Usta Zeynalı ("Usta Zeynal" hekayəsi, 1906), A.Divanbəyoğlunun Qoca fəhləsi ("Fəhlə" hekayəsi, 1906), A.Şaiqin Məşədi Qurbanı ("Məktub yetişmədi" hekayəsi, 1908) ilə istismarçı üsul-idarənin əlində aciz qalsa da, mənəvi-əxlaqi keyfiyyətləri ilə rəğbət doğuran yeni tip əmək adamları obrazlarının ədəbiyyata gətirilməsi ilə özünün yeni inkişaf mərhələsinə keçid əldə etmişdir.

Sovet ədəbiyyatında "istehsalat və təsərrüfat ədəbiyyatı" anlayışının meydana gəlməsi və formalaşması isə bolşevik hakimiyyətinin ilk onilliklərinə (1920-1930) təsadüf edir və proletariatın (fəhlə-kəndli sinfinin) yeni cəmiyyət quruculuğu uğrundakı mübarizəsini, kolxoz-sovxoz, fabrik-zavod, müəssisə həyatını "sinifli" nöqteyi-nəzərdən bədii surətdə əks etdirən əsərlər yaratmaq mənasını verir. Bu baxımdan, ənənəvi "əmək mövzusu" və "əməkçi insan obrazı" ilə "sosialist əməyi" mövzusu və "sovet zəhmətkeşi obrazı" arasında məna, mahiyyət fərqi meydana çıxır. Birinci halda mövzunun işlənməsində sənətkarın sövq-təbii marağı, yaradıcılıq haləti, əməyin insan həyatında oynadığı rol haqqında bədii təfəkkürü əsas rol oynayırsa,

ikinci halda “ədəbiyyatın ümumproletar işinin bir hissəsinə çevrilməsi”, yəni yeni sosialist tipli bir imperiyanın iqtisadi əsaslarının möhkəmləndirilməsi üçün ədəbi prosesin yuxarıdan idarə edilməsi gerçəkliyi aydınlaşır. Sovet istehsalat və təsərrüfat ədəbiyyatı bütün ideya-məzmunu onun yaradıcılıq zərurətindən daha çox, diktatura idarəçiliyinin siyasi sistemi yaranmış böhran şəraitindən çıxarmaq siyasəti ilə bağlı idi. Hərbi-totalitar rejim dövlətə taxıl verməyən kəndliləri “yerindəcə güllələyəndən”, “sinfi düşmən”, “iqtisadi sobatajçı” qismində şübhə doğuran istehsalat mütəxəssislərini kütləvi surətdə məhv edəndən sonra yaranmış ağır vəziyyətdən çıxış yolunu zorakı vasitələrlə yanaşı, sözün gücündə − ədəbiyyatda görürdü. “Proletar kütlələri mübarizəyə və əməyə hazırlamaq” ədəbiyyatın qarşısında bir nömrəli vəzifə kimi qoyulur, ədəbi fəaliyyət sovet iqtisadiyyatının inkişafı tələblərinə tabe etdirilirdi. Bu proses bir-birinin ardınca qəbul edilən siyasi qərar, qətnamə və tapşırıqlarla (məsələn, 1925-ci il 18 iyun tarixli “Bədii ədəbiyyat sahəsində partiyanın siyasəti haqqında”, 1929-cu ildə dövlətin strateji məqsədlərini bəyan edən “Kollektivləşdirmə, sənayeləşmə və mədəni inqilab haqqında”, 1946-cı il 26 avqust tarixli xalqın maariflǝndirilməsi, teatr sənətinin müasir tələbinə uyğun inkişaf etdirilməsi ilə bağlı, 1961-ci ildə elan edilən kommunizm quruculuğu Proqramı, habelə, Kommunist Partiyasının qurultaylarında iqtisadi inkişafla bağlı müvafiq göstərişlər, illik və beşillik planların yerinə yetirilməsi tapşırıqları və s.) tənzimlənirdi. Ədəbiyyatdan zəhmətkeşləri yeni cəmiyyət quruculuğunun perspektivlərinə inandıran, zərbəçi əməyə ruhlandıran, əmək adamının ən yaxşı sifət və xüsusiyyətlərini təsvir edən dərin məzmunlu, bitkin formalı əsərlər tələb olunurdu. Bütün bunlara müvafiq olaraq, yəni ədəbiyyatın vahid Mərkəzdən idarə edilməsi nəticəsində təsərrüfat və istehsalat mövzuları sovet xalqları ədəbiyyatında eyni vaxtda təşəkkül tapdığı kimi, “tarixi qərarlara” uyğun şəkildə bir neçə mərhələdən keçərək inkişaf edirdi. Belə ki, Sovet hakimiyyətinin ilk onilliklərində əmək mövzusu özünü inqilab mövzusunun tərkib hissəsi kimi göstərmiş və bədii qəhrəmanın məqsədi “əmək nailiyyəti” əldə etməkdən daha çox “sinfi düşmənləri əzmək”dən, “qaçaq-quldurla mübarizə aparmaq”dan ibarət olmuşdur. Bu mərhələdə meydana çıxan əsərlərdə adi fəhlə yaxud kəndlinin partiyanın çağırışı ilə sinfi

düşmənlərə qarşı mübarizəyə qoşulması, köhnə quruluşun yerində yeni quruluş yaratmaq işində fəallıq göstərməsi, "tarixi dönüş günlərini" plakat, deklarativ şüarçılıq səciyyəsində, yaxud da romantikcəsinə təsvir və tərənnüm, obraz yaradıcılığında sxematiklik, bədii qəhrəmanın müəllif iradəsinə tabe etdirilməsi və s. ən səciyyəvi əlamətlər kimi nəzərə çarpır.

Lakin unutmaq olmaz ki, hər bir insan kimi, sənətkar da ictimai varlıqdır, cəmiyyətdə baş verən hadisə və proseslərə biganə qalmır və qələmə aldığı əsərlərdə zamanın, sosial-ictimai mühitin doğurduğu insan münasibətlərinin ehtiva olunması, bədii-estetik düşüncə və təhlil predmetinə çevrilməsi ədəbi yaradıcılığın qanunauyğunluqlarındandır. Deməli, kollektivləşdirmə və sənayeləşdirmə (eləcə də vətəndaş müharibəsi, mədəni inqilab və s.) kimi mövzuların ədəbiyyata gətirilməsinin sosial sifariş tərəfini – ictimai-siyasi və sosial-iqtisadi proseslərdə yaranan insan hiss, duyğu və düşüncələrinin, yeni əmək münasibətlərinin bədii təcəssümü ehtiyacı səbəbini də qeyd etmək vacibdir. Xalqın məişət və psixologiyasına təsirsiz ötüşməyən tarixi proseslərə diqqət yetirmədən xalq həyatını müasir mənzərəsi ilə canlandırmaq da mümkün deyildi. Məhz bu ikinci səbəbin təsirinin üstün olduğu hiss olunan əsərlərdə sosial-ictimai proseslər geniş təfərrüatlarla, obrazlar fərdi və ümumi cizgiləri ilə təqdim oluna və əsərin bədii-estetik uğurunu təmin edə bilir. (B.Talıblının "Dirək" (1930), Əbülhəsənin "Yoxuşlar" (birinci hissəsi: 1930, təkmilləşdirilmiş variantı: 1933-1938; ikinci hissəsi: 1962), "Dünya qopur" (1933), Qantəmirin "Kolxozstan" (1934), M.Hüseynin "Kin" (1935), "Tərlan" (1936-1937), Mir Cəlalın "Bir gəncin manifesti" (1939) əsərlərindəki, eləcə də A.Şaiq, S.Rəhman, S.Rəhimov, M.İbrahimov və b. sənətkarlarımızın həmin illərdə yaratdığı əməkçi insan obrazlarını xatırlayaq). Habelə, C.Cabbarlı, S.Vurğun, R.Rza, S.Rəhimov, M.İbrahimov və s. kimi sənətkarlarımızın əmək mövzusunda yazdığı bir sıra əsərlərin bu gün də maraqla oxunması, hesab edirik ki, həmin fikrin əyani sübutudur.

Nümunə üçün Əbülhəsənin "Yoxuşlar" romanının ideya-məğzi xüsusiyyətlərinə diqqət yetirək. Yazıçının bu əsərdə əsas məqsədi kənddə qolçomaqların bir sinif kimi ləğv edilməsi, fərdi təsərrüfatların elliklə kollektivləşməsi və bu prosesdəki kəskin mübarizələri əks etdirməkdən ibarət

olmuşdur. Romanda baş verən hadisələr ucqar bir kənddə cərəyan edir. Süjetin mərkəzində şəhərdə fəhlə həyatından ayrılıb kəndə gələn Bünyadın yerli fəallarla (Şərif, Qumru, Muzdur, Cəmil və b.) birləşərək kolxoz quruculuğu uğrunda mübarizəsi dayanır. Əsərdə həyatın dramatizmi, dəyişən zamanın sərt qaydaları, sosial problemlərin və insan münasibətlərinin mürəkkəbliyi, psixoloji təbəddülatlar inandırıcı lövhələrlə əks etdirilir. Yaxud M.Hüseynin "Kin" əsəri, heç şübhəsiz ki, inzibati sifarişin nəticəsi kimi meydana gəlmişdi. Əsərdə köhnə kənd həyatı sıxıntıları, Sadıq və Qarapet kimi kasıb kəndli və muzdurların maddi ehtiyac və mədəni gerilik içərisində yaşaması motivlərinə geniş yer verilməsi mahiyyət etibarilə həmin niyyətə xidmət edirdi, bununla belə, povestdəki başqa bir xətt – Muxtar və onun oğlu Səmədin oğurluq yolu ilə varlanması, haramlığın, harınlığın Laçın - Gülyaz azadlığı, məhəbbəti, səadəti yolunda ciddi əngələ çevrilməsi ideya xətti – yazıçının sosial sifariş tələbini də nəzərə aldığını göstərir və mənəvi-əxlaqi-tərbiyəvi əhəmiyyəti ilə bugünümüz üçün də aktuallığını qoruyub saxlayır.

Dəyişən mühitə rəğmən partiyanın ədəbiyyat qarşısında qoyduğu tələblər də yeniləşir, ədəbiyyatdan sosialist dəyişikliklərini qələmə almaq, əlində silah inqilabın qələbəsi uğrunda ölüm-dirim mübarizəsi aparan qəhrəmanları yeni cəbhədə – hakimiyyəti möhkəmləndirmək, idarə etmək, kollektivləşdirməni başa çatdırmaq, savadsızlığa, köhnə adət və ənənələrə qarşı mübarizə aparmaq uğrunda çarpışanların ön sırasında təsvir və tərənnüm etmək tələb olunur. Eyni zamanda, İosif Stalinin fikrinə görə, sosializm möhkəmləndikcə sinfi düşmən də güclənir, köhnə cəmiyyətin tərəfdarları öz simasını dəyişərək daha qorxulu və daha hiyləgər mübarizə üsullarına keçir. Odur ki, artıq 40-cı illərə doğru yaranan istehsalat və təsərrüfat əsərlərindəki təsvir və təfərrüatlarda ölkənin iqtisadi və siyasi həyatında əsaslı dəyişikliklərin baş verməsi, yeni idarəetmə sisteminin qələbə çalması, dağlarda, meşələrdə gizlənən qaçaq-quldur dəstələrinin fürsət düşüncə qabaqcıl ziyalıları, təsərrüfat rəhbərlərini məhv etmək, yaxud yoxsul, muzdur cildinə girərərək özlərini yeni quruluşun tərəfdarı kimi göstərmək, müxtəlif vəzifələrə soxulmaq yolu ilə sosialist quruculuğuna əlaltından əngəllər törətməsi və buna adekvat olaraq kommunist əqidəli fəhlə və kəndlilərin ziyankarlıq edən sinfi düşmən qalıqlarını zərərsizləşdirməsi hadisələri

xüsusi yer tutur. Məsələn, M.İbrahimovun “Həyat” (1935) pyesində, M.Hüseynin “Tərlan” (1936-1938) romanında yeni cəmiyyət quruculuğunun fəal tərəfdarları ilə köhnə quruluş tərəfdarlarının arasında mübarizə belə bir tarixi şəraitdə baş verir.

“Həyat” pyesinin qəhrəmanı Həyat MTS siyasi şöbəsiniə rəis təyin edilən kimi ətrafına fəal tərəfdarlar toplayıb onların köməyi ilə idarəetmə işlərini canlandırır, ümumxalq işinin şəxsi mənafedən üstünlüyünü kütlələrə başa salmağa, kəndin sosial rifah halının yaxşılaşdırmaq üçün yollar aramağa çalışır, Süleyman, Musa, Məşədi Hüseyn kimi maskalanmış sinfi düşmən qalıqlarının planlı təsərrüfatı pozmaq, namuslu adamları ləkələmək cəhdlərini dəf etməyi bacarır. Əsərdəki digər obrazlar (inqilab yolunda keçmiş xidmətləri ilə qürrələnib siyasi sayıqlığını itirən MTS direktoru Həsənov, təbiət etibarilə Həsənovla birləşən Pardon Qurbanəli, Həyatın əri, zəif xarakterli Akif, yeni cəmiyyət quruculuğunun gələcəyinə inanıb təsərrüfat işlərinə ürəkdən can yandıran Cəlal kişi, Qurban, Atlas, Abbas, Tofiq və b.) da tipik şəraitə uyğun şəkildə, həyati proseslərdə tutduqları mövqeyə uyğun düşüncə tərzi və bacarıqları ilə təsvir olunur. Dramaturq Süleyman vasitəsilə qəddar olduğu qədər də hiyləgər və tədbirli, köhnə fikirli və zəif iradəli insanlardan öz çirkin məqsədləriü çün məharətlə istifadə etməyi bacaran sinfi düşmən qalıqlarının ümumiləşdirilmiş obrazını yaradır.

“Tərlan” romanında yeni cəmiyyət quruculuğunun fəal tərəfdarları Tərlan, Mürsəl kişi, Məryəm, Nadir, Sədəf, Səriyyə, Xanlar kimi kənd qabaqcılları, köhnə quruluşun tərəfdarları isə Fərman bəy, Mahmud, Şamil və başqalarıdır. Yazıçı kənd müəllimi Tərlanın simasında bir insan, ziyalı və vətəndaş kimi yüksək siyasi, mənəvi, əxlaqi keyfiyyətlərə malik sovet adamlarının xüsusiyyətlərini ümumiləşdirirsə, Fərman bəyin simasında mal-mülkü əlindən alındıqdan sonra meşələrdə gizlənib quldurluqla məşğul olan, məkrli planlarını həyata keçirmək üçün hər cür təxribata əl atan köhnəlik tör-töküntülərinin xüsusiyyətlərini ümumiləşdirir. Fərman bəy kəndə işləməyə gedərkən gənc həkim Fazil Şərifzadənin meşədə qarşısını kəsib qətlə yetirir, sənədlərini vaxtilə tibb institutundan qovulmuş öz əlaltısı Mahmuda verir, onu qətlə yetirdiyi adamın adı ilə pozuculuq işi aparmaq üçün kəndə göndərir, lakin əsərdə cərəyan edən hadusələr kənddə kolxoz quruluşu uğrunda mübarizə aparan xalq

kütlələrinin qələbəsi ilə başa çatır. Bu qısa təfsilatdan da görünür ki, romanda əsas diqqət obraz yaradıcılığından daha çox qolçomoqlarla mübarizə, kəndin yeni sosialist əsaslar üzərində qurulması problemlərinə yönəldilir, bu səbəbdən tipik həyat hadisələrini təsvir cəmiyyətdə baş verən ciddi dəyişikliklər haqqında təsəvvür yaratmış olsa da, xarakter zənginliyi, mənəvi təkrarsızlığı ilə seçilə biləcək dolğun, yaddaqalan surətlər təqdim edilmir.

Biz eyni tendensiyanı sənayeləşdirmə mövzusuna münasibətdə də izləyə bilirik. Ənvər Məmmədxanlının "Burulğan" (1934) povestində, M.S.Ordubadinin "Döyüşən şəhər" (1938) və "Gizli Bakı" (1940), Abdulla Şaiqin "Araz" (1940) romanlarında, çoxlu sayda hekayələrdə Bakı neftçilərinin mövcud mürəkkəb siyasi şəraitdəki həyat və fəaliyyəti, məqsəd və mübarizələri epik təsvirini tapır.

Növbəti – 1940-1950-ci illər mərhələsində, inqilab və sinfi düşmənlə mübarizə mərhələsi geridə qaldığından, "istehsalat və təsərrüfat ədəbiyyatı"nda da "sinfi mübarizə" ideya vüsətinin aşağı düşdüyü, sovet kəndinin və sovet sənayesinin yenidən qurulması prosesinin təsvirinə daha geniş yer verildiyi müşahidə olunur. Yeni əsərlərdə konflikt artıq inqilabçı-zəhmətkeşlə əks-inqilabçı-qolçomaq, yaxud sobatajçı-burjuy arasında deyil, əsasən sovet təfəkkürlü, mütərəqqi görüşlü sosialist əməyi qabaqcılı, yaxud sosialist əməyi zərbəçisi ilə yeni həyatla ayaqlaşmayan köhnəliyin qalıqları arasında baş verir və buna müvafiq olaraq qəhrəmanın xarakteri, baxış və görüşləri silahlı mübarizədə deyil, yeni əmək münasibətləri fonunda, islahedici mübarizədə, bir "sovet zəhmətkeşi" kimi əməkdə və mənəvi həyatda parlaq nümunə göstərmək ideya-xəttində açılır. Bu tempi daha da inkişaf etdirmək, daha canlı əməkçi insan obrazları yaratmaq üçün sənət adamlarının təsərrüfat və istehsalat obyektlərinə ezam edilməsi ənənə halını alır və bu ənənə Sovetlər Birliyinin süqutuna qədər davam etdirilir. Ədəbi tənqiddə qeyd olunduğu kimi: *"Sosrealizmin ən populyar çağırışlarından biri "Həyatı öyrənmək lazımdır!" – idi və bu şüar kontekstində həyat – zavodda, fabrikdə, neft, yaxud da maşınqayırma trestində, pambıq tarlasında, silos tədarükündə və sairdə istehsal prosesi kimi nəzərdə tutulurdu..."* [61, s.70] Əlbəttə, ədəbi qüvvələrin təsərrüfat və istehsalat mövzularına yönəldilməsi onun həyatla əlaqəsinin möhkəmləndirilməsinə təsirsiz qalmır, əmək

həyatının daha səmimi və canlı boyalarla təsviri imkanlarını genişləndirmişdir. Amma, ədəbi tənqiddə qeyd edildiyi kimi, *“inikas obyektinə mükəmməl bələdlikdən başqa, sənətkarın həmin aləmlə ruhən bağlılığı da tələb olunduğundan”* [101, s. 158], kəndli mövzusundan fərqli olaraq fəhlə mövzusunda uğurlu yaradıcılıq problemi özünü daha çox göstərməkdə davam edir. Doğrudur, müharibədən sonra, faşizmin törətdiyi dağıntıları aradan qaldırmaq üçün aparılan bərpa işləri, cəbhə döyüşlərindən alnıaçıq çıxmış insanların taleyi kontekstində fəhlə mövzusuna diqqətin xüsusilə artırılması yeni orijinal əsərlər, xarakterlər yaradıcılığına təsir edir. M.Hüseynin “Abşeron” (1947-1948) və “Qara daşlar” (1957-1958), İ.Əfəndiyevin “İşıqlı yollar” (1947), “Söyüdlü arx” (1958), M.Süleymanovun “Yerin sirri” (1948), İ.Əfəndiyevin “Bahar suları” (1948), S.Vurğunun “Muğan” (1949), İ.Qasımovun “Xəzər üzərində şəfəq” (1950), Mir Cəlalın “Təzə şəhər” (1951), İ.Hüseynovun “Dan ulduzu” (1954), M.İbrahimovun “Böyük dayaq” (1957), İ.Şıxlının “Ayrılan yollar” (1957) və s. kimi əsərlərin ədəbi qəhrəmanları əvvəlki sələflərindən fərqli olaraq daha realist görünür, cəmiyyətdəki qüsurları görür, eybəcərliklərə dözə bilmir, sosial-ictimai problemlərin həlli yolları haqqında düşünürlər. Lakin 80-ci illərə doğu və 80-ci illərdə, tənqidçi A.Hüseynovun qeyd etdiyi kimi, kənd həyatının bədii təcəssümü sahəsində mühüm nailiyyətlər əldə edildiyi halda, fəhlə mövzusunda yenidən bir səthilik hiss olunur, ötəri müşahidələr, müəlliflərin səmimi cəhdlərinə baxmayaraq, çox vaxt növbəti səthi yazının meydana çıxması ilə nəticələnir və dövrün ədəbi-tənqidi bunun başlıca səbəbini yazıçıların mövzu ilə üzvi və sabit təması, daxili rabitəsi problemində axtarır. *“Ən yaxşı əsərlərimizdə kənd gerçəkliyi sadəcə material kimi, yalnız mövzu kimi alınmır, torpağımıza qayğımız, kökümüzə, ocağımıza bağlılığımız miqyasında mənalanır. Fəhlə həyatının bədii inikası da beləcə şirəli-cazibəli səslənməli, mənəvi iqlimi ilə qəlbimizi-ruhumuzu oxşamalıdır.”* [101, s.158] Hesab edirik ki, 80-cı illərdə fəhlə və kəndli mövzusunda bədii yaradıcılığın vəziyyəti haqqında təsəvvür yaradan bu təhlil, eyni zamanda, inzibati və sosial sifariş probleminə işarə edir: mövcud siyasi sistem ədəbiyyatdan bir rupor kimi istifadə etdiyi kimi, bir sıra yazıçılarımız da vacib, dəyərli mövzulara müraciət adı altında fəhlə mövzusundan sadəcə rupor kimi faydalanmışlar.

Bir sözlə, artıq 60-cı illərdən etibarən cəmiyyətdə baş verən siyasi-ictimai hadisələr və buna rəğmən ədəbi yaradıcılığa münasibətin dəyişilməsi nəticəsində (biz bu barədə birinci fəslin 3-cü bölməsində bəhs etdik − N.Q.) meydana çıxan yeni ədəbi baxış və məfkurə "ideal sovet cəmiyyəti və qəhrəmanı" haqqındakı ehkam və sxolastika ilə barışa bilmir, vicdanın səsinə qulaq asmağa, insanın gerçək mənəvi durumu ilə bağlı əsl həqiqətləri qələmə almağa, fərd və cəmiyyət arasında kəskin ziddiyyətlər yaradan sosial-ictimai eybəcərliklərin təsvirinə meyil edir. Bu, milli ədəbiyyatımızın "sosrealizmin tələbləri" çərçivəsindən çıxıb yaradıcılıq azadlığına qovuşmaq mücadiləsinin əlamətləri idi və bu baxımdan akademik İ.Həbibbəylinin bu gerçəkliyi nəzərə alaraq özünün "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşməsi konsepsiyası"nda Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsini 1920-1960-cı illərlə məhdudlaşdırması məntiqəuyğundur. [89, s. 3] Y.Qarayev milli ədəbiyyatımızın 60-cı illər dönüşünü "Ən yeni dövrün Azərbaycan ədəbiyyatı" adlı məqaləsində belə səciyyələndirir: *"Altmışıncıların, hər şeydən əvvəl, İnsana diqqəti dərinləşdi. Altmışıncılar "İnsan" mövzusunu bədii ədəbiyyata yeni mövzu, yeni problem kimi, yenidən daxil elədilər. Bu problemdə, əvvəlki onilliklər üçün məxsusi təhlil və diqqət hədəfi olmayan, yaxud, hələ arxa planda qalan qatlar qaldırdılar. Söhbət şəxsiyyətə, fərdə, mənəvi-psixoloji "daxilə", "içə" artan bədii maraqdan gedir, zamanı, dövrü, mənəvi gerçəkliyi birbaşa "ictimai sistem və struktur" kimi yox, daha əvvəl vicdani, etik səltənət kimi, əxlaq mehrabı kimi açan bədii təhlil və tədqiqatdan gedir."* [126, c.1, s.479] Bu ədəbi təmayülün mövzu-problematika seçiminə, janr-üslub təyinatına, obraz-qəhrəman yaradıcılığı tipajına, yeni ideya-qayə axtarışlarına əsaslı dərəcədə təsiri qaçılmaz idi. Ədəbiyyat tarixlə, dəyişən mühitlə və onu yaradanlarla birlikdə dəyişir, yeniləşir, *"bədii düşüncədə ictimai faktorların azalması ilə bədii siqlət daha da güclənir, təbiətlə cəmiyyətin təmasının bədii səlnaməsi yaranır"* [70, s.447], insanın hissi-psixoloji yaşantılarının, insani münasibətlərin təsviri mövcud ideoloji sistemin, rejimin, idarəetmə modellərinin qüsurlarını göstərən projektor işığına çevrilir. 50-ci illərin sonlarında İ.Hüseynov və İ.Əfəndiyev yaradıcılığı ilə başlanan bu meyil 60-80-ci illərdə S.Əhmədov, Ə.Əylisli, İ.Məlikzadə, Ç.Hüseynov, İ.Şıxlı, F.Kərimzadə, Anar, R.İbrahimbəyov, Elçin,

M.İbrahimbəyov, M.Süleymanlı və başqa sənətkarlarımızın yaradıcılığı ilə möhkəmlənir. 80-cı illərin sonlarından etibarən sovet siyasi sisteminin çöküşü, iqtisadi strukturunun dağılması ilə "sovet adamı", "sovet zəhmətkeşi", "sovet həyat tərzi" və s. kimi anlayışlar, istilahlar, ehkamlar da birdəfəlik ədəbiyyatın bədii təhlil-tədqiqat diqqətindən kənara atılır.

Qeyd etməliyik ki, sovet istehsalat və təsərrüfat ədəbiyyatı mərhələvari inkişaf xüsusiyyətlərinə malik olmasına baxmayaraq, sovet zəhmətkeşi obrazının əməyə fədakar münasibəti və coşğun əmək həyatının romantik təsvirləri fonunda mövcud inzibati idarəetmə sisteminin bütün dövrlərdə istehsalat və təsərrüfat tapşırıqlarının yerinə yetirilməsini insanların sosial qayğılarına diqqətdən üstün tutduğunu sövqi-təbii ortaya qoyur. Məlumdur ki, sovet siyasi sistemi zəhmətkeşləri izafi əməyə cəlb etməklə yanaşı, müxtəlif şüarlar altında ("Qırmızı iməciliklər", "Öz əvəzinə və o gəncin əvəzinə", "Plandan əlavə öhdəliklər", "sosializm yarışı bəhsləşmələri" və s.) istirahət günləri də işlədir, "sezon vaxtı" isə hətta qeyri sahələrdə işləyənləri, hətta şagirdləri, tələbələri də təsərrüfar işlərinə səfərbər etmişdir. Belə üsul-idarəçiliyin antihumanist xarakteri hələ 60-cı illərdə Rəsul Rzanın "Sarı dana və balaca qız" şeirində fermanın bir danasına göstərilən diqqət və qayğının xəstə qızcığaza bəslənən münasibətdən üstün tutulmasının ironik təsviri fonunda ifşa olunurdu. Şeirin məzmunundan belə məlum olur ki, fermadakı Sarı dana xəstələnir. Bu xəbərə kolxoz sədri, briqadir, baytar, partkom, hətta qoca mühasib dərhal tökülüşüb gəlir, sarı dananı sağaltmaq üçün təcili tapşırıqlar verir, səhər-axşam dananın əhvalını soruşurlar. Cavabdehlik məsuliyyəti sağıcı Gülxaranı evdə xəstə yatan qaragöz kiçik qızını "unudub" danadan ayrılmamağa, onun qayğısına qalmağa məcbur edir. Nəticədə sarı dana sağalır, Gülxaranın qaragöz qızı isə baxımsızlıq üzündən həlak olur.

*Əhvalat uzundur, nə deyim,*
*Bəsdir bunu desəm:*
*Dana ölmədi azardan.*
*Ancaq Gülxaranın*
*qaragöz kiçik qızı...*

*Beşcə qulac bez aldılar bazardan.*

*Quyruğunu qoyub belinə*

*Qaçır, tullanır*

*Sarı dana indi.*

*Ancaq, soruşan yoxdur,*

*Yaşıl otlar içindəki*

*O balaca qəbir kimindir!* [188, s.102]

Göründüyü kimi, "Sarı dana və balaca qız" şeiri sovet idarəetmə sisteminin zəhmətkeşə antihumanist mahiyyətini kəskin şəkildə tənqid atəşinə tutur, başqa sözlə desək, bu şeir ictimai-siyasi və ədəbi mühitdə "Xruşşov istiləşməsi" dövründə Azərbaycan ədəbiyyatında meydana çıxmış ciddi tənqidi-realist əsər" [132, s.12], sovet üsul-idarəçiliyinin əleyhinə yazılmış sarkazm təsiri bağışlayır.

Beləliklə, biz belə bir qənaətə gələ bilərik ki, sosializm quruculuğuna dair Lenin planının – sənayeləşdirmə, kənd təsərrüfatını kollektivləşdirmə və mədəni inqilabın həyata keçirilməsi, Böyük Vətən müharibəsi illərində SSRİ-nin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, faşist Almaniyasının və militarist Yaponiyanın darmadağın olunmasının təşkili, müharibədən sonrakı dövrdə dağılmış şəhər və kəndlərin, istehsalat və təsərrüfat obyektlərinin bərpası və daha da inkişaf etdirilməsi sahəsində partiyanın çoxcəhətli fəaliyyəti ədəbiyyatın da cari vəzifələrini təyin etmişdir. Buna rəğmən inqilabi hərəkat, vətəndaş müharibəsi, açıq və gizli düşmənlərə qarşı mübarizə, xalqlar dostluğu, qadın azadlığı, fəhlə-kəndli həyatı, müharibə və s. kimi "aktual" mövzularda çoxlu sayda əsərlər yazılmışdır. Bu mövzular zamanın, mürəkkəb siyasi-ictimai şəraitin diqtə etdiyi mövzular idi. Lakin bu mövzularda yazılmış əsərləri həm bədii-estetik, həm də ideya-məqsəd baxımından eyniləşdirmək mümkün deyil. Baxmayaraq ki, inzibati sifarişə uyma 60-cı illərə qədərki sovet dövrü yaradıcılığında ritorikanın, quru, cansız sosioloji təhlilin, sxematizmin kök salmasına səbəb oldu, *"Sistem üçün aktual olan mövzunun (pambıq, yaxud barama planının yüz əlli faiz yerinə yetirilməsi, böyük ruh yüksəkliyi ilə Mingəçevir su-elektrik stansiyasının tikilməsi, kolxozçunun, yaxud fəhlənin xoşbəxt həyatı, kapitalizmin ifşası və s., və i.a.) arxasında gizlənən bədii qadirsizlik*

*sosrealizm tərəfindən nəinki qəbul edildi, əksinə bu bədii qadirsizlik Stalin mükafatı ilə mükafatlandırıldı, dərsliklərə salındı və qrafomanlıq sənət səviyyəsinə qaldırıldı, bədii-estetik meyarları siyasi meyarlar əvəz etdi"* [61, s.35], bu gün həmin əsərlərə yeni meyarlarla baxış tamam başqa bir qənaət doğurur: təbii ki, sovet dövrü ədəbi prosesi cəmiyyətdə baş verən ziddiyyət və təbəddülatlardan yan keçə bilməzdi. İdeoloji ehkamlara tabe tutulan ədəbiyyatdan sosial-siyasi məzmunu ön plana çəkmək, insanları Kommunist Partiyasının "böyük idealları" uğrunda səfərbərliyə almaq işinə kömək etmək tələb edilir və buna müvafiq olaraq bədii fikir sosial-iqtisadi böhrandan çıxış yollarını aramalı olurdu. Başqa sözlə desək, sovet ədəbiyyatında, o cümlədən Azərbaycan sovet ədəbiyyatında istehsalat və təsərrüfat əsərlərinin meydana gəlməsi və belə əsərlərdə həyat reallıqlarını doğru-düzgün təsvirlə yanaşı təhrif (bədii səmimilik xüsusiyyətini itirmək) meyillərinin paralel surətdə özünü göstərməsi inzibati (mövzu-problem-ideya seçiminin yuxarıdan diktə edilməsi) və sosial sifariş problemləri ilə, ədəbiyyata ideoloji təbliğat maşınının bir hissəsi kimi baxış (bədii yaradıcılığa zorakı təzyiq) və yazıçının öz yardaıcılıq sərbəstliyini qorumaq (ideya-estetik baxışlarını əks etdirmək, mövqeyini ifadə etmək cəhdi) məsələləri ilə əlaqəli idi. Bizim şair və yazıçılarımızın heç də hamısı sadəcə gündəlik "sifarişlər"lə işləməmiş, yaranan şəraitdən istifadə edərək, istedadlarının gücü ilə, ictimai, siyasi və mənəvi proseslərin mahiyyətini ədəbiyyata gətirə bilmişlər.

## 2.2. İstehsalat və təsərrüfat ədəbiyyatında "mütərəqqilər" və "mühafizəkarlar" qütbləşməsi.

Apardığımız araşdırmalar sovet istehsalat və təsərrüfat ədəbiyyatında təsvir edilən əmək adamları arasında iki zidd – "mütərəqqilər" və "mühafizəkarlar" qütbləşməsinin səbəblərini müəyyənləşdirilməyə də imkan verdi və biz belə bir nəticəyə gəldik ki, istehsalat və təsərrüfat ədəbiyyatındakı insan obrazları arasında "qütbləşdirmə" tendensiyasının meydana çıxması "xeyir-şər" mübarizəsi ənənəviliyindən daha çox cəmiyyətdə gedən siyasi-ictimai proseslərin nəticəsidir.

Belə ki, rejim nəinki tarixi hadisə və proseslərə, hətta həyati inkişafa və insan münasibətlərinə inqilabi-sinfi mövqedən yanaşmağı və inqilab nəfəsli, sovet təfəkkürlü qəhrəmanların sinfi düşmənlər, əksinqilabçılar, burjua-mülkədar ünsürləri, iqtisadi sobatajçılar üzərində parlaq qələbəsini tərənnüm etməyi tələb edir, bu isə ədəbiyyatda sovet ideallarının daşıyıcısı kimi "mütərəqqi", onların mübarizə hədəfinə çevrilənləri isə antiideal qismində "mühafizəkar" obrazının yaradılmasına gətirib çıxarırdı. Diqqət yetirsək, görərik ki, 20-ci illərdən etibarən ədəbiyyatımızdakı bütün "mütərəqqilər" müsbət, bütün "mühafizəkar" isə mənfi planda təqdim edilmişdir: "mütərəqqilər" humanistliyi, mənəvi-əxlaqi keyfiyyətləri ilə fərqlənir, elin rifahını, cəmiyyətin tərəqqisini düşünür, "mühafizəkarlar" isə ancaq şəxsi mənafeyini güdən, pozuculuğa, çəkişmələrə, ixtilaflara meyil edən, qurucu fəaliyyətə mane olan rəzillər, neqativ halların daşıyıcılarıdırlar. Bu cür ümumiləşdirmə, heç şübhəsiz ki, oxşar konflikt və süjet xətti sxematikliyinə, insan xarakterlərinin təqdimində tipoloji səciyyələndirməyə − "mütərəqqiləri" ən rəğbətli boyalarla bəzəməyə, "mühafizəkarların" isə simasında antiinsani keyfiyyətlər cəmləşdirilməyə gətirib çıxarırdı. Bu qüsur ədəbi tənqiddə, haqlı olaraq, mövcud tarixi-siyasi şəraiti səciyyələndirən əlamət kimi müəyyənləşdirilmişdir: *"Romanların, pyeslərin, hətta poemaların konfliktlərini "müsbət" insanlarla "mənfi" insanların sosioloji mübarizələri təşkil etdi və həmin "mənfi" − "müsbət" təsnifatını bədii-etik-psixoloji meyarlar deyil, siyasi meyarlar müəyyənləşdirdi. Yəni hakim ideologiyanı təcəssüm etdirən surət "müsbət" idi və o, "mənfi" ola bilməzdi, bu ideologiyaya yad hərəkətlərə yol verən isə heç vəchlə "müsbət" surət ola bilməzdi".* [61, s.36-37] Məsələn, B.Talıblının "Dirək" (1930) povestində konflikt iki düşmən cəbhə arasında gedən mübarizə üzərində qurulur və bu mübarizə yeni quruluşa can atan "rəiyyət balaları" − Nadirlər, Məcidlərlə öz ağalığını əldən vermək istəməyən burjua-mülkədar qalıqları – Məstanlar, Səmədlər, Məşədi Məhəmmədlər arasında gedir. Əbülhəsənin "Yoxuşlar" (1933) romanının müsbət qəhrəmanı Bünyad şəhərdən kəndə üz tutub kənddə gedən sinfi mübarizəyə qoşulur. Qantəmirin "Kolxozstan" (1934) povestində konflikt kommunist Mirzə Ələkbərlə qolçomaq Qara Hüseyn arasında, M.Hüseynin "Daşqın" (1933) povestinində bəy-xan zülmündən yenicə xilas

olmuş yoxsul kəndlilər Sarxan, Şirəli kimi inqilabi hərəkat başçılarının ətrafında toplaşıb daxili əksinqilabi qüvvələrə qarşı mübarizə aparır. C.Cabbarlının “Almaz” (1929-31) pyesində kənd müəllimi gənc Almaz açıq sinfi düşmənlərlə (qolçomaq Hacı Əhməd, Balarza, İbad) döşləşməli olur və s. Bir sözlə, obrazlar arasında qütbləşmə cəmiyyət həyatının bütün sferalarını əhatə edən barışmaz ziddiyyət və kəskin mübarizə reallığının ədəbi təzahürünə çevrilir.

Eyni zamanda, inqilabi və sinfi düşmənlə mübarizə mərhələsi geridə qaldıqca “mütərəqqilər” artıq açıq sinfi düşmənlərlə deyil, məğlub və ölümə məhkum qüvvələrin maskalanmış təmsilçiləri, yaxud yeni həyatla ayaqlaşmağı bacarmayan köhnə düşüncəli rəzillərlə mübarizə aparır. C.Cabbarlının “Yaşar” (1932) dramında müsbət qəhrəmanın mübarizə hədəfi özünü yeni quruluşun fəal tərəfdarı kimi göstərib arxada ziyançılıqla məşğul olan gizli düşmənlər − professor İvanov, Belokurov, kolxozçu İmamyar, Türbət, Mirzəquludur. M.İbrahimovun “Həyat” (1935) pyesində konflikt kommunist Həyatla maskalanmış Süleymanlar arasında baş verir. S.Rəhimovun “Saçlı” (1939-1948) romanında insan mənəviyyatı və xarakterləri müsbət (rayon partiya komitəsinin birinci katibi Tahir Dəmirov, şəfqət bacısı Rüxsarə, onun anası Nənəqız, Qiyasəddinov, Xosrov və s.) və mənfi (rayon icraiyyə komitəsinin sədri Sübhanverdizadə, Balacayev, Dağbaşov, Meşinov və b.) qütblərdə təsvir olunur və təbii ki, bu “bölgü”də də Sovet quruluşuna, onun qayda-qanununa münasibət başlıca prinsip rolunu oynayır, yəni insan obrazları arasında qütbləşmə reallığın özündən irəli gəlir. Eyni zamanda, nəzərdən qaçırmaq olmaz ki, istedadlı sənətkarlarımız obrazlarda cəmləşdirdikləri keyfiyyətlərin içdəngəlmə, hissi-psixoloji vəziyyətlərdən törəmə gerçəkliklərini də nəzərdən qaçırmırlar ki, bu da onların bitkinliyinə və tipikləşdirilməsinə imkan verir. Biz bu yaradıcılıq keyfiyyətinin sonrakı illərdə davam etdirilən “mütərəqqilər” və “mühafizəkarlar” mübarizəsində get-gedə dərinləşdiyini müşahidə edirik.

S.Rəhimovun 30-cu illər kənd rayonunun vəziyyətindən bəhs edən “Mehman” (1944) povestində ictimai konfliktə ailə konflikti də əlavə edilir, əsərin qəhrəmanı gənc prokuror Mehman mənəvi təmizliyini və qanunların aliliyini qorumaq üçün yalnız maskalanmış Məmmədxan, Qaloşlu adam və s. kimi sinfi düşmən tör-

töküntüləri və onların əlaqədə olduğu, dağlarda, meşələrdə gizlənmiş qaçaq-quldur dəstələri ilə deyil, həm də yeni cəmiyyətin dövlət idarələrinə, hüquq-mühafizə orqanlarına, partiya təşkilatlarına soxularaq əlbir olub rayonu talayan, hər gələn prokurorun “dalından dəyməklə” törətdikləri cinayətlərin üstünün açılmasına imkan verməyən Kamilov, Şərifzadə, Murtuzov kimi dövlət rəsmilərinə, hətta öz evində, ocağının başında oturtduğu arvadı Züleyxa, Züleyxanın anası Şəhla kimi meşşan təbiətli doğmalarına qarşı mübarizə aparmalı olur. Yazıçı sağlam, ədalətli cəmiyyət quruculuğu üçün yeni insan tərbiyəsi faktorunu əsas tutur, Mehmanın onu əhatə edən kriminal mühitdən qalib çıxmasının başlıca səbəbini vətəndaş idealında, mənəvi təmizliyində, ali insani keyfiyyətlərə malik olmasında, möhkəm xarakterində görür.

Artıq, İsa Hüseynovun kənd həyatından bəhs edən “Dan ulduzu” (1954) povestində müsbət obrazların nə açıq, nə də gizli sinfi düşmənlərlə qarşıdurması baş vermir. Lakin sərbəst düşüncəli, elin rifahi naminə təşəbbüskarlıq göstərən kolkozçu qızlar − Zərəfşan, Nadir, Lyuda, Zaman və başqaları İnsan xala, Əsmər xala, Murtuz kişi və Tamam qarı kimi yaşlı nəsli təmsil edən qocaların laqeydliyi, mühafizəkarlığı ilə qarşılaşmalı olurlar və bu mübarizə xətti obrazların daxili aləminə nüfuz, insan münasibətlərində hissi-psixoloji yaşantıları təsvir yolu ilə inkişaf etdirilir. M.İbrahimovun və İsmayıl Şıxlının 1957-ci ildə oxuculara təqdin etdikləri “Böyük dayaq” və “Ayrılan yollar” romanlarında əsas konflikt yeni siyasi-ictimai hadisələrə rəğmən idarəetmə məsələlərinə yenilik və köhnəlik mövqeyindən münasibət müstəvisində qurulur, əsas qəhrəmanların xarakteri onların həyati proseslərdə tutduqları mövqe vasitəsilə açılır. Hər iki əsərin ideya-məzmununa Hər iki əsərin ideya-mündəricəsindən belə məlum olur ki, müasir kənd müəyyən iqtisadi və mədəni inkişafa nail olsa da, hələ həllini gözləyən ciddi problemlər də yaşanmaqdadır. İnkişafa nane olan maneələri aradan qaldırmaq üçün çox işlər görülməlidir və bu sırada insan amili, mənəvi yetkinlik öndə dayanır. Biz “Böyük dayaq”dakı bədii təsvirlərdə əsərin baş qəhrəmanı, təsərrüfatın rəhbəri Rüstəm kişini gah Sarıqamışa − yaylağa qalxan, gah şum yerində, pambıq tarlasında, gah kənd məktəbinə rus dili müəllimi, gah təsərrüfat işləri üçün yeni texnika axtarışında, bir sözlə, daim iş başında, partiya idealları uğrunda fədakarlıq göstərən, elin qayğısına qalan zəhmətkeş kimi görürük. Lakin yazıçı öz qəhrəmanını

tam müsbət qütbdə təqdim etmir. Rüstəm kişi ailə münasibətlərində patriarxal düşüncəli, idarəetmə məsələlərində yalnız özünə güvənən, haqlı tənqidə dözümsüs, saxta təriflərə aldanan, bu üzdən başı bəlalar çəkən bir obraz kimi canlandırılır. Rüstəm kişinin xarakteri, mənəvi aləmi tədricən, müxtəlif situasiyalarda, müxtəlif zümrədən olan insanlarla münasibətlərdə açılaraq tamlaşır, mükəmməlləşir, milli mental düşüncədə mənəvi-əxlaqi keyfiyyət nişanı kimi özünə möhkəm yer tutmuş “köhnə kişi”obrazını təcəssüm etdirir. İnsan və cəmiyyət münasibətlərinə realist baxış, insanın daxili aləminə nüfuz Rüstəm kişi obrazını milli ədəbiyyatımızın yaddaqalan və oxucuya ibrətamiz həyat dərsi öyrədən kamil obrazlarından birinə çevirir. İsmayıl Şıxlının “Ayrılan yollar” (1957) romanının əsas qəhrəmanı gənc aqronom İmranın xarakteri də kəndin inkişaf etdirilməsi uğrunda mübarizənin çətinlikləri sınağında açılır. O, mənəvi təmizliyi, vətəndaş fəallığı ilə ictimai vəzifəyə şəxsi mənafeyi mövqeyindən yanaşan, mənəm-mənəmlik iddiası ilə kənd camaatının hüquqlarını tapdalayan, “döşünə ulduz taxmaq” xatirinə əyriliyə əl atan, mövcud problemlərə laqeyd münasibət göstərən kolxoz sədri Qurban Kosaoğluna qarşı qoyulur. Lakin yazıçı, bu iki əks qütblü obraz arasında baş verən ixtilafı barışmaz ictimai ziddiyyətlərin nəticəsi kimi mənalandırsa da, Kosaoğlunu islahedilməz düşmən kimi qələmə vermir və təsadüfi deyildir ki, müəllif uzun illərdən sonra bu əsərin mövzusuna yenidən qayıdıb onun əsasında yazdığı pyesi “Kosaoğlunun səhvi” adlandırmışdır.

Aparılan araşdırmalarda ədəbiyyatın məhz 50-ci illərin sonlarından etibarən “sosrealizm” çərçivəsindən kənara çıxması, siyasi amillərdən daha çox insan amili üzərində köklənərək həyatı, ictimai münasibətləri təbii boyalarla təsvirə meyil göstərməsi, kolxoz, fabrik, zavod mövzusunu daha geniş sosial-ictimai problemlərlə əvəz etməsi qeyd olunur və bu keyfiyyət dəyişiklikləri haqlı olaraq onun siyasi meyarlardan daha çox bədii-estetik meyarlara üz tutması əlamətləri kimi qiymətləndirilir. Həqiqətən də, sənətkarlarımızın get-gedə daha aydın hiss olunan yaradıcılıq sərbəstliyi ədəbiyyatımıza həm mövzu-problem rəngarəngliyi, həm də özünəməxsus forma, üslub, ifadə tərzi və s. kimi məziyyətlər, yeniliklər gətirir. B.Əhmədovun qeyd etdiyi kimi, yeni nəsrin nümayəndələri İ.Əfəndiyev, İ.Hüseynov,

İ.Şıxlı, V.Babanlı, H.Seyidbəyli əsərlərində ənənəvi müsbət, mənfi obrazlar qaleriyasından çox, talelər əks etdirilir, nəsrin trafaret təmayüllərindən mümkün olduğu qədər qaçmağa çalışılır. Onlar dərk edirlər ki, hadisəni, obrazı ümumi, şablon reseptlərlə yaratmaq olmaz, bədii nəsri sxematizmdən, obrazları şablonçuluqdan qurtarmaq lazımdır. Yazıçı öz qəhrəmanını hər hansı bir ideologiyanın arzu və istəyinə deyil, həyat həqiqəti və bədii gerçəkliyə uyğun olaraq yaratmalıdır. [70, s.367] Misal üçün, biz İ.Hüseynovun "Yanar ürək" (1957), "Teleqram" (1963), "Tütək səsi" (1965), "Saz" (1966), "Kollu Koxa" (1967) əsərlərində kənd həyatının və bu həyatdakı sosial-ictimai əhval-ruhiyyənin daşıyıcısı olan insanların daha real, daha canlı cizgilərlə təcəssümünü tapdığını görürük. Yazıçı bu əsərlərində sosial-ictimai ziddiyyətləri kolxoz təsərrüfatını idarəetmə və insan münasibətləri fonunda, ört-basdır etmədən, gerçəkliyə uyğun şəkildə əks etdirir. İdarəedənlər əvvəlki sayaq nəinki qüsursuz, haqqın tərəfdarı kimi saxta tablolarla təqdim edilmir, hətta cəmiyyətin idarə edilməsində yol verilən bağışlanmaz nöqsanlar rəhbər kadrların, səlahiyyətli şəxslərin ayağına yazılır. "Yanar ürək" romanında kolxoz sədri Səməd Əmirlinin raykom katibi Sultan Əmirliyə qarşı mübarizəsi yazıçının cəmiyyətdə baş verən kəskin ziddiyyət və ixtilaflara vicdanlı və cəsarətli vətəndaş münasibətinin ifadəsi idi. Təsadüfi deyildir ki, tənqidçi A.Hüseynov bu romanın həm müəllifin yaradıcılığındakı, həm də ümumiyyətlə nəsrimizin inkişafındakı rolunu yüksək qiymətləndirir: *"Yanar ürək" yeni nəsrin təcrübəsində, təkamül tarixində mühüm yer tutur... Əgər biz İsa Hüseynovu cəsarətli, prinsipial, sərt həyat həqiqətlərini açıb göstərən qüdrətli yazıçı kimi tanıyırıqsa, unutmamalıyıq ki, bütünlükdə nəsrimizin irəliləyişinə təsir göstərmiş həmin əlamətdar yaradıcılıq yolu uğurlu başlanğıcını məhz "Yanar ürək"də tapmışdır."* [101, s.181] Yaxud yazıçı İsfəndiyar ("Saz"), Mehbalı ("Tütək səsi"), Kollu Koxa ("Kollu Koxa") kimi sadə insan surətlərində təcəssüm etdirdiyi yüksək mənəvi-əxlaqi keyfiyyətləri rəsmi idarəetmə təmsilçilərinin siyasi-əxlaq və prinsiplərinə qarşı qoymaqla bütövlükdə cəmiyyətin əhval-ruhiyyəsini, psixoloji durumunu əhatə etməyə, insan amilinə daha geniş ictimai məzmun verməyə çalışırdı.

Məlumdur ki, “Saz” və “Tütək səsi” povestləri sovet kəndinin müharibə dövrü həyatından, müharibənin doğurduğu çətinlik və məhrumiyyətlərdən, insan mənəviyyatına vurduğu zərbələrdən, xalqın mənəvi qüdrətindən bəhs edir. Hər iki əsərdə hadisələrin cərəyan etdiyi kənd cəbhə xəttindən uzaqlarda yerləşsə də, müharibənin gətirdiyi ağrı-acıları çəkməyə məcburdur. “Saz” povestindəki müəllif təhkiyəsində qeyd olunduğu kimi, *“Ötən əsrin 41-ci ilindən, yəni SSRİ ilə Almaniya arasında o dəhşətli müharibə başlanandan sonra dünyamızın hər yerində olduğu kimi, İsfəndiyar kişinin evində, dəmirçixanasında və həyatında da hər şey dəyişmişdir”.* [105, s.8] Yaxud, “Tütək səsi” povestinin ilk cümlələri müharibənin müşkül problemlərindən olan aclıq haqqındakı xatirə-düşüncələrlə başlayır: *“Necə oldu, səmum hardan əsdi ki, doyunca yuxuya da həsrət qala-qala gecə-gündüz işləyən qazancıl adamlar birdən-birə zəlilləşib, “aclıq” adlanan dəhşətin pəncəsində, bir tikə çörəyə də möhtac olub, üstəlik, zülm altına düşdük?! Fikirləşirəm, sualıma cavab əvəzində illərin uzaqlığında “pəpə, pəpə, a mənə pəpəə!”– deyən körpənin səsi çəkib məni o uzaqlığa – 1942-ci ilə aparır, indi acı xatirələrə dönmüş o müharibə dövrünün hələ əsgərlik yaşı çatmamış vətəndaşına çevirir.*

*–Pəpəə... Pəpəə!..*

*“Pəpə”nin hardan, necə əmələ gəldiyini bilmək üçün , “pəpə” qurtaranda səsini içinə salmağı bacarmaq üçün gərək heç olmasa mən yaşda, yəni on beş yaşında olasan. Qardaşımın isə hələ üççə yaşı var.*

*Pəpə-ə-ə...*

*Anam cınqırını da çıxarmır. Uşaq onun əl-qolundan çəkişdirir. Anam yenə dillənmir. Dillənsə, yəni oyaq olduğunu bildirsə, gərək yenə durub Mehbalı əmigilə getsin, üzünə üzqaralığı çəkib borc istəsin. Mehbalı əmigildən isə iki dəfə almışıq. Üçüncü dəfə getmək... Yox!.. İndi onlar da biz kökdə deyillərmi?!..”* [105, s. 76] Lakin yazıçı hər iki əsərində Sovet siyasi sisteminin yerlərdə idarəetməni hətta insanın və insanlığın sınağa çəkildiyi müharibə dövründə də hökm-fərma idarəçiliyi prinsipinə əsaslanaraq öz təbiətinə uyğun kadrlara tapşırması həqiqətini ustalıqla açıb göstərə bilir. “Saz”da hamıya qarşı şübhə gözü ilə baxan, adamları təsdiqini tapmayan günaha görə dama basdıran kənd sovetinin sədri Qılınc Qurban, “Tütək

səsi”ndə əsgər ailəsinin namusunu ləkələyən kolxoz sədri Cəbrayıl, sadəcə olaraq, müharibə şəraitinin verdiyi sərbəstliyin yox, Stalin represssiv idarəçilik sisteminin meydana çıxartdığı rəhbər işçilər kimi səciyyələndirilir. Müəllif Qılınc Qurbana qarşı İsfəndiyar kişi, Cəbrayıla qarşı Mehbalı kişi kimi xalq içindən seçilmişlərin surətini yaratmaqla siyasi rejimin sərt idarəetmə metodlarına qarşı milli humanizmi, milli-mənəvi dəyərləri özündə təcəssüm etdirən obrazlar çıxarmış olur. İstər İsfəndiyar, istərsə də Mehbalı kişi, elə bir səlahiyyətə malik olmasalar da, ağır günlərdə xalqa daha yaxın, daha etibarlı, daha qayğıkeş görünürlər.

İsmayıl Şıxlı nəsrimizə Cahandar ağa (“Dəli Kür”, 1968), Fərman Kərimzadə Kərbalayi İsmayıl (“Qarlı aşırım”, 1971), İlyas Əfəndiyev dramaturgiyamıza Böyük bəy (“Mahnı dağlarda qaldı”, 1971) kimi koloritli surətlər gətirir ki, onların hər biri bütün müsbət və mənfilikləri ilə həyati və həyati olduğu qədər də tipik obraz təsiri bağışlayır. Mövzusu tarixi keçmişimizdən götürülmüş hər üç əsərdəki təsvirlər, obrazlar, qəhrəmanların və personajların dövrün hadisələrinə münasibəti, demək olar ki, bütünlüklə Azərbaycan milli xarakterinin açılmasına, Azərbaycan milli spesifikliyinin incələnməsinə xidmət edir, bu baxımdan sənətkar mövqeyinin sırf sosrealizmin “formaca milli, məzmunca sosialist” siyasi tələbinə tabe olmur. Professor A.Hüseynov hələ 80-ci illərdə “Dəli Kür”ün ideya-estetik xüsusiyyətlərindən bəhs edərkən yazırdı: *“Sinfi psixologiya burada milli konkretliyində, milli psixologiya təməlində və müəyyənliyində canlandırılmışdır”.* [103, s.140] Eləcə də, F.Kərimzadənin “Qarlı aşırım” romanında Abbasqulu bəyin partiyanın tapşırığı ilə qiyam qaldırmış qolçomaq Kərbalayı İsmayılın yanına silahsız yollanması, Kərbalayı İsmayılın, əlaltısı Qəmlonun hədsiz təkidinə baxmayaraq, ölüm-dirim çarpışmasına girişdiyi yeni quruluşun silahsız elçilərinə öz evində əl qaldırmaq istəməməsi, “düşmən də olsa, dost da olsa, gərək hörmətimizi eləyək” – deyə el adətini gözləməsi, yaxud Kərbalayı İsmayılın öz gəlinini dar ayaqda qan düşməninə etibar etməsi və s. kimi epizodlar qarşı qüvvələrin mübarizəsində daha önəmli bir məsələni önə çəkir ki, bu da milli varlığın, milli ruhun, milli xarakterin yenilməzliyi məsələsidir. Başqa sözlə desək, obrazların ruhundakı, xarakterindəki millilik keyfiyyəti onların mübarizəsindəki sinfilik keyfiyyətini o dərəcədə üstələyir

ki, oxucunu da "inqilabi gələcəyimiz" haqqında yox, zaman və milli tale problemi haqqında düşünməyə sövq edir, əsas qayəni üzdə – sinfi qarşıdurmada yox, alt qatda – milli mənliyə, milli qürura, milli ləyaqətə, milli qeyrətə, milli özünüdərkə çağırış ideyasında axtarıb-görməyə yönəldir. Bu, sovet dövlətinin, kommunist ideologiyasının mənəvi iflas dövrünün başlanmasının ədəbiyyatda göstəricisi, əlaməti idi. Professor T.Salamoğlunun fikrincə, məhz bu dövrdən etibarən *"sosializm eyforiyası zəifləməyə, düşüncələri qapamış "duman" çəkilməyə başlayır. Keçilmiş və keçiləcək "yol"un cizgiləri aydın görünür, "itirilmişlər"in ağrısı başlanır. Kommunizmin bir eyforiya olduğunu başa düşən, maddi nemətlərin sel kimi axacağına, ictimai şüurun nəhayətsiz bir səviyyəyə qalxacağına inamını itirən insan üzünü keçmişə çevirir, ictimai münasibətlər, mənəviyyat və əxlaq müstəvisində itirdiklərini keçmişdə axtarmağı nicat yolu kimi qavrayır. İnsanın ilkinliyə, soy-kökünə meyil və bağlılığı güclənir... Milli şüurda güclənən bu proses ictimai düşüncədən estetik düşüncəyə keçir. Estetik düşüncə isə öz növbəsində bu prosesin milli şüurda daha artıq yer almasına təkan verir".* [191, s.168] Hər üç əsərin ədəbi hadisəyə çevrilməsinin başlıca səbəbi də ictimai şüurda formalaşmaqda olan bu düşüncənin ədəbiyyata gətirilməsi, sosializmin perspektivləri baxımından acı həqiqətin tarixə müəllif baxışında bədii etirafı idi. Təsadüfi deyildir ki, bu əsərlərin hər biri ədəbi tənqiddə, ilk növbədə, həyati obraz yaradıcılığı xüsusiyyətinə görə yüksək dəyərləndirilmişdir. Məsələn, "Qarlı aşırım" romanı *"görkəmli sənətkarlarımızın əsərlərində dəfələrlə öz bədii əksini tapmış bir dövrə yenidən müraciət edərkən sələflərinin təsiri altına düşməyən, qələmə alınan hadisələrə tamamilə yeni, orijinal mövqedən yanaşan"* (X.Əlimirzəyev), *"zamana münasibət, bu fonda ictimai quruluşun antimilli təbiətinə qarşı özünüqoruma, yəni milli ruhu oyatmaq instinkti ilə yazılan"* (Ə.R.Xələfli) əsər kimi dəyərləndirilmişdir. [112] Akademik N.Cəfərov "Qarlı aşırım"dan bəhs edərkən yazırdı: *"F.Kərimzadəyə qədər Azərbaycan kəndində "sosializm quruculuğu"nun – "kolxoz oyunu"nun ədəbi-tarixi özülü bu miqyasda, bu keyfiyyətdə heç zaman göstərilməmişdi. Və hələ neçə illər də göstərilməyəcəkdi."* [112] Fərman Kərimzadənin "Qarlı aşırım" romanını yeni meyarlarla təhlil edən tədqiqatçı belə bir qənaətə gəlir: *"Sovet hökuməti və milli*

*varlıq qarşıdurmasında çox qanlar tökülmüşdü. Romanda bu tökülən qanların səbəbi heç də Kərbalayı İsmayılın qaldırdığı qiyamda axtarılmır. İnqilab-Kərbalayı İsmayıl qarşıdurmasında inqilaba "haqq işi uğrunda mübarizə" statusu verilmir. Kərbalayı İsmayılı qiyama aparan yollar heç də tənqidin izah etdiyi kimi, mal-dövlət hərisliyindən, yaxud onun mülkədar-istismarçı təbiətindən irəli gəlmir. Fikrimizcə, roman tamam başqa bir əhval-ruhiyyə ilə yazılmış, əsər üzərində işləyərkən yazıçı tamam başqa bir ahəngə köklənmişdir. Olsun ki, roman yazarkən Kərbalayının Usuboğlunun qapısına gedərkən geydiyi kəfəni, ilk öncə, F.Kərimzadə özü geyinmişdir. Çünki bu romanın daxili qatlarında müəllifini dar ağacına apara biləcək çox mətləblər əks olunmuşdur".* [192, s.15-16] Tədqiqatçı fikirlərini bir qədər də dərinləşdirərək yazır: *"Roman sovet hökumətinin xalqı, el-oba camaatını "lüt"lərə və varlılara bölüb, onların arasına təfriqə, düşmənçilik toxumu səpməsini, varlıların qanının "lüt"lərə halallığını sezilmədən, bəzən isə açıq-aşkar aşağı təbəqənin beyninə yeridilməsini bədii təhlil müstəvisinə gətirir. F.Kərimzadə sovet hökumətinin yerlərə nüfuzunu humanist münasibət, xilaskarlıq tülünə bürümür. Sovet hökumətinin öz varlığını qan üstündə bərqərar etməkdə, ona tabe olmayanların qanını tökməkdə israrlı olduğunu əks etdirir. Romanda yeni hökumətin rəmzi kimi ortalığa çıxan qırmızı bayraq hökumətə tabe olmayanların tökülən və töküləcək qanlarının simvolu kimi mənalanır".* [192, s.18]

İstehsalat və təsərrüfat ədəbiyyatında "mütərəqqilər" və "mühafizəkarlar" qütbləşməsinin mühitlə bağlı səbəbləri və yazıçı mövqeyi barədə danışarkən 70-80-ci illərdə yazılmış, mövzusu kənd həyatından götürülmüş "Dəyirman" (M.Süleymanlı), "Quyu", "Yaşıl gecə", "Dədə palıd" (İ.Məlikzadə), "Gözü işığa düşmüş adam" (S.Səxavət) povestlərini, V.Babanlının "Müqəddəs ocaq" romanını və s. kimi əsərləri də xatırlatmaq mümkündür. Bu kimi əsərlərdə kommunizm ideaalarını, əxlaq normalarımızı özünün bütün həyatı ilə təsdiq edən müsbət qəhrəmanın obrazı, o cümlədən sovet idarəetmə sisteminin döşü orden-medallı qəhrəmanlarının müsbət obrazı görünmür, əksinə, daha çox cəmiyyətin sosial-ictimai eybəcərliklərin mənəvi aşınmaya məruz qoyduğu sadə insanların təbii obrazları sıralanır, onların qayğıları, ağrı-acıları məhz sovet idarəetmə sistemində yol verilən ciddi qüsurların insan

münasibətlərinə pozucu təsirinin nəticəsi kimi mənalandırılır. Ədəbiyyatın “sovet zəhmətkeşinə”, “sosializm qurucusuna” etinasız münasibəti, “sovet incəsənətinin prinsip etibarilə mühüm vəzifəsi olan” müsbət obraz yaradıcılığı tələbinin layiqincə yerinə yetirilməməsi Azərbaycan KP MK-nın 1983-cü il iyul plenumunda ciddi şəkildə nəzərə çatdırılıb tənqid olunur. [62, s.147-148] Lakin ədəbiyyat nəinki bu tənqiddən “nəticə çıxarır”, əksinə, artıq 90-cı illərdə − sovet rejiminin büründüyü bütün təmtəraqlı örtüklər arxasındakı eybəcərlikləri ifşa olunan bir zamanda həqiqət duyğusunu daha da qüvvətləndirir. Biz belə cəsarət nümunəsini Y.Səmədoğlunun “Qətl günü” (1990) romanında müşahidə edirik. Yazıçı bu əsərində belə bir ideya açıqlayır ki, despotik cəmiyyətlərdə zülm, zorakılıq tüğyan edir, hiylə, yalan həqiqəti, ləyaqətsizlər ləyaqətliləri üstələyir, şərin, rəzilliyin qarşısı vaxtında alınmasa, insanlıq məhvə sürüklənər.

### 2.3. Mənəvi aşınma problemi və yeni həyat quruculuğu yollarının bədii axtarışı.

Ötən əsrin 60-cı illərindən başlayaraq istehsalat və təsərrüfat mövzusunda yazılan əsərlərdə Azərbaycan mənəvi mühiti, o cümlədən mənəvi aşınma probleminin qaldırılması və bu problemin cəmiyyəti idarəçilik vəziyyəti ilə əlaqəli şəkildə bədii həllinə cəhd göstərilməsi milli ədəbiyyatımızın ideya istiqamətində baş verən ən prinsipial dəyişikliklərdəndir. Əlbəttə, bundan əvvəlki illərdə də kəndli və fəhlə həyatından bəhs edən bir sıra əsərlərdə idarəetmə problemlərinin mənəvi mühitə təsiri məsələlərinə toxunulmuş, lakin problemin mövcud rejimin, sistemin mahiyyəti ilə deyil, fərdin xarakteri, insan təbiətindən irəli gələn müxtəlif amillərlə əlaqəli şəkildə həllinə cəhd göstərilmişdir. Bu baxımdan, Əbülhəsənin “Dünya qopur” romanı səciyyəvidir. “Dünya qopur”da zəhmətkeşlərin hakimiyyəti ələ alması və inqilabi dövlət yaratması hadisələrindən bəhs olunur. Yazıçı romanda bir sıra problemlərlə yanaşı, yeni həyat quruculuğu, yeni təsərrüfat sisteminin yaradılması və idarəetmə məsələsini də qabardır. Yazıçı bu problemi iki doğma, amma təbiətən fərqli qardaşın idarəetmə işinə zidd münasibəti və bu üzdən qarşılaşdırılması müstəvisində həll edir.

Böyük qardaşın – qəsəbədə yaradılmış müvəqqəti inqilab komitəsinin sədri Veyisin hərəkətlərində zorakılığa, vurub yıxmağa meyillik müşahidə edilirsə, kiçik qardaşın – inqilabi iş üçün Bakıdan kəndə göndərilmiş Büləndin fəaliyyətinə düşünülmüş proqrama əsaslanan təmkinli idarəçilik xasdır. Əsərdə Veyisin zorakı üsulla idarəetmə metodu tənqid, Büləndin isə qəsəbəyə düzgün, şüurlu rəhbərliyi təqdir edilir.

Yaxud, mövzusu 30-cu illərin hadisələrindən alınmış "Mehman" povestinin qəhrəmanı – Bakıda, fəhlə ailəsində doğulub halallıqla böyümüş, orta və ali məktəb illərində sağlam əqidəli, nəcib xasiyyətli müəllimlərindən dərs almış Mehman hələ sinfi düşmənlərin kökü kəsilməmiş, qaçaq-quldurun və onların gizlincə əlaqə saxladıqları yerli nümayəndələrin əl altdan məkrli planlar qurduğu ucqar rayonların birinə işləməyə gəlməli, çətin həyat imtahınından çıxmalı olur. O, namuslu həyat sürmək, təmiz dolanmaq, vətən və xalq üçün çalışmaq arzusundadır, müəllimlərinin ibrətamiz məsləhətlərini, o cümlədən Məlikə xanımın: "Harada işləyirsən, işlə, vicdanını təmiz saxla, balaca bir nöqtə qədər də ürəyinə ləkə düşməyə qoyma!" sözlərini yaddan çıxartmır. Lakin olduqca mürəkkəb şəraitdə, həm də peşə təcrübəsinə malik olmadan prokuror vəzifəsində çalışmaq 22 yaşlı hüquqşünasa asan başa gəlmir. Rayon İcraiyyə Komitəsinin sədri Kamilov, onun aşnası bağça müdirəsi Zərrintac, anbardar Məmmədxan, süpürgəçi Qaloşlu adam kimi tiplər onu müxtəlif vasitələrlə təsir altına almağa, şəxsi maraqları naminə qanunsuzluq mühiti yaratmağa çalışırlar. Üstəlik, Mehmanın təmizliyi, insani keyfiyyətləri və prinsipiallığı ilə get-gedə nüfuz qazanması cinayətkar qüvvələri daha da quduzlaşdırır, sevgilisi Züleyxanın və anası Şəhlanın meşşan həyat tərzinə meyilliyi, xəlvətdə rüşvət götürmələri gənc prokuroru çıxılmaz vəziyyətə salır. Bununla belə, Mehman vəzifə borcunu axıradək ləyaqətlə yerinə yetirir, nəyin bahasına olursa olsun əqidəsindən dönmür. Yazıçı cəmiyyətdə qayda-qanun yaratmaq işinin hüquq-mühafizə orqanları idarəçilik sistemindən, bu sistemdə çalışanların mənəvi-iradi keyfiyyətlərindən əhəmiyyətli dərəcədə asılı olduğunu aşılayır.

Eləcə də, mənəvi aşınma problemi Mir Cəlal yaradıcılığında diqqət mərkəzinə çəkilir. Yazıçı mövzusunu 30-cu illərdən götürdüyü "Açıq kitab" romanında yaratdığı

mənfi tip Kərim Gəldiyevin simasında ümumi işə əngəl törədən hərəkət və meyilləri satira atəşinə tutur. Özünə rahat güzəran yaratmaq üçün yalan danışmaq, qara yaxmaq, böhtan atmaq, xəbərçilik, satqınlıq etmək, anonim yazmaq, bir sözlə, hər bir vasitəyə əl atmaq Gəldiyevə xas xüsusiyyətlərdir. Ədəbi tənqiddə qeyd olunduğu kimi, yazıçı "gəldiyevçiliyin" qol-budaq atdığı mühiti də, həmin mühitin adamlarını da real və düzgün təsvir etmişdir: *"Romanı oxuyarkən orada Gəldiyevə arxa dura biləcək adamların heç də az olmadığını görürük. Bunlardan bəziləri: açıq-açığına, Gəldiyevlə bir yuvanın quşudurlarsa, digərləri də yaltaqların, demoqoqların dediklərinə inanan, boş tərifdən xoşu gələn, prinsipsiz, səbatsız, maymaq adamlardır. Gəldiyevlərə də elə bu lazımdır. Buna görə də gəldiyevçilik üçün münbit zəmin yaranmış olur".* [162, s.292-293] Doğrudur, hadisələrin gedişatında fırıldaqlarının üstü açılan Gəldiyev ifşa olunur, lakin onun mənəvi simasızlığı hamıya məlum olsa da, gerçək mühitdəki gizli gəldiyevlər hələ qalmaqdadır. Romanın başlıca qayəsi də bu məqamda tamamlanır: *"Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində vaxtaşırı surətdə gəldiyevlər və gəldiyevçilik bir qədər fəallaşsalar da, nəticə etibarilə onlar ölümə məhkumdurlar: çünki beləri güclü bir axının qarşısında duruş gətirmək iqtidarında deyillər."* [162, s.293]

Bu kimi misalların sayını artırmadan deyə bilərik ki, sosial-mənəvi aşınma halları (meşşanlıq, xudbinlik, tənbəllik, tüfeylilik, rüşvətxorluq, qohumbazlıq, saxtakarlıq, yaltaqlıq və s.) hələ 30-cu illərdən ədəbiyyatın tənqid hədəfinə çevrilsə də, problemi doğuran köklü səbəblərin göstərilməsi və ifşası prosesi mənbəyini 50-ci illərin ortalarından götürən "cəmiyyət haqqında açıq danışmaq" bədii-estetik prinsipinin möhkəmləndiyi 60-80-ci illər mərhələsinə təsadüf edir. Bu dövrdə yaranan uğurlu yaradıcılıq nümunələri cəmiyyətdəki sosial-mənəvi bəlaları, insanın psixoloji durumunu, mənəvi təbəddülatlarını birbaşa siyasi-ictimai mühitlə əlaqələndirir, bilavasitə mövcud siyasi sistemin idarəçilik üsullarının insan münasibətlərinə təsirinin nəticəsi kimi izah edir. Bu tendensiya istər kənd, istərsə də şəhər həyatından bəhs edən əsərlərdə get-gedə güclənir, cəmiyyət və fərd, onun hüquq və azadlıqları, gələcək taleyi ilə bağlı cavabsız qalan suallara görə narahatlıq daha qabarıq hiss olunur. Belə əsərlərin qəhrəmanına çevrilən "kiçik adamlar" məhz

qüsurlu idarəetmə nəticəsində yaranmış problemlərin ağrısını çəkir, ictimai mühitin yaxşılaşdırılması haqqında düşünür, zəmanəyə müxtəlif səviyyəli etirazları, gələcək haqqında fikir-xəyalları, istək-arzuları ilə yeni həyat quruculuğu yollarına çağıran ideyaların daşıyıcısına çevrilirlər. Bu yeni tipli qəhrəmanlar tam ideal insanlar kimi deyil, xarakterlərindəki, mənəviyyatlarındakı müsbət və mənfi keyfiyyətlərlə, hətta bəzən mühitin, cəmiyyətin mənfi təsirlərindən mənəvi-psixoloji zədə almış obrazlar kimi təqdim olunur. Belə əsərlər mənəvi-əxlaqi aşınmanı əks etdirmək, qəhrəmanın öz daxili "mən"i – təbii saflıq halı ilə cəmiyyətin qeyri-normal hallarına qarşı müqavimət gücünü göstərmək xüsusiyyətləri ilə səciyyəvidir.

İ.Hüseynov "Kollu Koxa" povestində belə bir müqavimət gücünü əsərin qəhrəmanı, kolxozda suçu işləyən, adamlara ləqəb qoşmaqla insanların xasiyyət, davranış və əməllərindəki qüsurları nişan verən, bu yolla bir növ camaatın gözünü açan, ona pisi yaxşıdan seçməyi öyrədən, ictimai mühiti saflaşdırmağa, sağlamlaşdırmağa çağıran Kollu Koxanın simasında ümumiləşdirir. "Əli lapatkalı, üstü palçıqlı" Kollu Koxa sadə xalq kütlələrinin tənqidi təfəkkürünün, mənəvi təkmilləşmə qüdrətinin mücəssiməsidir. Onun sərrast ayama seçimi adamları, xüsusilə də məsul işçiləri təşvişə salır, çünki bu ləqəblər onların ilk növbədə qüsürlu, nöqsanlı cəhətlərini ifadə edir. Yazıçı Kollu Koxa obrazı vasitəsilə sanki ictimai nəzarətin xalqdan gəlmə formasının kəsərini əks etdirir, Kollu Koxanın kinayəli gülüşünü "elin gözü tərəzidir" məsəlinin canlı nümunəsi kimi mənalandırır, göstərir ki, bu yolla da cəmiyyətə təsir etmək, qüsurlu idarəçiliyə qarşı çıxmaq mümkündür. Yetər ki, mövcud mühitə ayıq və tənqidi münasibət göstərəsən, Kollu Koxa kimi həqiqəti məqamında demək, özünün dediyi kimi, "əyriliyi kəsmək" cəsarətində olasan. Həqiqət, hətta kinayəli gülüş doğursa belə, adamlar Kollu Koxanın "lağlağı qoşmaq azarından" inciyib təlaşa düşsələr də, ona düşmən gözü ilə baxmırlar, Qaracalar kolxozuniun sədri Cavanşirin dediyi kimi, bu ləqəblərin hər birində özlərinin bağışlanılmaz günahlarının tarixcəsini görürlər. Yazıçının ideya-məqsədi də, əslində, Kollu Koxa obrazı vasitəsilə həmin "tarixçəni", yəni dövrün, sosial-mənəvi mühitin simasını açıb göstərməkdir. Bəzən açıq, bəzən də eyhamlı işarələrdən belə məlum olur ki, zəmanə çox dəyişib, insanlar vəzifə, var-dövlət, şan-şöhrət

naminə, cəmiyyət qarşısında heç bir mənəvi məsuliyyət daşımadan riyakarlığa, saxtakarlığa, yaltaqlıq və yalançılığa qurşanıblar. Cəmiyyət mənəvi böhran vəziyyətini yaşayır. Yazıçının bu "həyəcan!" xəbərdarlığı rayonun fəxri sayılan köhnə bolşevik  Qılınc Qurbanın hissi-psixoloji durumunun təsvirində daha aydın üzə çıxır, təmtəraqlı iclaslar, müşavirələr, bayram şənlikləri, qonaqlıqlar, sırtıqların, sürtüklərin tərifləri, mədhiyyələri onu darıxdırıb bezdirmişdir, o, riyakarlıq mühitində açıq-aşkar əzab çəkir. *"Öldük! Canımız çıxdı mədhiyyə eşitməkdən! Bəs deyilmi, ay camaat?!"; "Ələlxüsus da ki, bu yaltaqlıq! Dad bu yaltaqlıq əlindən, Cavanşir!.. Əvvəllər nə kənddə-kəsəkdə, nə də bu şəhərdə belə sırtıqlıq yoxdu. Lap zibili çıxıb bu vəzifəli adam deyilənin! Pis qırdı bu yaltaqlıq, yapışdımı, qoparmaq olmur!"; "Yığışırıq, elə danışırıq! Danışırıq! İclas! İclas!.. Moskvada hər gün iclas, Bakıda hər gün iclas, rayonda hər gün iclas! Nədi bu belə?! Niyə işləyən yoxdu, ay bala?!... Buydumu biz bolşeviklərin qurmaq istədiyimiz dövlət?... İşləmək lazımdı, bala!"* [105, s. 364-366] − deyir Qılınc Qurban. Lakin mənəvi aşınma mühiti hətta Qılınc Qurbanın özünə də təsirsiz qalmamış,  ona buzlu limonad içirdən "Limbuz Cavanşir"i yedəyincə sürüyən "Podrat Qurban"a, "prinsipsiz bir adama" çevirmişdir. Kollu Koxa bu səbəbdən onlara ləqəb qoşub rayonun gülüş hədəfinə çevirir.

Yazıçını bu əsərdə yer-yurd, tayfa adlarımızın qəsdən təhrif edilməsi, "Cında Qarı" kimilərin hələ də qazma daxmada yaşaması, "Dingə Dəmir" kimilərin həkim qadağasına baxmayaraq suçu işləməkdə davam etməyə məcbur olması, bir sözlə, insan və millət taleyinə laqeyd, biganə münasibət və "bu həqiqətləri yazmağa siyasi mühitin aman verməməsi" faktı narahat edir. Ümumilikdə götürdükdə, "Kollu Koxa" povesti İ.Hüseynovun üzvü olduğu cəmiyyətin mənəvi mühiti ilə bağlı vətəndaş narahatlığının bədii ifadəsi təsirini bağışlayır. Lakin yazıçı idealının daşıyıcısı olan, başqalarına "nataraz adam" təsiri bağışlayan Kollu Koxa oxucunu bu ciddi narahatlığa görə bədbinliyə qapanmağa qoymur. Yazıçı "Mirzə Cəlilin əziz xatirəsinə" epiqrafı və öz qəhrəmanının həqiqət meydanındakı tənhalığı ilə demək istəyir ki, hər dövrün özünəməxsus Şeyx Nəsrullahları olduğu kimi, Kefli İsgəndəri də vardır və o yalan və fırıldaqlar qarşısında susmayacaq, mənən qələbə çalacaqdır.

Bu da maraqlı bir ədəbi faktdır ki, 60-70-ci illər ədəbiyyatında həqiqəti deməyə özündə güc tapan, sayılıb-seçilmişlərin döşünə yeriməyi bacaran qəhrəmanlar dəli-dolu xasiyyətdə, nataraz adam qismində təqdim olunur, onun xarakterinin təkrarolunmazlığı, özünəməxsusluğu hadisələrin inkişafı prosesində, xüsusən də psixoloji situasiyalarda üzə çıxır. İ.Hüseynovun Kollu Koxası kimi və ondan cəmi iki ildən sonra S.Əhmədovun “Yamacda nişanə” (1969) povestində yaratdığı Laçın kimi. Bu da onu göstərir ki, 60-70 və 80-ci illərdə belə, sovet siyasi rejimi öz qadağalarında inadlı idi və sənətkar bu səbəbdən “yaradıcılıq sərbəstliyini” müxtəlif vasitələrlə “sığortalamaq” qayğısına qalmalıydı ki, bu vasitələrdən biri də başqa sovet adamları kimi düşünə və görünə bilməyən “nataraz adamların” obrazını yaradılmaq idi. Gerçəkliyə sadiq qalan, öz vicdanı və sənət amalı qarşısında məsuliiyət hiss edən yazıçılar məhz bu yaradıcılıq priyomu vasitəsilə bədii qəhrəman obrazı qalereyasına fərqli nünunə gətirir, qələmə aldıqları mövzuların böyük-kiçikliyindən asılı olmayaraq, insanların cəmiyyəti idarə edənlər əlindən yaşadıqları problemləri, çəkdikləri sıxıntıları qabarıq şəkildə göstərməklə yüksək ideyalı, dərin mündəricəli əsərlər yaradırdılar. Bu baxımdan İ.Hüseynovun “Kollu Koxa”sı ilə S.Əhmədovun “Yamacda nişanə”si eyni bədii məqsədə – cəmiyyətin sosial-mənəvi böhran vəziyyətini açıb göstərmək, onu qüsurlu idarəetmə eybəcərliklərindən xilas etmək məqsədinə xidmət edir, hər iki əsərin qəhrəmanı – Kollu Koxa ilə Laçın bir-birlərindən fərqli tipik qəhrəmanlar olsalar da, mühitə münasibətdə eyni mövqedə – sosial-ictimai mühiti saflaşdırmağa, sağlamlaşdırmağa çağırış mövqeyində dayanır. Sadəcə, Kollu Koxa bir obraz kimi öz missiyasını ictimai mühiti mənəvi şikəstlik həddinə gətirən məsul işçilərə kinayəli gülüş doğuran ayamalar qoşmaqla yerinə yetirirsə, Laçın qüsurlu idarəçiliyə qarşı etirazını birbaşa ifadə, açıq təpgi ilə nümayiş etdirir. Məsul işçilər Kollu Koxanın onlara ayama qoşub adlarını dilə-dişə saldığına görə, Laçının isə birbaşa təpgisinə görə təşvişə düşürlər. Hər iki əsərdə qəhrəmanların “natarazlığı”nın mahiyyəti onların danışıq və hərəkətlərindən daha çox bir fərd olaraq nataraz mühitə, cəmiyyətdə oturuşmuş nataraz zəmanə psixologiyasına qarşı qoyuluşunda açılıb mənalandırılır, başqa sözlə desək, yazıçı priyomunda obraza xas “natarazlıq” əlamətləri sosial-ictimai mühitə transfer edilir: bu cəmiyyət fikir,

xarakter, iradə sərbəstliyini sevmir, yuxarılara qarşı "dikbaşlıq" edib cəsarət nümunəsi göstərənləri isə heç görməyə gözü yoxdur, hamını mühitə uyğun tərzdə yaşamağa alışdırır, bununla razılaşa, zamanla yollaşa bilməyənlər tək qalır, nataraz adam təsiri bağışlayır və bu "nataraz adamlar"da mövcud mühitə, idarəetmə sisteminə qarşı bir ikrah hissi yaranır, məsul işçilər tabe olduqları idarə, təşkilat rəhbərlərindən yox, həmin "natarazlardan" qorxurlar, əskisi tüstülülər məsul işçilərdən yox, Kollu Koxadan, Laçından çəkinirlər. Bir sözlə, cəmiyyət qarşısında heç bir səlahiyyəti olmasa da, dilini saxlaya bilməyən suçu Kollu Koxa, nərə çəkib mənəvi eybəcərliklərin üstünə yeriyən işsiz Laçın rayonun probleminə çevrilir. Yazıçı təqdimatında Kollu Koxa obrazı bərkdən-boşdan çıxmış, həyat təcrübəsinin diqtəsi ilə mənəvi eybəcərliyə mənfi münasibətini elin qınağına çevirmək vasitəsi ilə kəsərləndirən, sadə xalq kütlələrinin tənqidi təfəkkürünün, mənəvi təkmilləşmə qüdrətinin mücəssiməsi, Laçın isə həyata yenicə atılmış dəli-dolu gəncliyin bir üzvü, iş tapmaq, halal zəhməti ilə ev-eşik qurmaq, sevgilisinə qovuşmaq arzuları ilə yaşayan, həyat uğrunda mübarizəsində yalnız öz gücünə, iradəsinə güvənən qəhrəman təsiri bağışlayır və bu məntiqin nəticəsi olaraq birinci əsər qəhrəmanın mənəvi qələbəsi ilə başa çatdığı halda, ikinci əsər tək-tük inandığı insanlardan – dəlicəsinə sevdiyi Sarıteldən, milisdə işləyən böyük qardaşından, tabeliyində işlədiyi, hər gün duz-çörək kəsdiyi Həsənxandan mənəvi zərbə alıb sarsılan qəhrəmanın psixoloji pozğunluğu və ölümü ilə nəticələnir.

Mənəvi aşınma probleminin idarəçiliklə əlaqəli şəkildə qoyuluşu və təhlili meyli İ.Hüseynovun "Yanar ürək", İ.Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı", B.Bayramovun "Ayrılıq", "Yarpaqlar", "Səs", S.Əhmədovun "Yaşıl teatr", "Dünyanın arşını", "Yasamal gölündə qayıqlar üzürdü", Ə.Əylislinin "Kür qırağının meşələri", "Ürək yaman şeydir", "Yəmən", "Güllü paltar mövsümü", "Bir gecəlik ay işığı", "Gilənar çiçəyinə dediklərim", İ.Məlikzadənin "Quyu", "Evin kişisi", "Günəşli payız", "Yaşıl gecə", "Qırmızı yağış", "Dədə palıd", R.İbrahimbəyovun "Yaşıl qapı arxasında qadın", "Şirə bənzər", "İntihar ilgəyi", "Arabir görüşməyə kişi axtarıram", Elçinin Baladadaşın ilk məhəbbəti", "Dolça", "Ağ dəvə", "Gümüşü furqon", Anarın "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Dantenin yubileyi", "Macal",

“Əlaqə”, M.Süleymanlının “Şeytan”, “Dəyirman”, “Ceviz qurdu”, Əfqanın “Katib”, S.Səxavətin “Yəhudi əlifbası”,  Vaqif Nəsibin “Ceyrançöllü qoç Kərəməli”, “Bilalın elçiliyi” və s. kimi nəsr əsərlərində də özünü qüvvətli şəkildə hiss etdirir. Bu və bu kimi əsərlərin ideya-məzmunundan açıq-aydın görünür ki, cəmiyyətdə əliəyrilik, rüşvət, harınlıq mühitinin get-gedə qatılaşması və insanın psixologiyasına mənfi təsiri kəskin yazıçı etirazı doğurur. Əlbəttə, bu etirazın ifadə dərəcəsini və formasını eyniləşdirmək düzgün olmazdı, hər şey sənətkarın yaradıcılıq ustalığından, manerasından və vətəndaşlıq cəsarətindən asılı idi. Lakin əsas olan bu idi ki, yeni bədii düşüncədə mövcud quruluş çürüməyə, dağılmağa məhkum idi və buna görə idarəetmə sistemi məsuliyyət daşıyırdı. Görkəmli sənətkarlarımız bu ideyanı aşılamaq üçün müxtəlif modellər qurur, simvolik obrazlar yaradır, bədii detallardan, şərti-metoforik üslubdan, ezop dilindən məharətlə istifadə edirdilər. Məsələn, Mövlud Süleymanlı “Dəyirman” (1978) povestində  sosial həyat tərzini “şeytan yığnağı olan dəyirman” modeli vasitəsilə təsvir edib insanların milli-mənəvi dəyərlərdən uzaqlaşdırılması, ruh düşkünlüyünə, mənəvi-əxlaqi aşınmaya sürüklənməsi, bütövlükdə sovet cəmiyyətinin çürümə gerçəkliyini bəyan edirdisə, Əbülhəsən “Sədaqət” (1985) romanında birbaşa qüsurlu idarəçilik probleminə toxunur, məsul şəxsin idarəetmə vəzifəsini necə yerinə yetirməsi səviyyəsini dövlət təsərrüfatına, xalq malına münasibəti, idarəetmə üsul və metodlarının nə dərəcədə ədalətli və səmərəli olması ilə əlaqələndirir və yeri gəldikcə müəllif “mən”inin təhkiyə hüququndan istifadə edərək bütün bunlar barədə öz mövqe və mülahizələrini bildirirdi. Yaxud Bayram Bayramov “Arakəsmələr” (1966-1971) romanında idarəçilikdə şəxsiyyətin yeri və insan amili problemini qaldırıb ayır-buyur siyasətinin, çəpərləmə əxlaqının doğurduğu fəsadlardan bəhs edib cəmiyyət həyatında arakəsməçiliyə qarşı etiraz motivlərinə üstünlük verirdisə, “Fəhlə qardaş” (1975) romanında cəmiyyətdə təbəqələşmə, yuxarı hesab edilən zümrəyə mənsubların peşə-sənət seçimi, həyatdakı mövqe məsələsinə ictimai mənşəyin təsiri problemini qabardır, bu sosial eybəcərliyə qarşı etirazını əsərin qəhrəmanı Ziyadxanın vasitəsilə bildirirdi.

Mühit və mənəvi aşınma, idarə edilənlə idarə edən arasında kəskin ziddiyyət mövzu-motivlərinin dramaturgiyaya gətirilməsi də intensiv xarakter daşıyırdı. Anar “Şəhərin yay günləri”, “Adamın adamı”, İ.Əfəndiyev “Büllur sarayda”, M.İbrahimbəyov “Kərgədan buynuzu” pyeslərində cəmiyyətdəki əliəyrilik, rüşvət, harınlıq mühitinin insani münasibətlərə pozucu təsirini ayrı-ayrı tiplərin timsalında sərt mühakimə yolu ilə ifşa edir, V.Səmədoğlu “Bəxt üzüyü” komediyasında mənəvi sıxıntılar içində boğulan cəmiyyəti bağ qonşularının sosial-psixoloji durumlarını təcəssüm etdirməklə parodiya edirdi.

Başqa bir xarakterik nümunə kimi Seyran Səxavətin mənəvi aşınma probleminin mühitdən gəlmə səbəblərini tədqiq və təhlil edən “Yəhudi əlifbası” (2009) və “Qızıl teşt” (1987) əsərlərini xatırlatmaq vacibdir. Yazıçı bu əsərlərində insanın öz milli-mənəvi dəyərlərindən getdikcə uzaq düşməsinin səbəbini milli yaddaşsızlığa yönəli sovet ideologiyasının, ictimai ədalətsizlik üzərində qurulan və uzun illər davam edən siyasi rejimin totalitar və despotik mahiyyəti ilə əlaqələndirmiş, cəmiyyətdəki sosial-ictimai ziddiyyətləri obrazlı şəkildə çatdıra bilmişdir. *“Hüseynovları yaradan əsas səbəblərdən biri ölkədə illərdən bəri kök salmış inzibati-amirlik idarəetmə üsulu, yəni hər şeyin bir adamın iradəsinə tabe edilməsidir. Milyonlarla insanın “eyni cür” düşündüyü, “eyni cür” davrandığı, “məsləhət sizindir” – deyə əli-əl üstə, əmrə müntəzir, buyruq gözlədiyi şəraitdə Hüseynov kimilər hamıdan güclüdür, hakimi-mütləqdir, istədiyi adama iş verəcək, istəmədiyini işdən qovduracaq, illərlə süründürəcək, xoşu gələn adamı “geroy” edəcək, sinəsinə deputat nişanları taxacaq, adına dastanlar qoşduracaq qədər külli-ixtiyar sahibidir.”* [66, s.19]

Bu və ya bu kimi ədəbi nümunələrin təhlili araşdırdığımız fəslə belə bir yekun vurmağa əsas verir: əvvəla, Ş.Alışanlının qeyd etdiyi kimi, *“İndi çoxlarının inkar və təftiş etdiyi XX əsrin 20-30, 40-50-ci illər ədəbiyyatı və sənətinin başı üzərində “Domokl qılıncı” dayansa da, ədəbiyyat inzibati cəhətdən azad olmasa da, sənətkar ruhunda azad ruh, milli yaddaş ehtirası var idi və bunun təcəssümü tarixi ədəbi prosesin alt qatında daim mövcud idi.”* [14, s.97] İkincisi, tarixi ədəbi prosesin alt qatında mövcud olan bu “azad ruh”, “milli yaddaş ehtirası” 60-cı illərdən etibarən

cəmiyyətdəki siyasi yumşalma imkanları ilə özünü açıq şəkildə göstərməyə başlayır və cəmiyyətdə get-gedə dərinləşən sosial-mənəvi böhranın birbaşa dövlət idarəetmə sisteminin qüsurlu fəaliyyəti ilə əlaqələndirilməsi yeni həyat quruculuğu yollarının bədii axtarışı ideya-mündəricəsinin möhkəmlənməsinə gətirib çıxarır.

Bu fəsildən hasil olunmuş nəticələr müəllifin çap olunmuş elmi əsərlərində öz əksini tapmışdır ("Qara – Stalin repressiyalarının bədii simvolu kimi". Naxçıvan: Elmi əsərlər, 2020. №1, s. 78-84; "Tarixi Prometey xeyirxahlığı haqqında çağdaş ədəbi düşüncələr". Gənc tədqiqatçı, 2019. №1, s. 135-139; "Участие литературы в формировании социально-общественного образа мышления". Матеріали Міжнародної наукової конференції «Безпека в сучасному світі», 2019. с.186-187).

# III FƏSİL
# İNZİBATİ İDARƏÇİLİK VƏ İNSAN MÜNASİBƏTLƏRİ PROBLEMİNİN İŞLƏNMƏ TENDENSİYASINDA YENİ MEYİLLƏR

## 3.1. Qüsurlu idarəçiliyin insan münasibətlərinə təsiri.

Ədəbiyyat həmişə idarəçiliyi cəmiyyətin sosial, iqtisadi və mənəvi əsaslarını quran və qoruyan başlıca faktor kimi dərk etmiş, mövcud cəmiyyətdə sosial-ictimai münasibətlərin mənəvi-əxlaqi normalara uyğunlaşdırılmasına çalışmışdır. Bu ideya-mündəricə nöqteyi-nəzərindən Azərbaycan ədəbiyyatının da müxtəlif tarixi dövrlərə mənsub (N.Cəncəvinin "İsgəndərnamə"sindən tutmuş M.İbrahimovun "Həyat", "Böyük dayaq", İ.Hüseynovun "Yanar ürək" əsərlərinə qədər ) bir sıra uğurlu yaradıcılıq nümunələrini xatırlatmaq mümkündür.

Ötən əsrin 50-ci illərinin sonu və 60-cı illərindən etibarən ədəbiyyatımızda qüsurlu idarəçiliyin cəmiyyətin sosial, iqtisadi və mənəvi əsaslarına dağıdıcı təsiri probleminin diqqətə çəkilməsi və işlənmə tendensiyasında yeni meyillərin meydana çıxması mühüm əlamət və keyfyyət kimi cəmiyyətdə baş verən kəskin ziddiyyət və təbəddülatların − Stalin avtoritarizmi və despotizmindən imtina edildikdən sonra həyata keçirilən siyasi yumşalma xarakterli islahatların da müsbət nəticə verməməsinin, sosial, iqtisadi və mənəvi böhranın get-gedə dərinləşməsinin əks-sədası idi.

Vaxtilə keçmiş müstəmləkə xalqlarına gerilik məngənəsindən qurtulmağa yalnız sosializmin imkan verəcəyinə inanan C.Nehru, eyni zamanda, uzaqgörənliklə xəbərdarlıq edirdi: *"Unutmaq olmaz ki, hansı bir sehirbazlıqlasa sosialist və ya kapitalist üsulu tətbiq etməklə yoxsulluğu varlığa çevirmək mümkün deyil. Yeganə yol gərgin işləmək, əmək məhsuldarlığını artırmaq və məhsulu ədalətlə bölmək yoludur."* [166, s.12] Sovet dönəmində isə bunlar baş vermədi, inzibati amirlik əsasında yaradılan və idarə edilən planlı təsərrüfat sistemi, bütün səylərə baxmayaraq, özünü doğrulda bilmədi. Ona görə doğrulda bilmədi ki, sovet idarəetmə sistemi insan ləyaqətinə, onun hüquq və azadlıqlarına hörməti, qarşılıqlı anlaşma nəzakətini qoruya

biləcək möhkəm etik təməl üzərində qurulmadı, bir model kimi yalnız elmi-nəzəri cəhətdən hesablanmış sərt qayda-qanunlara söykənməklə kifayətləndi. Avtoritar idarə, qərar və tapşırıqların müzakirəsiz icrası tələbləri, insan hüquq və azadlıqlarını məhdudlaşdıran qadağalar isə nəticə etibarilə yuxarıların göstərişi ilə hərəkət etmək, şəxsi təşəbbüsün itirilməsi, dövlət idarətmə sisteminə inamsızlıq, birtəhər baş dolandırmaq, məsuliyyəti başqalarının üzərinə atmaq kimi mənfi hallar doğurdu. İnsanlar arasında inam və etibar itdikcə kollektivçilik prinsipləri formal xarakter daşıdı, əmək və güzəran məsələlərinə münasibət riyakarlıq, rüşvət, əliəyrilik, oğurluq üzərində quruldu. Dövlət cəmiyyətdəki sosial-iqtisadi problemləri optimal yolla həll etmək qabiliyyətinə malik olmadıqca, sosial ədalət prinsipi aradan qalxdıqca öz qərarlarını zor gücünə, yasaqlar, qadağalar, cəzalalar hesabına həyata keçirmək "dəsti-xətti"nə daha çox üstünlük verdi. Belə bir dəsti-xətt isə təsərrüfatı idarəetmə sistemində kadr amilinə aparıcı ideologiyanı əzbərçilik və partiya işinə sədaqət mövqeyindən qiymət vermə tendensiyasını gücləndirdi. Nəticə etibarilə, istehsal proseslərinə rəhbərlik təsərrüfatı peşəkar idarəetmə deyil, adamlar üzərində siyasi idarəetmə mahiyyəti kəsb etdi.

Təsadüfi deyildir ki, tənqidçi-filosof Y.Qarayev istedadlı komediya ustası Sabit Rəhmanın "Toy" komediyasını təhlil edərkən Kərəmovu haqlı olaraq "vulqar rejimin obrazı" adlandırır, "kərəmovçuluğun" mahiyyətini totalitar-bürokrat rejimin təsərrüfat idarəçiliyinin mahiyyəti ilə eyniləşdirir: *"Komediyada obyektiv ziddiyyət Kərəmovla kolxoz arasında deyildir, həm Kərəmovla, həm də kolxozla torpağın və kəndlinin minillik ünsiyyəti, qarşılıqlı davranışı, bu davranışın meyar və qanunauyğunluqları arasındadır. Əslində "Kərəmov" obrazı da "kolxoz" anlayışına daxildir, onun bir parçası, məhrəm keçmişi, doğma törəməsidir: kolxoz olmasa idi, Kərəmov da olmazdı. Xüsusi mülkiyyətdən niyə Kərəmov doğulmurdu?*

*Kərəmovu rejim bu günə salıb və sabah Ziynəti də mütləq o, bu günə salacaq! Mirzə Hüseyn və Salmanov da Kərəmovun yox, rejimin törəmələridir. Çünki kollektiv təsərrüfatın saxta, vulqar kolxoz modeli bol taxıl, bol məhsul əvəzinə bol bürokratiya, bol ehkam, bol sxolastika istehsal edir.*

*Kərəmovdakı cahillik və miskinlik məhz təmsil elədiyi "kollektiv" əmək və təsərrüfat üsulunun, mühafizəkar sosial rejimin ondakı əksi və ifadəsidir."* [126, c.1, s.399]

Yaxud mövcud quruluşdakı sosial ədalətsizliyə, onun sərt, antihumanist siyasi, iqtisadi idarəetmə üsullarına etiraz Məmməd Arazın böyük satira ustası M.Ə.Sabirə həsr etdiyi "Mən də insan oldum" (1962) poemasında – poetik mətnin alt qatında belə mənalandırılıb ifadəsini tapmışdı:

*Yox, çörək davası deyildi davam.*
*Məramım, şərəfim tapdalanmasa,*
*İnsan ləyaqətim ayaqlanmasa,*
*Yüz il də yarımac, çılpaq yaşaram.*
*Mənə ana dilli millət gərəkdi,*
*Dövləti özümün dövlət gərəkdi.*
*Üstündə öz adım – bayraq istədim,*
*Məhsulu özümün – torpaq istədim.*
*Tikilən binalar – tikənin olsun.*
*Azad səs, azad söz, gülüş gərəkdi,*
*Bir sözlə, bir sözlə dönüş gərəkdi!* [21, s.124]

Artıq 70-80-ci illərdə – istehsalat və təsərrüfat sahələrində "Kommunist əməyi zərbəçisi", "Kommunist əməyi briqadası", "Kommunist əməyi müəssisəsi" adı uğrunda yarışların, "kommunist iməcilikləri", "sosializm yarışı", "əlavə öhdəlik", "keyfiyyət nişanı" və sair kimi hay-küylü kampaniyaların genişlənməsi müqabilində (hərçənd bunun özü idarəetmə probleminə yanlış münasibətin astar üzü idi və bu cür kampaniyalar sosial ədalət prinsiplərinin pozulmasını, "perepiskaları" gücləndirirdi) ət, yağ, şəkər və digər kənd təsərrüfatı məhsulları qıtlığının yaranması, ərzaq məhsullarının satışında talon sisteminin tətbiqi amiranə-inzibati idarəçilik sisteminin kökündən yanlış olmasının acizanə etirafı idi. Qapalılıq – dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən təcrid olunma, dünya inteqrasiya proseslərindən kənar durmaq sovet dövlətini iqtisadi tənəzzülə sürükləyən mühüm səbəblərdən idi. Bir sözlə, Sov.İKP Proqramının "vahid kommunist birgəyaşayış qaydaları", əslində, "hər

kəsin bacardığı kimi yaşamaq" reallığı, "sosial bərabərlik" prinsipi "sosial təbəqələşmə, cəmiyyətdə özgələşmə" gerçəkliyi, "maddi nemətlər bolluğu" "kasadlıq, ehtiyac" anlamında təzahür edirdi.

Şübhəsiz ki, cəmiyyətdə baş verənlər insanlarda yeni hiss-həyacanlar doğurur, nəinki partiya və dövlət çağırışlarına, hətta bütün sferalarda qarşılıqlı inamı sarsıdır, ictimai mühitdə ruh düşkünlüyü, mənəvi böhran vəziyyəti yaradırdı. Ədəbiyyat mühitin dumanlı ab-havasını, insan münasibətlərinə təsir dərəcəsini, müasir ədəbi qəhrəmanın sosial-psixoloji düşüncə və iztirablarını yalnız hadisələr haqqında açıq-səmimi, gerçəkliyin mahiyyətinə vara bilən, insanın ruhi-mənəvi aləminə nüfuz etməyə qadir təsvir-təhkiyə maneralı yaradıcılıq nümunələri ilə əks etdirə, öz bədii-estetik idealını, bədii məqsədini təsdiq edə bilərdi. Bu isə ədəbiyyatın sosrealizmin məhdud, birtərəfli tələb və prinsiplərindən yan keçib yenidən canlanması, qurulması, Elçinin qeyd etdiyi kimi, bədii təfəkkür yeniliyi, yaradıcılıq tipajının dəyişməsi, istedadın daxili azadlığı, "sistemə qarşı bədii-estetik müxaliflik" məsələsi demək idi. *"Məhz bu yenilik, dəyişiklik, daxili azadlıq, bir tərəfdən "altmışıncılar"ın novatorluğunu müəyyən etdi, o biri tərəfdən isə həmin novatorluqla ənənə arasında sıxı bir bağlılıq yaratdı. Həmin ənənənin özündə də iki cəhətin üzvi, təbii vəhdəti yaranmışdı: milli ədəbi ənənələr və dünya ədəbiyyatı təcrübəsinin doğurduğu ənənələr."* [61, s. 58] Tədqiqatçı belə bir bədii-estetik amalın özündən əvvəlki onilliklərin üzərindən folklora, klassik milli ədəbiyyata, "Molla Nəsrəddin" ədəbi məktəbinə, XIX-XX əsr Azərbaycan maarifçi sənətkarlarının irsinə körpü saldığını, mill ədəbi incilərimizi canlanmış milli duyğu və vətəndaşlıq düşüncələri ilə yenidən öyrənilib qavradığını, klassik və çağdaş dünya ədəbiyyatı və nəzəri-estetik fikri təcrübəsindən bəhrələndiyini haqlı olaraq xüsusi qeyd edir. *"Məhz belə bir bədii-estetik amal özündən əvvəlki onilliklərin üzərindən folklora körpü saldı və Süleyman Rəhimovun, Mehdi Hüseynin, İlyas Əfəndiyevin, Ənvər Məmmədxanlının bəzi hekayələri yalnız folklor əsasında yazılmış ayrı-ayrı nümunələr idisə, "altmışıncılar"ın yaradıcılığında folklor alt qatın mühüm hissəsinə çevrildi, hiss və həyəcanların təsvirində, psixoloji qatların açılmasında sitat yox, mahiyyətin ifadəsi oldu. "Altmışıncılar"ın bu cəhəti sosrealizmin ədəbiyyata gətirdiyi və müdafiə*

*etməyə çalışdığı süniliyin, falşın aradan qaldırılmasında mühüm rol oynadı.”* [61, s.58] *“Özlərindən (“altmışıncılar” nəzərdə tutulur – N.Q.) əvvəlki ədəbi nəslin bir çox nümayəndələri yaradıcılıqlarının ilk illərində − 1920-1930-cu illərdə − Sistemin qorxusu və təhriki ilə, yaxud da inqilabi fanatizmin təsiri ilə klassik ədəbiyyata “sinfi münasibət” bəsləyirdilərsə, ... “altmışıncılar” klassik irsi, xüsusən Cəlil Məmmədquluzadə yaradıcılığını, ictimai fikrimizdəki “Molla Nəsrəddin” hadisəsini bədii-estetik və vətəndaşlıq mənasında əxz etməyi bacardı və bu onların yaradıcılığını bir tərəfdən milliləşdirdisə, o biri tərəfdən onlar həmin milliliyi özlərinin bədii-estetik axtarışlarından doğan müasir bədii-estetik səviyyədə ifadə edə bildikləri üçün heç vəchlə milli məhdudiyyətə qapanmadılar”.* [61, s.59]

Dövrün xarakterik yaradıcılıq nümunələrinə sərf-nəzər göstərir ki, istedadlı nasir, şair və dramaturqlarımız (“altmışıncılar”, “yetmişincilər”, “səksənincilər”) qüsurlu idarəçiliyin cəmiyyətdə, sosial-mənəvi mühitdə və insan talelərində yaratdığı fəsadları, bunun insanın ruhi-mənəvi aləmində doğurduğu haləti əks etdirmək üçün ədəbiyyata real həyatdan alınmış kəskin süjetli mövzular, tipik həyat lövhələri, canlı, koloritli obrazlar gətirmiş, dövrün sosial-ictimai ziddiyyətləri ilə bağlı tənqidi görüşlərini orijinal formalarda çatdırmağa müvəffəq olmuşlar. Bu yaradıcılıq uğurunda obrazları siyasi sistemin prinsiplərinə müvafiq qaydada “robotlaşdırmadan” (mənfi və müsbət bölgüsü aparmadan), təbii, tam, bütöv bir insan və cəmiyyətin bir üzvü, vətəndaşı kimi sırf psixoloji-fərdi xüsusiyyətlərini, yaşantılarını, duyğularını, ovqatlarını lirik-psixoloji təsvir vasitəsilə canlandırmaq meylinin xüsusi rolu olmuşdur. Eyni zamanda, 60-80-ci illər ədəbiyyatı insan və cəmiyyət problemlərinə və onun həllinə bədii baxış müxtəlifliyi ilə də diqqəti cəlb edir ki, bu da yaranmış mürəkkəb vəziyyəti və ondan çıxış yollarını bədii təhlil meylinin dərinləşməsindən xəbər verir. Biz bu meyillərin getdikcə güclənməsini həm nəsrimizdə, həm poeziyaızda, həm də dramaturgiyamızda izləyə bilirik. Məsələn, İ.Əfəndiyevin “Söyüdlü arx” (1958) və “Körpüsalanlar” (1960) romanlarında kəddəki sosial vəziyyətin insan münasibətlərinə mənəvi-əxlaqi nöqteyi-nəzərdən təsiri problemi qaldırılır, psixoloji-dramatik situasiyalar yaradılır, təsvir zamanı lirik-psixoloji təmayül sosrealist təsvirləri üstələyir. M.İbrahimovun “Kəndçi qızı” (1962),

R.İbrahimbəyovun "İstintaq" (1978) pyeslərində, B.Vahabzadənin "Etiraf" (1962) poemasında, Əlibala Hacızadənin "Təyyarə kölgəsi" (1974) və "Vəfalım mənim" (1985) romanlarında dövrün sosial-əxlaqi problemlərinə insanların taleyi, şəxsiyyət və vətəndaşlıq borcu, mənəvi təmizlik və qüsurluluq, cəmiyyətin əxlaq normalarına pozitiv və neqativ münasibət kontekstindən yanaşılır. Anarın "Səhra yuxuları" pyesində təhrif olunmuş idarəçilik sisteminin ölkə həyatında və insan talelərində yaratdığı əngəllərdən, "Şəhərin yay günləri" (1977) pyesində yanlış təhsil idarəçiliyi nəticəsində təhsil sistemində kök salan korrupsiya hallarından və bunun ictimai-mənəvi mühitə pozucu təsirindən bəhs olunur. Elçinin "Ağ liman", Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanlarının müasir qəhrəmanları öz baxış və hərəkətləri ilə oturuşmuş dəyərlərlə yaşayan cəmiyyətlə qarşılaşdırılır. Vidadi Babanlının "Vicdan susanda" romanında təsərrüfat həyatı idarəçilik sistemi və ierarxiyası, insan münasibətləri problemindən bəhs olunur. Sabir Əhmədovun demək olar ki, bütün romanlarında mövcud idarəetmə sisteminə qarşı etiraz, rejimə qarşı müxaliflik, "daha belə yaşamaq olmaz" nidaları ucalır. Seyran Səxavətin "Qızıl teşt" pyesində, X.R.Ulutürkün təbirincə desək, müəllifi *"cəmiyyətin bir sıra təbəqələrini firavan və xoşbəxt qul səviyyəsinə endirən səbəblər düşündürür", "rüşvətxorluğun eybəcərliyi ifşa edilir"* [201, s.12], H.Orucovun təbirincə desək, müəllif *"sosial bəlaların doğurduğu ictimai fəlakətlər, köklü faciələrlə bağlı sonsuz həyəcanla haray çəkir"* [201, s.12] və s.

Bu əsərlərdən bir neçəsinin üzərində bir qədər ətraflı dayanmaq istərdik.

"Etiraf"da səlahiyyətli şəxslərin fəaliyyətində özünü büruzə verən insani təmizlik, paklıq, ucalıq, vicdan kimi müsbət keyfiyyətlərlə riya, böhtan, kin kimi mənfi keyfiyyətləri paralel müqayisəyə cəlb etməklə şair həm də mövcud idarəetmə sistemindəki boşluqlara işarə edir. Əsərin məzmunundan belə məlum olur ki, Bahadır hələ gənc olarkən prokuror Eyvazın onun atası Rüstəm kişiyə qarşı etdiyi haqsızlıq onda intiqam hissi oyatmışdır. Özü gəlib prokuror mənsəbinə yetişincə artıq qocalıb əldən düşmüş Eyvazdan qisas almaq qərarına gəlir. Cahangir həkim isə ürək ağrısından xəstəxanaya düşmüş qocanı müalicə olunmayınca sorğu-suala çəkməyə icazə vermir. "Adi bir həkimin" "hökm sahibinə" qarşı müqaviməti Bahadırın

qəzəbinə səbəb olur, bu dəfə o xeyirxah həkimi "mənəm-mənəmliyin" hədəfinə çevirir, ondan qisas almaq üçün məqam axtarır. Doğrudur, şair Bahadıra münasibətdə islahedici mövqedə dayanır. Cahangirin növbəti əməliyyatlardan birində buraxdığı səhvə görə özünü bağışlaya bilməməsi, prokuror qarşısında gözlənilməz etirafı və cəzalandırılmasını tələb etməsi Bahadırı tamam  başqa, nəcib hisslər keçirməyə vadar edir. Şair bu məqamı yaranmış və möhkəmlənmiş arzuedilməyən hisslərlə arzu edilən və dəyərli sayılan hisslər arasında ixtilaf məqamı kimi təsvir edir. Bu daxili ixtilaf məqamı Bahadırın  gözünü açır, nəhayət ki, o da öz günahını etiraf edir. Şair bu dönüşü, çevrilməni mənəvi məğlubiyyət kimi yox, mənəvi qalibiyyət kimi qiymətləndirir.

İlk baxışda oxucuya mənəvi-əxlaqi tərbiyə təsiri bağışlayan bu əsər  alt qatda dövlət idarəçiliyindəki özbaşınalığa kəskin etiraz doğurma xüsusiyyəti daşıyır.  Şair demək istəyir ki, insanın cəmiyyət haqqında hissi-psixoloji düşüncəsi, ictimai münasibətlərdə inamı və ya inamsızlığı bilavasitə vəzifə səlahiyyəti daşıyan dövlət məmurlarından asılıdır. Vəzifə heç də insanı dəyişmir, əksinə, insanın iç dünyasının, həqiqi xislətinin aşkara çıxmasında yardımçı olan bir vasitəyə çevrilir. İnsan münasibətləri o cəmiyyətdə mənəvi-əxlaqi normalar üzrə bərqərar olur ki, orada ilk növbədə insan amilinə diqqət yetirilsin, kadr seçimi düzgün aparılsın, insanların taleyi etibarlı adamlara həvalə olunsun. Bu nəticə yalnız Cahangir−Bahadır münasibətlərində deyil, onların öz vəzifə borclarına və buna müvafiq olaraq onlara göstərilən ictimai münasibətdə meydana çıxır: Cahangir öz sənəti ilə insanlara sidq ürəkdən xidmət edir, onun ali insani keifiyyətləri bu xidmət əsnasında üzə çıxır, insanlar onun böyük duyğularla yaşadığını görüb hörmətini saxlayırlar. Bahadır isə xudbin, kinli və təkəbbürlüdür, insanların taleyinə etinasız yanaşır, vəzifə səlahiyyətlərini ədalətin qorunmasına yox, onu əyməyə, başqalarının haqqını tapdalamağa yönəldir. Onun düşüncəsinə görə, gələcək yoxdur, çünki o onun deyil, gələcəyə üz tutmayanın isə məsləki, əqidəsi olmaz.

Yaxud, Mövlud Süleymanlı "Dəyirman" (1978) povestində  etik təmələ söykənməyən, yalnız tələb, göstəriş, hədə, qorxu üzərində qurulan idarəçiliyin cəmiyyətə hansı eybəcərlikləri gətirdiyini kababxanaya çevrilmiş köhnə dəyirmanda

qurulan kef məclislərinin təsviri vasitəsilə aça bilir. “Sakit” həyat tərzi keçirən kənd camaatı bir də onda xəbər tutur ki, bir vaxtlar xeyir, bərəkət, ünsiyyət ünvanı olan, indi isə köhnəlib suyu sovulmuş dəyirman hamının başının bəlasına çevrilib: kişilər, milçək şirəyə yığışan kimi, araq, kabab iyinə dəyirmana yığışıb laqqırtı vurmaqla vaxt öldürür, qazandıqlarını ailələrinin boğazından kəsib qarınlarını doyurmağa sərf edirlər, köhnə dəyirman indi kəndin buğdasını yox, adamlarını – çobanını, müəllimini, naxırçısini, cavanını, ahılını ... “üyüdür”, dəyirmançı onların cibi kimi, qəlblərini və beyinlərini də “boşaldıb” dumanlandırır. İçkiyə aludəçilik, elə həmin illərdən narkotik asılılığının artması ailə qayğılarına və cəmiyyətdə gedən proseslərə biganə münasibət üçün, “dəyirmanın” “fırlanması”, “dəyirmançının” elin suyuna-çörəyinə qan-qada qata-qata öz dövranını uzatması üçün əlverişli deyildimi? Bu bəla üzündən kəndin arvadları ərlərinə lənət oxuya-oxuya yer əkmək, bostan becərmək məcburiyyətində qalıblar, uşaqlar maddi ehtiyac içərisində yaşayır, qurulu evlər-ailələr dağılır, nəsillər şərəf və ləyaqətlərini itirir, quruluş, sistem isə öz ömrünü uzatmağa çalışır və Temir müəllimin anası Güllünün: “Allah qan-irin eləsin yediyini, a Dəyirmançı!” – qarğış-fəryadı onun heç vecinə də deyil. Yazıçı bu gün başqa cür “fırlanan” dəyirmanda və onun ətrafında baş verənləri realist təsvirlərlə bəlanın yalnız fərdi xarakterdən gəlmə deyil, həm də sosial-ictimai səbəblərini nişan verir, kökünün mövcud mühitdə insanların milli-mənəvi dəyərlərdən uzaqlaşdırılması, ruh düşkünlüyünə, mənəvi-əxlaqi aşınmaya sürüklənməsi ilə bağlı olduğunu, bütövlükdə Sovet cəmiyyətinin çürüməyə başladığını bəyan edir. Vəzifənin xalqa xidmət deyil, varlanmaq vasitəsinə çevrildiyini, haram yolla pullanmağın, kef məclisləri qurmağın, harın səxavətin qürrələnmə, kişilik göstəricisi səviyyəsinə yüksəldiyini həm obrazların dili ilə, həm də təsvir zamanı müəllif münasibətində ifadə edir. Güllü arvad üzünü Allaha tutub: *“İtdər yedi dünyanı, niyə eşitmirsən, ay kar olmuş?!”* [204, s.20] – deyə haray çəkir. Telli qarı qəzəblə ağacını yerə vurub qarğış yağdırır: *“Allah yıxsın, səni ay dəyirman! Diddi, yedi camaatın içini...”* [204, s.26], *“Bir yerin ki, dəyirmanı şeytanın yığnaq yeri oldu, bu gün tapdığımız bir parça çörəyə də şükür elə.”* [204, s.27] – deyə gəlininə təsəlli verir. *“Sədr Pərinin xətrinə Qasımı süd zavoduna müdir qoydu. Pəri elə əvvəldən ağıydı, o heç. Qasım ki, süd zavodunda*

*işləməyə başladı, bir ilin içində evini də ağartdı, eşiyini də. Özü də ağarıb Pəri kimi oldu."* [204, s.27] *"Dəyirmana gələn kişilər bir-birini beləcə pıçıldaşa-pıçıldaşa tanıyırdılar. "Harda işləyir", "Pulu varmı" – vəssalam. Daha ad, ata, baba, nəsil lazım gəlmirdi."* [204, s.31]

Əsərdə maraq doğuran cəhətlərdən biri odur ki, yazıçı cəmiyyəti sosial-mənəvi böhran vəziyyətinə gətirib çıxaran idarəetmə orqanlarının işinə müdaxilə etmir, oxucuda bu orqanlara rəhbərlik edənlər haqqında təsəvvür fəaliyyətlərindən doğan fəsadların, ən çox da gərgin hissi-psixoloji halətin təsviri və kiçik bioqrafik detallar nəticəsində yaradılır. Məlum olur ki, Pəriyə görə Sarı Qasımı süd zavoduna müdir qoyan sədr ona cavab qaytardığına görə Gülünü idarə işindən çıxarıb naxır otarmaq məcburiyyətində qoyan sədrdir. Əvvəllər "katib-zad işləyib özü ağırlığında pul yığan", indi ticarət şöbəsinin müdiri vəzifəsini daşıyan və tez-tez özünü gözdən uzaq dəyirmana yetirib qarnını doyuran yoğun kişi iştah artırmağın, nəyin hesabına "qızıllı" olduqları açılmayan cavanlar ərli qadınla eyş-işrət qurmağın marağındadır. Əsərdə belə bir xüsusiyyət də diqqəti cəlb edir ki, yazıçı sanki qəsdən bir çox sualları cavabsız buraxmaqla oxucunu cəmiyyətdə baş verənlər və milli heysiyyatın bu qədər öləziməsinin səbəbləri haqqında düşünməyə sövq etmək istəyir.

Qeyd etməliyik ki, "Dəyirman" oxuculara təqdim edildikdən sonra ədəbi dairələrdə geniş müzakirə və tənqidlərə məruz qalmış, bununla belə əsərin sənətkarlıq xüsusiyyətlərini və bədii niyyətini duyub qiymətləndirənlər, yazıçı mövqeyini müdafiə edənlər də olmuşdur. Onlardan biri – xalq şairi R.Rza əsərin bədii məqsədini, köhnə dəyirmanın yazıçı qələmində simvolik obraza çevrildiyini cəsarətlə etiraf etmişdir: *"Müəllif dəyirmanın dəyirmanlıqdan çıxmış, köhnəlib çürümüş olduğunu yalnız qurumuş , çatlamış, işə yaramaz novda, gərəksizləşmiş dəyirman daşında yox, bu mühitdəki "əhalinin" hərəkət və istəklərinin, yaşamaq ideallarının çürüməsində də görür."* [205, s.14-15] Bu, yazıçının Sovet cəmiiyətinin artıq çürüməyə başlaması barədəki qənaəti ilə razılaşmaq demək idi.

M.Süleymanlı cəmiyyəti içərisindən didib-çürüdən "qurdlar", "həşaratlar" mövzusunu "Dəyirman"dan sonra oxuculara təqdim etdiyi "Ceviz qurdu" (1982) romanında da davam etdirmişdir. İlk baxışda əsərdə söhbət ekoloji mövzudan – ceviz

qurdauna qarşı mübarizə məsələsindən getsə də, süjet xəttinə sosial-ictimai xarakterli hadisə və problemlərin daxil edilməsi ilə "ceviz qurdu" əhvalatının əslində yazıçı üçün cəmiyyətdə yaranmış mənəvi mühitə münasibət göstərmək vasitəsi olması aydınlaşır, müəllif bu vasitə ilə təsərrüfat ziyanvericiləri ilə mübarizə problemindən insanların mənəvi dünyasının bağlarını "gəmirən" cəmiyyət ziyanvericilərinə qarşı mübarizə probleminə keçid əldə edir. Belə ki, əsərin əvvəlində zərərverici ilə mübarizə – ağaclara düşən qurdun yığılması sonrakı təsvirlərdə ictimai mühitdəki mənəvi münasibətlərin açılması ilə cəmiyyətin canına daraşmış "qurdlarla" mübarizə anlamına keçid əldə edir. Qeyd olunduğu kimi: *"Bağlarda, bostanlarda qurdlarla aparılan mübarizə ilə yanaşı ayrı-ayrı insanların bir-birinə münasibətləri, düşüncələri qurd düşmüş ətraf mühiti cəmiyyətə yaxınlaşdırır. Ağaclara, həyətlərə daraşmış ceviz qurdu mühitə düşən qurdların kölgəsində qalır. Xalıl haqqında Yelləmcəyin fikirləri, təhsil dalınca getmiş Əsmərin kəndə hamilə qayıtması, Xanın əxlaq normalarına zidd qeyri-rəsmi münasibətləri, daim insanları təhdid edən, onları yaşamağa qoymayan insanlığa zidd maraqlar, mühitin mənəvi-əxlaqi baxımdan aşınmalara məruz qalması qurdun təkcə ətraf aləmə deyil, insanların həyatına, cəmiyyətə yedəklədiyini göstərir."* [130, s.129-130] Başqa sözlə desək, ceviz qurdu yazıçının təsvir və təhkiyəsində cəmiyyətin, insanlararası münasibətlərin canlı obrazı kimi metoforikləşir və yazıçı bu vasitə ilə "qurdun" kök salıb yayıldığı məkanı – cəmiyyəti, onun məruz qaldığı mənəvi-əxlaqi aşınmaları diqqətə çəkir, bu faciəni sosial-ictimai mühitin taleyinə ağrı-acılar yazdığı Əsmərin, onun ailəsinin timsalında ümumiləşdirir. *"Ceviz qurdu bədii obraz kimi əsərin ideyasını, məzmununu simvollaşdırır, diqqəti özündən, öz mahiyyətindən uzaqlaşdıraraq assosiativ düşüncə üçün geniş meydan açır, qoyulan problemlərin, yazıçı tərəfindən reallaşdırılmağa çalışılan mətləblərin açılışı üçün şərait yaradır. Roman adından tutmuş bütün məzmununa, detallarına qədər işarə üzərində qurulmuşdur. Burada təbiətin faciəsi ilə yanaşı cəmiyyətin, ictimai mühitin ayrı-ayrı fərdlərin faciəsi, nəslin qan yaddaşı, kökün tarixi işarələnib. Cevizin içini soran həşarat üzü sağlam parlaq, içi çürük cəmiyyəti, insan mühitini xatırladır. Əsərdə insanların əhatəsində bitən ağaclarla onlardan kənarda, ətrafı sakitlik, saflıqla dolu meşədə bitən ceviz ağacları arasında*

*da fərqlər mövcuddur. Belə ki, insan mühitində boya-başa çatmış ceviz cəmiyyətin, insanlararası nünasibətlərin obrazı kimi simvollaşdırılaraq insan ayağı dəyməyən meşədəki saf, sağlam ceviz ağaclarının fonunda açılıb mənalandırılır."* [130, s.132]

Və yaxud İlyas Əfəndiyevin 80-ci illərdə lirik-psixoloji üslubda yazdığı və bir çox teatrlarda, o cümlədən S.Vurğun adına Rus Dram Teatrında səhnəyə qoyulan "Büllur sarayda" pyesi dərin sosial-ictimai məzmunu, dövrün müəyyən ictimai-əxlaqi cəhətlərini insan xarakterində əks etdirmək xüsusiyyətləri ilə geniş maraq doğurdu. Müəllif bu əsərində müxtəlif mühitləri – Qonça ananın saflıq, halallıq mühiti ilə Ağahüseynin haramlıq, saxtakarlıq mühitini təmsil edən obrazları qarşılaşdırır, onların bir-birinə münasibətləri müstəvisində cəmiyyətdə baş verən təbəqələşmə problemini önə çəkir, haram pulla ucaldılmış "büllur saray"ların gəncliyin saf məhəbbətini faciə ilə sonuclaması qənaətini aşılayır. Göstərir ki, yalan və xəyanət, rüşvət və oğurluq üzərində yüksələn "büllur saray" axırda öz sakinlərinin mənəvi çürüklüyünü əks etdirən bir güzgüyə çevrilir. Aynurun atası Ağahüseyn kimilər yalnız haram pul qazanmaq, xalqa məxsus olanları talamaq barədə düşünür, analığı Cəvahir xanım kimilər maddi təminatı ailə xoşbəxtliyinin başlıca şərti kimi qavrayır, qızını kasıb olduğuna görə sağlam mənəviyyatlı Həbibə yox, böyük bir idarənin rəisi olan, baxış və münasibətlərində puluna, vəzifəsinə, adamına güvənən Qədimə vermək istəyir. Aynurun böyüdüyü "büllur saray"ın parlaqlığı onun gözlərini elə qamaşdırır ki, onu saf məhəbbətlə sevən Həbibin doğulub boya-başa çatdığı adi zəhmətkeş ailəsinin evinə ikrahla yanaşır, öz taleyini kor etdiyinin fərqinə varandan sonra isə özünün doğulub boya-başa çatdığı "büllur saray"a nifrət eləməyə başlayır. Bu kimi mənəvi-əxlaqi şikəstlik üzündən "büllur saray"da böyüyən qızlarının heç birinə ailə səadəti nəsib olmur. A.Səfiyevin qeyd etdiyi kimi, bu havada nəfəs alanlar xoşbəxt ola bilmirlər. [199, s.72] A.Səfiyev Qonça ananın halallığına qarşı qoyulan əks qütbün sosial-ictimai tutumu haqqında fikirlərinibelə ümumiləşdirir:*"Kimdir onlar? Zahirən möhtərəm və mədəni görünənlər, planı vaxtında ödəyənlər və hətta hər ildə bir dəfə təşəkkür alanlar! Və bütün bu reklamlar arxasında isə xalqın sərvətinə divan tutanlar.Göründüyü kimi, psixoloji laylar təzadı, məhz həqiqətin*

*mahiyyəti, nüvəsi üzərindən götürülən büllur və qara qatlar, qeyri-adi, paradoksal vəziyyətlər burada da bədii təhlilin əsas üsulu olaraq qalır."* [199, s.74]

Qüsurlu idarəçiliyin cəmiyyətdə, sosial-mənəvi mühitdə və insan talelərində yaratdığı fəsadları təsvir yolu ilə cəmiyyətin taleyi haqqında düşündürmək meyli dövrün digər (Süleyman Vəliyev, Cəmil Əlibəyov, Həsən Seyidbəyli, Çingiz Hüseynov, Yusif Səmədoğlu, Əkrəm Əylisli, Anar, Elçin, İsi Məlikzadə, Sabir Əhmədli və b.) sənətkarlarının yaradıcılığı üçün də xas xüsusiyyətlərdəndir. Azərbaycan yazıçıları həyati faktlardan çıxış edərək cəmiyyətdə özünü açıq-aşkar büruzə verən sosial-ictimai eybəcərliklərin qələmə alır, bu eybəcərlikləri idarəçilik sisteminin qüsurları ilə əlaqələndirir, onlaraın aradan qaldırılması barədə düşündürməyə çalışırlar.

İnzibati idarəçilik və insan münasibətləri probleminin işlənmə tendensiyasında yeni meyillər haqqında danışarkən keçmişə müraciət etmək, tarixi olayların mahiyyətinə varmaq vasitəsilə cəmiyyətdə cərəyan edən hadisələrə münasibət göstərmək təmayülünü də qeyd etmək vacibdir. B.Əhmədovun qeyd etdiyi kimi, belə əsərlərdə tarix, keçmiş yazıçı üçün əsas məqsəd olmur, daha çox vasitə rolunu oynayır və tədqiqatçının haqlı olaraq gəldiyi qənaətə görə İ.Şıxlının "Dəli Kür"ü və F.Kərimzadənin "Qarlı aşırım"ı ilə tarixi keçmişimizi müasir dərk yolunda yeni bir istiqamətin əsası qoyulur və artıq 70-80-ci illərdə "Xudafərin körpüsü", "Çaldıran döyüşü", "Təbriz namusu", "Məhşər", "İdeal", "Köç", "Fətəli Fəthi", "Qətl günü" kimi tarixi əsərlər yaranır. [70, s.452] Tədqiqatçının adını çəkdiyi və çəkmədiyi bu kimi əsərlərdə qəhrəmanların xalq həyatına münasibətindəki ümumi bir cəhəti sezməmək mümkünsüzdür – onlar el-obanın rəyi nəzərə alınmadan kənardan gətirilən, yaxud gətitilə biləcəyi təhlükəsi duyulan qayda-qanunlarla razılaşmır, bu zorakılığı milli mənliyə, zamanın ağrı-acılarını yaşayan xalqın iradəsinə qarşı təcavüz kimi qiymətləndirib etiraz edirlər.

**3.2. XX əsrin doxsanıncı illərinin faciəvi hadisələri və keçid dövrünün sosial-iqtisadi çətinlikləri ədəbi müstəvidə.**

XX əsrin sonlarına doğru baş verən dünyəvi proseslərin və 1985-ci ildə hakimiyyətə gələn M.S.Qorbaçovun totalitar bir rejimə “demokratiya yamağı” kimi əlavə etdiyi “aşkarlıq və yenidənqurma” islahatı onsuz da rıçaqları tamamilə boşalmış idarəçilik sistemini iflic vəziyyətinə saldı. Bu isə kölgə iqtisadiyyatının canlanmasına, dövlət əmlakını talançılığa, qeyri-leqal siyasi qüvvələrin fəallaşmasına, xaosa, separatizmə rəvac verdi, regionlarda etnik münaqişələr başlandı və bütün bunlar cana doymuş azadlıq həsrətli “sovet xalqlarının”, o cümlədən Azərbaycan xalqının milli-azadlıq hərəkatının alovlanmasına təkan verdi. 1990-cı ilin martında Estoniya, Litva, may ayında isə Latviya müstəqilliklərini bərpa etmək haqqında qərar qəbul etdilər. Gürcüstanda suverenlik haqqında dekret qəbul olundu. Azərbaycan öz müstəqilliyini 1991-ci il oktyabrın 18-də elan edə bildi və həmin il dekabrın 26-da Kreml üzərindən SSRİ-nin qırmızı bayrağı endirildi, Sovet imperiyası dağıldı.

Lakin bu tarixi proses Azərbaycan xalqı üçün xüsusilə ağrılı keçdi. Bir tərəfdən imperiyanın çöküşü ilə mövcud siyasi, hüquqi və iqtisadi infrasturuktur dağilir, xalq sərvətləri mafioz qruplaşmalar tərəfindən mənimsənilir, əhalinin sosial vəziyyəti ağırlaşır, digər tərəfdən yaranmış şəraitdən istifadə edən erməni silahlı qüvvələri torpaq iddiası ilə təcavüz edərək kütləvi dağıntılar və insan qırğınları törədir, başqa bir tərəfdən ermənipərəst Qorbaçov hakimiyyəti əsassız torpaq iddialarına qarşı xalqımızın etiraz səsini batırmaq üçün dinc nümayişçiləri gülləyə tuturdu. Qarışıq dövrdə bir-birini əvəz edən hakimiyyətin ölkəni yaranmış böhran vəziyyətindən çıxarmaqda gücsüzlüyü – dövlət siyasətinin uğursuzluğu, müdafiə sistemində təşkilatçılığın zəifliyi, sosial-iqtisadi sahələrdə idarəetmə strukturlarının sönüklüyü göz qarşısında idi. Hakimiyyət uğrunda didişmələr, vətəndaş müharibəsi təhlükəsinin reallaşması mövcud vəziyyəti daha da ağırlaşdırır, xalq sözün həqiqi mənasında şok, affekt vəziyyətini yaşayırdı. İnsanlar artıq yenidən hakimiyyət dəyişikliyinə yönəli çağırışlara da inamlarını itirirdilər. Nəhayət, Azərbaycan xalqı mürəkkəb dövrün

idarəetmə dərslərindən − mərkəzdən asılılıq, fərsizlik (Vəzirov dövrü), donuqluq, qətiyyətsizlik (Mütəllibov dövrü), səriştəsizlik (Elçibəy dövrü) nəticə çıxarıb yekdil qərara gəldi, öz iradəsini göstərərək dövlət idarəçiliyində zəngin təcrübəyə malik olan, ictimai-siyasi xadim kimi ad çıxarmış Heydər Əliyevi Bakıya dəvət etdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə siyasi qarşıdurma aradan qalxdı, atəşkəs elan olundu, cəmiyyətdə sakitlik və sabitlik yarandı, sosial-iqtisadi inkişafın priotet istiqamətini müəyyən edən neft kontraktları imzalandı. Beləliklə, Azərbaycan xalqı vətəndaş müharibəsinə sürüklənmək, yenidən param-parça olmaq təhlükəsindən xilas oldu, öz istiqlaliyyətini qoruya, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə dirəniş göstərə bildi, 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında bəyan edilən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, insan və vətəndaş hüquqları və azadlıqlarının təminatı bir proses kimi axarına düşməyə başladı, dövlətin daxili və xarici siyasətinin priotet istiqamətləti müəyyənləşdirildi, buna müvafiq olaraq tarixi qərarlar qəbul edildi.

Qeyd etməliyik ki, yaranmış vəziyyətə milli ədəbiyyatımızın münasibətində də bir çaşqınlıq yaranmışdı, bu özünü xüsusilə 80-ci illərin sonlarında, hadisə və proseslərin bədii dərki və inikasındakı ləngilikdə büruzə verirdi. Bununla belə, 90-cı ilin 20 Yanvar faciəsi − tarixi torpaqlarımızın hərraca qoyulmasına son qoyulmasını tələb edən xalqımızın "ekstremist" damğası ilə qanına qəltan edilməsi hadisəsi − tərəddüd buzunu sındırıb haqq-ədalət uğrunda ədəbi mücadilənin yeni bir mərhələsinə start verdi. Ədəbi proses "Ayağa dur, Azərbaycan!", "Ağlamağın yeri deyil, ağlama", "Bizi Vətən çağırır!" (Məmməd Araz), "Qarabağdan əlini çək!", "Silahlan, silahlan, silahlan, əsgər!", "Torpaqdan pay olmaz!" (Famil Mehdi), "Davam edir 37", "Silahlan!"? "Mənim azadlığımı əlimdən almaq olmaz!" (Xəlil Rza) , "Özünü qoru, xalqım!" (C.Novruz), "Haran ağrıyır, Vətən?" (İ.İsmayılzadə), "Layla, Xocalım, layla", "Bu gün yumruq kimi birləşə bilsək!" "Vətənsiz qalmağa öyrənmə, millət!" (Z.Yaqub), "Bütün millətlərə" (N.Həsənzadə) və s. kimi həyəcanlı nidalar üzərində kökləndi. Artıq otuz ilə yaxın bir müddətdir ki, davam edən bu

mərhələdə yaranan sosial-ictimai məzmunlu əsərlərin mövzu-problematikasını aşağıdakı şəkildə təsnif etmək mümkündür:

– milli azadlıq idealları: istiqlal uğrunda mübarizə hərəkatının və müstəqilliyimizin bərpa edilməsinin tərənnümü;

– Qarabağın azadlığı uğrunda mübarizə: erməni silahlı qüvvələrinin torpaqlarımıza təcavüzünün ifşası, müharibə fəlakətlərinin təsviri, düşmənin ələ keçirdiyi tarixi ərazilərimizin işğaldan azad edilməsi yollarının bədii axtarışı;

– doxsanıncı illərin sosial-mənəvi durumu: baş vermiş faciəvi hadisələrin və keçid dövrü sosial-iqtisadi çətinliklərinin cəmiyyətin idarə edilməsində yol verilən qüsurlarla əlaqələndirilməsi, milli birlik və milli dövlətçilik problemi;

– azərbaycançılıq idealı: Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra xalqın sabahına – milli ideyalar ətrafında birləşib yüksək qayələr uğrunda mübarizənin təşkilinə, möhkəm dayaqlara malik milli dövlətçilik sisteminin yaradılmasına inam duyğularının güclənməsi, bu duyğuları rəhbərin gücünə inam kontekstində ümumiləşdirən "Sən qalib gələcəksən" nidasının ucalması;

– zaman və cəmiyyət: qlobal hadisə və proseslərin Azərbaycanın siyasi-ictimai həyatına təsiri, müstəqil Azərbaycanın inkişaf yolları və sivil idarəçilik modelləri, mədəni inteqrasiya və milli-mənəvi dəyərlər, ictimai şüurda baş verən təbəddülatlar, insan və mühit – maddi dəyərlərin mənəvi dəyərləri üstələməsi, fərdin özünütəsdiqi – cəmiyyətdə öz yerini tapması və s. kimi problemlər.

Biz fəslin bu bölməsində, dissertasiya işinin məqsədinə müvafiq olaraq, doxsaninci illərdə baş vermiş faciəvi hadisələrin və keçid dövrü sosial-iqtisadi çətinliklərinin cəmiyyətin idarə edilməsində yol verilən qüsurlarla əlaqələndirilməsi problemindən bəhs edəcəyik.

Mətləbə keçməzdən əvvəl qeyd etmək istərdik ki, təsnifatda yer alan mövzu-problemlər və onların tam sərbəst – ideoloji yasaqsız, müxtəlif yaradıcılıq metodlarından, ədəbi ənənələrdən və qərb modellərindən istifadə olunmaqla işlənməsi ədəbiyyata həm yeni ideya-məzmun, həm də bədii-estetik dəyərlər gətirmişdir. B.Vahabzadə, X.R.Ulutürk, M.Araz, C.Novruz, İ.İsmayılzadə, N.Həsənzadə, F.Mehdi, F.Sadıq, M.Yaqub, R.Rövşən, Z.Yaqub, Ə.Quluzadə və s.

kimi istedadlı şairlərimizin, İ.Əfəndiyev, S.Əhmədli, V.Babanlı, İ.Məlikzadə, V.Səmədoğlu, Anar, Elçin, M.Süleymanlı, S.Səxavət, M.Oruc, E.Hüseynbəyli və digər nəsr ustalarımızın yazıb-yaratdığı yeni-yeni əsərlər bu fikri təsdiq edən ədəbi faktlardır. Təbii ki, biz mövzu üçün daha xarakterik yaradıcılıq nümunələrinə müraciət edəcəyik.

Doxsanıncı illərin sərt reallıqlarını əks etdirən əsərlərdə daha da kəskinləşmiş sosial-ictimai ziddiyyətlərin insan münasibətlərinə pozucu təsiri, sovet qoşunlarının törətdiyi 20 Yanvar qətliamı, erməni silahlı qüvvələrinin törətdiyi fəlakətlər, keçid dövrünün səciyyəvi xüsusiyyətləri, sosial təbəqələşmə və bunun "sosial ədalət" düşüncəsinə təsiri əksini tapır, əzablı, faciəvi yaşantılara görə düşmən qüvvələrlə yanaşı, xalq həyatına laqeyd münasibət bəsləyən dövlət məmurları, hakimiyyət uğrunda mübarizə çəkişmələrinə rəvac verməklə milli birliyi parçalayan "siyasətçi" qruplar, populistlər, diletantlar, geosiyasi maraqlara görə Azərbaycanı təsir altında saxlamağa və ya nüfuz dairəsinə salmağa çalışan xarici qüvvələr, dövrün qarışıqlığından istifadə edib talançılıqla məşğul olan "işbazlar", satqınlar, xəyanətkarlar tənqid hədəfi seçilir. Belə əsərlərin əsas qayəsini ümumiləşdirsək, onları mürəkkəb hadisələrin arxasında gizlənmiş əsl həqiqətləri üzə çıxarmağa, qarışıq problemlərin həlli yollarını tapmağa çalışan, haqq və ədaləti qorumağa, insanlara zülm edən, sitəm verən qüvvələri dayandırmağa səsləyən əsərlər kimi də xarakterizə edə bilərik. Eyni zamanda, bu əsərlərin əksəriyyəti xronikallığı və publisist düşüncə yükü ilə seçilir, obraz yaradıcılığı prototipliyə, yaxud bioqrafizmə, başlanğıc ilə final arasında bağlantıların qurulması, süjet xətlərinin inkişafı bədii yaradıcılıq təxəyyülündən daha çox qəhrəmanın canlı yaşantısına, bəzən də müəllifin şəxsi tale və müşahidələrinə əsaslanır. Bədii düşüncə, demək olar ki, 2000-ci illərdən sonra konkret hadisələrin təsviri və təhlili müstəvisindən zaman və insan haqqında bədii-fəlsəfi düşüncə müstəvisinə transfer edir, yeni bədii-estetik meyillər, üslublar formalaşmağa başlayır, lakin bütün hallarda xalqın siyasi-ideoloji və sosial-ictimai həyatında əsaslı dəyişikliklər dövrü kimi mürəkkəb 90-cı illər onun əsas analitik tədqiqat obyekti olaraq qalır.

90-cı illərin əvvəllərində meydana çıxan əsərlərin əsas ideya istiqaməti haqqında təsəvvür yaratmaq üçün B.Vahabzadənin 20 Yanvar faciəsinə həsr etdiyi "Şəhidlər" (1990) adlı lirik-epik poemasını xatırlatmaq yerinə düşər. Poemada əsas surət şairin özü – xalqın danışan mənliyi təsiri bağışlayan lirik "Mən"idir. Şair sovet imperiya reyiminin əzəldən zor üzərində qurulması, onun idarəçilik sisteminin yırtıcı xisləti, inhisarçı siyasət nəticəsində xalqının soyulub-çapılması, amma sabaha ümidini itirməməsi, azadlıq arzusu barədəki düşüncələrini daxili duyğularının ifadəsi yolu ilə bəyan edir, qəsbkarla mübarizəsində azadlıqsevər millətinə dəyanət, əzmkarlıq hissləri aşılayır, onun əsarət buxovlarından azad ola bilməməsinə görə "sapı özümüzdən olan baltaları" − manqurtlaşmış rəhbərləri ittiham edir. Eyni zamanda, müəllif epik lövhələrlə Qanlı Yanvar gecəsinin obrazını yaradır, şərin, zülmün sifətini yəqinləşdirir:

*Gecənin yarısı... hər yan qan-qada,*
*Qırmızı güllələr uçur havada.*
*Özünü itirmir adamlar yenə,*
*Yetirir özünü haya-haraya.*
*Maşınlar bir yana, çiyinlərdə də*
*Yaralı daşınır xəstəxanaya.*

*Güllə vıyıltısı... Bu acı səsdən*
*Titrəyir, lərzəyə gəlir bina da.*
*Amansız soldatlar keçirir qəsdən,*
*Bütün çıraqları xəstəxanada.*

*Gör necə böyükmüş bizə qəzəb, kin,*
*Burda da göründü, qalmadı qında.*
*Çarəsiz həkimlər indi neyləsin? –*
*Əməliyyat gedir şam işığında.* [226, s.9-10]

B.Vahabzadə bu əsərində haqq işi uğrunda şəhid olan vətən övladlarının parlaq obrazını yaradır, şəhidlik məqamını zülmə qarşı etirazın ən yüksək məqamı kimi

mənalandırılır, göstərir ki, şəhidlik – milli özünüdərk, millətin qəlbində qorxu hissinin məhvi, cəsədi ilə torpağa azadlıq toxumu səpmək deməkdir.

Sonrakı illərdə yazılan əsərlərdə də milli faciələrə gətirib çıxaran amillər məsələsi xüsusi yer tutur. Onları xarici və daxili amillər qismində iki qrupa ayırmaq mümkündür. Xarici amillər əsasən siyasi xarakter daşıyır və bu sırada daha çox Ermənistanın qəsbkarlıq, Rusiyanın geosiyasi maraqları vurğulanır. Daxili amillər isə həm siyasi, həm də milli mentalitetlə əlaqələndirilir, bu sırada ictimai mühitin mənəvi-əxlaqi problemləri və naqislikləri (70 il davam etmiş total idarəetmə sisteminin ağır fəsadları, milli unutqanlıq, düşmənin ocaq başına keçirilməsi, rüşvətxorluq, tayfabazlıq, talançılıq, fərarilik, satqınlıq və s.) diqqətə çəkilir.

Milli unutqanlıq, "düşmənin ocaq başına keçirilməsi" amili ədəbiyyatımızda ən müxtəlif aspektlərdən işlənir. Mahirə Abdullanın "Əvvəl. Axır" romanında uzun müddət Sovet imperiyasının işğalında olmuş Azərbaycanda milli yaddaşın silinməsinin təhlükəli nəticələrinə işarə edilir. Əsərin əsas obrazlarından olan Xaliq ermənilər haqqında yanlış fikirdə olduğunu o zaman dərk edir ki, artıq onlar Qarabağ davasına başlamışlar. S.Əhmədli cəbhədə oğul itkisinin ağrısı altında yazdığı "Axirət sevdası" (1996-1997) romanında döyüş bölgələrinə soxulmuş yədullaların xəyanətkarlığı, "Kəlbəcər uğursuzluğu", "müdafiə işinin təşkilindəki başıpozuqluq" və s. kimi problemlərə toxunmaqla milli faciəmizin içdən gəlmə səbəblərini qabardır. "İki komandiri həbs etdilər, onların məhkəməsi oldu. Demə, birinin anası erməniymiş. İş kəsdilər, özü də hərbi məhkəmənin qərarı ilə onlar cəzanı cəbhə bölgəsində çəkməliymişlər. Az qan tökülmüşdü bu qeyrətsizlərin ucbatından. Qoy, gedib cəbhədə yenidən axıtsınlar millət balalarının, kasıb-kusub uşaqlarının qanını!" Yaxud, Ə.Hacızadənin "Möcüzə" (2005) romanında hakim dairələrin xalq taleyinə biganə münasibət bəsləyən təmsilçiləri Leyla obraznın vasitəsilə belə ittiham edilir: *"Bunlar, bax, vəzifə stolları arxasında, rəhbər kreslolarında uzun illər əyləşmiş, partiya bileti arxasında gizlənmiş, zahirdə özlərini imam cildində göstərmiş, batində isə canavar təbiətli, ancaq özlərini düşünən, kabinetlərini Vətən, ailələrini və qohum-əqrabalarını milləti hesab eləyənadamlar olan bu qəbil şəxslərin çoxu (istər böyüyü, istərsə də kiçikləri olsun – fərqi yox) bir-birinə oxşayırlar: elə bil xüsusi diqqətlə*

*seçiliblər, axtarıblar, tapıblar, gətiriblər, qoyublar bu millətin başına. Bu Aslan bəy onlardan biridi – indi fağır-fağır oturmağına baxma. Oğru deyirsən – oğrudu, rüşvətxor deyirsən – rüşvətxordu, qeyrətsiz deyirsən – qeyrətsizdi, satqın deyirsən – satqındı, arvadbaz deyirsən – arvadbazdı və sair və ilaxır."* [86, s.20] Oxucu bu kəskin ittihamına görə Leylaya haqq qazandırmaya bilmir: Leyla təcavüzün qurbanıdır − onun qardaşı və nişanlısı ermənilər tərəfindən qətlə yetirilmiş, atası düşmən gülləsindən qaçarkən qarlı dağlarda donub ölmüşdür. Qaçqınlıq taleyinin ağrı-müsibətlərini yaşayan gənc qızın gələcək haqqında şirin xəyalları, arzuları ömrünün bahar çağlarında məhv olmuşdurdir. Yazıçı yurdunu, əzizlərini itirmiş, onu qorumalı, qayğısına qalmalı olan dövlətə, cəmiyyətə inamı sarsılmış yüz minlərlə qaçqının, köçkünün faciəvi taleyini Leyla obrazında ümumiləşdirir, onun hiss-həyəcan və iztirablarını təbii, canlı təsvirlərlə oxucunu təsirləndirir, baş verən faciələrə görə yuxarıda oturanlara qarşı qəzəb hissi oyadır. Romanda rəhbər işçilərin mənəvi-əxlaqi simasını itirməsi səbəbləri yalnız sovet idarəçilik məktəbindən əxz olunmuş qüsurlu keyfiyyətlərlə məhdudlaşdırılmır, yazıçı göstərir ki, Azərbaycan reallıqlarında fəlakətin daha dərin kökləri var. Bunlardan biri Aslan kimilərin sovet dönəmində "yaxşı vəzifə tutmaq, arxalı olmaq üçün erməni qızı alması", milli heysiyyatdan uzaq düşməsidir. "Möcüzə"də özgələşmə, yadlaşma və bunun faciəvi nətisəsi Leylanın həyəcanlı fikirlərində əksini tapır: *"Aslan, düşmənin elədiyi pisliyə, qəddarlığa, xəyanətə yenə də birtəhər dözmək olur. Amma sənin özününkü sənə xəyanət eləyəndə, kürəyinə arxadan bıçaq saplayanda çox incidir. Ox, bilmirsən necə incidir. Yaxşı, qismət idimi, taleyimiz idimi, yerimizdən, yurdumuzdan eləmişdilər, gəlmişdik, heç olmasa, onda imkan varkən bizi ora – Qarabağa göndərəydiz, yerləşdirəydiz ermənilərin böyründə. Demirdilər ki, Qarabağda erməni çoxdu azərbaycanlılardan, ona görə də Ermənistana birləşmək istəyirik? Yerləşdirəydiz bizi ora, onda görüm nə deyəcəkdilər? Onda görərdilər bizim gücümüzü, üzümüzü. Onda Qarabağda bir erməni qalmazdı, hamısı bizim kimi ev-eşiyini, mal-mülkünü quruluca qoyub canını götürüb gedərdi atasının xarabasına. Biz bura, onlar ora. Bu idi yeganə yolu. Ağıllı olsaydız, belə eləyərdiz: orda bir azərbaycanlı qalmadığı kimi, burada da bir erməni dığası*

*qalmazdı, inan. Onlar sovet adamı deyildi sizin kimi? Yox, onlar hər şeyə qulaq asırdılar, ancaq erməniliklərində qalırdılar."* [86, s.24]

M.Süleymanlının "Erməni adındakı hərflər" (2007) romanında da təsvir obyektinə çevrilən əsas hadisələrin yetişməsi və inkişafı tarixi-siyasi və sosial-mənəvi proseslərin nəticəsi kimi meydana çıxır. Belə ki, əsərdə Qarabağ münaqişəsinin astanasına qədərki dövrdə, xüsusən də 70-80-ci illərdə baş verən hadisələr təsvir obyektinə çevrilməklə Qafqaza gəlmə ermənilərin özlərinə süni tarix düzəldib torpaq iddiası ilə yerli xalqın üstünə yeriməsi yalnız onların millətçilik təbliğatı və qəsbkarlıq planları ilə məhdudlaşdırılmır, həm də türklərin öz tarixlərinə qarşı biganəliyi, olub-keçənləri unutqanlığı, öz köklərindən uzaq düşmələri, bu məsələlərə münasibətdə idarəetmə mərkəzlərinin öz işlərinin düzgün qurmaması səbəbləri ilə əlaqələndirilir. E.Akimovanın yazdığı kimi: *"Müəllif türk tarixinə, keçmişinə, təbiətinə bələdçi kimi oxucunu onun seyrinə çıxarır və bu qüdrətin tərənnümü üzərində qurulan fabula idraki, mənəvi, sosial-iqtisadi mənada genişlənir. Həm də düşündürür. Niyə bu qədər şanlı və qüdrətli dəyərlərimizlə bu gün uduzan və məğlub tərəfik? Əsərdə bunun birbaşa cavabı var: tarixi təkcə yaratmaq yox, onu həm də təbliğ etmək, öyrətmək lazım idi."* [13, s.163] Bu işdə isə fərdi səy və mübarizələr elə bir nəticə vermir – yazıçı bunu İmirxanlı obrazının həyat və mübarizəsi timsalında əks etdirir − tarixi torpaq və mədəniyyətin mənsubluğu və mühafizəsi dövlət və xalq səviyyəsində reallaşdırıla bilər.

Roman ideya-məzmun etibarilə ermənilərin torpaq iddialarına sanballı bir cavab olmaqla yanaşı, buraxılan səhvləri aradan qaldırmağa çağırır. Məhz həmin səhvlər üzündən "İndi Ermənistan adlanan, əslində, qədim türk məskənləri kimi tarixi adları bu gün də hafizələrdə yaşayan torpaqlarımızın "erməniləşdirilməsi", 90-cı illərdə isə Qarabağ bölgəmizin işğalı mümkün olmuşdur.

A.Abbasın "Dolu" (2007) romanında milli faciələrə gətirib çıxaran səbəblər sırasında özünümüdafiə qüvvələrinin düşmən qarşısında silahsız-əliyalın vəziyyətdə qalması, yuxarıda oturanların yaranmış vəziyyətə biganə münasibəti, hakimiyyət zirvəsinə can atanların xalqı parçalaması ilə vəziyyəti daha da ağırlaşdırması kimi faktorlar erməni qəsbkarlığı faktorundan heç də az

düşündürmür. Müəllif göstərir ki, biz öz torpaqlarımızı qorxaq, cəsarətsiz olduğumuzdan, ya da düşmənlə mübarizə aparmamaqdan deyil, başda oturan siyasətçilərin bəd əməlləri ucbatından itirdik. *"Roman qəhrəmanın və onun silahdaşlarının öz mübarizələrində məğlubiyyətləri və faciəvi taleləri ilə tamamlanırsa da, əsərdən əldə edilən nəticə ibrətamizdir: əvvəla, əsərin ideya-bədii məğzi belə bir qənaət doğurur ki, yurda məhəbbət hər cür məhəbbətdən yuxarıdır, insanı ruhi-mənəvi yüksəkliyə qaldıran, qəhrəmanlığa səsləyib qanadlandıran, hər cür istək və arzularının üstündən keçərək doğma torpaq yolunda canını fəda etməyə vadar edən fövqəl məhəbbətdir, bu məsələdə ağıl və idrakdan, intellektual keyfiyyətlərdən daha çox milli qeyrət, yurda sədaqət hissləri, Azərbaycan kişisinin ruhi-mənəvi keyfiyyətləri, iradi xüsusiyyətləri rol oynayır... Eyni zamanda, yazıçı göstərir ki, müharibə şəraitində olan bir ölkədə hamının hər şey cəbhə üçün şüarı ilə yaşamalı olduğu halda, şəxsi maraq və ambisiyalara, ayrı-seçkiliyə, zorakılıq və haqsızlığa, talançılığa yol verilirsə, orada qələbəyə ümid bəsləmək əbəsdir.... Yazıçı bu məntiqə ən aktual problem səviyyəsində yanaşmağın həyati zərurət olduğunu vurğulayır."* [146, s.137]

Bir sözlə, ədəbiyyatımızda qüsurlu idarəçilik probleminə münasibət xüsusi bir əlamət kimi nəzərə çarpır ki, bu da həyatın tələbindən - başımıza gələnlərin köklü səbəblərinin diqqətə çəkilməsi, tarixin ibrət dərslərindən nəticə çıxarılması, torpaqlarımızın işğaldan azad edilməsi yollarının axtarışı zərurətindən irəli gəlir və tədricən insan və zaman qarşıdurması kontekstində insanın sirli, mübhəm daxili aləmi, yeni münasibətlər sistemində öz yerini tutması və s. kimi problemlər ətrafında bədii-fəlsəfi düşüncə, mühakimə şaxəliliyi üstünlük təşkil edir. Bu baxımdan, Sabir Əhmədlinin "Kütlə" romanında Qarabağ hadisələri ilə bağlı imperiya siyasətinə etiraz olaraq formalaşan meydan hərəkatının anatomiyasını, "Kef" romanında ziyalı çaşqınığının və məişət çətinliklərinin sosial-ictimai səbəblərini bədii araşdırma, Azad Qaradərəlinin "Günəş tutulan yerdə" adlı romanının mitinqlərdə azadlıq mücahidi kimi çıxışlar edən, müstəqillik uğrunda mübarizə aparan qəhrəmanı Mirzə müəllimin deputat olandan sonra mafioz qrupa qoşulub kriminal adama çevrilməsi, Əyyub Qiyasın "Sonuncu büt" romanının qəhrəmanı Məmmədağanın uzun sürən həbsxana

həyatından sonra yaşadığı mühitdə eyni mənfiliklərin hökm sürdüyünü anlayınca yenidən cinayətə qurşanması, Afaq Məsudun "Azadlıq" romanında XX əsrin sonlarının və yeni əsrin əvvəllərinin dərin ictimai-siyasi təbəddülatları fonunda şəxsiyyət, insan, idarəedicilikdəki güclü və zəif fərdlər problemi ilə bağlı düşüncələri maraqlı və səciyyəvidir. V.Yusifli "Azadlıq" romanı haqqındakı qeydlərində aşağıdakı məqama xüsusi diqqət yetirir: "Azadlıq" Afaq Məsudun insandan cəmiyyətə, fərdin daxili dünyasından ictimai-siyasi hadisələrə sıçrayışını tam şəkildə açıqlayır. Əslində, onun "dörd divar arasında təsvir etdiyi gerçəkliyin özü də cəmiyyətin mikromodeli təsiri bağışlayır, amma "Azadlıq"da cəmiyyət – Azərbaycan gerçəkliyi (söhbət doxsanıncı illərdən gedir) bütün reallığı ilə əks olunur. Təbii ki, humanist prezident də, "Millət Atası" General da, digər obrazlar da prototipləri etibarilə oxuculara tanış gəlir. Ancaq bunlar gerçəklikdəkindən fərqli olaraq yazıçının məharətlə ümumiləşdirdiyi obrazlara çevrilir. Afaq Məsud bir nasir kimi yaşadığımız bu mürəkkəb, dramatik, fəci, son dərəcə ziddiyyətli həyatımızı, ictimai-siyasi hadisələri, bu hadisələrdə mühüm rol oynayan şəxsiyyətləri orijinallıqla əks etdirib. Doğrudur, bir müsahibəsində Afaq yazırdı ki: *"Əslində, "Azadlıq" son illər ölkəmizdə baş verən hər hansı siyasi dəyişikliyə reaksiya kimi yaranmayıb."* [158, s.221] Amma inanmaq olmaz ki, bütün bu baş verən hadisələr bir yazıçı kimi ona təsir etməyə. Yaxud V.Yusiflinin müstəqillik dövrü Azərbaycan romanlarını insan və cəmiyyət müstəvisində təhlil zamanı Səfər Alışarlının "Mayestro" romanının Afaq Məsudun "Azadlıq" romanında təsvir olunan hadisələrlə səsləşməsi barədəki fikirlərinə diqqət yetirək: *"Bu romanda da 90-cı illərin ilk yarısının hadisələri öz əksini tapır, amma mənzərə daha genişdir, zavod-fəhlələr, Mayestro-opera, qəzet-jurnalist aləmi, prezident və məmurlar ordusu, qiyam və məmləkətin ictimai-siyasi durumu ... bunlar real hadisələrlə bədii təxəyyülün "hibritini" əks etdirən səhnələrə çevirilir."* [158, s.278] Hər iki qeyddən eyni nəticə alınır – yaxşı əsəri həyati gerçəklik yaradır, yazıçı mühitin insana təsirini bədii ümumiləşdirmə gücü ilə açıqlaya və əhatə edə bilir.

Azərbaycanda keçid dövrü çətinlikləri obyektiv və subyektiv səbəblər üzündən olduqca ağır keçdi. Bu dövrün ağrılı mənzərəsi Seyran Səxavətin "Nekroloq"

romanında şərti-metoforik üslubun imkanları fonunda genişliyi ilə görünür. N.Tağısoyun qeyd etdiyi kimi: *"Vətənsizlik, dövlətçilik, müstəqillik dövründəki anomaliyalar, torpaqların yağı düşmənin tapdağı altında qalması, qaçqınlıq, köçkünlük, milli qürurun sındırılmasına tuşlanmış humanitar yardımlar və s. kimi məsələlər romanın dərin qatlarından baş qaldırıb sanki oxucuya əl edir."* [214, s.176] Qarışıq zamanda baş verənlərə milli mənəviyyat, milli əxlaq normaları mövqeyindən kəskin tənqidi münasibət bildirən, "Allah yolundan azmışları" mənəvi xəstəyə bənzədən bu romanı məqamında milli sayıqlığa və ideallara səsləyən bir əsər kimi dəyərləndirmək mümkündür. Yazıçı "haqq yolunu azanları" mühakimə yolu ilə cəmiyyətdəki sosial-ictimai eybəcərliklərin səbəblərini nişan verir. Və yaxud Aslan Quliyev "Sonuncu" adlı romanında dinc həyata müharibə fəlakətləri gətirənlərlə cəmiyyyətdə haqsızlıq və ədalətsizlik toxumu səpənlərin xislətini "yaramaz" obrazında eyniləşdirir və göstərir ki, yaramaz xislətlilərin törətdiyi bəlalar cəmiyyətin bütün sahələrinə təsir edir və fəsadları uzun müddət getmir.

Dəyişən ictimai-siyasi şəraitdə fərdi-psixoloji yaşantılar, insan taleyinə biganə münasibət, keşməkeşli yaşantılar Əlabbas, Orxan Fikrətoğlu, Nüşabə Məmmədli, Rafiq Tağı, Miraslan Bəkirli, Eyvaz Əlləzoğlu, Nəriman Əbdülrəhmanlı, Aygün Həsənoğlu və s. kimi yazıçıların yaradıcılığında əksini tapmaqdadır.

### 3.3. Yeni, müstəqil Azərbaycanın inkişaf yolları və sivil idarəçilik modelləri ədəbiyyatda.

Zaman dəyişdikcə ədəbiyyat da dəyişir, yeniləşir və bu yenilik onun qarşısında duran vəzifələrlə bağlı mövzu-problem seçimində, yeni obraz-qəhrəman yaradıcılığında, dövrün sosial-ictimai problemlərinin həllinə yönəli ideya-məğzi axtarışlarında daha qabarıq görünür. Lakin bu, ədəbiyyatın zamanın arxasınca getməsi, yaranan tarixi-siyasi şəraitin diqtəsinə tabe olması demək deyil; bədii-fəlsəfi düşüncənin zamana qarşı müxalifətdə dayanması, ideya axtarışları ilə onun dəyişilməsində əhəmiyyətli dərəcədə rol oynaması inkaredilməzdir və bu baxımdan tənqidçi-filosof Yaşar Qarayevin: *"...Yeni oriyentir, yeni dəyər, yeni meyar axtaran*

*təqvim həmişə sənətdən, həmişə ədəbiyyatdan başlayır”* [128, c.4, s.19] − sözlərinə haqq qazandırmamaq olmur. Bu baxımdan, ədəbiyyatın öz xalqının azadlığının və firavan həyatının qarantına çevrilən bir dövlətin, onun demokratik idarəetmə sisteminin yeni cəmiyyət quruculuğu işində, hər hansı bir tapşırıq gözləmədən, heç bir ideoloji basqı olmadan könüllü iştirakının, ümummilli ideallar naminə fəallığının zəruriliyi və həyati əhəmiyyəti daha aydın dərk olunur. Ötən əsrin əvvəllərində, Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu günlərdə böyük ədib Üzeyir Hacıbəyli yaradıcı fikir, düşüncə sahiblərinə müraciətlə yazırdı: *“Biz ...dövlət və ictimai işlərə girməyə məcburuq. Bu cürə işlərə kənardan baxmağa və biganə qalmağa haqqımız yoxdur, çünki biz daha özgə vətənin oğlu deyilik. Öz vətənimizin doğma oğluyuq. Vətən də bizimdir, hökumət də bizimdir, camaat də bizimdir. Bu gündən böylə hər bir əmri məhz hökumətin boynuna atmaq, “hökumət özü bilər” demək, hökuməti təkbaşına buraxmaq, hökumətə əldən gələn köməyi etməmək mənafeyi-milliyə və istiqlalımızın və həm də şan və şərəfimizin təmin və təyidi yolunda işləməmək, müstəqil yaşamaq iddiasında olan bir millət üçün günahdır. Böylə günah ki, onun cəzası istiqlal və istiqbaldan məhrum olmaq dərəcəsində ağır və ağırlığı qədər də şayani-yas və kədərdir”*. [85, s. 326]

Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ədəbiyyatımız bu tarixi vəzifənin ağırlığını, demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi müəyyənləşdirilən, ali məqsədi insan və vətəndaş hüquqlarını və azadlıqlarını təmin etməkdən ibarət olan bir dövlətin, cəmiyyətin möhkəmləndirilməsi, inkişaf etdirilməsi yolunda xidmətin əhəmiyyətini yenidən hiss və dərk etdi. Milli dövlətçilik atributlarına dönüş, milli maraqlara xidmət milli ədəbiyyatın da əsas ideoloji zəminini və istiqamətini müəyyən etdi. Əlbəttə, ədəbiyyatın milli dövlətçiliyimizlə bağlı tarixi missiyasına yenidən qayıdışı birdən-birə baş vermədi. Yeni dövlət idarəetmə sisteminin sosialist həyat tərzindən sonra kapitalist ictimai-iqtisadi münasibətlərini özünə inkişaf yolu seçməsi, əsaslı dəyişikliklərin istər sosial-iqtisadi, istərsə də mədəni-mənəvi sahələrdə yeni problemlər doğurması, torpaqlarımızın erməni silahlı qüvvələri tərəfindən işğalı və s. kimi çoxsaylı hadisələr, problemlər insanlar kimi ədəbiyyatı da bir çaşqınlıq və

durğunluq dövrü yaşamaq məcburiyyətində qoydu. Həyatın üst qatlarının doğurduğu aldadıcı təsəvvürlər, hadisəçilik səviyyəsində problemlər və konfliktlər ədəbiyyatda da öz əksini tapmaqla sözün qüdrətini zəiflətdi. İdeoloji basqılardan yaxa qurtarmış ədəbi mühitdə yeni yaradıcılıq metodları axtarışı yeni meyillər, problemlər doğurdu, ədəbiyyatın azad cəmiyyətdə məğzi, qayəsi ətrafında lüzumsuz mübahisələrə rəvac verildi. Sovet dönəmində ədəbi yaradıcılığı kommunist ideologiyasının tələb və vəzifələri ilə məhdudlaşdırmağa cəhd edilirdisə, indi sənətin məğzini və qayəsini ancaq estetik səlahiyyətləri çərçivəsi ilə məhdudlaşdırmaq, bədii fikri ictimai funksiyalarından azad etmək barədə fikirlər səsləndi ki, bu da professor Akif Hüseynovun qeyd etdiyi kimi, əslində bədii yaradıcılığı ictimai qayğılarla hədsiz dərəcədə yükləməyin astar üzü idi, çünki həqiqi sənət estetik cazibəsi və həyatiliyi ilə sehrli və əzəmətlidir. Odur ki, yaradıcılığın spesifikliyini onun əlahiddə bir əlamətində yox, estetik cövhəri ilə sosial, mənəvi, idraki və digər funksiyalarının üzvi vəhdətində axtarmaq lazımdır. [102, s. 3] Bir sözlə, həm həyatda, həm də sənətdə baş verən çətinliklər, təbəddülatlar, axtarışlar bir-birləri ilə əlaqəli idi. Elçin 1991-ci ildə yazdığı "Ədəbi proses: olum, ya ölüm?" adlı məqaləsində ədəbiyyatımızda yaranmış durğunluq vəziyyətindən narahatlığını ifadə edərək yazırdı: *"Əlbəttə, zaman çox kəskin dəyişmişdir, bu gün xalqın milli varlığının ifadəsi və müdafiəsi, ərazi bütövlüyünü qorumaq əzmi , tam müstəqillik və sosial ədalət uğrundakı mübarizəsi, ideoloji hegemonluğa qarşı çıxması və həmin hegemonluqdan yaxa qurtarmaq üçün yollar axtarması, elə bil ki, ədəbi prosesi şok vəziyyətinə salıb, lakin bir həqiqət var: xalqın mübarizəsi və inkişafı sinxronluq tələb edir: siyasi mübarizə, iqtisadi mübarizə, ədəbi mübarizə..."* [60] Ədəbiyyat zamanın tələbini dərk etdi, özündə güc taparaq, ziqzaqlı, təbəddülatlı dövrün dramatizmini əks etdirə-etdirə tale əhəmiyyətli vəzifələrin həlli üçün ilkin və vacib şərt olan xaosdan çıxıb harmonuk həyata qayıdışın mühüm vasitələrindən biri oldu. Müstəqil Azərbaycanımızın inkişaf yolları və sivil idarəçilik modelləri haqqında, haradan gəlib haraya gedəcəyimiz barədə ədəbi düşüncələr çağdaş ədəbiyyatımızı səciyyələndirən ideya istiqamətlərindən birinə çevrildi. Millli ədəbiyyatımızın xalq, cəmiyyət həyatına münasibətindəki belə dəyişməz mövqeyi – milli-tarixi varlığımızla, milli dövlətçiliyimizlə qırılmaz

bağlılığını Ulu Öndər Heydər Əliyev belə ifadə edirdi: *"Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr verilmişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. Və nəhayət, XX əsrin əvvəllərində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası da yaranmışdır. Ondan sonrakı dövr – 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçmişdir.*

*Nəhayət, 1991-ci ilin sonunda Azərbaycan öz dövlət müstəqilliyinin əldə etmişdir... Biz bununla fəxr edirik və fəxr edə bilərik".* (77, s.176) Tarixi milli varlığımız və milli dövlətçiliyimiz haqqındakı qürurverici həqiqətləri ümumiləşdirən Heydər Əliyev Azərbaycan xalqının milli varlığı və dövlətçiliyi uğrunda mübarizədə XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının rolunu yüksək qiymətləndirir və belə hesab edirdi ki, ədəbiyyat milli-tarixi özünüdərk proseslərinin dərinləşməsində əhəmiyyətli dərəcədə rol oynamış və bundan sonra da oynayacaqdır. Mütəfəkkir şair və yazıçılarımız cəmiyyətdə baş verən ictimai-siyasi proseslərdə fəal iştirak etmiş və bundan sonra da edəcəkdir. Xüsusən də cəmiyyətdə mühüm dəyişiliklər baş verəndə ədəbiyyatın ictimai-siyasi və mənəvi proseslərlə bağlılığı güclənir və bu canlanma bu gün də hiss olunur. Lakin müasir həyatdan söz açan əsil sənətkar ötəri, keçici hadisələrin təsiri altına düşməməli, hər hansı bir problemə ictimai inkişafın müqəddəratını müəyyən edən ümummilli ideallar baxımından yanaşmalıdır. [7, s. 136]. Böyük rəhbərin xalq şairi X.R.Ulutürkün vəfatı ilə əlaqədar 24 iyun 1994-cü il tarixindəki vida mərasimində bildirdiyi aşağıdakı fikirlər müasirlik düşüncəsinə yeni tarixi dövrün axarında işıq salmağın ifadəsi idi: *"Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ön cərgəsində getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm də şair kimi ...örnək olmuşdur. O, daim Azərbaycanın*

*müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir. ...Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox da cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm".* [77, s.196] Akademik İ.Həbibbəylinin təbirincə desək, müstəqillik dövrünün çətin və məsuliyyətli illərində deyilmiş bu fikirlər Azərbaycan xalqının azadlıq mübarizəsində yüksək vətəndaşlıq mövqeyi və cəsarət nümayiş etdirmiş Xəlil Rza Ulutürkün ədəbi-ictimai xidmətlərinə verilmiş yüksək qiymətin ifadəsi olmaqla bərabər, həm də yazıçı və şairlərə ünvanlanmış çağırış kimi səslənmişdir. Heydər Əliyev bu imkandan da yazıçıları çətinliklə qazanılmış dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi uğrunda mübarizəyə səfərbər etmək üçün istifadə etmişdir. [91, s.27-28] Professor Təyyar Salamoğlu da bu tarixi çıxışa münasibət bildirərək qeyd edir ki, Heydər Əliyev bu "yüksək dəyərləndirmə"də, ilk növbədə, irs-varislik əlaqəsini nəzərə alır və hesab edirdi ki, əgər bu gün biz "öz milli, mənəvi ənənələrimiz əsasında, xalqımızın, həyatımızın xüsusiyyətlərini nəzərə alaraq öz dövlətimizi qururuq"sa, qura biliriksə, deməli, bu proseslərdə tarixi ənənənin və heç şübhəsiz ki, ədəbi ənənənin də böyük payı vardır. [194]

Ümummilli Lider Azərbaycanın istiqlalını əbədi və dönməz bir prosesə çevirmək üçün həm də onun dəyərli ənənələrindən novatorcasına istifadə edən yaradıcı fəallığa arxalanır və deyirdi: *"Biz yazıçılardan ən mürəkkəb problemləri dərindən araşdırmasını gözləyirik... Bilirsiniz, bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir".* [88, s.216]

Qeyd etməliyik ki, milli ədəbiyyatımızda müstəqil Azərbaycanın gələcəyi, onun inkişaf yolları barədəki ümid, düşüncə və ideya axtarışları nəinki müstəqilliyimizin ilk çağlarından, hətta müstəqillik ərəfəsi illərdən − azadlıq nəsiminin artıq hiss olunundüğu 1980-ci illərdən, Y.Qarayevin təbirincə desək, "80-ci illərdən başlayan hadisələrdən sonra sənətin siyasi-ideoloji stereotipdən

asılılığının könüllü xarakter alması” ilə başlamışdır. Bu özünü, ilk növbədə, tarixi hadisələrdən bəhs etməklə bugünkü ictimai-siyasi proseslərə dövlətçilik maraqları və milli mənafelər baxımından nüfuz etməyə çalışan, azad dövlət quruculuğu prosesində tarixin ibrət dərslərindən nəticə çıxarmağa çağıran fikir-ideya çağırışlarında, total əsarət sisteminə, sovet imperia haqsızlıqlarına etiraz motivlərində (B.Vahabzadənin istiqlal poeziyasında, X.R.ulutürkün xalq gücünün yenilməzliyi ideyasını tərənnüm edən “Gəlir böyük Azərbaycan” (1986-1990), “Qalx ayağa, Azərbaycan” (1989), “Müstəqillik” (1989), “Qovacağız” (1990) və s. kimi poetik silsiləsində, “Lefortovo həbsxanasında” (1990-1993) elmi-tarixi memuarında, M.Arazın “Daş harayı” (1992), “Dünya düzəlmir” (1992), “Qayalara yazılan səs” (1994), “Yol ayrıcında söhbət” (1997) kitablarında toplanmış ictimai-siyasi məzmunlu əsərlərində, habelə, C.Novruz, F.Sadıq, S.Rüstəmxanlı, Z.Yaqub və s. kimi şairlərimizin əsərlərində, N.Həsənzadənin Eldəgizlər tarixinə üz tutan, “Azərbaycan milli dövlətçilik ideyasının dramı” kimi səciyyələndirilən “Atabəylər” (1984), B.Vahabzadənin birinci Göytürk xanlığının öz dövlətçiliyi uğrunda mübarizə tarixindən söz açan və Azərbaycandakı çağdaş durumla səsləşən “Özümüzü kəsən qılınc”, N.Xəzrinin mövzusunu hun imperatorluğu dövrü olaylarından götürdüyü “Atillanın atlıları”, İ.Əfəndiyevin XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarının birləşib işğalçı qüvvələrə qarşı mübarizə apara bilmədiklərinə görə imperiyalar tərəfindən asanlıqla dağıdılmasından, o cümlədən Qarabağ xanlığının acınacaqlı taleyindən bəhs edən “Hökmdar və qızı” (1994) pyeslərində) büruzə verirdisə, tədricən yeni dünya nizamına aparan dünyəvi hadisə və proseslərin bədii təhlili, Azərbaycan xalqının və dövlətinin dünya xalqları və dövlətləri sırasında arzu edilən yeri, çəkisi barədəki bədii təsəvvür müstəvisinə (Anarın “Otel otağı”, “Ağ qoç və Qara qoç”, Ə.Məmmədxanlının “Babək”, Z.Yaqubun beynəlxalq təşkilatlara müraciətlə yazdığı və s. kimi əsərlərdə) transfer etməyə başladı.

Bu gün müstəqillik dövrü ədəbiyyatımızı Azərbaycanda kəsişən geosiyasi maraqlar fonunda qarışıq və mürəkkəb proseslərin dərki, dünyəvi proseslərdə bir siyasi iradənin başqa siyasi iradəni, bir iqtisadi marağın başqa marağı sıxışdırıb

çıxarması, torpaqlarımızın işğaldan azad edilməsi, kapital dünyasının yaratdığı problemlər (maddi dəyərlərin mənəvi dəyərləri sıxışdırması, insanlar arasında sosial təbəqələşmə), beynəlxalq mədəni inteqrasiya və milli identiklik (azad dünyaya açılan qapılardan yeni texnologiya ilə yanaşı çürük mənəviyyat, pozulmuş əxlaq çirkablarının da daxil olmağa çalışması, milli-mədəni varlığın və özgürlüyün qorunması) və s. kimi problemlər düşündürür. Ədəbiyyat, həmişə olduğu kimi, yenə də xalqları, ölkələri, mədəniyyətləri üz-üzə qoymağa cəhd edən çirkin siyasəti lənətləyir, hər cür şovinist və separatçı əhval-ruhiyyəni, terror, fobiya, milli, dini qarşıdurma və s. kimi təhdidləri rədd edir, birgə yaşam tərzini, yurda bağlılığı, vətəndaş təəssübkeşliyini gücləndirmək məqsədilə Azərbaycançılıq məfkurəsini təbliğ edir. Həmçinin, bütün bu problemlərin həllinin milli iradədən, cəmiyyətin siyasi, iqtisadi və hüquqi əsaslarla, xalqın milli maraqlarını nəzərdə tutan, sosial ədalət prinsipləri əsasında idarəetmə qaydalarını təkmilləşdirməkdən, daha sivil, demokratik idarəetmə modellərinin tətbiqindən asılı olduğunu dərk edir.

Məsələn, Anarın son dövr yaradıcılığının maraqlı nümunəsi olan, özünün qeyd etdiyi kimi, xalqımızın vaxtilə düçar olduğu təhlükələri unutmayaraq, nigarançılığını və müəyyən dərəcədə öz mövqeyini ifadə edən “Ağ qoç, qara qoç” (2003) adlı əsəri forma-struktur baxımından “Məlikməmməd” nağılını xatırlatsa da, ideya-məzmun baxımından günümüzün gerçəkliklərini əks etdirir, yəni sırf publisist aktuallığa söykənir. Başqa sözlə desək, müəllifi “utopik və antiutopik” nağıllar janrında belə bir əsəri qələmə almağa sövq edən, əslində reallıqla bağlı narahat vətəndaş düşüncələri və zamanında problemin həllinə yönəli yaradıcılıq ovqatıdır. Məhz həyat materialı sənədliliklə bədiiliyin sintezini tələb etmiş, forma-struktur baxımından yeni və orijinal janr təyinatını təyin etmişdir. N.Cəfərov bu əsərin yaranma zərurəti haqqında yazırdı: *“Anara XXI əsrin ilk nağılını danışdıran bir az onun yaşı – on illərin həyat – yaradıcılıq təcrübəsi, müdriklikdirsə, əsasən dünyanın (və get-gedə daha çox onun üzvi tərkib hissəsi olan Azərbaycanın) sosial-siyasi vəziyyəti, ideoloji paradoksları, problemləridir.”* [52, s.13] İ.Həbibbəyli isə “Ağ qoç və qara qoç”u Azərbaycan ədəbiyyatının müstəqillik dərsi kimi səciyyələndirir. Yazır: *“Ağ qoç və qara qoç” povesti nağıllardan gələn işıqlı və qaranlıq dünyanın timsalında Anarın*

*milli müstəqillik düşüncəsini aydın və qabarıq surətdə mənalandıran ciddi bədii əsər kimi meydana çıxmışdır... Ağ qoçun belində gəlib çatdığı "Xoşbəxtlər ölkəsində"ki düşüncələrini təsvir etdiyi telejurnalist Məlik simasında Anar özünü dərk etmiş, milli-dini, mənəvi dəyərlərə malik, digər mədəniyyətlərdən baş çıxaran insanların ölkəsinin əsl sahibi olması ideyasını irəli sürür. Yazıçının "Utopik cəmiyyət" kimi təsvir etdiyi ölkə yenicə müstəqillik qazanmış və çətinlikləri olan gələcək Azərbaycandır. "Qara qoç" mifi isə Anarın işıqla qaranlığın təhlükəsinə və müqayisəsinə diqqət çəkməklə oxucusunu düşündürmək, ayıq olmağa çağırmaq qayəsini ifadə edir. Bu əsərdə müəllifin əldə olunmuş dövlət müstəqilliyini şər qüvvələrdən qorumaq, azadlığın keşiyində dayanmaq arzuları öz əksini tapmışdır".* [94, s.344]

Anarın "Azərbaycan haqqında düşüncə", Emin Ağayevin "Mənim Azərbaycanım" adlı esseləri günün reallıqlarına həssaslıqla yanaşıb gələcəyə üz tutmaq çağırışı üstə köklənmələri iə diqqəti cəlb edirlər. E.Ağayevə görə dünya xəritəsində Azərbaycanın transkontinental mövqeyi ona həmişə həm Qərbə, həm də Şərqə baxmağa imkan verib və bu gün də verir. O, Murad Baykalın "Indi ən geniş kosmopolitizmi ən dərin vətənpərvərliklə birləşdirmək zamanıdır" − mülahizəsi ilə razılaşır. İnanır ki, indiki neft bumu və bununla bağlı olaraq dünyanın xəritəsində Azərbaycan rolunun artması azərbaycanlıların qarşısında yenidən misilsiz imkanlar açır. Müəllif əmindir ki, Azərbaycan xalqının mədəni, tarixi, iqtisadi, mənəvi potensialı yetərincədir və bu zənginliyin dərk edilməsi milli tərəqqiyə doğru atılmış ilk addım deməkdir! Mövlud Süleymanlı isə "Yer üzünə məktub..." adlı bədii-publisist yazısında: *"Yaddaşa sığınmaqdan başqa yolumuz yoxdur... Gələcəyə özünə oxşayaraq getməsən, gələcək dediyimiz bu təntənəli məkan heç cür sənin ola bilməz... Yaradıcı, istedadlı, güclü xalq assimilyasiyanı sevməz..."* [205, s.16, 17] hökm-qənaətini bildirir.

Sosial-ctimai proseslərə aktiv münasibət başqa bir sıra yazıçılarımızın əsərlərində də (Elçin, Seyran Səxavət, Çingiz Abdullayev, Orxan Fikrətoğlu, Hüseynbala Mirələmov, Kamil Əşrəfoğlun, Elçin Hüseynbəyli, Mübariz Cəfərli, Əlabbas, Eyvaz Zeynalov, Məqsəd Nur, Varis və digərlərinin yaradıcılığında) hiss

olunur. Əlbəttə, burada həyati proseslərə münasibətdə mövqe müxtəlifliyi xüsusi önəm daşıyır, bədii sözün ictimai mahiyyəti onun bədii-estetik səciyyəsindən heç də az əhəmiyyət kəsb etmir. Bununla belə, biz bu gün milli ədəbiyyatımızın cəmiyyətin mənəvi durumuna bütün gücü ilə münasibət göstərdiyini və inkişaf yolları haqqındakı ictimai düşüncənin dolğun ifadəçisinə çevrildiyini  də iddia edə biləmərik. Ancaq əminik ki, Azərbaycan ədəbiyyatı qarşısında duran milli vəzifələri yerinə yetirmək üçün özündə güc tapacaq və daha bir yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır.

Bu fəsildə əldə olunan nəticələrlə bağlı müəllifin iki elmi əsəri çap olunmuşdur (“Cəmiyyəti idarəetmə sisteminə bədii münasibətdə ənənəvilik”. Risalə, Elmi araşdırımalar toplusu, 2019. №1(16), s. 138-145; “Modernization and literature”. Матеріали XXX-oї Міжнародної науково практичної конференції “Сучасні аспекти модернізації науки: стан, проблеми, тенденції розвитку”. Гамбург, 2023, с. 426-431).

# NƏTİCƏ

Ədəbiyyat bədii-estetik mahiyyəti ilə yanaşı, ictimai əhval-ruhiyyəni, o cümlədən xalq kütlələrinin qeyri-demokratik rejimlərə, antiinsani idarəçilik üsullarına etirazını ifadə etmə funksiyasını yerinə yetirir. Bu baxımdan, həyat səviyyəsinin inkişaf etdirilməsi, ictimai quruluşun humanistləşdirilməsi ilə bağlı mütərəqqi görüşlərin formalaşmasında bədii-fəlsəfi düşüncənin çox böyük rolu vardır və biz bunun təsdiqini Azərbaycan milli ədəbiyyatında, onun xalq həyatı ilə bağlılığında da görə bildik.

Azərbaycan ədəbiyyatının mütəfəkkir sənətkarları tarixin bütün dövrlərində “azadlıq”, “dövlət”, “siyasət”, “idarəetmə”, “ədalət” məsələlərinin bir-biriləri ilə qırılmaz əlaqədə olduğunu dərk etmiş, sosial-ictimai haqsızlıqlara, antidemokratik idarəçilik üsullarına qarşı çıxaraq insanların hürr yaşamaq haqqını müdafiə etmiş, yeni azad insan cəmiyyətinin qurulması ilə bağlı bədii-fəlsəfi düşüncələrində sosial-demokratizm prinsipini əsas götürmüşlər. Bu baxımdan deyə bilərik ki, Azərbaycanda milli müstəqillik ideyasının, suveren dövlət dünyagörüşünün, demokratik baxış sisteminin təməli ilk növbədə milli ədəbiyyatımızla bağlı olmuşdur.

Ədəbiyyatın mövcud siyasi rejimə, cəmiyyəti idarəetmə forma və modellərinə münasibəti, onları təkmilləşdirmə, yaxud yeniləşdirmə arzu-istəyi köklü və davamlı bir ədəbi meylin, ənənənin formalaşmasına səbəb olmuşdur və bu meyil, ənənə 70 illik sovet dövrü ədəbi yaradıcılığında davam etdirilmişdir.

Qeyd etməliyik ki, insanların cəmiyyəti idarəetmə vəziyyətinə, ictimai mühitin doğurduğu sosial problem və konfliktlərə münasibətinin inikası, bir tərəfdən sənətkarın mövcud rejim və idarəetmə sisteminə vətəndaş münasibətinin nəticəsi kimi təzahür etmişsə, digər tərəfdən ədəbiyyatın həyati gerçəklikləri doğru-düzgün əks etdirmək istəyindən irəli gəlmişdir. Eyni zamanda, sənətkar yaşadığı mühitdən – rejimin qadağa və təhdidlərindən asılı olaraq, mövcud rejimə, cəmiyyəti idarəetmə sisteminə münasibətini ya birbaşa, ya da dolayı vasitələrlə (ezop dili ilə) gerçəkləşdirmişdir.

Dissertasiya işində apardığımız araşdırmalardan aşağıdakı nəticələrə gəlirik:

– Ədəbiyyatın ictimai həyatla əlaqəsi möhkəmləndikcə cəmiyyəti idarəetmə sisteminin və bu sistemin doğurduğu insan münasibətləri kompleksinin əsl mahiyyətinin bədii dərki və inikası daha intensiv xarakter almışdır. Xüsusən də XX əsrin 1900-1920-ci illər mərhələsi yaranmış tarixi şəraitdə milli müstəqillik və milli özünüidarəetmə uğrunda ədəbi-ictimai mübarizənin genişlənməsi və təntənəsi ilə səciyyəvidir.

– Azərbaycanın Sovetlərin tərkibinə qatılması və "ədəbiyyatın ümumproletar işinin bir hissəsinə çevrilməsi" hadisəsi insan-cəmiyyət münasibətlərinin birtərəfli qaydada – partiyalı mövqedən təcəssümünə gətirib çıxartsa da, həmin dövrün məhsulu olan bir çox əsərlərdə ideoloji uydurmalarla gerçək həyat arasındakı ziddiyyətlər əks etdirilmiş, sosial-ictimai ədalətsizliklərə qarşı etiraz motivləri yer almışdır.

– Kommunist ideologiyasının illüziyalarına uyub mövcud rejimi möhkəmləndirmək məqsədinə xidmət edən sovet ədəbiyyatı ilə bu ideologiyadan yan keçən, hətta mövcud rejimə qarşı çıxan, ona protest edən böyük ədəbiyyat bir-birindən fərqlənirlər. Xüsusən də 60-cı illərdən etibarən ədəbiyyat milli varlıqla sosializm cəmiyyəti arasında tam bir ziddiyyətin, gərgin mənəvi atmosferin olduğunu əks etdirməklə antisistem, antirejim əhval-ruhiyyəsi yarada bilmiş, milli azadlıq duyğuları ilə yoğrulmaqla sovet sisteminin dağılmasına gətirib çıxaran mühüm amillərdən birinə çevrilmişdir.

– Ədəbiyyatın Sovet ideoloji sistemindəki inzibati idarəçilik modellərinə mənfi münasibəti özünü bir neçə istiqamətdə büruzə vermişdir. Belə ki, V.İ.Leninin fasiləsiz sinfi mübarizə və inqilabi diktatura nəzəriyyəsinin cəmiyyətdə tətbiqinin milli dəyər və universal etik normalar əleyhinə çevrilməsi, insani münasibətlərə pozucu təsiri, kütləvi zorakılıq və xalqın iradəsinin sındırılmasına gətirib çıxartmışdır.

– İ.V.Stalin dövrü totalitar, avtoritar, repressiv idarəçiliyin insan-cəmiyyət münasibətlərinə qorxu, şübhə, inamsızlıq əhval-ruhiyyəsi gətirməsi, irtica rejiminin kəskinləşməsi ilə kütləvi fəlakətlərin artması – ədəbi təhlillər sübut edir ki, avtoritar,

despotik rejimlər nəinki bir cəmiyyətin inkişafında əngələ çevrilir, hətta həmin cəmiyyətin gələcək varlığını şübhə altında qoyurdu.

– N.S.Xruşşovun hakimiyyətə gəlişi ilə baş verən siyasi yumşalma nəticəsində şəxsiyyətə pərəstişlik, inzibati-amirlik və avtoritar idarə-üsuluna qarşı etiraz motivlərinin güclənməsi fonunda yeni həyat quruculuğu yollarının axtarışı baş verirdi.

– 80-cı illərdə siyasi-iqtisadi və sosial-mənəvi böhranın dərinləşməsi ilə cəmiyyətdə qüsurlu idarəçilik probleminin qabardılması və milli-azadlıq ideyalarının canlandırılması ön plana keçirdi.

–Milli müstəqilliyimizin əldə edilməsi ilə ədəbiyyat milli dövlətçiliyin hər vasitə ilə qüvvətləndirilməsi ideya-vəzifəsinin əhəmiyyətini dərindən dərk etmişdir və cari ədəbi prosesdə cəmiyyətin inkişaf yolları və sivil idarəçilik modelləri haqqında ədəbi düşüncələr mühüm yer tuturdu.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SIYAHISI

1. Abbas, A. Dolu // − Bakı: Azərbaycan jurnalı, − 2007. № 12, − s. 56-139.

2. Abbaslı, T. Ulu poeziyamızın əbədi gənci. Düşmən qələmi ömrünü yarımçıq kəssə də, sözü bütöv, irsi əbədi Mikayıl Müşfiq: [Elektron resurs] / Mədəniyyət. – 2018, 22 iyun. − s.12. URL: www.anl.az/down/meqale/medeniyyet/2018/iyun/597140.htm

3. Abbasov, V. Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri: [3 cilddə]/ V.Abbasov. – Bakı: Təhsil, − c.2. – 2013. − 616 s.

4. Abdulla, Ş. Əsərləri: [5 cilddə] / Ş.Abdulla. – Bakı: Azərnəşr, − c.4. – 1977. − 477 s.

5. Ağayev, E. Mənim Azərbaycanım: etni-lirik qeydlər // − Bakı: Azərbaycan jurnalı, − 2013. № 2, − s. 104-146.

6. Ağüzüm, F. Almas İldırımın hal tərcüməsi (Almas İldırım. Qara dastan. Şeir və poemalar) / F.Ağüzüm. – Bakı: Azərbaycan nəşriyyatı, − 1994. − 144 s.

7. Axundov, M.F. Aldanmış kəvakib / M.F.Axundov. – Bakı: Gənclik, − 1977. − 40 s.

8. Axundov, M.F. Kəmalüddövlə məktubları / M.F.Axundov. – Bakı: Gənclik, − 1969. − 200 s.

9. Axundov, Y. Azərbaycan sovet tarixi romanı / Y.Axundov. − Bakı: Yazıçı, − 1979. − 238 s.

10. Axundov, Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər / Y.Axundov. – Bakı: Adiloğlu, − 2005. − 550 s.

11. Akimova, E. Bitməyən yol, susmayan dua... (ön söz) // Çingiz Aytmatov − türk ruhunun qələbəsi. – Bakı: Nağıl evi, − 2013. − s. 3-10.

12. Akimova, E. Müstəqillik dövrü Azərbaycan poeziyası müasir ədəbi təmayüllər kontekstində: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2017. – 50 s.

13. Akimova, E. Yeni təfəkkür və ədəbi tənqid / E.Akimova. – Bakı: MBM, − 2013. − 280 s.

14. Alışanlı, Ş. Azadlıq carçısı Bəxtiyar Vahabzadə // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] – Bakı: Elm və təhsil, − c.1. – 2016. − s. 96-117.

15. Anar. Ağ qoç, qara qoç / Anar. – Bakı: Vətənoğlu, − 2014. − 182s.
16. Anar. Əsərləri: [3 cilddə] / Anar. − Bakı: Nurlan, − c.1. – 2003. − 578 s.
17. Anar. Nəsrin fəzası // − Bakı: Azərbaycan jurnalı, − 1984. № 7-8.
18. Anar. Onunla biz də fəxr edirik // Çingiz Aytmatov − türk ruhunun qələbəsi. – Bakı: Nağıl evi, − 2013. − s. 30-34.
19. Anar. Otel otağı // − Bakı: Azərbaycan jurnalı, − 1996. № 1-3, − s. 64-136.
20. Anar. Şəhərin yay günləri / Anar. – Bakı: Yazıçı, − 1992.− 368 s.
21. Araz, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Araz. – Bakı: Lider, − c.1. – 2004. − 224 s.
22. Araz, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Araz. – Bakı: Lider, − c.2. – 2004. − 232 s.
23. Arif, M. Mikayıl Müşfiq // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (M.Müşfiq irsi və 1920-30-cu illərdə yeni poetik fikrin formalaşması prosesi). − Bakı: Elm, − III kitab. − 2010. − 328 s.
24. Arif, M. Yeddi gözəl // Nizami Gəncəvi. Yeddi gözəl. – Bakı: Elm, − 1983. − s. 9.
25. Aristotel. Poetika / Aristotel. − Bakı: Şərq-Qərb, − 2006. − 120 s.
26. Azərbaycan ədəbiyyatı tarixi: [6 cilddə] / AMEA Nizami adına Ədəbiyyat İnstitutu, – Bakı: Elm, − c.1 (şifahi xalq ədəbiyyatı). − 2004. − 760 s.
27. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) / Elmi redakorlar: Q.Quliyev, M.Məmmədli. ADDİ. − Bakı: Gənclik. − 1998. − 72 s.
28. Azərbaycan Respublikasının Konstitutusiyası // 12 noyabr 1995-ci ildə qəbul olunmuşdur. − Bakı: Azərbaycan, − 1997. − 112 s.
29. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Yazıçılarının X qurultayında nitqi / Azərbaycan Yazıçılar Birliyi − 75. – Bakı, 2009. URL: http://mediateka.musigi-dunya.az/yaz_birliyi_75/ilk_qurultayi _4.html
30. Azərbaycan sevgi poeziyası: [3 kitabda] / Tərtibçi: Hamlet İsaxamlı, − Bakı: Xəzər Universiteti nəşriyyatı, − II kitab. − 2009. − 298 s.
31. Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə] / Baş redaktor: C.B.Quliyev, – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, − c. 3. – 1979. − 599 s.

32. Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə] / Baş redaktor: C. B. Quliyev, – Bakı: ASE-nın baş redaksiyası, − c. 5. – 1981. − 592 s.
33. Azərbaycanda Stalin repressiyaları // Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] – Bakı: Lider, − c.1. – 2004. − 440 s.
34. Azərbaycan tarixi: [7 cilddə] / Məsul redaktor N.Vəlixanlı. – Bakı: Elm, − c. 2. − 1998. − 546 s.
35. Azərbaycan tarixi: [7 cilddə] / Məsul redaktor M.İsmayılov. – Bakı: Elm, − c. 6. − 2007. − 503 s.
36. Babanlı, V. Ana intiqamı / V.Babanlı. − Bakı: Gənclik, − 1996. − 96 s.
37. Babayev, B. Ədəbi etüdlər / B.Babayev. – Bakı: Avropa nəşriyyatı, − 2018. − 188 s.
38. Baxtin, M.M. Dostoyevski poetikasının problemləri / tərcümə, giriş və qeydlər M.Q.Qocayevindir. − Bakı: "Kitab aləmi" nəşriyyat-poliqrafiya mərkəzi, − 2005. − 384 s.
39. Bakıxanov, A.A. Gülüstani-İrəm: [V fəsil] // Qarabağnamələr. II kitab. − Bakı: Yazıçı, − 1991. − s. 360-397
40. Bayramov, A. Səməd Vurğun: Milli və ümumbəşəri / A.Bayramov. – Bakı: Səda, − 2006. − 316 s.
41. Bayramov, B. Arakəsmələr / B.Bayramov. – Bakı: Azərnəşr, − 1971.− 436 s.
42. Bayramov, B. Fəhlə qardaş / B.Bayramov. – Bakı: Gənclik, − 1975. − 516 s.
43. Bəşirov, S. Hər şey keçib gedir. (Elçinin "Ölüm hökmü" romanı haqqında düşüncələr) // Kredo. − 2015, 12 iyun.
44. Cabbarlı, C. Əsərləri: [4 cilddə] / C.Cabbarlı. – Bakı: Şərq-Qərb, − c. 3. − 2005. − 368 s.
45. Cavad, Ə. Seçilmiş əsərləri / Ə.Cavad. – Bakı: Şərq-Qərb, − 2005. − 296 s.
46. Cavad, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Cavad. – Bakı: Azərnəşr, − c. 1. − 1992. − 328 s.
47. Cavad, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / Ə.Cavad. – Bakı: Azərnəşr, − c. 2. −1992. − 240 s.

48. Cavad, Ə. Sən olasan gülüstan: Seçilmiş əsərləri / Ə. Cavad. − Bakı: Təhsil, − 2012. − 190 s.
49. Cavadov, T. 80-ci illər Azərbaycan romanı: /filologiya elmlər doktoru dis. avtoreferatı. / − Bakı, 2007. − 50 s.
50. Cavidi xatırlarkən: məqalələr və xatirələr / red. A. Zamanov (ön sözün müəllifi), H. Məmmədzadə; tərt. edəni İ. Orucəliyev, − Bakı: Gənclik, − 1982. − 392 s.
51. Cəfər, M. Hüseyn Cavid / M.Cəfər. − Bakı: Azərnəşr, − 1960. − 262 s.
52. Cəfərov, N. Ön söz, yaxud böyük yazıçının yaradıcılıq yolu // Anar. Seçilmiş əsərləri. – Bakı: Çaşıoğlu, − 2004. − s.5-14
53. Cəfərov, N. Unudulduqca unudulmayan şair // Səməd Mənsur: biblioqrafiya. Tərt.ed.: M.İbrahimova; elmi red. K.Tahirov. – Bakı: Azərbaycan Milli Kitabxanası, − 2019. − s. 6-38
54. Çəmənzəminli, Y.V. Əsərləri: [3 cilddə] / Y.V.Çəməzəminli. – Bakı: Avrasiya Press, − c.3.− 2005. − 440 s.
55. Çəmənzəminli, Y.V. Xarici siyasətimiz/ Y.V.Çəmənzəminli. − Bakı: Azərnəşr, − 1993. − 51 s.
56. Çingiz Aytmatov − türk ruhunun qələbəsi / Tərtibçi, redaktor və ön söz E.Akimova. – Bakı: Nağıl evi, − 2013. −284 s.
57. Elçin. Ədəbi proses: olum, ya ölüm? // Ədəbiyyat qəzeti. – 1991, 4 oktyabr.
58. Elçin. Klassiklər və müasirlər / Elçin. – Bakı: Yazıcı, − 1987. − 405 s.
59. Elçin. Seçilmiş əsərləri / Elçin. − Bakı: Avrasiya Press,− 2005. − 424 s.
60. Elçin. Seçilmiş əsərləri: [10 cilddə] / Elçin. − Bakı: Çinar-çap, − c. 5. − 2005. − 494 s.
61. Elçin. Sosrealizm bizə nə verdi? / Elçin. − Bakı: Mütərcim, − 2010. − 76 s.
62. Ədəbi proses – 1983-84 (nəsr, poeziya, dramaturgiya, tənqid) / – Bakı: Elm, − 1994. − 312 s.
63. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala / Red. Akademik İ.Həbibbəyli, − Bakı: Elm və təhsil, − 2018. − 400 s.
64. Əfəndiyev, İ. Seçilmiş əsərləri: [7 cilddə] / İ.Əfəndiyev. – Bakı: Çinar-Çap, − c. 3. – 2002. − 624 s.

65. Əfəndiyev, İ. Seçilmiş əsərləri: [3 cilddə] / İ.Əfəndiyev. – Bakı: Avrasiya Press, − c. 2. – 2005. − 336 s.
66. Əfəndiyeva, X. Seyran Səxavətin bədii nəsrində sosial-psixoloji və mənəvi-əxlaqi axtarışlar romanı: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / − Bakı, 2016. − 32 s.
67. Əhməd, V. Biz bir dərya qan vermişik... [Elektron resurs] // Xalq Cəbhəsi. – 2015, 10 iyun. – s.14.
http://www.anl.az/down/meqale/xalqcebhesi/2015/iyun/442818.htm
68. Əhmədli, S. Axirət sevdası // − Bakı: Azərbaycan jurnalı, − 1998. № 1-2, − s. 25-90.
69. Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi (dərslik): [3 cilddə] / B.Əhmədov. − Bakı: Apostrov, − c. 2. – 2010. − 436 s.
70. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.Əhmədov. – Bakı: Elm və təhsil, − 2015. − 552 s.
71. Əhmədova, A. Müasir Azərbaycan nəsrində yeni mövzu axtarışları // − Bakı: Ədəbiyyat məcmuəsi: Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. – 2015. – c. XXVI, − s. 273-279.
72. Ələkbərli, N. Üç budaq: Ə.Cavad, M.Müşfiq, A.İldırım / N.Ələkbərli. − Bakı: Şirvannəşr, − 2007. − 224 s.
73. Ələkbərzadə, Ə. Seçilmiş əsərləri: [3 cilddə] / Ə.Ələkbərzadə. − Bakı: Azərnəşr, − c. 1. – 1984. − 398 s.
74. Ələkbərzadə, Ə. Yoxuşlar / Ə.Ələkbərzadə. − Bakı: Azərnəşr, − 1962. − 545 s.
75. Əlişanoğlu, T. Ən yeni nəsrimizdə Azərbaycan obrazı // − Bakı: Tənqid.net jurnalı, − 2011. № 8, − s. 46-51
76. Əlişanoğlu, T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (1990-cı illər) / T.Əlişanoğlu. – Bakı: Qanun, − 2013. − 215 s.
77. Əliyev, H. Ədəbiyyatın yüksək borcu və amalı: Nitqlər, məruzələr, çıxışlar / H.Ə.Əliyev. – Bakı: Ozan, − 1999. − 496s.
78. Ənvəroğlu, H. Azərbaycan romanının inkişaf mərhələləri / H.Ənvəroğlu. – Bakı: Nurlan, − 2008. − 335 s.

79. Ənvəroğlu, H. Müasir Azərbaycan romanı və onun qaynaqları / H.Ənvəroğlu. – Bakı: ADPU, − 1994. − 46 s.
80. Əsədullayeva, N. Sovet ədəbiyyatında “ideoloji düşmən” obrazını formalaşdıran sosial-siyasi amillər // − Bakı: Risalə. Araşdırmalar toplusu, − 2016. № 12. − s. 131-135.
81. Əsgərova, Y. Səməd Mənsur: həyat və yaradıcılığı / Y.Əsgərova. – Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxana, − 2019. − 175 s.
82. Füzuli, Məhəmməd. Əsərləri: [6 cilddə] / Məhəmməd Füzuli. − Bakı: Şərq-Qərb, − c.2. – 2005. − 336 s.
83. Gəncəvi, Nizami. İsgəndərnamə / Nizami Gəncəvi. Farscadan tərc. edən X.R.Ulutürk; tərt ed: İ.Məmmədəliyev. – Bakı: Gənclik, − 2002. − 866 s.
84. Gəncəvi, Nizami. Yeddi gözəl / Nizami Gəncəvi – Bakı: Elm, − 1983. − 360 s.
85. Hacıbəyov, Ü. Seçilmiş əsərləri / Ü.Hacıbəyov. –Bakı: Yazıçı, −1985. − 653 s.
86. Hacızadə, Ə. Möcüzə // − Bakı: Azərbaycan jurnalı, − 2005. № 11, − s. 6-30.
87. Heydər Əliyev və mədəniyyət: [3 cilddə]/ – Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, − c.2. – 2008. − 528 s.
88. Heydər Əliyev və Azərbaycan mədəniyyəti // Elmi-praktik konfransın materialları. – Bakı: – 2016, – 128 s.
89. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşməsi konsepsiyası // − Bakı: Ədəbiyyat məcmuəsi, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi əsərləri. – 2015. − s. 3.
90. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə mühiti və müasirləri / İ.Həbibbəyli. – Naxçıvan: Əcəmi, − 2009. − 421s.
91. Həbibbəyli, İ. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala / İ.Həbibbəyli. − Bakı: Elm və təhsil, −2018. − 399 s.
92. Həbibbəyli, İ. Ədəbiyyatda milliliklə bəşəriliyin vəhdətinin Çingiz Aytmatov modeli // Çingiz Aytmatov − türk ruhunun qələbəsi. − Bakı: Nağıl evi, − 2013. − s. 35-41.

93. Həbibbəyli, İ. Xalq şairi Məmməd Araz: böyük sənətlə şəxsiyyətin vəhdəti // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə], – Bakı: Elm və təhsil, − c.1. – 2016. − s. 134-166
94. Həbibbəyli, İ. Xalq yazıçısı Anar // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə], − Bakı: Elm və təhsil, − c.1. – 2016. − s. 327-352.
95. Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.Həsənov. – Bakı: Azərbaycan nəşriyyatı, − 2005. − 762 s.
96. Hüseyn, M. Seçilmiş əsərləri: [3 cilddə] / M.Hüseyn. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, − c. 1. – 1954. − 434 s.
97. Hüseyn, M. Seçilmiş əsərləri: [3 cilddə] / M.Hüseyn. – Bakı: Avrasiya Press, − c. 1. – 2005. − 320 s.
98. Hüseyn, M. Yeni mərhələ, yeni vəzifələr // − Bakı: Azərbaycan jurnalı, − 1962. № 7.
99. Hüseynli, A. Həyat və sənət həqiqəti / A.Hüseynli. – Bakı: "T" nəşriyyat-poliqrafiya mərkəzi, − 2001. − 204 s.
100. Hüseynli, A. Nəsr və zaman / A.Hüseynli. – Bakı: Yazıçı, − 1980. − 185 s.
101. Hüseynov, A. 1984-cü ilin nəsri // Ədəbi proses – 1983-84 (Nəsr, poeziya, dramaturgiya, tənqid), – Bakı: Elm, − 1994. − 312 s.
102. Hüseynov, A. Erməni xisləti və torpağın həqiqəti // Müasir Azərbaycan və Türkiyə ədəbiyyatında "erməni məsələsi" Beynəlxalq Elmi Konfransının Materialları. – Bakı: − 2014. − səh. 3.
103. Hüseynov, A. Müxtəlifliyin birliyi / A.Hüseynov. – Bakı: Yazıçı, − 1983. − 214 s.
104. Hüseynov, İ. Povestlər / İ.Hüseynov. − Bakı: Gənclik, − 1967. – 398.
105. Hüseynov, İ. Seçilmiş əsərləri: [6 cilddə] / İ.Hüseynov. − Bakı: Avrasiya-Press, − c. 1. − 2009. − 477 s.
106. Hüseynov, İ. Teleqram / İ.Hüseynov. − Bakı: Azərnəşr, − 1963.− 115 s.
107. Hüseynov, İ. Yanar ürək / İ.Hüseynov. − Bakı: Azərnəşr, − 1965. – 296 s.
108. Hüseynov, R. Cavidlər / R.Hüseynov. – Tehran: Dorsa, − 2009.− 288 s.
109. Hüseynov, R. Əbədi Cavid / R.Hüseynov. − Bakı: Nurlan, − 2007. − 840 s.

110. Hüseynov, T. Tarixi roman ustası / T.Hüseynov. –Bakı: Yazıçı, −1986. −168 s.
111. Hüseynzadə, Ə. Siyasəti-fürusət / Ə.Hüseynzadə. –Bakı: Elm, −1994. − 236 s.
112. Xələfli, Ə. Tənqidçinin azərbaycançılıq həqiqətləri yaxud Təyyar Salamoğlunun "Qarlı aşırım"dan keçən yollar" əsəri // Kredo. − 2019, 11 yanvar
113. Xəlilov, Q. Azərbaycan romanının inkişaf tarixindən / Q.Xəlilov. – Bakı: Elm, − 1973. − 351 s.
114. Xəlilov, S. Cavid və Cabbarlı müxtəlifliyin vəhdəti: fəlsəfi etüdlər / S.Xəlilov. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, − 2001. − 180 s.
115. İbrahimov, M. Əsərləri: [10 cilddə] / M.İbrahimov. – Bakı: Yazıçı, − c. 4. – 1979. − 596 s.
116. İldırım, A. Qara dastan. Şeir və poemalar/ A.İldırım. − Bakı: Azərbaycan nəşriyyatı, − 1994. − 144 s.
117. İsmayılova, S. Rəsul Rza poeziyası ədəbi tənqiddə / S.İsmayılova. – Bakı: Elm və təhsil, − 2010. − 144 s.
118. İsmayılzadə, İ. Haran ağrıyır, Vətən? // − Bakı: Azərbaycan jurnalı, − 1996. № 4-6, − s. 3-16.
119. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri: [3 kitabda] / M.Müşfiq irsi və 1920-30-cu illərdə yeni poetik fikrin formalaşması prosesi. – Bakı: Elm, − III kitab.− 2010. − 324 s.
120. Kamal, R. Mir Cəfərin qara maşını // Ədəbiyyat. – 2018, 28 aprel.
121. Kərimzadə, F. Qarlı aşırım / F.Kərimzadə. −Bakı: Kitab klubu, − 2019. − 398 s.
122. Kitabi Dədə Qorqud / tərtib, transkripsiya və müqəddimə: F.Zeynalov, S.Əlizadə. − Bakı: Yazıçı, − 1988. − 265 s.
123. Qarayev, Y. İki əsr və iki era ayrıcında // − Bakı: Ədəbiyyat məcmuəsi, Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, − 1999. − s. 6-108.
124. Qarayev, Y. Milli-mənəvi dəyərlər və ədəbi-bədii irs // Ədəbiyyat. – 2001, 28 sentyabr.
125. Qarayev, Y. Min ilin sonu (XXI əsr və Şərq dəyərləri) / Y.Qarayev. – Bakı: Elm, – 2002. – 772 s.

126. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə]/ Y.Qarayev. − Bakı: Elm, − c.1. –2015. 664 s.

127. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə]/ Y.Qarayev. − Bakı: Elm, − c.3. –2015. − 997 s.

128. Qarayev, Y. Seçilmiş əsərləri: [5cilddə]/ Y.Qarayev. − Bakı: Elm, − c.4. – 2016. − 776 s.

129. Qarayev, Y. Tarix yaxından və uzaqdan/ Y.Qarayev. – Bakı: Sabah, − 1995. − 712 s.

130. Qarayeva, G. Mənəvi-əxlaqi aşınmaların bədii obrazda simvollaşdırılması // − Bakı: Poetika.izm, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi əsərləri, − 2014, № 1.

131. Qasımbəyli, Y. Milli oyanış və özünəqayıdış lirikası/ Y.Qasımbəyli. – Bakı: Elm və təhsil, − 2012. − 452 s.

132. Qasımbəyli, Y. Rəsul Rza və ədəbi çağdaşları/ Y.Qasımbəyli. – Bakı: Elm və təhsil, − 2018.− 240 s.

133. Qasımov, H. Müasir Azərbaycan ədəbiyyatında yaradıcılıq meyilləri / H.Qasımov. – Bakı: Elm, − 1998.

134. Qasımov, H. Müasir Azərbaycan romanı: janrın poetika və tipologiyası: / filologiya üzrə fəlsəfə doktorluğu dis. / − Bakı, 1993. − 278 s.

135. Qəhrəmanova, N. 1930-cu illərdə Azərbaycanda ədəbi mühit və Rəsul Rzanın "Qızılgül olmayaydı" poeması // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2019. №2, – s. 201-208.

136. Qəhrəmanova, N. Cəmiyyəti idarəetmə sisteminə bədii münasibətdə ənənəvilik. // − Bakı: Risalə, Araşdırmalar jurnalı, − 2019. № 16, – s.138-146.

137. Qəhrəmanova, N. Siyasi rejim və idarəetmə sistemlərinə bədii münasibətin ifadə üsulları // − Naxçıvan: Axtarışlar (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix), − 2018. № 4, − s. 50-54.

138. Qəhrəmanova, N. Tarixi Prometey xeyirxahlığı haqqında çağdaş ədəbi düşüncələr // – Bakı: Gənc tədqiqatçı. AMEA Gənc Alim və Mütəxəssislər Şurasının elmi-praktiki jurnalı, – 2019. №1, – s. 135-139.

139. Qocayev, M. Mixail Baxtin və onun polifonik roman nəzəriyyəsi / M.Baxtin. Dostoyevski poetikasının problemləri. − Bakı: Kitab aləmi, − 2005. − s. 5-26
140. Quliyev, A. Azərbaycanın siyasi-hüquqi fikrində dövləti idarəetməyə dair ideyalar/ A.Quliyev. – Bakı: Qanun, − 2011. − 280 s.
141. Qurban, T. Ömür yolları / T.Qurban. – Bakı: OL, − 2013. − 288 s.
142. Qurbanov, Ş. Əsərləri: [3 cilddə] / Ş.Qurbanov. – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, – I cild. – 1968. – 556 s.
143. Lenin, V.İ. Əsərlərinin tam külliyyatı: [ 55 cilddə] / V.İ.Lenin. − Bakı: Azərnəşr, − c. 45. − 1984. – 790 s.
144. Marks K. Kapital: siyasi iqtisadın tənqidi: [4 cilddə]/ K.Marks. –Bakı: Azərnəşr, −c.3. − 1960. − 946 s.
145. Mehrəliyev, E. Bədii nəsrimiz: durğunluqdan canlanmaya // − Bakı: Azərbaycan, − 2005. № 12, − s.138-147
146. Mehrəliyev, E. Doludan sonrakı "Dolu"// E.Mehrəliyev. Zaman və ədəbiyyat. − Bakı: MBM, − 2009. − s.131-137.
147. Mehrəliyev, E. Müharibə və ədəbiyyat. (Qarabağ uğrunda mübarizə və Azərbaycan ədəbiyyatı) / E.Mehrəliyev. − Bakı: Azərnəşr, − 2000. − 228 s.
148. Məlikzadə, İ. Seçilmiş əsərləri/ İ.Məlikzadə. – Bakı: Şərq-Qərb, −2005. − 336 s.
149. Məmmədzadə, S. Yenə o bağ olaydı // − Bakı: Azərbaycan, − 2009. №2. – s.173-174.
150. Məmmədquluzadə, C. Azərbaycan // – Tiflis: Molla Nəsrəddin. – 1917. № 24.
151. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə]/ C.Məmmədquluzadə. – Bakı: Öndər, − c.1. – 2004. − 664 s.
152. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə]/ C.Məmmədquluzadə. – Bakı: Öndər, − c.4. – 2004. s. − 472 s.
153. Məmmədquluzadə, C. Əsərləri: [5 cilddə]/ C.Məmmədquluzadə. – Bakı: Şərq-Qərb, −c.5. – 2013. − 408 s.
154. Məmmədquluzadə, C. Əsərləri: [6 cilddə]/ C.Məmmədquluzadə. – Bakı: Azərnəşr, − c.3. – 1984. − 291 s.

155. Məmmədquluzadə, C. Əsərləri: [6 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Azərnəşr, − c.4. – 1985. − 276 s.
156. Məmmədquluzadə, C. Xatiratım / C.Məmmədquluzadə. − Bakı: Gənclik, − 1971. − 111 s.
157. Məmmədquluzadə, C. Seçilmiş əsərləri / C.Məmmədquluzadə. – Bakı: Çinar-çap, − 2003. − 472 s.
158. Məsud, A. Yazı: Roman, esse, hekayə/ A.Məsud. −Bakı: Qanun, −2005. −432 s.
159. Mirəhmədov, Ə. Təqsirimi yumaq istəyirəm // Ədəbiyyat. − 1992, 21 fevral.
160. Mirələmov, H. Xəcalət. Yaddan çıxmaz Qarabağ / H.Mirələmov. – Bakı: Gənclik, − 2003. − 168 s.
161. Molla Nəsrədddin / − Tiflis: − 1917, № 24.
162. Müasir Azərbaycan ədəbiyyatı: dərslik / − Bakı: Bakı Universiteti, − c.1.− 2007. − 503 s.
163. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Elmi red. İ. Həbibbəyli, məsul red. T.Əlişanoğlu. − Bakı: Elm və təhsil, − c.1. – 2016. − 800 s.
164. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Elmi red. İ. Həbibbəyli, məsul red. T.Əlişanoğlu. − Bakı: Elm və təhsil, − c.2. − 2016. − 1090 s.
165. Müşfiq, M. Əsərləri: [3 cilddə] / M.Müşfiq. – Bakı: Səda, − c.1. – 2004. − 465 s.
166. Nehru, C. Ümumdünya tarixinə nəzər / C.Nehru. – Bakı: Gənclik, − 1986. − 364 s.
167. Nemanzadə, Ö.F. Seçilmiş əsərləri/ Ö.F.Nemanzadə. – Bakı: Yazıçı, − 1992. − 536 s.
168. Nəbiyev, B. Epik janr və müasir həyat // – Bakı: Azərbaycan, –1986. № 7.
169. Nəbiyev, B. Əhməd Cavad / B.Nəbiyev. – Bakı: Proqres, − 2012. − 130 s.
170. Nəbiyev, B. Ömür karvanı talan olan şair // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri: [3 kitabda]. – Bakı: Elm, − III kitab. – 2010. − 328 s.
171. Nəbiyev, B. Seçilmiş əsərləri: [5 cilddə]/ B.Nəbiyev. − Bakı: Çinar-çap, − c.5. − 2009. – 612 s.
172. Nərimanov, N. Seçilmiş əsərləri / N.Nərimanov. – Bakı: Lider, − 2004. − 496 s.

173. Nərimanov, N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub) / N.Nərimanov. − Bakı: Elm və təhsil, −2019. − 126 s.
174. Nəvvab, M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası / M.M.Nəvvab. – Bakı: Azərbaycan, − 1993. − 128 s.
175. Novruz, C. Özünü qoru, xalqım / C.Novruz. – Bakı: Şirvannəşr, − 1996. − 256 s.
176. Ordubadi, M.S. Qanlı illər: 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi / M.S.Ordubadi. – Bakı: − 1991. − 144 s.
177. Ordubadi, M.S. Qılınc və qələm / M.S.Ordubadi. – Bakı: Şərq-Qərb, − 2005. − 344 s.
178. Rəhman, S. Seçilmiş əsərləri: [ 2 clilddə]/ S.Rəhman. – Bakı: Avrasiya Press, − c.1. – 2005. − 312 s.
179. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / M.Ə.Rəsulzadə. – Bakı: Elm, − 1990. − 112 s.
180. Rəsulzadə, M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi / M.Ə.Rəsulzadə. – Bakı: Gənclik, − 1991. − 112 s.
181. Rəsulzadə, M.Ə. Əsrimizin Səyavuşu / M.Ə.Rəsulzadə. –Ankara: − 1989. − s. 44-45
182. Rüstəm, S. Araz üstündən şeir körpüsü. Şair qardaşıma məktub (Süleyman Rüstəmdən Məhəmməd Şəhriyara): [Elektron resurs] / Xalq qəzeti, – 2023, 8 mart. – s. 10. URL: https://xalqqazeti.az/az/sosial-heyat/sair-qardasima-mektub
183. Rüstəmxanlı, S. Zamandan uca yazıçı-mütəfəkkir // Çingiz Aytmatov − türk ruhunun qələbəsi. − Bakı: Nağıl evi, − 2013. − 284 s.
184. Rüstəmli, A. Cəfər Cabbarlı və milli istiqlal hərəkatı / A.Rüstəmli. – Bakı: Gənclik, − 2018. − 168 s.
185. Rüstəmli, A. Müdriklik mücəssəməsi / A.Rüstəmli. − Bakı: Elm və təhsil, −2014. − 476 s.
186. Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. − Bakı: Şərq-Qərb, − c.1. – 2013. − 295 s.
187. Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. –Bakı: Öndər, −c.4. –2005. − 336 s.
188. Rza, R. Seçilmiş əsərləri: [5 cilddə] / R.Rza. –Bakı: Öndər, −c.5. –2005. −304 s.

189. Rzayev, Y. Azərbaycan romanı: siyasət və milli düşüncə/ Y.Rzayev. – Bakı: Elm, − 2010. − 296 s.
190. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: BQU, − 2008. − 554 s.
191. Salamoğlu, T. İsmayıl Şıxlının bədii nəsri / T.Salamoğlu. – Bakı: E.L.NPŞ MMC, − 2014. − 170 s.
192. Salamoğlu, T. Müasir Azərbaycan ədəbiyyatı: dərs vəsaiti / T.Salamoğlu. – Bakı: Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, − 2012. − 314 s.
193. Salamoğlu, T. Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin 80-ci illəri) / T.Salamoğlu. – Bakı: Nafta-Press, − 2007. − 152 s.
194. Salamoğlu, T. Ümummilli lider Heydər Əliyevin ədəbiyyat strategiyası və müstəqillik dövrü Müasir Azərbaycan ədəbiyyatının qarşısında duran vəzifələr // Kredo. − 2018, 14 iyun.
195. Salmanov, Ş. Ədəbi proses – 83/84 // Ədəbi proses – 83/84 (nəsr, poeziya, dramaturgiya, tənqid), – Bakı: Elm, − 1994. − 312 s.
196. Salmanov, Ş. Müasirlik mövqeyindən / Ş.Salmanov. – Bakı: Yazıçı, − 1982. − 205 s.
197. Salmanlı, R. Əhməd Cavadın yaradıcılıq yolu / R.Salmanlı. – Bakı: Ozan, − 2011. − 216 s.
198. Səfərli, Ə. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı / Ə.Səfərli, X.Yusifli, – Bakı: Ozan, − 1998. − 632 s.
199. Səfiyev, A. Dramaturgiya // Ədəbi proses – 83/84 (nəsr, poeziya, dramaturgiya, tənqid). –Bakı: Elm, −1994. −312 s.
200. Səxavət, S. Nekroloq // − Bakı: Azərbaycan, − 2002. № 1-2.
201. Səxavət, S. Seçilməmiş əsərləri: [2 clddə]/ S.Səxavət. − Bakı: “Renessans-A” Nəşriyyat Evi, − c.1.− 2015.− 272 s.
202. Səməd Mənsur: biblioqrafiya / Tərt. Ed.: M.İbrahimova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı: Azərbaycan Milli Kitabxanası, − 2019. − 158 s.
203. Sovet İttifaqı Kommunist Partiyasının proqramı / − Bakı: Azərnəşr, − 1977. − 130 s.

204. Süleymanlı, M. Səs: povestlər və roman / S.Süleymanlı. – Bakı: Yazıçı, − 1988. − 374 s.
205. Süleymanlı, M. Üzü Sənə: [2 cilddə] / M.Süleymanlı. Mənə yazılanlar. − Bakı: Xəzər Universiteti Press, − c.2. − 2018. − 384 s.
206. Süleymanlı, M. Erməni adındakı hərflər // − Bakı: Azərbaycan, − 2007. № 8-9.
207. Süleymenov, O. Bakı mənə doğmadır // Ədəbiyyat. − 2018, 9 iyun.
208. Şərifova, S. Ədəbi prosesə nəzəri baxış / S.Şərifova. – Bakı: Maarif, − 2006. − 210 s.
209. Şərifova, S. İlk Azərbaycan romanları / S.Şərifova. – Bakı: Elm, −1998. − 120 s.
210. Şərifova, S. Klassiklər və müasirlər söz müstəvisində/ S.Şərifova. – Bakı: Elm və təhsil, − 2018. − 568 s.
211. Şərifova, S. Müasir Azərbaycan romanlarında ictimai-siyasi mühitin təsviri problemləri/ S.Şərifova. – Bakı: BQU, − 2007. − 76 s.
212. Şıxlı, İ. Dəli Kür / İ.Şıxlı. − Bakı: Gənclik, − 1968. − 447 s.
213. Şükürov, A. Fəlsəfə / A.Şükürov. – Bakı: Milli Virtual Kitabxananın e-nəşri, − 2011. − 476 s.
214. Tağısoy, N. Milli yaddaş və yaddaşsızlığın morfologiyası // − Bakı: Azərbaycan, − 2007. № 11.
215. Ulutürk, X.R. Davam edir 37 / X.R.Ulutürk. − Bakı: Gənclik, − 1992. − 528 c.
216. Vahabzadə, B. Etiraf / B.Vahabzadə. – Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, − 1962. − 188 s.
217. Vahabzadə, B. Əsərləri: [11 cilddə] / B.Vahabzadə. – Bakı: Çaşıoğlu, − c.1.− 2001. – 544 s.
218. Vahabzadə, B. Əsərləri: [11 cilddə] / B.Vahabzadə. – Bakı: Azərbaycan, − c.4. − 2002. − 608 s.
219. Vahabzadə, B. Əsərləri: [11 cilddə] / B.Vahabzadə. – Bakı: Azərbaycan, − c.6. – 2003. – 776 s.
220. Vahabzadə, B. Özümüzü kəsən qılınc // − Bakı: Azərbaycan, − 1998. №7, − s.74-105.

221. Vahabzadə, B. Seçilmiş əsərləri: [2cilddə] / B.Vahabzadə. – Bakı: Azərnəşr, − c.1. – 1974. – 383 s.

222. Vahabzadə, B. Seçilmiş əsərləri: [ 2 cilddə] / B.Vahabzadə. – Bakı: Öndər, − c.2. – 2004. – 320 s.

223. Vahabzadə, B. Sovet ədəbiyyatı və sovet dövrü ədəbiyyatı // Zaman və mən. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, − 1999. − 252 s.

224. Vahabzadə, B. Şəhidlər / B.Vahabzadə. − Bakı: Elm, − 1990. − 48 s.

225. Vurğun, S. Əsərləri: [6 cilddə] / B.Vahabzadə. − Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, − c.3. – 1961. − 583 s.

226. Yeganə. Bəxtiyar Vahabzadənin poeziyasında Rusiya-Azərbaycan tarixi gerçəklikləri: [Elektron resurs] / Ədalət. – 2016, 17 dekabr, – s.14.
URL: http://www.anl.az/down/meqale/adalet/2016/dekabr/519739.pdf

227. Yesenin, S. Seçilmiş əsərləri/ S.Yesenin. –Bakı: Avrasiya Press, −2006. −168 s.

228. Yusifli, V. 2004-cü ilin nəsri // − Bakı: Azərbaycan, − 2006. № 2.

229. Yusifli, V. İsa Hüseynovdan ... Muğannayadək: böyük tərcümeyi-haldan bir neçə sətir: [İsa Muğanna - 90] // − Bakı: Azərbaycan, − 2018. № 6, − s. 47-54.

230. Yusifli, V. Müasir Azərbaycan romanı // Ədalət. – 2015, 24 yanvar.

231. Yusifli, V. Nəsrin üfüqləri // − Bakı: Azərbaycan, − 1998. № 11.

232. Yusifli, V. Romanlar və qəhrəmanlar // − Bakı: Azərbaycan, − 1986 . № 9.

233. Zamanov, A. Alovlu vətəndaş // − Bakı: Ş.Qurbanov. Əsərləri: [3 cilddə], − I cild. − 1968, − 558 s.

234. Аракелов, Р.К. Нагорный Карабах: виновники трагедии известны / Р.К.Аракелов, – Баку: Шарг-Гарб, − 1991. – 94 с.

235. Величко, В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы / В.Л.Величко, – Баку: Элм, −1990. − 222 с.

236. Грибоедов, А.С. Сочинении: [в 2-х томах] / А.С.Грибоедов, − Москва: − т.2. − 1971. − 341 ст.

237. Исмаилов, Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 / Э.Исмаилов, − Баку: Адылоглу, − 2003. – 113 с.

238. Кахраманова, Н.Г. Распад советского государства: политико-идеологические, социально-экономические и духовно-нравственные факторы (на основе сравнительного анализа низамивского «социализма» и русско-большевистского «социализма») // − Казахстан: Вестник Хабарши Вестник. Серия филологических наук, − 2019. № 1 (67).
239. Крылова, В. К. Образ "врага" на сцене и в жизни (1920-1930-е гг.) // − Ураль: Известия Уральского государственного университета. Сер. 1, Проблемы образования, науки и культуры. − 2011. № 4 (95), − с. 238-245
240. Кулизаде, З. Мировоззрение Касими Анвара / З.Кулизаде, − Баку: Элм, −1976. − с. 213-214.
241. Ленин, В.И. О литературе / В.И.Ленин, – Москва: Художественная литература, − 1971. − 827 ст.
242. Лихачев, Д.С. Литература-реальность-литература / Д.С.Лихачев, – Ленинград: Советский писатель, − 1984. − 272 ст.
243. Ломидзе, Г. И. Ленинизм и судьбы национальных литератур / Г.И.Ломидзе, − Москва: Современник, − II изд. − 1974. − 328 ст.
244. Маевский, В.Ф. Записки генерального консула России в Эрзеруме (1893-1903 гг.) / В.Ф. Маевский, – Баку: Элм, − 1990. − стр. 83-100
245. Новиченко, Л.Н. Проблема творческой позиции писателя и некоторые черты современной литературы / Л.Н. Новиченко, − Москва: − 1966. − 238 с.
246. Петрушевский, И.П. О дохристианских верованиях крестьян Нагорного Карабаха / И.П. Петрушевский, − Баку: Издательство АзГНИИ, − 1930. – 43 с.
247. Тынянов, Ю.Н. Поэтика. История литературы. Кино / Ю.Н.Тынянов, − Москва: Наука, − 1977. − 202 ст.
248. Фатеев, А.В. Разрушение имиджа и советская пропаганда 1945-1954 гг./ А.В.Фатеев. – Москва: ИРИ РАН, − 1999. – 127 с.

## İnternet resursları

249. https://az.wikipedia.org/wiki/Cəfər_Cabbarli
250. https://az.wikipedia.org/wiki/Firidun_bəy_Köçərli

251. https://az.wikipedia.org/wiki/Siyasi_sistem

252. https://az.wikipedia.org/wiki/Sovet_Sosialist_Respublikaları 1ttifaqı

253. http://gakh.cls.az/front/files/libraries/1524/books/599761446037510.pdf

254. http://modern.az/az/news/93666#gsc.tab=0